Conatan Svift

QULLİVERİN SƏYAHƏTİ

DÜNYA ƏDƏBİYYATI KLASSİKLƏRİ

84(4İng)-4
S-99

Jonathan
SWIFT

GULLIVER'S TRAVELS

Conatan
SVİFT

1667–1745

QULLİVERİN SƏYAHƏTİ

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 51851

"Şərq–Qərb"
Bakı – 2009

ISBN 978-9952-34-241-3

Tərcümə edəni: Mikayıl Rzaquluzadə

Redaktor: Etimad Muradov

Korrektor: Lətafət Səmədova

Bədii tərtibat və dizaynın müəllifi: Tərlan Qorçu

Kompüter düzümü: Hikmət Aydınoğlu
Həsən Yaqubov

Bu kitab "Conatan Svift. Qulliverin səyahəti" (Bakı, "Öndər", 2004) nəşri əsasında çapa hazırlanmışdır.

Conatan Svift. Qulliverin səyahəti. – Bakı: "Şərq-Qərb", 2009, 280 səh.

XVIII əsrin böyük ingilis yazıçısı Conatan Svift özünün məşhur "Qulliverin səyahəti" satirik-fantastik romanıyla bütün dünyada şöhrət qazanmışdır.

Bu üsyankar ruhlu əsərində müəllif realist parodiya və qrotesk üsulundan məharətlə istifadə edərək, İngiltərə cəmiyyətinin sosial-siyasi mənzərəsini yaratmış, mütləqiyyəti, saray çəkişmələrini, feodal özbaşınalığını, dağıdıcı müharibələri qətiyyətlə pisləmişdir. Gülüş, məzəli və ağıllı gülüş Sviftin başlıca mübarizə silahıdır.

Satirik-fəlsəfi, son dərəcə dərin mənalı və ciddi roman olan "Qulliverin səyahəti" bu gün də dünya ədəbiyyatının sevilə-sevilə oxunan, həm sevindirən, əyləndirən, həm də düşündürən əsərlərindəndir.

Mətn: Bakı Slavyan Universiteti, "Kitab aləmi" NPM, 2009
Bədii tərtibat, səhifələnmə: "Tutu" nəşriyyatı, 2009
© "Şərq-Qərb" ASC, 2009

CONATAN SVİFT VƏ ONUN "QULLİVERİN SƏYAHƏTİ" ROMANI

XVIII əsrin böyük ingilis yazıçısı Conatan Svift (1667-1745) özünün "Qulliverin səyahəti" satirik romanı ilə bütün dünyada şöhrət qazanmışdır.

Bu qəzəbli və coşqun əsərində yazıçı zəmanəsinin burjua-dvoryan İngiltərəsinin dövlət quruluşunu, ictimai qaydalarını və adətlərini amansız surətdə lağa qoyur və qamçılayır. O, hakim siniflərin tüfeyliliyini, varlıların riyakarlığını, amansızlığını, öz mənfəətlərini güdmələrini, xudpəsəndliyini ifşa edir.

Bu kitabın, köhnə İngiltərənin burjuaziyasına və dvoryanlığına qarşı çevrilmiş bir çox səhifələri zəmanəmizdə də öz tarixi əhəmiyyətini itirməmişdir.

Sviftin xəyal və icad qüdrəti, doğrudan da, tükənməzdir. Onun Qulliverinin başına nələr gəlmir! Ömrü boyu nə cür əngəllərlə qarşılaşmır! Amma hər cür vəziyyətdə, – istər gülünc, istərsə də acınacaqlı olsun, – o, XVIII əsrdə yaşamış orta səviyyəli ingilis üçün tipik keyfiyyətlər olan mühakiməsini və soyuqqanlılığını heç bir zaman itirmir. Ancaq Qulliverin bəzən sakit və təmkinli danışıqlarında məzəli yumor qığılcımları parıldayır ki, bu zaman Sviftin özünün istehzalı səsini eşidirik; sanki o, macal tapıb, öz sadədil qəhrəmanının arxasından boylanır. Hərdən isə Svift öz qəzəbini saxlaya bilməyib, Qulliveri tamamilə yaddan çıxarır və zəhərli kinayə, acı sarkazm silahını mükəmməl işlədən amansız hakimə çevrilir.

* * *

"Qulliverin səyahəti"nin, az qala, hər səhifəsində müəllifin zəmanəsindəki ictimai münasibət və hadisələrə aid eyham və işarələr var. Bu işarələrdən bir çoxu xeyli zamandan bəri öz

kəsərini və əməli əhəmiyyətini itirmişdir. Ayrı-ayrı fəsil və epizodların həqiqi mənasını indi yalnız tarixi mənbələrin və izahların köməyilə bərpa edə bilərik. Amma Sviftin kitabının başlıca məna və əhəmiyyəti əbədidir ki, bu da hər cür və hər rütbədən olan bütün müftəxorlara qarşı nifrət, öz əllərilə dünyanın bütün maddi nemətlərini yaradan namuslu zəhmətkeşlərə hörmət və məhəbbətdən ibarətdir.

"Qulliverin səyahəti"ndə olan macəraçılıq fabulası da oxucunu qəhrəmanın misilsiz sərgüzəştlərini gərgin diqqətlə izləməyə və müəllifin coşqun xəyalına heyran olmağa vadar edir.

Müəllif öz romanını yazarkən xalq nağıllarında cırtdanlarla, nəhənglərlə, axmaqlar və yalançılarla bağlı motiv və surətlərdən, eləcə də XVIII əsr İngiltərəsində çox geniş yayılmış macəra-xatirat ədəbiyyatından, həqiqi və uydurma səyahətnamələrdən yararlanmışdır. Bütün bunlar Sviftin əsərini o dərəcədə maraqlı və əyləndirici etmişdir ki, satirik-fəlsəfi,son dərəcə dərin mənalı və ciddi roman olan bu əsər, eyni zamanda, ən şən, sevimli və geniş yayılmış uşaq kitabı olmuşdur.

* * *

Conatan Svift əziyyətlər, həyəcanlar, məyusluq və əzablarla dolu uzun və ağır həyat yolu keçmişdir.

Yazıçının atası, gənc ingilis Conatan Svift çörəkpulu qazanmaq üçün arvadı ilə birlikdə İngiltərədən İrlandiyanın paytaxtı Dublin şəhərinə köçmüşdü. Hələ oğlu dünyaya gəlməmişdən bir neçə ay əvvəl amansız ölümə rast gəlmiş, onun xatirəsinə oğlunu da Conatan adlandırmışdılar. Yaşamaq üçün heç bir vəsaiti olmayan ana körpəsi ilə tək qalmışdı.

Sviftin uşaqlığı ağır keçmişdi. Uzun illər boyu ehtiyac içində yaşamış, varlı qohumlarının verdikləri cüzi yardım ilə dolanmışdır. Svift on dörd yaşında məktəbi qurtarıb Dublin Universitetinə daxil olmuşdu ki, həmin universitetdə də hələ orta əsr qaydaları hökm sürürdü.

Universitet yoldaşları sonralar xatırlayırdılar ki, hələ o illərdə Svift öz hazırcavablığı, tutarlı söz deməsi, müstəqil və bütöv xarakterə malik olması ilə hamıdan seçilirdi. Universitetdə keçilən bütün fənlərdən o ən çox poeziya və tarixlə maraqlanır, əsas fənn olan dini təlimdən isə "aşağı" qiyməti alırdı.

1688-ci ildə Svift, universiteti qurtarmağa imkanı olmadığından, İngiltərəyə gedir. Məhrumiyyətlər və yaşamaq uğrunda mübarizə ilə dolu müstəqil həyata başlayır. Svift xeyli əlləşəndən sonra axırda nüfuzlu bir əyan olan ser Uilyam Templin yanında katiblik vəzifəsinə qəbul olunur.

Uilyam Templ əvvəllər nazir olubmuş. O, istefaya çıxandan sonra Mur-Park adlı mülkünə köçüb, orada çiçək bəsləməklə məşğul olur, qədim klassiklərin əsərlərini təkrar-təkrar oxuyur və Londondan onun yanına gələn adlı-sanlı qonaqları mehribanlıqla qəbul edirdi. Boş vaxtlarında o yazır və ədəbi əsərlərini çap etdirirdi.

Qürurlu və sözgötürməz bir gənc olan Sviftə katiblə nökər arasında qalan bu vəziyyətinə öyrəşmək çətin idi və bu qulluqdan xoşu gəlmirdi. O öz "havadarını" atıb, daha az həqarətli olan qulluq tapmaq ümidilə yenidən İrlandiyaya gedir. Bu təşəbbüs də boşa çıxanda Svift yenidən əvvəlki ağasının yanına qayıtmalı olur. Sonralar Templ qabiliyyətini qiymətləndirib, ona daha diqqətli münasibət göstərməyə başlayır, Sviftlə uzun-uzadı söhbətlər aparır və zəngin kitabxanasından ona kitablar məsləhət görür, öz dostları ilə tanış edir və ona məsul tapşırıqlar verir.

1692-ci ildə Svift magistr elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edir və bu, ona kilsədə vəzifə sahibi olmaq hüququ verir. Ancaq Mur-Parkda qalmağı üstün tutub, 1699-cu ilə, Templ ölənə qədər azacıq fasilələrlə burada yaşayır, sonra isə ehtiyac onu yoxsul İrlandiya kəndi olan Larakorda ruhani vəzifəsində işləməyə vadar edir.

Taleyin Svifti yenidən aparıb çıxardığı İrlandiya o zamanlar geri qalmış, yoxsul və tamamilə İngiltərədən asılı olan ölkə idi. İngilislər orada zahirən muxtariyyət olduğunu göstərməyə çalışırdılar, lakin əslində, İrlandiya qanunlarının təsirini heçə endirmişdilər.

İrlandiyada yaşadığı müddət Svift üçün səmərəsiz keçmədi. O, ölkəni başdan-başa gəzib, ehtiyacları və arzuları ilə tanış oldu, məzlum İrlandiya xalqına rəğbət hissi duymağa başladı.

Bununla bərabər, Svift İngiltərədən gələn yeni siyasi xəbərləri acgözlüklə dinləyir, Templin dostları ilə əlaqə saxlayır və hər dəfə fürsət düşəndə, Londona gedib orada xeyli müddət qalırdı.

XVIII əsrdə İngiltərə dünyanın ən qüdrətli kapitalist dövlətinə çevrilmişdi. XVII əsrin ortalarında baş vermiş burjua inqilabı

nəticəsində ölkədə feodal qanun-qaydalarının təməli sarsılmış, kapitalizmin inkişafı üçün imkanlar yaranmışdı. Burjuaziya qalib gələndən sonra dvoryanlıqla sazişə girmişdi, bu isə, öz növbəsində, kapitalizmin inkişafı prosesinə təsir göstərirdi.

İngiltərədə sənaye və ticarət çiçəklənməkdə idi. Tacirlər və sahibkarlar xalq kütlələrini talamaq, müstəmləkələrdə qırğınlar aparmaq sayəsində misli görünməmiş dərəcədə varlanırdılar. İtigedən ingilis gəmiləri Yer kürəsinin dənizlərində üzməkdə idi. Tacirlər və fırıldaqçılar az məlum olan torpaqlara soxulub, yerliləri qırır, əsarət altına alır, uzaq ölkələrin təbii sərvətlərini "mənimsəyirdilər". Bu yerlər ingilis müstəmləkələrinə çevrilirdi.

Məsələn, Cənubi Amerikada yatağında qızıl olan çaylar tapılmışdı və asan yolla varlanmaq xülyasına düşənlər yığın-yığın qızıl axtarmağa axışırdılar. Afrikada çoxlu miqdarda bahalı fil sümüyü aşkara çıxarılmışdı və ingilislər ora gəmi karvanları göndərirdilər. Tropik ölkələrdə qulların və katorqaya göndərilmiş adamların ucuz zəhməti sayəsində qəhvə, şəkər və tütün tarlaları salınır, Avropada qızıl qiymətinə gedən cürbəcür ədviyyat əldə edilirdi. Mahir alverçilərin əlinə, demək olar ki, müftəcə keçən bütün bu mallar Avropa bazarlarında əlliqat, bəzən isə yüzqat mənfəətlə satılıb, dünənki cinayətkarları qadir milyonçular, qəddar fırıldaqçıları isə bəzən əyan və nazirlər dərəcəsinə qaldırırdı.

İngilislər birincilik uğrunda qonşuları ilə inadlı mübarizə aparıb o zaman üçün ən qüdrətli hərbi və ticarət donanması inşa edib, saysız-hesabsız müharibələrdə başqa ölkələri və birinci növbədə Hollandiya ilə İspaniyanı məğlub etmiş, öz yolları üzərindən sıxışdırıb çıxarmış və dünya ticarətində birinci yeri tutmuşdular.

Dünyanın hər bucağından saysız-hesabsız kapital və xəzinələr İngiltərəyə axışmaqda idi. Kapitalistlər bu sərvətləri pula çevirib, çoxlu manufaktura istehsalatı qurmuşdular. Yaxşı ingilis mahudları və başqa malları Avropa bazarlarında yüksək qiymətləndirilirdi. İngilis sahibkarları istehsalatlarını genişləndirir, tacirlər isə tədavüllərini artırırdılar. Burjua və dvoryanlar saraylar tikdirib, zinətə qərq edirdilər, əhalinin əsas kütləsi isə dilənçi kökündə yaşayıb, yarıac güzəran sürürdü.

İngilis ədəbiyyatında bu tarixi dövrün bütün xüsusiyyətləri Conatan Sviftin və "Robinzon Kruzonun macəraları" əsərinin müəllifi Daniel Defonun əsərlərində parlaq əks etdirilmişdir.

...Yeni, XVIII əsrin birinci ili qurtarmaq üzrə idi. İngilis kralı III Vilhelm o zaman qüdrətli İngiltərə ilə rəqabət apara və onun beynəlxalq nüfuzuna göz dikə bilən yeganə Qərbi Avropa ölkəsi Fransa ilə müharibəyə qızğın surətdə hazırlaşırdı. İngiltərənin özündə o zaman iki siyasi partiyanı təmsil edən torilərlə viqlər arasında mübarizə ən gərgin dərəcəyə çatmışdı. Hər iki partiya ölkədə təkbaşına hakim olmağa və siyasi rəhbərliyi ələ almağa can atırdı.

Viqlər sənaye və ticarəti maneəsiz inkişaf etdirmək üçün kral hakimiyyətini məhdudlaşdırmaq istəyir, İngiltərənin müstəmləkələrini genişləndirmək və dənizlərdəki hakimiyyətini möhkəmləndirmək məqsədilə müharibə tələb edirdilər. Torilər isə, İngiltərədə kapitalizmin inkişafına hər cür müqavimət göstərir, kralın hakimiyyətini gücləndirməyə və dvoryanlığın qədim imtiyazlarını mühafizə etməyə çalışırdılar. Hər iki partiya xalqın həqiqi ehtiyac və tələbatından eyni dərəcədə uzaq olub, varlı siniflərin mənafelərinə xidmət göstərirdi.

Hər iki partiyanın tələbləri Sviftə yad idi. O, torilərlə viqlərin amansız mübarizəsini müşahidə edir, bir məktubunda bu mübarizəni pişiklərlə itlərin boğuşmasına bənzədir. Svift, həqiqətən, xalq partiyası olan üçüncü bir partiyanın yaradılması xəyalına düşmüşdü. Ancaq bunu XVIII əsr İngiltərəsində həyata keçirmək mümkün deyildi.

Svift artıq mövcud olan bu iki partiyadan birini seçməli idi. O, torilərin və viqlərin siyasi proqramlarında xoşuna gələ biləcək cəhətlər tapmağa nə qədər çalışdısa, bir şey çıxmadı. Amma adsız-sansız bir kəndin kilsə keşişi və yeganə silahı iti qələmindən ibarət olan Svift bu partiyalardan birinin köməyi olmadan siyasi səhnəyə çıxıb, öz həqiqi fikirlərini söyləyə bilməzdi. O zaman hökumət dairələrində görkəmli mövqelər tutmuş Templin dostları ilə şəxsi münasibəti Svifti viqlər cəbhəsinə çəkib apardı.

O öz adını bildirmədən, bir neçə tutarlı siyasi həcv nəşr etdirdi ki, bunlar böyük uğur qazanıb, viqlərə xeyli kömək göstərdi. Viqlər öz naməlum müttəfiqlərini axtarıb tapmağa çalışırdılar, amma Svift hələlik kölgədə qalmaq istəyirdi.

O, darısqal London küçələrində gəzişib, yoldan ötənlərin söhbətlərinə qulaq asır, xalqın rəyini öyrənirdi. Hər gün eyni saatda Betton qəhvəxanasına gedirdi ki, bura da, adəti üzrə, Londonun

ədəbiyyat aləmində məşhur olan adamlar yığışırdılar. Svift burada son siyasi yenilikləri və salon dedi-qodularını dinləyir, ədəbi mübahisələrə qulaq asır, özü isə dinmirdi.

Amma heç kəsin tanımadığı və əynində qara ruhani ləbbadəsi olan bu qaraqabaq adam hərdənbir söhbətə qarışır, ötəri olaraq elə tutarlı sözlər və cinaslı atmacalar atırdı ki, qəhvəxanaya yığışanlar onun məzəli sözlərindən birini də nəzərdən qaçırmamaq üçün susub dinləyir, sonra bütün Londona yayırdılar.

* * *

1704-cü ildə Svift "İnsan cinsinin ümumi təkmilləşməsi üçün yazılmış çəllək nağılı" adlı çox gözəl kitabını imzasız nəşr etdirdi.

"Çəllək nağılı" ingilis xalq ifadəsi olub, mənası boş-boşuna danışmaq, çərənçilik etmək deməkdir.

Svift kitabda insan axmaqlığının cürbəcür şəkillərini amansızcasına lağa qoyur, bu axmaqlıqlar içərisinə, ilk növbədə, səmərəsiz dini mübahisələri, istedadsız yazıçıların və satqın tənqidçilərin əsərlərini, nüfuzlu və qüdrətli adamların qarşısında yaltaqlığı və s. daxil edirdi. Ölkəni, düzəlmələrinə ümid olmayan axmaqların zorakılığından xilas etmək üçün Svift ən ciddi əda ilə Bedlam[1] sakinlərini yoxlamağı təklif edir ki, burada ən məsul dövlət, kilsə və hərbi vəzifələri tutmağa layiq bir çox ağıllı adamlar, şübhəsiz ki, tapılar.

Amma "Çəllək nağılı"nın başlıca mövzusu İngiltərədə ən çox yayılmış olan hər üç dini cərəyanın: anqlikan, katolik və protestant kilsələrinin kəskin satira atəşinə tutulmasından ibarətdir. Svift bu üç kilsənin rəqabətini üç qardaşın: Martin (anqlikan kilsəsi), Pyotr (katolisizm) və Cekin (protestantizm) surətlərində təsvir edir ki, bunların hərəsinə öz atalarından irs olaraq (xristian dinindən) bir kaftan qalmışdır. Ata öz vəsiyyətində oğullarına bu kaftanlarda hər cür dəyişiklik aparmağı ən ciddi surətdə qadağan etmişdir. Ancaq aradan qısa müddət keçib kaftanlar dəbdən düşəndə qardaşlardan hərəsi kaftanını öz kefi istədiyi kimi dəyişməyə: kənarlarına bafta tikməyə, lent və akselbantlarla bəzəməyə, uzadıb-qısaltmağa başlayır. Əvvəlcə onlar öz hərəkətlərini doğrultmaq üçün vəsiyyətnamənin mətnini başqa cür şərh etməyə, sonra isə, iş daha dərinə gedəndə, qardaşlar atanın vəsiyyətnaməsini bir yana atıb, öz

[1] *Bedlam* – Londonda dəlixana

aralarında mübahisəyə başlayırlar. Pyotr onların içində ən hiyləgər və mahir çıxır. O, sadədil adamları aldatmağı öyrənib, varlanır və iddiasından o qədər qudurub ağlını itirir ki, başına bir-birinin üstündən üç şlyapa qoyur (Roma papasının üçqatlı tacına – tiaraya işarədir). Svift bu satira ilə mövhumat və xurafatı ifşa edir. Bunu artıq Sviftin müasirləri də başa düşürdülər.

Aydındır ki, ingilis ruhaniləri "Çəllək nağılı" müəllifinin onlar barəsində həqarətini ona bağışlaya bilməzdilər. Ruhani Svift daha kilsə xəttilə irəli gedib, yüksək mövqe sahibi olmağa ümid edə bilməzdi.

"Çəllək nağılı" meydana çıxandan sonra həqiqi sensasiya təsiri buraxmış və bir il ərzində üç dəfə nəşr edilmişdi. Kitabı bir-birinin əlindən qapıb alır, müəllifinin məşhur yazıçılardan kim ola biləcəyini tapmağa çalışırdılar. Nəhayət, Svift boynuna aldı ki, "Çəllək nağılı"nı və ondan əvvəl nəşr edilmiş imzasız həcvləri o yazmışdır. Bundan sonra o, bərabər hüquqla İngiltərənin ən görkəmli yazıçı, rəssam və dövlət xadimlərinin məhdud dairəsinə daxil oldu, zəmanəsinin istedadlı yazıçısı və ən hazırcavab adamı kimi şöhrət qazandı.

İndi Svift üçün qəribə həyat başlanmışdı. O, İrlandiyada yoxsul kənd kilsəsinin təvazökar keşişi olaraq qalırdı. Londona gələndə isə, məşhur yazıçıya çevrilirdi ki, onu yalnız yazıçılar deyil, nazirlər də hörmətlə dinləyib, qulaq asırdılar. Hərdənbir Svift elə qəribə zarafatlar edirdi ki, bunlar əvvəlcə adamları çaşbaş salır, sonra isə bütün Londonu qəhqəhə selində boğurdu. Sviftin münəccim Con Partricin başına gətirdiyi məşhur qəziyyə bunlardan biridir.

* * *

İllər gəlib keçirdi. Kral III Vilhelm ölmüşdü. Hakimiyyət başına kraliça Anna keçmişdi. Artıq bir neçə ildi ki, Fransa ilə tarixdə "İspaniya irsi uğrunda müharibə" (1702-1713) adıyla məşhur olan müharibə davam edirdi. Müharibənin başlanmasına səbəb bu idi ki, sonsuz ölən İspaniya kralı II Karldan sonra boş qalmış İspaniya taxtına fransız kralı XIV Lüdovik öz nəvəsi Filipp Anjuyskini oturtmaq istəyirdi. Faktik cəhətdən bu, İtaliya və Niderland torpaqları ilə, Amerika və Afrikada geniş müstəmləkələri olan böyük Avropa dövlətini Fransaya birləşdirməyə bərabər idi. Fransanın qüdrətinin belə hədsiz dərəcədə artması İngiltərənin

dənizdə və müstəmləkələrdə hakimiyyətinə çox böyük zərər yetirə bilərdi. Öz niyyətini yerinə yetirməkdə XIV Lüdovikə mane olmaq üçün İngiltərə Hollandiya və Avstriya ilə ittifaq bağlayıb, Fransaya qarşı çıxdı. Fransız ordusu məğlubiyyətə uğradı. XIV Lüdovik öz tələblərindən əl çəkib, bütün şərtləri qəbul etməyə hazır idi. Hamı uzun illər davam edən müharibənin qurtarmasını səbirsizliklə gözləyirdi. Ancaq ingilis baş komandanı hersoq Marlboro nəticəni süni surətdə süründürürdü, çünki o və ətrafındakı əyanlar hərbi tədarüklər və vergilər sayəsində misilsiz dərəcədə varlanırdılar.

Bu illərdə Sviftin vəziyyətində zahirən heç bir şey dəyişməmişdi. O, əvvəlki kimi, kənd keşişi olub, vaxtının çoxunu Londonda keçirirdi. Sviftin iti qələmi onu siyasi həyatın mərkəzinə çəkib aparmışdı. Partiyaların rəhbərləri və nazirlər onunla dostluq etməyə çalışır, onu saraylarına dəvət edir, şərəfinə dəbdəbəli qəbul mərasimləri təşkil edirdilər. Svift öz vəziyyətindən özü üçün heç bir fayda güdmür, amma başqalarına həvəslə kömək edirdi. Sviftin məsləhətilə dövlət vəzifələrinə adamlar təyin edilir, layiq olmadıqları halda yüksək mövqe tutanlar onun təsiri sayəsində mənsəbdən düşür, adamlar barədə rəyi hökm kimi qəbul edilirdi.

Uzanıb gedən müharibə xalqı var-yoxdan çıxarıb müflisləşdirmişdi. Müharibənin davam etməsi viqlərin tərəfdarları olan yalnız bir yığın sahibkar və bankirin xeyrinə idi. Svift viqlərə qarşı çıxıb torilərə qoşuldu, ancaq onların siyasi qənaətlərinə şərik olduğu üçün deyil, müharibə əleyhinə apardıqları təbliğat bu dövrdə xalqın mənfəətinə uyğun olduğu üçün qoşulmuşdu.

Svift onlarca həcv yazıb, bu həcvlərdə viqlər partiyasından olan ayrı-ayrı əyanların və birinci növbədə müharibənin davam etməsində mənfəəti olan acgöz hersoq Marlboronun pis işlərini ifşa etmişdi. Sviftin apardığı təbliğat xalq içərisində rəğbətlə qarşılandı.

Az sonra torilər iş başına gəldilər və 1713-cü ildə, Sviftin də doğrudan-doğruya təsiri nəticəsində, Fransa ilə sülh müqaviləsi bağlandı. Bundan sonra Sviftin şöhrəti və nüfuzu o qədər artdı ki, onu "portfelsiz nazir" adlandırmağa başladılar.

İndi daha Svifti İrlandiyada kənd kilsəsinin keşişi vəzifəsində qoymaq münasib deyildi. Dostları onu inandırırdılar ki, heç olmasa,

yepiskop rütbəsinə qaldırılacaq. Ancaq kraliça Anna və yüksək rütbəli kilsə xadimləri dahi satirik yazıçıya onun məşhur "Çəllək nağılı" və b. əsərlərinin günahını bağışlaya bilməzdilər. Xeyli tərəddüddən sonra kraliça Sviftə Dublin kilsəsində dekan (vaiz) vəzifəsi vermək qərarına gəldi ki, bu da fəxri sürgünə bərabər idi.

1714-cü ildə kraliça Anna gözlənilmədən öldü; taxta yeni kral I Georq çıxdı. Siyasətdə əmələ gələcək dəyişikliklə əlaqədar olaraq, nazirlər – Oksford qrafı ilə Bolinbrok – arasında nifaq şiddətləndi. Axırda onlar ikisi də dövlətə xəyanətdə təqsirləndirilib, məhkəməyə verildi.

Svift görürdü ki, bir-birinin ardınca krallar dəyişir, nazirlər sui-qəsd hazırlayır, bir-birinə qarşı intriqa aparır, vəzifələrindən kənar edilir, yerlərinə yeniləri gəlir, amma xalqın vəziyyəti yenə də olduğu kimi ağır və dözülməz olaraq qalır. Svift, ayrı-ayrı dövlət üzvləri üzərində öz təsirinin nə qədər böyük olsa da, dövlətin ümumi siyasətini dəyişmək üçün gücü çatmayacağını dərk edib, həmişəlik İngiltərədən çıxıb getməyi qərara aldı. O, yeni vəzifəsini qəbul edib, Dublinə köçdü.

1715-ci ildən 1723-cü ilə qədər Svift, demək olar ki, heç ayrılmadan Dublində qaldı və bir çox uğursuzluqlara düçar oldu. 1724-cü ildə, əlli səkkiz yaşında ikən, o yenidən siyasi mübarizənin mərkəzində durdu. Bu dəfə Svift özünün bütün qüvvəsini, bu illər ərzində çox yaxınlaşmış olduğu İrlandiya xalqını müdafiəyə sərf etdi.

Sviftin siyasi aləmdə yenidən çıxış etməsinə aşağıdakı hadisə səbəb oldu: "Saray xanımlarından biri olan hersoginya Kendal İrlandiya üçün xırda pul buraxmaq haqqını mahir sahibkar olan Vuda satmışdı. Vud bu işdən mümkün qədər çox mənfəət əldə etmək üçün o qədər pis keyfiyyətli xırda pul zərb edib buraxdı ki, irlandiyalılar həmin pulları qəbul etməkdən boyun qaçırıb, öz qəzəblərini açıq-aşkar ifadə etməyə başladılar.

Svift "Mahudçunun məktubları" adı altında seriya həcvlər yazıb, Vuda və ingilis hökumətinə hücum etdi. O, sadə və inandırıcı ifadələrlə, guya, təvazökar bir Dublin mahud tacirinin dilindən irlandiyalıların dəhşətli yoxsulluq və dilənçilik vəziyyətini təsvir edib xatırladırdı ki, onların ölkəsinin öz qanunları var və qədimdən bəri mövcud azadlıqlarına heç kəsin təcavüz etməyə haqqı yoxdur. O, irlandiyalıları, ingilislər tərəfindən qəsb edilmiş, öz insani hüquq və ləyaqətləri uğrunda qəti mübarizəyə çağırırdı.

Svift irlandiyalılara deyirdi: "Vasitə sizin öz əllərinizdədir. Siz də İngiltərədə olan qardaşlarınız kimi azadsınız və onlar kimi azad xalq da olmalısınız".

"Mahudçunun məktubları" öz məqsədinə çatdı. İngilis hökuməti bundan zərər çəkdisə də, ancaq Vudun buraxdığı keyfiyyətsiz pulları yığışdırmağa məcbur oldu. "Mahudçunun məktubları" o qədər geniş yayılmışdı ki, İrlandiyada yaşayan hər bir adam onu nəinki yalnız əzbərdən bilir, hətta müəllifini tanıyırdı. Bu, ingilis hökumətinə də məlum idi. Baş nazir Uolpol Sviftin həbs edilməsi barədə əmr verdi. Bu tələbinə o, İrlandiyadakı ingilis canişinindən belə bir cavab aldı: "Svifti həbs etmək üçün on min əsgər lazımdır". Bu işi ört-basdır etməli oldular.

Dublin kilsəsinin qaradinməz və sərt dekanı İrlandiya xalqının sevimlisi oldu. Sviftin evinin yanında keşik çəkmək üçün gecəli-gündüzlü xüsusi mühafizə dəstəsi təşkil edilmişdi. Dublində onun şərəfinə "Mahudçu klubu" bina edilmişdi.

1726-cı ildə Svift İngiltərəyə səfərindən qayıdanda bütün Dublin əhalisi onun pişvazına çıxmış, gəlişi kilsə zənglərilə xəbər verilmişdi. Xalq içərisində belə bir əfsanə yaranmışdı: guya, Svift, həmin İrlandiya kralları nəslindəndir ki, onların zamanında İrlandiya qüdrətli və azad idi...

"Mahudçunun məktubları" sonrakı vaxtlarda da İrlandiya xalqının müqavimət ruhunu qüvvətləndirib, öz milli istiqlaliyyəti və azadlığı uğrunda mübarizəyə ruhlandırdı. Sviftin adı İrlandiya xalqının milli azadlıq hərəkatı tarixinə qızıl hərflərlə yazılmışdır.

...Sviftin ömrünün son illəri ağır və iztirablı xəstəliklə fasiləsiz mübarizədə keçmişdir. Onu, hələ gənc yaşlarından incidən başgicəllənməsi və başağrıları tez-tez tuturdu. Ömrünün axırlarına doğru o, xüsusilə qaraqabaq və adamayovuşmaz olub, günlərini tənhalıq içərisində keçirir, ən yaxın adamlarını belə qəbul etmirdi. O, huşsuz və yaddaşsız olmağa başlamışdı. Yaddaşı o qədər zəifləmişdi ki, hətta kitab da oxuya bilmirdi. Bir dəfə gəzinti vaxtı Svift qarağacın qurumaqda olan təpəsinə baxıb, yanındakına demişdi: "Bax, mən də bu cür – başdan öləcəyəm".

Svift 1745-ci ildə, yetmiş səkkiz yaşında vəfat etdi. Qoyduğu vəsiyyətnaməyə görə, o, Dublin kilsəsində dəfn edildi. Qəbirdaşında özünün yazıb qoyduğu bu sözlər həkk edildi: "Burada, həmin kafedral kilsənin dekanı Conatan Sviftin cəsədi dəfn edilmişdir.

Amansız qəzəb daha onun qəlbini parçalamır. Keç, ey yolçu, bacarsan, qüdrətli azadlığın coşqun mübarizini təqlid et".

* * *

Conatan Svift son dərəcə möhkəm sirr saxlayan bir adam idi. Öz daxili aləminin və yaradıcılığının sirlərini ən yaxşı dostlarına da açmazdı. Onun tərcümeyi-halında indiyə qədər bir çox sirli və aydın olmayan cəhətlər qalmışdır.

Üzərində altı ildən artıq işlədiyi və həyatının ən başlıca məhsulu olan "Bir neçə gəminin əvvəlcə cərrahı, sonra kapitanı olmuş Lemyuel Qulliverin bəzi uzaq ölkələrə səyahəti" romanının yaranmasını xüsusilə gizlin saxlamışdı. Sviftin bütün başqa əsərləri kimi, bu kitab da imzasız nəşr edilmişdi. Hətta 1726-cı ildə romanın əlyazmasını "naməlum şəxsdən" almış olan naşir özü də əsərin müəllifinin kim olduğunu bilmirdi.

"Qulliver" oxucuları, hər şeydən əvvəl, öz qeyri-adi süjetilə, qəhrəmanın liliputlar və nəhənglər, laputalılar və quiqnqnmlar arasında olduğu zaman aldığı təəssüratın heyrətamiz dərəcədə dürüst düşünülmüş təsvirlərilə cəlb etmişdir. Bir çoxları "Qulliveri" əyləncəli, gülməli nağıl kimi başa düşüb, bu fantastik əhvalatda dərin məna olduğunu, İngiltərənin qayda-qanunlarının adət və siyasətinin amansız satira atəşinə tutulduğunu dərk etməmişlər.

Sviftin yaşının keçmiş olduğu vaxtda yaratdığı "Qulliverin səyahəti" yazıçının həyat haqqında uzun illər boyu düşüncələrinin məhsuludur.

Çox qəribə fantastika hələ romanın birinci səhifələrindən, Qulliverin gəmi batandan sonra, altı düym boyda xırdaca adamlara əsir düşməsi ilə başlanır.

Həqiqətə əsla bənzəri olmayan şeylər barədə Svift elə soyuqqanlı, sakit, elə doğruçu əda ilə danışır ki, guya, söhbət həyatda hər bir addımda rast gəlinən ən adi hadisələr barədə gedir. Bu zaman Qulliverin rəvayətləri o qədər əsaslandırılmış və inandırıcı görünür ki, qeyri-ixtiyari olaraq bu xırdaca adamcığazları və onları əhatə edən şeyləri Qulliverin özü kimi gözümüzün önündə görməyə başlayırıq.

Həqiqətə uyğunluq duyğusu tənasüb və ölçülərə ən dəqiq surətdə riayət edilməsi, ən diqqətli hesablama və faktik məlumatın bolluğu sayəsində əldə edilir. Belə ki, məsələn, Svift Liliputstanı

təsvir edəndə belə bir təsəvvürə əsaslanır ki, liliputların boyu Qulliverin boyundan on iki dəfə kiçikdir, buna görə də, onların bədənlərinin səthi təxminən 150 dəfə (12x12), həcmi isə təxminən 1700 dəfə (12x12x12) bizim bədənimizdən kiçikdir. Buradan da bir çox qəribə epizod və anlaşılmazlıqlar əmələ gəlir. Müəllif liliput dərzilərinə Qulliver üçün yeni kostyum hazırlamağın nə dərəcədə böyük bir zəhmətlə başa gəldiyini, buna nə qədər parça sərf edildiyini, Qulliverin saxlanılmasının baha oturduğunu onun üçün əlverişli ev tapılmasının və s. nə qədər çətin olduğunu ətraflı surətdə nəql edir.

Eyni zamanda "Qulliverin səyahəti"ndə hər cizgi və ştrixdə bir çox eyham və işarələr vardır ki, bunlar əfsanəvi Liliputstan ilə Sviftin zamanındakı İngiltərə arasında bəzi müştərək cəhətlərin olduğunu görməyə məcbur edir. Həqiqətdə insanlara mühüm və hətta əzəmətli görünən ictimai hadisələr və qarşılıqlı insani münasibətlər gözlənilmədən mikroskopik dərəcədə kiçilir, onun sayəsində xırdaca və gülünc görünür.

Qulliver görür ki, liliputların arasında da, demək olar ki, öz vətənindəki eyni adət və ənənələr mövcuddur. Belə məlum olur ki, bu xırdaca cırtdanlar da böyüklük, şöhrətpərəstlik, xudbinlik iddiasına düşür, sərvəti, mənsəbi hər şeydən artıq qiymətləndirir, öz xırdaca krallarını dünyanın ən qadir hökmdarı sayır, bir-birilə mübahisə edir, dedi-qodu yayır, intriqa aparır və daxili müharibələrə girişirlər.

Bənzəyiş daha irəli gedir, bir-birilə düşmənlik edən liliput siyasi partiyaları – hündürdaban tərəfdarları və alçaqdaban tərəfdarları, ingilislərin tori və viqlər partiyalarına bənzəyir; yumurtanın iti ucu və küt ucu tərəfdarları məzhəbləri isə, yumurtanı hansı başından sındırmaq barədə qəti qərara gələ bilmirlər ki, bu da o zamanın dini mübahisələrinin satirik təsviridir. Liliputstandan dar körfəzlə ayrılan düşmən Blefusku dövləti, əlbəttə, İngiltərə ilə uzun müharibə aparan Fransadır. Dartılmış ipin üzərində başqa saray adamlarından daha məharətlə oynamağı və padşahın tutduğu ağacın üstündən yaxşı hoppanmağı bacaran liliput maliyyə naziri bir çox cəhətdən İngiltərənin baş naziri Uolpola liliputların xəsis, hamıdan şübhələnən və qorxaq padşahları isə, şübhəsiz ki, kral I Georqa bənzəyir.

Bu misallardan aydındır ki, "Qulliverin səyahəti"ndəki hər bir epizodda Svift zamanındakı ictimai və siyasi həyata işarələr var.

Romanın ikinci hissəsində, Qulliverin nəhənglər ölkəsindəki macəraları təsvir ediləndə Svift İngiltərənin siyasi və ictimai həyatının daha ayrı-ayrı nöqsanlarını və hökmdarlarını deyil, bütünlükdə idarə sistemini, həm də dövlət quruluşunu tənqid edir. Qulliver özü indi miskin liliputa dönüb, bu nəhənglər aləmində bir çox əzab və əziyyətlər çəkir.

"Səyahət"in ikinci hissəsində mərkəzi yeri Qulliverin nəhənglər kralı ilə söhbəti tutur ki, burada Qulliver İngiltərənin qanun və adətlərindən ətraflı danışır. Liliputların həyatı Qulliverə nə qədər miskin görünürsə, nəhənglər kralına da insanların həyatı bir o qədər miskin görünür.

Bu ağıllı, məlumatlı padşahın dililə Svift dövlət və siyasi xadimlərin satqınlığını, mənfəətpərəstliyini ifşa edir; seçicilərin rəyini satın almaq və hər cür sui-istifadələr üçün geniş imkan verən ingilis seçki qanunlarını pisləyir; fikrincə, İngiltərənin nöqsanlı olan parlament quruluşunu tənqid edir ki, burada palata üzvləri azad seçki yolu ilə deyil, irsiyyət qaydasıyla təyin edilirlər; o, məhkəmə süründürməçiliyi və hoqqabazlıqlarını, ölkə üçün ağır yük olan qanlı müharibələri, gənclərdə eqoist meyillərin və pis adətlərin inkişafına geniş imkan verən tərbiyə, təlim üsullarını və s. qamçılayır.

Romanın üçüncü hissəsində Qulliverin cürbəcür uydurma ölkələrə – Laputaya, Balnibarbiyə, Laqqneqqə, Qlabbdobdribə, eləcə də Yaponiyaya səyahətini təsvir edən fəsillərdə də biz həmin fikirlərə daha kəskin şəkildə rast gəlirik. Qulliver Balnibarbidə olduğu zaman yerli filosoflarla görüşür. Qulliver söyləyir: "Bədbəxtlər elə üsullar axtarırlar ki, onların vasitəsilə padşahları inandırsınlar, onlar da öz nədimlərini ağıllı, qabiliyyətli və xeyirxah adamların içərisindən seçsinlər, nazirlərə ümumi rifahın qayğısına qalmağı öyrətsinlər, yalnız cəmiyyətə önəmli xidmətlər göstərən adamları mükafatlandırsınlar; padşahları inandırsınlar ki, onların həqiqi mənfəətləri ləyaqətli adamlara tapşırılmalıdır".

Svift bu xəyalpərəstlərin baş tuta bilməyəcək planlarını kinayəli surətdə saya-saya, sətirlərarası insan həyatının və dövlətin qurulması barədə özünün müsbət fikirlərini söyləyir. O istəyir ki, vətəndaşlar cəmiyyət qarşısında borclarını qorxu və zor təzyiqi altında deyil, yüksək şüurluluq və öz yaxın adamlarına qarşı duyduqları məsuliyyət hissilə yerinə yetirsinlər.

Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 51851

O arzu edir ki, insanın ləyaqəti onun sərvəti və rütbəsilə deyil, ağlı və mənəvi keyfiyyətlərilə, öz fəaliyyəti sayəsində insanlara verdiyi həqiqi fayda ilə ölçülsün.

Svift bütün kitab boyu mütləqiyyət və zorakılığın cürbəcür təzahürlərini ifşa edə-edə xəyalları növbə ilə Qulliverin gözləri qarşısından keçən Roma respublikası qəhrəmanları haqqında heyranlıqla danışır: "Mən hər şeydən artıq zalım və cəllad hökmdarları öldürmüş, azadlığı və məzlum xalqların tapdanmış hüququnu bərpa etmiş adamların simalarına baxmaqdan ləzzət alırdım". Sviftin rəyinə görə, zəhmətkeş xalq – nemətlər yaradan adamlar ən dərin hörmətə layiqdirlər: "Eyni tarlada sünbül və ya ot əvəzinə ikisini bitirməyi bacaran hər kəs insanlığa və öz vətəninə bütün siyasətçilərin bir yerdə etdiklərindən daha artıq xidmət etmiş olur".

Öz müasirlərindən yüksəkdə durmasına və onlardan da uzağı görməsinə baxmayaraq, Svift dünyada hökm sürən şəri necə aradan qaldırmaq və ictimai adətləri necə yaxşılaşdırmaq sualına tam aydın cavab tapa bilməmişdir.

Xalqın iztirab və bədbəxtliklərində o, öz mənfəətlərini güdən hökmdarları, saray adamlarını və acgöz varlıları təqsirləndirir. "Hər varlının müqabilində mindən artıq yoxsul var. Açıq-aşkar söyləmək olar ki, bizim xalqın çox böyük əksəriyyəti miskin həyat sürür". Svift Qulliverin dililə məsləhət görür ki, "padşahların və nazirlərin köməyi olmadan da keçinmək mümkündürsə, onlara etibar edilməməlidir".

Svift istehzalı tövrlə Laqadodakı Böyük akademiyanın alimlərini, mənasız layihələrin hazırlanması ilə məşğul olan boş xəyalbazları ustalıqla təsvir edir. Onlar hörümçək torundan qumaş hazırlamaq, buzu yandırıb barıt qayırmaq, xiyardan günəş enerjisi almaq, evi özüldən deyil, damından başlayaraq inşa etmək və s. ilə məşğul olurlar. O zamanlar elmi işlər arasında, doğrudan da, orta əsr sxolastik qalıqlarının xeyli tör-töküntüsünə rast gəlmək olurdu. Öz zəmanəsinin ən elmli adamlarından biri olan Svift, əlbəttə, ümumiyyətlə, elmə qarşı deyil, heç bir əməli fayda verməyən, zamanın və həyatın tələbatından ayrılmış olan elmə qarşı çıxır, öz biliklərilə şəxsən varlanmaq və xalqı kobud surətdə aldatmaq məqsədilə möhtəkirlik edən alimlərə nifrət bəsləyirdi.

Conatan Svift yalnız orta əsr alimlərinə, dvoryanların və ruhanilərin tüfeyliliyinə, saray adamlarının padşahlar qarşısında

pərəstişkarlığına, sxolastik saxta elmə istehza etməklə kifayətlənməyib, xalq üçün yeni istismar növləri və yeni məhrumiyyətlər, iztirablar və fəlakətlər gətirən burjua münasibətlərinə də istehza edirdi. Svifti, xüsusən, mənfəətpərəst adamların şərəfsizcəsinə qazanc güdmələri, müstəmləkə qarətlərinin, sənaye və ticarətin onlar üçün yaratdığı bütün imkanlardan pul çıxarmaq cəhdləri həddən çox qəzəbləndirirdi.

Svift Laqadodakı xəyalbazlar akademiyasını təsvir edəndə göstərir ki, "akademiyalar" insanlığı "xoşbəxt etmək üçün" onlarca üsul təklif edirlər. Müəllif əlavə edir: "Ancaq təəssüf ki, hələ bu layihələrdən heç biri başa çatdırılmamışdır; hələlik isə ölkə gələcək firavanlığı gözləyə-gözləyə xarabaya çevrilmişdir, evlər uçulur, əhali isə aclıq çəkir, cır-cındır içində gəzir".

Romanın dördüncü hissəsində qəhrəman xəyali quiqnqnmlar ölkəsinə düşür. Qulliverin atlar ölkəsinə səfərini təsvir edib, məyus olmuş və yorulmuş Svift öz hazırcavablığına tam sərbəstlik verir, həmvətənlərinə sübut etməyə çalışır ki, onların həyatı qeyri-insani, çox pis, çox haqsız və amansız qurulmuşdur.

Çirkin, acgöz ikiayaqlı vəhşilər olan yexular get-gedə daha artıq Qulliverin yadına onun "mədəni" həmvətənlərini salır; əksinə, sadəlövh atlar ona "insani" adamlardan daha mehriban görünürlər, onların dillərində hətta "yalan" anlayışı da yoxdur. Qulliver bu nəticəyə gəlir ki, insanlıq kökündən xarab olmuşdur və insanlar insanlıq simasını itirib, iyrənc yexulara çevrilirlər.

Sviftin qəzəbli və acı satirasında insan həyatının əsaslarını kökündən danmaqdan savayı, başqa heç nə görməyən tənqidçilər Svifti bir səslə "insansevməz" adlandırıb, bu qondarma insansevməzliyi müəllifin xasiyyətinin pisliyilə izah etməyə çalışırlar. Lakin bütün kəskinliyinə baxmayaraq, Svift satirasında həyatı təsdiq edən əsas var. Zira o ümidini itirmir ki, "nəhayət, ağıl kobud qüvvəyə qalib gələcəkdir".

Svift öz zəmanəsini, bütün özbaşınalıqları və sərtliklərilə dünyanı dəyişdirəcək və islah etməli olacaq daha yaxşı gələcək naminə inkar etmişdir.

Sviftin satirası yayınmadan qarşıdakı hədəfi düz vurur və bu hədəf müəllifin özünə olduğu kimi, oxucuya da açıq-aydın görünür. Svift mühakimə və nəticələrində heyrətamiz dərəcədə ardıcıl və məntiqlidir. Onun bütün eyham və işarələri asanlıqla şərh

edilir, XVIII əsr İngiltərəsinin ictimai-siyasi həyatının tamamilə müəyyən və konkret hadisələri şəklində göz önündə canlanır. "Qulliverin səyahəti" dünya ədəbiyyatında ən gözəl satirik əsərlərdən biridir.

Öz zamanındakı İngiltərənin bütün nöqsanlarını qorxmadan açıb göstərən, "qüdrətli azadlığın coşqun mübarizi", ağlın, ədalətin tərəfdarı və parlaq satirik olan Conatan Svift qabaqcıl insanlıq üçün bu gün də əzizdir. Onun üsyankar ruhlu kitabı indi də milyonlarla oxucunun qəlbində xalqa zülm edənlərə, zorakılığa və şərə qarşı qəzəb hissi oyadır.

Nəşriyyatdan

Bir neçə gəminin əvvəlcə cərrahı,
sonra kapitanı olmuş

LEMYUEL QULLİVERİN

bəzi uzaq ölkələrə

SƏYAHƏTİ

NAŞİRDƏN OXUCUYA

Bu səyahətin müəllifi Lemyuel Qulliver – mənim köhnə və yaxın dostumdur; o həm də ana tərəfdən qohumumdur. Üç il bundan əvvəl mister Qulliver Redrifdə yanına axışanların əlindən bezib, indi tək yaşadığı, amma qonşuları tərəfindən hörmət göstərilən doğma vətəni Nottinhempşirdə, Nyuark yaxınlığında rahat evi olan kiçik torpaq sahəsi aldı. Mister Qulliver Nottinhempşirdə, atası yaşayan yerdə doğulsa da, ondan eşitmişəm ki, əcdadları Oksford qraflığından çıxmışdılar. Bunu dəqiqləşdirmək üçün həmin qraflığın Banberidəki qəbiristanlığını axtardım və orada Qulliverlərin bir neçə başdaşına rast gəldim.

Mister Qulliver Redrifdən çıxıb getməmişdən əvvəl aşağıdakı əlyazmanı saxlamaq, ondan istədiyim kimi istifadə eləmək üçün mənə verdi. Əlyazmanı üç dəfə diqqətlə oxudum. Yazılışı çox rəvan və sadə idi, orada yalnız bir çatışmazlıq tapdım: müəllif səyyahların adi üsulundan istifadə edib, həddən artıq təfərrüata varıb. Şübhəsiz, bütün əsər həqiqətlə nəfəs alır. Bir də əgər müəllif çox həqiqətpərəst olması ilə məşhur idisə, başqa cür necə ola bilərdi. Hətta Redrifdəki qonşularının arasında bir şeyi təsdiqləməli olanda belə deyirdilər: "Bu, mister Qulliverin söyləyəcəyi kimi doğrudur".

Müəllifin razılığı ilə həmin əlyazmanı baxmağa verdiyim bir neçə hörmətli adamın məsləhəti üzrə onu çapdan buraxmağı qət edirəm, ümidvaram ki, ən azı, bir neçə müddət ərzində həmin əsər gənc zadəganlarımız üçün siyasətçilərin və partiya yazarlarının adi cızmaqaralarından daha maraqlı əyləncə olacaq.

Bu kitab, əgər küləklərə, qabarmalara və çəkilmələrə, cürbəcür səyahətlərdə maqnit əqrəbinin və kompas göstəricilərinin meylinə, eyni zamanda, qasırğa vaxtı gəminin manevrinin gəniz jarqonunda tam təfərrüatı ilə təsvirinə həsr olunmuş saysız-hesabsız səhifələri çıxarıb atmaq cəsarətini öz üzərimə götürməsəydim, ən azı, iki dəfə qalın olardı. Uzunluq və enlə də eyni hərəkəti etdim. Qorxuram ki, mister Qulliver bundan bir qədər narazı qalacaq, amma onun əsərini mümkün qədər geniş oxucu kütləsi üçün anlaşıqlı etməyi qarşıma məqsəd qoydum. Əgər dəniz işlərində savadsızlığım nəticəsində müəyyən səhvlər buraxmışamsa, bunun məsuliyyəti bütünlüklə mənim üzərimə düşür; yeri gəlmişkən, əgər əsərlə bütövlükdə, müəllifin qələmindən çıxdığı kimi tanış olmaq istəyən səyahətçi tapılsa, onun istəyini həvəslə yerinə yetirərəm.

Oxucu müəllifə dair əlavə təfərrüatları bu kitabın ilk səhifələrində tapa bilər.

Riçard Simpson

KAPİTAN QULLİVERİN, QOHUMU RİÇARD SİMPSONA MƏKTUBU

Ümidvaram, hamının qarşısında – nə vaxt bunu sizə təklif etsələr – boynunuza almaqdan imtina eləməzsiniz ki, öz inadkar və davamlı xahişlərinizlə səyahətlərim barədə çox səhlənkar və qeyri-dəqiq hekayətimi nəşr etdirməyə məni inandırdınız, mənim məsləhətimlə qohumum Dempiyer özünün "Dünya ətrafına səyahət"[1] kitabını nəşrə hazırlayanda əl atdığı kimi, əlyazmamı qaydaya salmaq və dilini düzəltmək üçün universitetlərin birindən bir neçə gənc dəvət etməyi məsləhət görüb inandırdınız. Amma mən sizə hər hansı ixtisar, üstəlik, hər hansı əlavə üçün hüquq verdiyimi xatırlamıram. Buna görə də axırıncılara gələndə, bu bəyanatla onlardan, xüsusilə, bəşər nəslinin hər hansı başqa bir nümayəndəsindən daha artıq hörmət bəsləyib dəyərləndirsəm də, ülyahəzrət rəhmətlik kraliça Annanın[2] müqəddəs və şərəfli xatirəsinə aid olan əlavələrdən tamamilə imtina edirəm. Axı siz, yaxud bu işi görənlər nəzərə almalıdırlar ki, bizim cinsimizdən olan hər hansı heyvanı sahibim quiqnqnmız[3] qarşısında tərifləmək mənə xas deyil, həm də yaxşı olmazdı. Bundan başqa, faktın özü mənə məlum deyil, mənə məlum olduğu qədər (ülyahəzrətin hökmranlığı zamanı bir müddət İngiltərədə yaşamışam) o, birinci nazirin, hətta ardıcıl olaraq iki nazirin – əvvəlcə birinci nazir Qodolfin, sonrasa Lord Oksford idi[4] –

---

[1] *Dempiyer (1652-1715)* – 1685-1691-ci illərdə Qvineyada, İspaniyanın Sakit okean sahillərindəki Amerika müstəmləkələrində, Çində, Avstraliyada, Hindistanda olmuş, öz səfər və macəralarını "Dünya ətrafına yeni səyahət" (1697) kitabında təsvir etmiş ingilis dənizçisi; Svift "Qulliverim səyahəti"ndə bəzən onun üslubunu yamsılayır.

[2] *"...rəhmətlik kraliça Anna..."* – kitabın ilk nəşrində naşir əsərin satirik təsvirini yumşaltmaq üçün mətnə kraliça Annanı tərifləyən sözlər daxil etmiş, Svift isə həmin əlavələri çıxarmışdı.

[3] *Quiqnqnm* – "Qulliverin səyahəti"ndə təsvir olunan yarımvəhşi adamlar

[4] *Lord Qodolfin (1645-1712)* – torilər partiyasının görkəmli xadimi; kraliça Annanın hakimiyyətinin ilk səkkiz ilində baş nazir olub; 1710-cu ildə gözlənilmədən vəzifəsindən azad edilib, yerinə elə həmin partiyadan – Oksford qrafı Robert Xarli təyin olunub. Svift hər ikisiylə şəxsən tanış idi.

vasitəsilə idarə edirdi. Beləliklə, siz məni olmayan bir şey barədə danışmağa vadar etdiniz. Xəyalpərvərlər Akademiyası barədə hekayədə də vəziyyət eyni cürdür və sahibim quiqnqnma ünvanlanan nitqimin bəzi hissələrində ya müəyyən vacib təfərrüfatları unutmusunuz, ya da onları elə yumşaldıb dəyişmisiniz ki, mən öz əsərimi çətinliklə tanıyıram.

Əvvəlki məktublarımın birində sizə bu barədə eyham vuranda cavab verməyi məsləhət bildiniz ki, təhqir etməkdən qorxurdunuz, zənginlər hakimiyyəti mətbuata çox ciddi nəzarət edir, nəinki onlara eyham kimi görünən (yadımdadır, siz belə ifadə etdiniz) hər şeyi öz bildiyi kimi yozmağa, hətta bunu cəzaya məruz qoymağa hazırdır.[1] Amma bağışlayın, mənim bir çox illər bundan əvvəl, buradan beş min mil uzaqda, başqa dövlətdə dediyimi indi, necə deyərlər, bizim sürümüzü idarə edən yexulardan[2] hər hansı birinə, xüsusilə, qismətimə onların hakimiyyəti altında yaşamaq bədbəxtliyi düşəcəyini fikirləşmədiyim və bundan qorxub-çəkinmədiyim vaxtda necə aid etmək olar. Bəyəm, əgər onlar şüurlu varlıqlar, quiqnqnmlarsa yararsız həşaratlar olsaydılar, həmin yexuların quiqnqnmlar üzərinə necə hücuma keçdiklərini görəndə acıqlanmağa əsasım kifayət qədər deyilmi? Doğrudan da, mənim bura çəkilməyimin başlıca səbəbi bu qədər ağlagəlməz və iyrənc mənzərədən qaçmaq istəyidir.

Sizin hərəkətiniz və sizə göstərdiyim etibar barədə bax bunları deməyi özümə borc bildim. Sonra özümün böyük səhvim barədə heyifsilənməli oluram, bu səhvim sizin də, elə başqalarının da xahişlərinə və əsassız dəlil-sübutlarına uymağımda, iradəmin əksinə olaraq, səyahətlərimin nəşrinə icazə verməyimdə ifadə olunur. Xeyirxahlıq göstərib yadınıza salın, siz səyahətlərin ictimai rifah naminə nəşrində israr edəndə sizdən neçə dəfə xahiş etdim ki, yexunun öyüd-nəsihət, yaxud nümunə yolu ilə düzəlməyə qətiyyən qadir olmayan heyvanlar cinsinə mənsubluğunu nəzərə alasınız. Kitabımın xəbərdarlıq kimi xidmət etdiyi altı ay ərzində nəinki onun, gözləməyə əsasım olduğu halda, ən azı, balaca adamızda cürbəcür

[1] *"...zənginlər hakimiyyəti mətbuata çox ciddi nəzarət edir..."* – İngiltərədə senzura qanunları XVI əsrdən mövcud idi. Sviftin zamanında dövlət katibinin, müəlliflərə böhtanla bağlı iddia irəli sürmək, yaxud böhtançı elan olunmuş əsəri müsadirə etmək hüququ vardı. Bu qanun 1765-ci ilədək mövcud oldu.

[2] *Yexu* – heyvan dərəcəsinə çatdırılmış adam. Görünür, 1714-cü ildən İngiltərədə hakimiyyətdə olan Hannover sülaləsinə açıq-aydın işarədir.

sui-istifadələrə və çatışmazlıqlara son qoyduğunu, əksinə, heç olmasa, niyyətlərimə uyğun gələn bir təsir göstərdiyini də eşitmədim. Sizdən partiya çəkişmələri və didişmələri ara verəndə, hakimlər savadlı və ədalətli olanda, təsərrüfatçılar namuslu, gözütox olub, heç olmasa, bir damcı sağlam ağıl qazananda, Smitsfild[1] qanunlar külliyatı piramidasının alovu ilə işıqlananda, var-dövlətli gənclərin tərbiyəsi kökündən dəyişəndə, həkimlər qovulanda, erkək yexular xeyirxahlıqla, namusla, həqiqətlə və sağlam ağılla bəzənəndə, saraylar və nazirlərin qəbul otaqları tərtəmiz təmizlənib süpürüləndə, ağıl, xidmət və bilik mükafatlandırılanda, nəsr, yaxud nəzmlə yazılmış mətbu sözü rüsvay edən hər şey yalnız kağız yeməyə və susuzluğunu mürəkkəblə yatırmağa görə mühakimə olunanda, mənə məktubla bildirməyinizi xahiş etmişdim.

Mən sizin dilətutmalarınıza qulaq asıb, bu və minlərlə başqa dəyişikliklərə möhkəm inanırdım, axı bu birbaşa mənim kitabımda verilmiş nəsihətlərdən irəli gəlirdi. Etiraf etməliyəm ki, əgər onlar xeyirxahlıq və müdrikliyə, heç olmasa, azacıq meyilli olsaydılar, yeddi ay yexuların məruz qaldıqları bütün çatışmazlıqlardan və ağılsızlıqlardan qurtarmaq üçün kifayət edərdi. Amma bu gözləntilərə sizin məktublarınızda heç bir cavab yox idi; əksinə, hər həftə siz bizim qasidimizi həcvlər, tapmacalar, düşüncələr, qeydlər və ikinci hissələrlə dolu məktublarla[2] yükləyirdiniz; onlardan görürəm ki, məni əyanları söyməkdə, bəşər nəslini təhqir etməkdə (çünki müəlliflərin onu hələ də ucaltmağa həyasızlıqları çatır) və qadını alçaltmaqda günahlandırırlar. Bununla belə, görürəm ki, bu tullantını qələmə alanlar hətta öz aralarında da söhbət etməyiblər, onlardan bəziləri məni "Səyahət"imin müəllifi kimi qəbul etmirlər, digərlərisə, qətiyyən mənə dəxli olmayan kitabları ayağıma yazırlar. Bundan sonra diqqətinizi xronologiyada böyük dolaşıqlıqlara, səyahətim və geri qayıtmağım tarixində səhvə yol verən, hər yerdə ili də, ayı da, günü də düzgün qoymayan tipoqrafınızın hədsiz səhlənkarlığına çəkirəm. Bununla yanaşı, eşitdim ki, kitab çap olunan

[1] *Smitsfild* – sehrbazların və ifritələrin tonqalda yandırıldığı meydan

[2] *"...qasidimizi həcvlər, tapmacalar, düşüncələr, qeydlər və ikinci hissələrlə dolu məktublarla yükləyirdiniz..."* – Doğrudan da, belə bir şərh Qulliverin adından 1727-ci ildə, "Qulliver" çapdan çıxandan sonra çap olunmuşdu. Bu "Səyahət"in C.Verasın "Svearamblar tarixi" və "Kekoqalliniyaya səyahət" əsərlərinin öz sözü ilə yazdığı, Qulliverə heç bir dəxli olmayan üçüncü cildi idi.

müddətdə orijinalı tamam məhv edilib, məndəsə surətləri qalmayıb. Bununla belə, sizə bir neçə düzəliş göndərirəm, əgər bir vaxtlar kitabın ikinci nəşri lazım gəlsə, həmin düzəlişlərdən istifadə edə bilərsiniz. Yeri gəlmişkən, mən onların üzərində israr etməyəcəyəm, məsələni ağıllı və soyuqqanlı oxucuların mühakiməsinə verirəm; qoy onlar necə istəyirlər, elə hərəkət etsinlər.

Eşitmişəm ki, yexu-dənizçilərimizin bəziləri mənim dəniz dilimdə səhv tapırlar,[1] onu bir çox hallarda yanlış və indiki dövrdə köhnəlmiş sayırlar. Heç bir şey edə bilmərəm. İlk səyahətlərim zamanı, cavan olanda dənizçilərin yaşlı nəslinin yanına getdim və onların dilini öyrəndim. Amma sonralar əmin oldum ki, dəniz yexuları da eynilə quru yexuları kimi yeni sözlər uydurmağa meyillidirlər; quru yexuları hər il öz dillərini o qədər dəyişdirirlər ki, yadımdadır, hər dəfə vətənə qayıdanda əvvəlki şivədə böyük dəyişikliklər tapırdım və onu güclə başa düşə bilirdim. Eyni cür, hər hansı maraq üzündən Londondan yanıma gələndə görürəm ki, fikrimizi hər ikimizə aydın olan ifadələrlə bir-birimizə söyləməyi bacarmırıq.

Əgər yexunun mühakiməsi azacıq da olsa, mənə toxunmağa qadir olsaydı, bəzi tənqidçilərimin həyasızlığından şikayətlənməyə kifayət qədər əsas tapardım; onlar belə güman edirlər ki, kitabım yalnız fantaziyalarımın məhsuludur, hətta quiqnqnmların və yexuların Utopiya sakinlərindən daha böyük reallığa malik olduqları barədə fərziyyə söyləməyi özlərinə rəva görürlər.[2]

Düzdür, liliputlara, brobdinqreqlərə[3] (çünki səhv çap edildiyi sayaq, Brobdinqneq yox, Brobdinqreq kimi ifadə olunmalıdır) və laputyanlara gəldikdəsə, etiraf etməliyəm ki, hələ bir yexuya da rast gəlməmişəm, özünə nə qədər güvənir-güvənsin, onların mövcudluğunu inkar etsin, yaxud mənim bu xalqla bağlı söylədiyim faktlara etirazını bildirsin, çünki burada həqiqət o qədər açıq-aşkardır ki, dərhal hər hansı oxucunu inandırır. Doğrudanmı, mənim quiqnqnmlar və yexular barədə hekayətim o qədər də inandırıcı deyil? Axı yexulara gəldikdə aydın görünür ki, hətta vətənimizdə onların sayı minlərlədir, onlar Quiqnqnmimiyadakı vəhşi qardaşlarından yalnız rabitəsiz qırıldamaq xüsusiyyətinə malik olduqları və çılpaq gəzmədikləriylə fərqlənirlər.

Mən onların rəğbətini qazanmaq yox, onları düzəltmək məqsədilə yazmışdım. Bütün cinslərinin yekdil tərifi məndən ötrü özümün at tövləmdə saxladığım həmin iki nəslikəsilmiş quiqnqnmların kişnərtisindən az əhəmiyyətə malikdir; necə məhv olurlarsa-olsunlar, onlarda heç bir çatışmazlıq tapmıram və hələ xeyirxahlıq mənasında o varlıqlardan nəsə götürə bilərəm.

O yazıq heyvanlar həyasızcasına düşünmürlərmi, guya, mən o qədər alçalmışam ki, öz həqiqətimin müdafiəsinə qalxıram? Elə mən özüm də yexuyam, amma bütün Quiqnqnmiyada çox yaxşı məlumdur ki, sayəsində iki il ərzində özümdə lənətə gəlmiş yalan danışmaq, riyakarlıq etmək, gopa basmaq və qəlbiqaralıqla məşğul olmaq vərdişindən – bizim bütün nəslimizdə, xüsusilə, avropalılarda lap təbii şəkildə dərin kök salmış vərdişlərdən xilas olmaq (bu, mənə böyük zəhmət bahasına başa gəlsə də) bacarığı tapa bildim.

Mən bu xoşagəlməz vəziyyətlə bağlı hələ başqa şikayətlərimi də söyləyə bilərdim, amma daha nə sizə, nə də özümə əziyyət vermək istəyirəm. Açıq-aydın boynuma alıram ki, axırıncı səyahətimdən qayıdandan sonra yexu təbiətimə xas olan bəzi çatışmazlıqlar, sizin cinsinizin azsaylı üzvləri, xüsusilə, ailəmin üzvləriylə tamam məcburi ünsiyyət sayəsində mənim daxilimdə canlandı. Yoxsa heç zaman yexu cinsini bizim krallığımızda islah etmək kimi mənasız hərəkətə baş qoşmazdım. Amma indi bu xəyali planlardan birdəfəlik əl çəkdim.

2 aprel 1727-ci il

[1] *"... mənim dəniz dilimdə səhv tapırlar..."* – Svift dəniz terminologiyasını Sterminin "Həqiqi dənizçi" (1669) kitabından götürmüşdü.

[2] *Utopiya* – İngilis humanisti Tomas Morun eyniadlı kitabındakı (1516) uydurulmuş dövlət

[3] *Liliputlar və brobdinqreqlər* – "Qulliverin səyahəti"nin I və II hissələrində təsvir edilmiş fantastik ölkələrin sakinləri. *Lille* (little) – ingiliscə balaca, *put* isə nifrətamiz ləqəbdir. Brobdinqreq isə görünür, "böyük", "nəhəng", "nəcib" mənasını verən tərkibdən düzəldilib. Bütün bunlar XVIII əsrin burjua cəmiyyəti üçün xarakterik idi.

BİRİNCİ HİSSƏ

Liliputstana səyahət

BİRİNCİ FƏSİL

Müəllifin özü və ailəsi haqqında bəzi məlumat verməsi. Səyahətə ilk həvəsi. Gəminin fəlakətə düçar olması, müəllifin isə üzə-üzə xilas olub, sağ-salamat liliputlar ölkəsinin sahillərinə yetişməsi. Onu əsir edib ölkənin içərilərinə aparmaları.

Mən Nottinhemşirdə anadan olmuşam. Burada atamın kiçik bir mülkü var idi. On dörd yaşım tamam olanda, atam məni Emanuilin Kembricdəki kollecinə göndərdi. Orada üç il qalıb elmləri cidd-cəhdlə öyrəndim. Məni kollecdə daha artıq saxlamaq üçün atamın pulu olmadığından, kollecdən çıxarıb, Londonun görkəmli həkimi mister Cems Betsin yanında şagird qoydu. Dörd il onun yanında qaldım. Atam mənə arabir pul göndərirdi. Mən bu pulların hamısını naviqasiyaya aid bilikləri və riyaziyyatın başqa sahələrini öyrənmək üçün xərcləyirdim. Bu elmlər səyahət zamanı hər bir vaxt mənə lazım ola bilərdi. İnanırdım ki, bəxtim məni gələcəkdə səyahətçi edəcəkdi. Mən mister Betsdən ayrılıb Nottinhempşirə, evə qayıtdım. Atamın, əmim Consun və başqa qohumlarımın köməyilə qırx funta qədər pul yığa bildim, təhsilimi davam etdirmək məqsədilə Leydenə getməyi qərara aldım. Qohumlarım hər il mənə otuz funt pul göndərəcəklərini vəd etdilər. Mən Leydendə iki il yeddi ay ərzində tibb elmini öyrəndim. Bilirdim ki, bu elm uzaq səyahətlərdə mənə lazım olacaqdır.

Leydendən qayıtdıqdan sonra xeyirxah müəllimim mister Betsin köməyilə "Qaranquş" adlı bir gəmidə cərrahlıq vəzifəsinə qəbul olundum. Bu gəminin kapitanı Avraam Pannel idi. Mən bu gəmidə üç il yarım işlədim. Levanta və başqa ölkələrə bir neçə dəfə səyahətə getdim. Vətənə qayıtdıqdan sonra köçüb Londonda yaşamağı qərara aldım.

Mister Bets mənim bu qərarımı çox bəyəndi və bir neçə xəstəni müalicə üçün yanıma göndərdi. Mən Old-Curi küçəsində kiçik evin bir hissəsini kirayə etdim və dostlarımın məsləhətilə Nyuhet-stritdə corabçılıq edən mister Edmund Bertonun ikinci qızı miss Meri Bertonla evləndim. Qız üçün cehiz olaraq, dörd yüz funt pul aldım.

İki il sonra mənim xeyirxah müəllimim Bets vəfat etdi. Qazancım xeyli azaldı. Dostlarım az idi, peşə yoldaşlarımın pis hərəkətlərini təkrar etmək isə mənə ar gəlirdi. Odur ki, arvadımla və bəzi tanışlarımla məsləhətləşib, yenə də dənizçiliyə getmək qərarına gəldim. Altı il ərzində gəmidə cərrahlıq etdim, iki dəfə iş yerimi dəyişib, müxtəlif gəmilərdə işlədim; Şərqi və Qərbi Hindistana bir neçə dəfə səyahətə yollandım. Bu vəzifədə işləyən zaman öz işlərimi bir qədər düzəltdim.

Mən səfərə çıxanda, özümlə xeyli kitab götürərdim; boş vaxtlarımda qədim və yeni dövrün ən yaxşı yazıçılarının əsərlərini oxuyardım. Sahilə çıxanda isə yerli əhalinin adət və ənənələrinə maraqlanıb, onların dillərini öyrənərdim. Yaddaşım yaxşı olduğu üçün buna asanlıqla nail ola bilirdim.

Mənim bu səyahətlərimdən sonuncusu o qədər də müvəffəqiyyətli olmadı. Dəniz məni usandırmışdı. Ona görə də evdə, arvaduşağımın yanında qalmağı qərara aldım. Mən dənizçilər arasında işləmək ümidilə, Old-Curidən Fetter-Leynə, oradan da Uoppinqə köçdüm: ancaq mənim bu ümidim boşa çıxdı. Üç il əbəs yerə gözlədikdən sonra, axırda "Antilopa" gəmisinin sahibi kapitan Vilyam Priçardın Cənub dənizinə[1] səfərə çıxmaq barəsindəki əlverişli təklifini qəbul etdim. Gəmimiz 1699-cu il mayın 4-də Bristoldan çıxıb yola düşdü. Səyahətimiz başlanğıcdan çox yaxşı oldu.

Səmt küləkləri sürətlə irəliyə getməyimizə kömək etdiyindən, tezliklə Şərqi Hindistana istiqamət aldıq. Elə bu vaxt dəhşətli bir fırtına başladı. Tufan bizi Vandimen Torpağından*[2] şimal-qərbə aparırdı. Biz indi 30°2' cənub en dairələrində idik. Gəmi heyətindən on iki nəfərim həddindən artıq yorğunluqdan və yeməyin pisliyindən ölmüş, qalanları isə tamamilə taqətdən düşmüşdülər. Noyabrın 5-də (o yerlərdə yay fəsli bu zaman başlanır) güclü külək bizi irəliyə doğru qovurdu; qatı duman vardı; birdən-birə gəmidən yarım kabeltov[3]

[1] *Cənub dənizi* – Sakit okeanın cənub hissəsinin qədim adı
[2] Ulduz işarəsi qoyulmuş sözlərin izahı kitabın sonundadır.
[3] İngiltərədə dəniz uzunluq ölçüsüdür. 1 kabeltov 183 metrdir.

məsafədə sualtı qayalar göründü. Külək dəhşətlə coşaraq, gəmini alıb qayalara doğru apardı, bir tədbir görməyə vaxt qalmamışdı. Gəmi qayalara çırpıldı və həmin dəqiqə parçalandı.

Gəmi heyətindən altı nəfəri, o cümlədən də mən, qayığı suya saldıq və gəmidən uzaqlaşaraq qayalara tərəf getdik. Mənim hesabıma görə biz avar çəkərək, ancaq üç milə[1] qədər yol getmişdik. Son günlər hamımız gəmidə çox işləmiş olduğumuzdan, indi daha avar çəkməyə gücümüz çatmırdı. Avarları atıb özümüzü dalğaların ixtiyarına verdik. Yarım saat sonra şimaldan əsən qasırğa qayığımızı çevirdi. Qayıqda olan, habelə gəmidə qalan və xilas olmaq üçün qayaya göz dikən yoldaşlarımın başlarına nə gəldiyini bilmirəm. Güman edirəm ki, onlar hamısı həlak oldular.

Suya düşdükdən sonra özümü küləyin və cərəyanın ixtiyarına buraxıb hara gəldi üzməyə başladım. Ayağımın suyun dibinə çatıb-çatmadığını bir neçə dəfə yoxladım. Nəhayət, tamamilə gücdən düşdüm və daha dalğalarla mübarizə edə bilmədim, elə bu zaman ayağımın torpağa toxunduğunu hiss etdim.

Bu vaxt fırtına da xeyli sakitləşməyə başladı. Suyun dibi o qədər enişidi ki, mən birtəhər yol tapıb, sahilə çıxa bilmək üçün düz bir mil qədər suyun içində gəzməli oldum. Yəqin ki, axşam saat səkkizə yaxın idi. Sahilə çıxdıqdan sonra ölkənin içərisinə doğru yarım mil qədər getdim, ancaq heç yerdə nə bir ev, nə də adam izi görə bildim. Gəmini tərk edərkən yorğunluq və istidən, içdiyim yarım pinta[2] arağın təsirindən məni yuxu basırdı. Yumşaq və alçaq otun üstündə uzandım. Məni elə bərk yuxu apardı ki, heç ömrümdə belə yatmamışdım.

Mənim hesabıma görə yuxuladığım azı doqquz saat olardı; çünki mən ayılanda artıq hava işıqlaşmışdı. Qalxmaq istədimsə də, ancaq yerimdən tərpənə bilmədim. Əllərimi və ayaqlarımı, uzun və sıx saçlarımı möhkəmcə yerə bağlamışdılar. Özüm də arxası üstə uzanaraq qalmışdım. Bununla bərabər hiss edirdim ki, qoltuğumun altından tutmuş ta ombama qədər bütün bədənim incə iplərlə sarınmışdı. Mən yalnız yuxarı baxa bilirdim: gün də qızmağa başlayırdı, onun işığı gözlərimi qamaşdırırdı. Mən qarmaqarışıq səslər eşidirdim, amma arxası üstə uzandığım üçün buludlardan başqa heç bir şey görə bilmirdim.

[1] On kabeltova bərabər olan dəniz mili nəzərdə tutulur.
[2] *Pinta* – yarım litrə yaxın ingilis maye ölçüsü.

Bir az sonra hiss etdim ki, canlı bir şey sol qıçımdan başlayaraq, üzüyuxarı, döşümə doğru hərəkət edir və çənəmə yaxınlaşır. Göz yetirdikdə, qarşımda xırdaca bir adam gördüm, onun boyu altı düymdən artıq olmazdı, əlində yay və ox var idi, çiynindən isə oxqabı asılmışdı. Onun ardınca azı qırxa qədər belə xırdaca adamın hərəkət etdiyini duydum. Təəccübdən elə bərk qışqırdım ki, onlar mənim üzərimdən yerə atıldılar, bunun nəticəsində də bəziləri əzildi. Amma tezliklə qayıdıb gəldilər. Onlardan bir qoçağı cürət edib üzümə lap yaxınlaşdı. Belə ki, onu başdan-ayağa görə bildim. O, təəccübünü bildirmək üçün əlini yuxarı qaldırdı, gözlərini bərəltdi və cingiltili səslə qiyyə çəkib dedi: *"Gekina dequl!"* O biriləri də həmin sözü bir neçə dəfə təkrar etdilər. Mən o zaman hələ bunun nə demək olduğunu bilmirdim.

Oxucu asanlıqla gözünün qabağına gətirə bilər ki, bütün bu müddətdə mən çox narahat bir vəziyyətdə uzanmışdım. Axır ki, bir qədər güc vurub, sol qoluma sarınmış ipləri qırdım və onların bağlandıqları payaları dartıb çıxara bildim. Əlimi gözlərimin üstünə apardım və məni sarımaq üçün onların nə hiylə işlətdiklərini ancaq indi başa düşdüm.

Mən kəskin bir hərəkətlə başımı tərpətdim. Bu hərəkətdən başım bərk incitdisə də, ancaq saçlarımı sol tərəfdən bənd edən iplər bir qədər boşaldı. İndi mən başımı iki düymə qədər sağ tərəfə çevirə bilirdim. Ancaq bu xırdaca məxluqlar yenə də qaçışdılar, mən onlardan birini də tutmağa macal tapmadım.

Bundan sonra qulaqbatırıcı bir çox səslər eşitdim. Bu səslər kəsildikdən sonra bir nəfər bərkdən çığırdı: *"Tolqo fonak!"* Həmin dəqiqə yüzdən artıq oxun sol qoluma sancıldığını duydum. Bu oxlar məni iynə kimi sancırdı. Həmin saat yenidən üzərimə oxlar yağmağa başladı. Bizdə – Avropada bombaları havaya atdıqları kimi, indi onlar da oxlarını havaya atırdılar. Belə güman edirəm ki, mənim bədənimə (bunu özüm hiss etmirdimsə də) ox, dolu kimi yağırdı. Oxların bir neçəsi üzümə dəydi. Mən tələsik əlimi üzümə tutdum. Ağrıdan və qəzəbdən ufuldamağa başlayıb, xilas olmaq üçün yenə də cəhd etdim. Amma onlar əvvəlkinə nisbətən indi daha çox ox yağdırırdılar. Bəziləri nizələrini böyrümə soxmağa başladılar. Ancaq xoşbəxtlikdən əynimdəki gödəkcə camış dərisindən olduğu üçün bu nizələr onu dəlib keçə bilmədi.

Mən bu fikrə gəldim ki, axşam düşənə kimi sakit uzanmağım daha yaxşıdır. Qaranlıqda sol əlimin köməyilə özümü xilas etmək

mənim üçün çox da çətin olmazdı. Mən tamamilə haqlı olaraq düşünürdüm ki, əgər bu ölkənin bütün əhalisi mənim indi gördüyüm boyda adamlardan ibarətdirsə, bunlar mənim üstümə nə qədər qoşun göndərsələr, öhdələrindən gələ bilərəm.

Amma mənim görəcək günlərim varmış! Bu adamlar mənim sakit uzandığımı görüb, ox atmaqdan əl çəkdilər. Ancaq səs-küydən başa düşdüm ki, onların sayı daha da artmışdır. Sağdan, lap qulağımın dibindən bərk taqqıltı gəlirdi, elə bil ki, yaxında nə isə tikirdilər. Bu taqqıltı bir saatdan artıq çəkdi. Böyük çətinliklə başımı səs gələn tərəfə çevirdim, özümdən dörd yard[1] aralı, təxminən bir fut yarım hündürlüyündə bir kürsü qurulduğunu gördüm. Bu kürsünün üstündə yerli əhalidən üç-dörd nəfəri otura bilərdi. Onlardan, deyəsən, əyan olan birisi, yanınca üç nəfərdən ibarət məiyyətilə həmin kürsüyə çıxdı və üzünü mənə tutub, uzun bir nitq söylədi. Mən bu nitqdən heç bir söz də başa düşmədim.

Bunu da qeyd etməliyəm ki, həmin əyan danışmağa başlamazdan əvvəl üç dəfə *"Lanqro de gil san!"* – deyə qışqırdı. Bu sözləri eşidən kimi, yerlilərdən əlli nəfəri həmin dəqiqə mənə yaxınlaşıb, sol tərəfdən saçlarımı bənd edən ipləri kəsdilər. Beləliklə, mən başımı sağ tərəfə çevirib, danışan adamın zahiri görünüşünə və hərəkətlərinə diqqətlə baxa bildim.

Bu adama zahiri görünüşündən qırx yaş vermək olardı. O, boyca yoldaşlarından xeyli uca idi. Yanındakılardan biri mənim orta barmağımdan bir azca uzun olardı. O, əyanın uzun ətəyindən tutmuşdu. Yəqin ki, bu, onun ətəktutan nökəri idi. İki nəfər də hərəsi onun bir tərəfində durmuşdu. O, əsl natiq kimi danışırdı. Onun nitqinin bəzi yerlərində hədə, bəzi yerlərində vəd, mərhəmət və iltifat hiss olunurdu. Mən qısaca cavab verdim, ancaq itaətkar bir halda danışıb, sözümün axırında sol əlimi və başımı günəşə doğru qaldırdım, sanki onu şahid çağırırdım. Mən lap acından ölürdüm (axırıncı dəfə gəmidə, fəlakətdən bir neçə saat əvvəl yemək yemişdim), odur ki, səbir edə bilməyib, ədəbsizliklə də olsa, dəqiqəbaşı barmağımı ağzıma tərəf aparıb, yemək istədiyimi bildirdim.

Qurqo (sonralar öyrəndim ki, burada əyanları belə adlandırırlar) mənim fikrimi çox yaxşı başa düşmüşdü. O, kürsüdən endi, böyürlərimə bir neçə nərdivan qoyulmasını əmr etdi. Yüzdən artıq

[1] *Yard* – 91,4 santimetrə bərabərdir.

yerli əllərində cürbəcür yeməklərlə dolu səbətlər, nərdivanlara dırmaşıb, ağzıma tərəf yönəldi.

Padşaha mənim barəmdə məlumat çatan kimi, o yeməkləri bura gətirmək əmri vermişdi. Yeməklər cürbəcür heyvanların ətindən hazırlanmışdı, amma mən ətlərin tamından bunların hansı heyvan olduğunu təyin də bilmədim. Ətlərin arasında bud əti, can əti, döş əti var idi. Bunlar zahirdən qoyun ətinə bənzəyirdi. Amma bu ət parçaları torağay qanadlarından da kiçik idi. Mən onların ikisini-üçünü birdəfəyə ağzıma qoyub, hər biri tüfəng güllәsindən böyük olmayan üç çörəklə bir yerdə yeyirdim. Bu xırdaca adamlar mənə çox ciddcəhdlə qulluq edirdilər. Mənim boyuma və iştahama təəccüblərini min cür işarələrlə bildirirdilər.

Mən doyduqdan sonra işarə ilə içki istədim. Bunlar zirək və qanacaqlı adamlar idi. Yediklərimin miqdarından başa düşmüşdülər ki, məni az şeylə doydura bilməyəcəklər. Odur ki, onlar çox böyük məharətlə, iplərin köməyilə, ən böyük çəlləklərdən birini mənim üstümə qaldırıb əlimə sarı diyirlətdilər və qapağını vurub çıxartdılar. Çəlləkdəki çaxır yarım pintadan çox olmazdı. Mən onu birnəfəsə içdim. Çaxır yüngül Burqund şərabını xatırladırdı, amma çox dadlı idi. Onlar mənim üçün ikinci çəlləyi gətirdilər. Mən onu da əvvəlki qayda ilə içdim və işarə ilə yenə də çaxır istədim, ancaq daha çaxırları yox idi.

Mənim bu əcaib hərəkətlərim bu xırdaca adamları heyran etmişdi. Onlar sevindiklərindən sinəmin üstündə atılıb-düşür və öz ilk nidalarını dalbadal təkrar edib çağırırdılar: "*Qekina dequl!*" Onlar işarələrlə məni başa saldılar ki, çəlləklərin hər ikisini yerə tullayım. Amma əvvəlcədən uca səslə "*Bora mivola!*" – deyə aşağıda dayananları xəbərdar etdilər ki, onlar kənara çəkilsinlər. Çəlləklər göydə oynadıqda, hamı bir səslə çığırdı: "*Qekina dequl!*"

Doğrusu, onlar mənim sinəmin üstündə o baş-bu başa gəzişərkən, bir neçə dəfə ağlıma belə bir fikir gəldi ki, heç olmasa əlimə keçən qırx-əlli nəfərini tutub yerə çırpım. Ancaq iki səbəbə görə özümü saxladım; əvvəla, bütün çəkdiklərimi yadıma saldım və düşündüm ki, onlar mənə daha artıq pislik edə bilərlər. Bir də ki, mən onlara sədaqətlə söz vermiş və öz itaətkarlığımı izah etmişdim, – beləliklə, mən bu fikirdən daşındım. Bundan başqa, mənim üçün xərc çəkib belə yaxşı bir qonaqlıq düzəldən xalqın qonaqpərəstliyinə qarşı özümü minnətdar hesab edirdim.

Hər halda bu xırdaca məxluqların cürətinə baxdıqca, doymaq bilmirdim. Yəqin ki, mən bunların gözünə çox nəhəng bir məxluq kimi görünürdüm, amma onlar cürətlə mənim üstümə çıxıb, bütün bədənimdə gəzişir, bir əlimin açıq olduğunu heç veclərinə də almırdılar.

Bir qədər sonra mənim qarşımda yüksək mənsəb sahibi olan bir şəxs gəlib durdu: bu, əlahəzrət imperatorun elçisi idi. Səfir həzrətləri ayaqlarımın üstünə çıxıb, çoxlu əyan-əşrəf ilə birlikdə üzümə doğru yönəldi. O, imperator möhürü ilə möhürlənmiş etimadnaməsini[1] gözümün önünə tutaraq, mənə təqdim etdi və nitq söylədi. Elçi on dəqiqə danışdı, onun danışığında qəzəb əlaməti yox idi. Amma görkəmi qəti və iradəli idi. Bu vaxt o, əliylə tez-tez uzaqda haranı isə göstərdi. Sonradan öyrəndim ki, o, əlahəzrətin və dövlət şurasının məni buradan yarım mil məsafədə olan paytaxta aparmaq haqqındakı qərarı barəsində danışırmış.

Onun nitqinin cavabında mən də bir neçə söz dedim, amma bunları başa düşən olmadı. Mən işarələrlə danışmalı oldum. Mən açıq əlimlə o biri bağlı əlimə, sonra da başıma və bədənimə işarə etdim və bununla da azad olmaq istədiyimi bildirdim. Görünür zatialiləri bu işarələrin mənasını yaxşı başa düşmüşdü, çünki o başını mənfi mənada yırğaladı və işarələrlə mənə bildirdi ki, məni bir əsir kimi aparacaqlar. Bununla bərabər, o mənimlə yaxşı rəftar olunacağını da başa saldı.

Bu zaman mən yenə bədənimi sarımış bağları dartıb qırmaq fikrinə düşdüm. Əlimin və üzümün dərisinə dəymiş oxların törətdiyi suluqların ağrısı məni bu fikirdən daşındırdı. Həm də görürdüm ki, düşmənlərimin sayı getdikcə daha da artır. Buna görə, işarələrlə başa saldım ki, mənimlə istədikləri kimi rəftar edə bilərlər. Bundan sonra *qurqo* və onu müşayiət edənlər mənə çox hörmətlə baş əyib, xeyli şad halda çəkilib getdilər.

Çox keçmədi ki, fərəhli bir səs-küy qopdu. Bu səslərin içərisində: "*Peplom selyan*" sözləri tez-tez təkrar olunurdu. Birdən keşiyimi çəkən yerli dəstələrin məni sol tərəfdən bağlamış ipləri boşaltdıqlarını hiss etdim. Belə ki, artıq sağ böyrü üstə çevrilə bilirdim. Onlar hələ əvvəlcədən mənim əllərimə və üzümə xoş ətirli bir məlhəm sürtmüşdülər; bu məlhəm oxların törətdiyi göynədici ağrını o saat kəsmişdi. Özümü rahat hiss etdim və məni yuxu apardı. Sonradan mənə

[1] *Etimadnamə* – xarici ölkəyə diplomatik nümayəndənin təyin edilməsini bildirən sənəd.

dedilər ki, səkkiz saata qədər yatmışam. Bu heç də təəccüblü deyildi. Çünki imperatorun əmrinə görə, həkimlər çəlləklərdəki şəraba yuxu dərmanı qatmışdılar.

Yəqin ki, əhvalat belə olubmuş: mənim barəmdə imperatora məlumat çatan kimi, o, şura ilə məsləhətləşib məni təcili surətdə möhkəm sarıyıb bağlamağı əmr edibmiş (bu əmri gecə mən yatdığım zaman yerinə yetirmişdilər). Eləcə də əmr edibmiş ki, yuxudan ayıldıqda, məni yedirib-içirsinlər və paytaxta aparmaq üçün maşın hazırlasınlar.

İlk görüşdə belə bir qərar çox cəsarətli və təhlükəli görünə bilər. Mən əminəm ki, Avropa padşahlarından heç biri belə etməzdi.

Ancaq fikrimcə, imperatorun əmri nə qədər ağıllı idisə, bir o qədər də mərhəmətli idi. Tutaq ki, mən yuxuda olduğum zaman, bu adamlar məni öldürmək fikrinə düşəydilər. Onların ilk hücumunda, əlbəttə, mən ağrı hiss edib yuxudan ayılacaqdım. Elə bərk qəzəblənəcəkdim ki, bir anda ipləri dartıb qıracaq və onların üstünə hücum edəcəkdim. Tamamilə aydındır ki, o zaman onlar məndən heç bir aman gözləyə bilməzdilər.

Bu adamlar çox yaxşı riyaziyyatçı idilər və elmin məşhur himayəçisi olan imperatorun təşviqi və köməyi sayəsində, mexanika sahəsində böyük müvəffəqiyyətlər qazanmışdılar. Böyük tirləri və başqa ağır şeyləri daşımaq üçün imperatorun sərəncamında cürbəcür və növbənöv çarxlı maşınlar var idi. Burada, tikintidə işlənən ağaclar bitən yerlərdə, uzunluğu doqquz futa qədər olan çox böyük hərbi gəmilər inşa edirlər. Sonra gəmiləri bu maşınların üstünə qaldırıb, dəniz sahilinə aparırlar.

Beş yüz nəfər xarrat və mühəndisə tapşırılıbmış ki, təcili bir surətdə belə maşınlardan ən böyüyünü hazırlasınlar. Əmr ən qısa bir müddətdə yerinə yetirilibmiş. Mənim sahilə çıxdığımdan heç dörd saat keçməmiş, bu maşını mənim ardımca göndəriblərmiş. Maşının mənim olduğum yerə gəlməsini xalq, sevincli qışqırıqlarla qarşılayırdı. Bu maşın yerdən üç düym hündürlüyündə, yeddi fut uzunluğunda və dörd fut enliyində, iyirmi iki çarx üzərində qoyulmuş bir taxta meydança idi. Onu çəkib mənim yanımda, bədənimə paralel halda saxlamışdılar.

Əsas çətinlik məni qaldırıb bu maşına qoymaqdan ibarət idi. Bu məqsədlə yerə hər biri bir fut hündürlüyündə səksən dirək bas-

dırmışdılar, sonra fəhlələr mənim boynumu, əllərimi, bədənimi və ayaqlarımı, uclarında qarmaq olan çoxlu iplə bağlamış, bu qarmaqlara ciyə yoğunluqda möhkəm kəndirlər taxıb, onları dirəklərin ucundakı qarqaralardan keçirmişdilər. Doqquz yüz nəfər ən güclü fəhlə kəndirləri dartmağa başlamış və beləliklə, üç saatdan da az bir müddətdə məni arabaya qaldırıb, orada möhkəmcə sarımışdılar.

Bunun hamısını mənə sonra nağıl etdilər. Yuxu dərmanı sayəsində mən dərin yuxuya getdiyimdən bunlardan heç birini hiss etməmişdim.

Məni, əvvəlcə söylədiyim kimi, yarım mil məsafədə olan paytaxta aparmaq üçün saray tövlələrindən hər biri dörd yarım düym hündürlüyündə min beş yüz ən böyük at gətirmək lazım gəlibmiş.

Məni qəribə bir hadisə yuxudan ayıltdığı zaman, düz dörd saatlıq yol getmişdik. Araba yolda xarab olduğundan, təmir üçün dayanmışdı. Bundan istifadə edərək, iki, ya üç nəfər yerli gənc mənim yatmış halda necə göründüyümə tamaşa etmək üçün arabaya qalxır, yavaş-yavaş üzünü üzümə yaxınlaşdırır. Onlardan qvardiya zabiti olan birisi nizənin ucunu burnumun sol deşiyinə soxur.

Bu, saman çöpü kimi burnumu qıcıqlandırır və mən asqırıb yuxudan oyanıram. Qoçaqlar yavaşca əkilirlər. Mən nə üçün qəflətən yuxudan ayıldığımı ancaq üç həftədən sonra bildim.

Bütün günü yolda keçirtdik. Gecələmək üçün durduğumuz yerdə mənim arabamın dövrəsində beş yüzə qədər qvardiyaçı keşik çəkirdi. Onların yarısı məşəl yandırıb gəzdirirdi, qalanları isə əllərindəki yay və oxla hazır dayanmışdılar. Əgər mən ayağa qalxmaq istəsəydim, o dəqiqə mənə ox yağdıracaqdılar.

Gün doğar-doğmaz, biz təzədən yola düşdük və günortaya yaxın şəhər darvazalarından iki yüz yard məsafəyə çatdıq. İmperator saray əyanlarının hamısı ilə birlikdə bizim qabağımıza çıxdı. Amma böyük mənsəb sahiblərinin hamısı əlahəzrətin mənim üzərimə çıxmaqla, öz ali vücudunu təhlükəyə qoymasına qəti surətdə mane olmuşdular.

Araba bütün krallıqda ən böyük bina sayılan qədim məbədin qarşısında durdu. Bir neçə il bundan əvvəl burada dəhşətli bir qətl baş vermişdi. Yerli əhali çox dindar olduğundan, məbədi ləkələnmiş hesab edir və daha bura gəlmirdi. Məbədi bağlamış, bəzək avadanlığını boşaltmışdılar; o zamandan bəri ora boş qalmışdı. Məni həmin bu məbəddə yerləşdirməyi qərara almışdılar.

Bu binanın şimala açılan qapısının hündürlüyü dörd futa, eni isə iki futa qədər idi; belə ki, mən buradan asanlıqla keçə bilərdim. Qapının hər iki tərəfində yerdən cəmi altı fut hündürlüyündə iki pəncərə vardı. Saray dəmirçiləri, Avropa qadınlarının saat zəncirləri yoğunluğunda olan doxsan bir zənciri sol pəncərədən keçirərək, mənim sol ayağıma otuz altı asma qıfıl ilə bənd etdilər. Böyük yolun o biri tayında, bu məbədin lap qarşısında hündürlüyü beş futdan az olmayan bir bürc vardı. İmperator mənə yaxşı tamaşa etmək üçün baş əyanlarının müşayiətilə həmin bürcə çıxdı. Xüsusi hesablamanın göstərdiyinə görə, yüz mindən artıq şəhər camaatı məni görmək üçün məbədin dövrəsinə yığışmışdı. Zənnimcə, onlardan azı on min nəfəri mənim üstümə çıxmışdı. Amma tezliklə bir əmr verildi, bu əmrə görə, mənim üstümə çıxmaq ölüm cəzası hədəsilə qadağan edilmişdi.

Dəmirçilər öz işlərini bitirdikdən sonra, məni sarıdıqları ipləri kəsdilər və mən ömrümdə duymadığım böyük bir kədərlə ayağa qalxdım.

Mənim ayağa qalxıb yeridiyimi görən izdihamın təəccüb və səsküyünü təsvir etmək mümkün deyildir. Mənim bağlandığım zəncirin uzunluğu iki yarda yaxın idi, odur ki, mən bir yarım dairə halında var-gəl etməkdən başqa, sürünüb məbədin içinə girmək və əl-ayağımı uzadıb yatmaq imkanına malik idim.

İKİNCİ FƏSİL

Liliputlar imperatorunun xeyli əyanla birlikdə müəllifin yanına gəlməsi. İmperatorun zahiri görünüşünün və paltarının təsviri. Liliputların dilini müəllifə öyrətmək haqqında alimlərin tapşırıq almaları. Müəllifin öz mülayim davranışı ilə imperatorun mərhəmətini qazanması. Müəllifin ciblərinin axtarılması. Onun qılınc və tapançalarının alınması.

Mən ayağa qalxıb ətrafı gözdən keçirdim. Boynuma almalıyam ki, heç bir vaxt bu qədər əyləncəli və maraqlı bir mənzərə görməmişdim. Ətraf başdan-başa bağlıq idi: hər biri qırx futdan artıq olmayan çəpərlənmiş tarlalar çiçək ləklərinə oxşayırdı. Bu tarlalardan

sonra yarım stanq sahəsi olan meşəliklər başlayırdı. Ən hündür ağac, mənim fikrimcə, yeddi futdan uca olmazdı. Sol tərəfdə səhnə dekorasiyasına oxşayan şəhər yerləşmişdi.

Mən bu qeyri-adi mənzərəni seyr etdiyim zaman, imperator bürcdən enib, at üstündə mənə sarı gəldi. Belə bir cəsarət ona az qala baha oturacaqdı. At məni görcək diksindi və şahə qalxdı, yəqin o, üzərinə bir dağ gəldiyini zənn etmişdi. İmperator əla minici olduğu üçün özünü yəhərdə saxlaya bildi. Bu zaman xoşbəxtlikdən nökərlər onun köməyinə yetişdilər. Onlar ürkmüş atın yüyənindən tutdular və əlahəzrətin atdan düşməsinə kömək etdilər. İmperator tamamilə sakit idi. O, paltarını səliqəyə saldıqdan sonra hər tərəfdən mənə diqqətlə tamaşa etməyə başladı. Hazır durub əmr gözləyən aşpazlara və saray xidmətçilərinə buyurdu ki, mənə yemək və içmək gətirsinlər. Onlar yemək və şərab dolu arabaları əlim çata bilən bir məsafəyə sürüb gətirdilər. Mən onları götürüb çox tez boşaltdım. İyirmi arabada yemək, on arabada isə içki vardı. Ərzaqla dolu hər bir arabanı iki və ya üç uduma boşaldırdım. Şəraba gəlincə, gildən düzəldilmiş hər on qabın içindəkini bir qaba boşaldıb, birdəfəyə başıma çəkirdim; mən qalan şərabı da bu sayaqla içdim.

İmperatorun arvadı, gənc şahzadələr və şahzadə xanımlar saray qadınları ilə birlikdə kənarda düzülmüş qoltuqlu kürsülərdə oturmuşdular; ancaq atın başına gələn macəradan sonra onların hamısı qalxıb imperatorun yanına gəldilər.

İndi mən əlahəzrətin zahiri görünüşünü təsvir etməyə çalışacağam. O öz saray adamlarından mənim dırnağım qədər hündür idi; bu səbəbdən ətrafındakılar ona qarşı qorxu qarışıq bir ehtiram hissi duyurdular. Onun üzünün cizgiləri ciddi və mərdanə idi; dodaqları azca qatlanmışdı; burnu qartal dimdiyinə bənzəyirdi; üzünün rəngi boğunuq idi, qaməti düz, əl-ayağı qəşəng, *hərəkətləri zərif, boybuxunu əzəmətli idi**. İmperator çox da cavan deyildi, onun *iyirmi səkkiz yaş doqquz ay olmasına baxmayaraq**, yeddi ildi ki, müvəffəqiyyətlə padşahlıq edirdi. Əlahəzrətə yaxşı baxa bilmək üçün böyrü üstə uzandım, belə ki, biz üz-üzə dayandıq. O məndən cəmisi üç yardlıq məsafədə durmuşdu. Sonralar onu dəfələrlə əlimə götürdüyüm üçün onu təsvir etməkdə səhvim ola bilməzdi.

İmperatorun paltarı çox sadə idi, Avropa ilə Şərq səliqəsi biçimində tikilmişdi; başında qızıldan yüngül bir dəbilqə vardı; bu

dəbilqə qiymətli daş-qaşla bəzənmiş və təpəsinə lələk taxılmışdı. İmperator zənciri qıracağımdan qorxub, hər ehtimala qarşı hazır olmaq üçün sıyrılmış qılıncını əlində hazır tutmuşdu. Qılıncın uzunluğu üç düym idi, qızıldan olan dəstəsi və qını brilyant ilə bəzədilmişdi. Əlahəzrətin səsi cingiltili, təmiz və anlaşıqlı olduğu üçün, ayaq üstündə olduğum halda da onun danışığını yaxşı eşidə bilirdim.

Qadınlar və saray adamları çox yaxşı geyinmişdilər. Bu əlvan izdiham uzaqdan, *qızıl və gümüşlə işlənmiş**, torpağa sərilmiş rəngbərəng yubkaya bənzəyirdi.

Əlahəzrət imperator mənə tez-tez suallar verirdi. Ancaq biz birbirimizə dediyimiz sözlərdən bircə kəlmə də başa düşmürdük. Onda imperator əyanların sırasında olan ruhanilərə və hüquqşünaslara (onları mən geyimlərinə görə tanıdım) əmr etdi ki, mənimlə danışsınlar. Mən də bildiyim bütün dillərdə: almanca, hollandca, latınca, fransızca, ispanca, italyanca danışmağa başladımsa da, bu təşəbbüslərim heç bir nəticə vermədi.

İki saatdan sonra saray adamları getdilər, məni isə yaxınlaşmağa inadla çalışan qara camaatın qəzəbli hərəkətindən və kobudluqlarından qorumaq üçün keşikçi dəstələrinin nəzarəti altında qoydular. Mən evimin qabağında, torpağın üstündə oturduğum zaman, bəziləri o dərəcə həyasızlıq etdilər ki, mənə bir neçə ox da atdılar. Oxlardan biri, az qala, sol gözümə dəyəcəkdi.

Bu ədəbsizlikdən hirslənmiş qoşun böyüyü əmr etdi ki, mənə ox atanlardan altı nəfərini tutsunlar. Onları cəzalandırmaq üçün mənim özümə vermələrini buyurdu. Əsgərlər şuluq salanları nizələrinin küt ucu ilə qovub, mənə sarı gətirdilər. Mən onların hamısını sağ əlimlə qamarladım, beş nəfərini kamzolumun cibinə qoydum, altıncısını isə götürüb ağzıma yaxınlaşdırdım və özümü elə göstərdim ki, guya onu diri-diri yemək istəyirəm. Yazıq dəhşətlə zingildədi, qoşun rəisi və zabitlər isə cib bıçağımı çıxartdığımı görüb bərk təşvişə düşdülər. Amma onlar tezliklə sakitləşdilər. Mən öz əsirimin üzünə mehribanlıqla baxıb, qollarına bağlanmış ipləri kəsdim və ehmalca yerə qoydum. O, həmin dəqiqə qaçıb getdi. O birilərini də bir-bir növbə ilə cibimdən çıxarıb, həmin qayda ilə azad etdim. Mən keşikçilərin və kütlənin belə rəhmdilliyimdən razı qaldıqlarını gördüm. Məni incidənlərə qarşı belə mülayim rəftarım saray adamlarına, mənim xeyrimə olaraq, xoş bir təsir bağışlamışdı.

Gecə yaxınlaşdıqda, bir qədər çətinliklə də olsa, öz evimə girdim və quru yerdə uzanıb yatdım. Gecələrimi iki həftəyə qədər bu sayaq keçirdim. Sonra imperatorun xüsusi əmrilə mənim üçün döşək və sair yataq ləvazimatı hazırlandı. Altı yüz ədəd adi ölçüdə döşək gətirdilər və mənim evimdə işə başladılar. Yüz əlli döşəyi birbirinə tikib, mənim enimə-uzunuma yarayan bir döşək hazırladılar. Belə döşəklərdən dördünü üst-üstə qoydularsa da, yenə üzərində yatdığım sərt daş döşəmə bir o qədər yumşalmadı. Həmin bu haqq-hesabla da yorğan, döşəkağı və örtük hazırlanmışdı ki, bu da çoxdan bəri sıxıntılara öyrəşmiş bir adam üçün çox yaxşı idi.

Mənim haqqımdakı xəbər krallığa yayılar-yayılmaz, bu xəbəri eşidən varlılar, bekar və hər şeylə maraqlanan adamlar hər yerdən axışıb mənə tamaşa etməyə gəlirdilər. Kəndlər, demək olar ki, bomboş qalmışdı, çöllərdə əkin işləri dayandırılmışdı, ev işlərində bir pozğunluq əmələ gəlmişdi. Əlahəzrət imperatorun ağıllı sərəncamları olmasaydı, bunların hamısı çox pis nəticə verə bilərdi. İmperator əmr vermişdi ki, məni görənlər tezliklə evlərinə qayıtsınlar. Sarayın xüsusi icazəsi olmadan, mənim evimə əlli yardlıq məsafədən yaxın gəlmək, məni təkrar görmək istəyənlərə qadağan edilmişdi. Bu sərəncam bəzi nazirlər üçün böyük gəlir mənbəyi olmuşdu.

Kral mənim yanımdan getdikdən sonra şura çağırıb, orada mənimlə necə rəftar etmək məsələsini müzakirəyə qoymuşdu. Sarayın, mənimlə sonralar yaxın dost olmuş məşhur adamlarından birindən öyrəndim ki, dövlət şurası uzun müddət müəyyən bir qərara gələ bilməmişdi. Onlar bir tərəfdən mənim zənciri qıracağımdan qorxur, o biri tərəfdən isə məni saxlamaq çox baha başa gələ biləcəyindən və mənim ölkədə aclıq törəməsinə səbəb ola biləcəyimdən ehtiyat edirdilər. Şura üzvlərindən bəziləri məni acından, ya da zəhərlənmiş oxlarla öldürməyi təkidlə tələb edirlərmiş. Lakin bu yekəlikdə meyitin çürüyüb qoxuması paytaxtda və bütün ölkədə taun xəstəliyi törədəcəyindən qorxub, bu təklifi rədd etmişdilər.

İclasın ən qızğın vaxtında şuranın getdiyi böyük salonun qapısında bir neçə zabit zahir olur; bunlardan ikisi iclasa buraxılır, bu zabitlər yuxarıda dediyimiz altı nəfər şuluqçu ilə mənim necə mülayim rəftar etdiyim haqqında ətraflı məruzə edir. Bu məruzə əlahəzrətə və bütün dövlət şurasına son dərəcə yaxşı təsir edir. İmperator təcili surətdə paytaxtın doqquz yüz yardlığında yerləşən

bütün kəndlərdən mənim üçün hər səhər altı öküz, qırx qoyun, müvafiq miqdarda çörək, şərab və başqa ərzağın gətirilməsini əmr edir. Bunların hamısının xərci müəyyən məzənnə üzrə əlahəzrətin şəxsi xəzinəsindən ödənilirdi. Qeyd etmək lazımdır ki, bu padşah əsas etibarilə öz mülklərindən gələn gəlirlərlə dolanır və ancaq təktək hallarda öz təbəələrindən maddi yardım alırdı.

Bundan əlavə, mənim yanımda altı yüz adamdan ibarət qulluqçu heyəti düzəldilmişdi. Onların xərci üçün imperator xüsusi vəsait ayırmış, mənim evimin hər iki tərəfində onlardan ötrü rahat çadırlar qurulmasını əmr etmişdi. Bundan başqa, mənə yerli biçimdə paltar tikmək üçün üç yüz dərzi təhkim edildi və altı nəfər məşhur alimin mənə yerli dili öyrətmələri haqqında əmr verildi. İmperatora, saraya və qvardiyaya aid atları mənə öyrəşdirmək məqsədilə, onlarla mənim yanımda mümkün qədər tez-tez təlim keçmək barəsində də imperatorun əmri var idi.

Bu əmrlərin hamısı çox diqqətlə yerinə yetirilirdi. Mən üç həftədən sonra liliput dilini öyrənməkdə xeyli müvəffəqiyyət qazandım. Bu müddət ərzində imperator tez-tez yanıma gəlməklə, məni şərəfyab edir və mənə təlim verənlərdən öz mərhəmətini əsirgəmirdi. Biz daha bir-birimizə öz fikrimizi başa sala bilirdik. İlk öyrəndiyim sözlər, əlahəzrətin mənə azadlıq lütf etməsi barədəki arzumu ifadə edən sözlər idi. Mən hər gün imperatorun hüzurunda diz çöküb, bu sözləri təkrar edirdim. Mənim xahişimə imperator bir qədər qeyri-müəyyən cavab verirdi. Zənnimcə, o deyirdi ki, mənim azad edilməyim üçün dövlət şurasının razılığı vacibdir və bir də mən hər şeydən əvvəl, "*lyumoz kelmin pesso deyemarlon empozo*", yəni onunla və onun imperiyası ilə dinc dolanacağıma and içməliyəm. Əlavə olaraq qeyd etdi ki, mənim azad edilməyimin vaxtı var: gec-tez bu olacaqdır, ancaq onun özü və təbəələri qarşısında səbir və təvazökarlıqla yaxşı ad qazanmağım məsləhətdir.

Bir dəfə imperator məndən xahiş etdi ki, əgər o xüsusi məmurlarına mənim üstümü axtarmaq barədə əmr verərsə, mən bunu özüm üçün həqarət saymayım. O əmindir ki, mən öz yanımda silah gəzdirirəm və mənim vücudumun yekəliyinə baxanda, belə nəticə çıxarmaq olar ki, bu silah çox təhlükəli olmalıdır. Mən əlahəzrətdən bu barədə narahat olmamasını xahiş etdim və onun qarşısında soyunub, ciblərimi çevirməyə hazır olduğumu bildirdim. Bunların

hamısını mən qismən sözlə, qismən də işarələrlə başa saldım. İmperator mənə cavab verdi ki, imperiya qaydalarına görə axtarışı onun iki məmuru aparmalıdır.

O dedi: "Əlbəttə, sizin razılıq və köməyiniz olmadan, qanunun bu tələbi yerinə yetirilə bilməz, amma mən sizin alicənablığınız və haqpərəstliyiniz barədə yüksək fikirdəyəm: odur ki, bu məmurları tam arxayınlıqla sizin ixtiyarınıza verəcəyəm. Onların sizdən alacaqları şeylər bu ölkəni tərk etdiyiniz zaman sizə qaytarılacaq, ya da bunların əvəzində sizə istədiyiniz qədər pul veriləcəkdir".

Hər iki məmuru mən əlimə götürüb, kamzolumun cibinə qoydum. Bir cibimi yoxlayıb qurtardıqdan sonra, mən onları götürüb o biri cibimə qoydum. Mən iki saat cibimdən, bir də gizli cibimdən başqa bütün ciblərimi onlara göstərmişdim. Mənim onlara göstərdiyim ciblərimdə özümdən başqa heç kəsə lazım olmayan bəzi xırım-xırda şeylər var idi. Ciblərimin birində gümüş saat, o birində isə pul kisəm vardı ki, bunun da içində bir neçə qızıl pul qalmışdı. Məmurlar kağız, qələm və mürəkkəb hazırlayıb, cibimdən tapdıqları şeylərin hamısını göstərən *ətraflı bir siyahı tutdular**. Siyahı bitdikdən sonra xahiş etdilər ki, onları yerə düşürüm. Onlar siyahını imperatora təqdim etdilər. Həmin siyahını mən sonralar ingiliscəyə tərcümə etmişdim. Bu siyahı hərfbəhərf belədir:

"Nəhəng Dağ boyda Adamın (*"Kuinbus Flestrin"* sözlərini mən belə tərcümə edirəm) kamzolunun sağ cibini diqqətlə yoxlayaraq, biz orada ancaq böyük və kobud bir kətan parçası tapdıq; bu kətan parçası ölçüsünə görə, Siz əlahəzrətin sarayının baş mərasim salonu üçün xalı ola bilərdi. Sol cibində böyük bir gümüş sandıq var idi, bu sandığın qapağı da həmin metaldandır. Bizim – yoxlayıcıların bu sandığa gücü çatmadı. Bizim tələbimizlə Dağ boyda Adam sandığı açdı, bizlərdən biri sandığa girdi və dizə qədər naməlum bir tozun içinə batdı. Bu toz havaya qalxıb, hər ikimizi bir neçə dəfə bərkdən asqırtdı.

Jiletinin sağ cibində möhkəm bir kəndirlə bir-birinə bənd edilmiş böyük bir bağlama halında nazik ağ kağızlar gördük. Vərəqələrin üzəri naməlum qara işarələrlə örtülmüşdü. Bizim acizanə rəyimizə görə, bu işarələr yazıdan başqa bir şey ola bilməz; hərflərin hər biri əlimizin yarısı boydadır. Jiletin sol cibində xüsusi bir alət var idi. Bu alətin arxa tərəfinə vurulmuş iyirmi uzun mıxça əlahəzrət sarayının

qarşısındakı diş-diş barını xatırladır. Bizim fikrimizcə, Dağ boyda Adam bu alətlə saçlarını darayır, ancaq bu yalnız bizim mülahizəmizdir. Biz Dağ boyda Adama suallar verib, onu narahat etməkdən çəkindik, çünki bir-birimizi başa salmaq bizim üçün çətinlik törədirdi.

Dağ boyda Adamın şalvarının ("*ranfulo*" sözünü mən belə tərcümə edirəm) sağ tərəfindəki böyük cibində içi boş olan bir dəmir sütun gördük, bu sütun adam boyda idi. Sütun bir parça bərk ağaca bənd edilmişdir, ağac bu sütundan daha da enlidir. Sütunun bir tərəfindən çox qəribə şəkildə böyük dəmir parçaları çıxmışdır, bunların nəyə lazım olduğunu biz təyin edə bilmədik. Buna bənzər bir maşın da sol cibindən tapıldı. Sağ tərəfdəki balaca cibdə ölçüləri müxtəlif olan bir neçə dənə yastı və hamar dəyirmi lövhələr vardı, bunlar ağ və qırmızı metaldandır, ağ lövhələrin bəzisi çox böyük və ağırdır, belə ki, biz ikilikdə onları güclə qaldıra bildik. Yəqin ki, bunlar gümüşdən hazırlanmışdır.

Sol cibində qeyri-müəyyən şəkildə olan iki ədəd qara sütun gördük. Cibin dibində ayaq üstündə durduğumuz zaman əlimiz bu sütunların başına güclə çatırdı, hər sütuna poladdan hazırlanmış böyük bir lövhə bənd edilmişdir. Biz bunun təhlükəli bir alət olduğunu güman edib, Dağ boyda Adamdan xahiş etdik ki, bunun nəyə lazım olduğunu bizə anlatsın. Hər iki aləti futlyardan çıxarıb dedi ki, onların ölkəsində bu alətlərin birilə saqqal qırxırlar, o birilə isə ət kəsirlər.

Bunlardan başqa, Dağ boyda Adamın iki cibi də var idi ki, biz ora girə bilmədik. Dağ boyda Adam bunları saat cibləri adlandırır. Bu ciblər onun şalvarının yuxarı hissəsində açılmış iki geniş yarıqdan ibarətdir ki, onun qarnı bu yarıqlara şiddətlə təzyiq edib sıxır. Onun sağ cibindən böyük bir gümüş zəncir sallanır, bu zəncir əcaib bir maşına bağlanmışdır. Bu maşın onun cibinin dibində idi. Biz maşını çıxarmağı ona əmr etdik, o, kürəyə bənzər bir şey idi. Onun yarısı gümüşdən, yarısı isə naməlum şəffaf bir metaldan idi. Bu kürənin şəffaf hissəsində qəribə işarələr görüb, onlara toxunmaq istədik, ancaq əlimiz şəffaf maddəyə dirəndi. Dağ boyda Adam bu maşını bizim qulağımıza yaxınlaşdırdı və biz ardı kəsilməyən bir gurultu eşitdik. Bu gurultu su dəyirmanı çarxının səsinə bənzəyirdi. Bizcə, bu ya naməlum bir heyvandır, ya da onun ibadət etdiyi ilahi bir şeydir. Biz ikinciyə daha çox inanırdıq, çünki Dağ boyda Adam deyirdi ki (əgər biz onun sözlərini düzgün anlamışıqsa), bu maşında

məsləhətləşməmiş o, tək-tək hallarda iş görər. Bu cismi o özünün fal kitabı adlandırır və deyir ki, bu cisim onun həyatının hər bir addımının vaxtını göstərir. Dağ boyda Adam soldakı saat cibindən böyük bir tor çıxartdı. Bu tor, böyüklükdə balıqçı toruna bənzəyir, ancaq quruluşca pul kisəsi kimi açılıb-örtülə bilir. Torun içindən bir neçə parça ağır və sarı metal tapdıq. Əgər bu saf qızıldırsa, yəqin ki, çox böyük qiymətə malikdir.

Dağ boyda Adamın ciblərinin hamısını axtardıqdan sonra onun kəmərini yoxlamağa başladıq; bu kəmər naməlum bir nəhəng heyvanın dərisindən düzəldilmişdir. Kəmərin sol tərəfindən qılınc asılmışdır, bunun uzunluğu orta boylu adamdan beş dəfə artıqdır. Kəmərin sağ tərəfindən isə ikigözlü heybə və ya torba asılmışdır. Heybənin hər gözünə əlahəzrətin təbəələrindən üç nəfərini yerləşdirmək mümkündür. Heybənin bir gözündən, hər biri bizim başımız boyda olan, xeyli yumru kürələr tapdıq. Bunlar hamısı çox ağır bir metaldan hazırlanmışdır. Belə bir küreni qaldırmaq üçün çox böyük güc tələb olunur. Heybənin o biri gözünə qara, çox xırda və yüngül toxum tökülmüşdü. Biz hər əlimizlə belə toxumdan əlliyə qədər saxlaya bildik.

Dağ boyda Adamı axtararkən tapdığımız şeylərin ən dürüst siyahısı bundan ibarətdir. Axtarış zamanı Dağ boyda Adam daim nəzakətli olmuş və Siz əlahəzrətin əmrlərini yerinə yetirən məmurlarla layiqli ehtiramla rəftar etmişdir. Bu vərəqə Siz əlahəzrətin xoşbəxt padşahlığının səksən doqquzuncu ayının dördüncü günü imzalanmış və möhürlənmişdir.

Klefrin Frelok,
Marsi Frelok".

Bu siyahı imperatora oxunduğu zaman əlahəzrət nəzakətlə mənə təklif etdi ki, orada göstərilən şeylərin bəzilərini dövlətə verim. O, hər şeydən əvvəl, mənim qılıncıma işarə etdi. Mən həmin dəqiqə qılıncımı, bütün başqa bəzəyi ilə birlikdə belimdən açdım. Bu müddət ərzində imperator üç min nəfərlik ən yaxşı qoşuna əmr etdi ki (bu qoşun bu gün əlahəzrəti qoruyurdu), onlar oxlarını hazır tutub, məni mühasirəyə alsınlar. Ancaq mənim gözlərim daim əlahəzrətə zilləndiyindən, heç bu qoşunu görməmişdim.

İmperator qılıncı sıyırmağımı arzu etdi. Mən buna itaət etdim və sıyırdığım qılıncı bir neçə dəyə başımın üstündə oynatdım. Əsgərlər

heyrət və dəhşətdən özlərini saxlaya bilməyib çığırışdılar. Qılınc dəniz suyundan azacıq paslanmışdısa da, yenə çox parıldayırdı. Günəşin işığı cilalanmış polad üzərinə düşərək, tamaşaçıların gözlərini qamaşdırırdı. Padşahlar içində ən cəsarətlisi olan əlahəzrət mənim gözlədiyimdən çox-çox az qorxmuşdu. O mənə əmr etdi ki, qılıncı qınına qoyum və ayağıma bağlanmış zəncirdən altı fut uzağa mümkün qədər ehtiyatla tullayım.

Sonra o, içi boş dəmir sütunlardan birini göstərməyimi tələb etdi. Mənim cib tapançalarımı onlar belə adlandırırdılar. Mən tapançanı çıxartdım və imperatorun xahişilə, onu işlətmək qaydasını bacardığım dərəcədə izah etdim. Sonra tapançanı ancaq barıtla doldurdum (barıt qabının ağzı möhkəm bağlandığı üçün ora su keçməmiş, barıt tamamilə quru qalmışdı), imperatoru xəbərdar etdim ki, diksinməsin və havaya bir atəş açdım. Açdığım bu atəş qılınca nisbətən daha böyük təsir bağışladı. Yüzlərlə adam ölü kimi yerə sərildi. Hətta imperator, ayaq üstə durduğuna baxmayaraq, bir müddət özünə gələ bilmədi. Mən hər iki tapançanı və sursat heybəsini təhvil verdim. Bunları verərkən, əlahəzrətdən xahiş etdim ki, barıtı oddan uzaq saxlasın. Çünki barıt azacıq bir qığılcımdan od alıb partlar və imperatorun sarayını darmadağın edə bilər.

Mən saatı da verdim. İmperator ona böyük maraqla tamaşa etdi. İki nəfər ən güclü qvardiyaçıya, saatı uzun bir şüvülə keçirib aparmalarını əmr etdi. Qvardiyaçılar saatı möhkəm bir şüvülə keçirib, çiyinlərinə qaldırdılar və apardılar; İngiltərədə elya ilə dolu çəlləkləri bu sayaq aparırlar. İmperatoru hər şeydən artıq saat mexanizminin səsi və dəqiqə əqrəbinin hərəkəti heyran etmişdi. Liliputlarda görmək qabiliyyəti bizə nisbətən daha yaxşıdır, odur ki, əlahəzrət saat əqrəbinin arasıkəsilmədən hərəkətdə olduğunu görə bilmişdi. O, alimlərə təklif etdi ki, bu maşının nəyə gərək olduğunu müəyyənləşdirsinlər. Lakin alimlərin bu barədə müəyyən və vahid bir rəyə gələ bilmədiklərini oxucu özü də başa düşə bilər. Onların fərziyyələrinin hamısı həqiqətdən çox uzaq idi. Sonra mən gümüş və mis pulları, içində on dörd iri və bir neçə ədəd xırda qızıl pul olan kisəni, bıçağı, ülgücü, darağı, gümüş tütünqabını, burun dəsmalını və cib dəftərçəsini təhvil verdim. Qılınc, tapança, barıt və güllə olan heybə arabalara yüklənib, əlahəzrətin silah anbarına göndərildi. Qalan şeyləri imperatorun əmrilə mənə qaytardılar.

Mən məmurlara gizli cibimi göstərmədiyimi yuxarıda qeyd etmişdim. Bu cibimdə gözlüyüm, cib durbinim və bir neçə xırda şeylər vardı. Bu şeylərin imperator üçün heç bir əhəmiyyəti yox idisə də, amma bunları bir yerdən başqa yerə apardıqda sındırıb korlaya bilərdilər. Odur ki, mən verdiyim sözü pozmadan, imperator məmurlarından bu şeyləri gizlətməyi mümkün bildim.

ÜÇÜNCÜ FƏSİL

Müəllifin imperatoru, saray xanımlarını və gəncləri çox qəribə surətdə məşğul etməsi. Liliputstanda saraydakı əyləncələrin təsviri. Müəllifə müəyyən şəraitdə azadlıq bəxş edilməsi.

Mənim mülayim və dinc davranışım imperatorun, sarayın, ordunun və bütün xalqın mənə qarşı meylini artırdığından, yaxın gələcəkdə azad olacağıma ümid bəsləyə bilərdim. Mən haqqımda olan yaxşı rəyi hər növ ilə möhkəmlətməyə səy edirdim. Bəzən yerə uzanıb, ovcumda beş, ya da altı liliputun rəqs etməsinə yol verirdim. Axır zamanlarda uşaqlar da saçımın içində gizlənpaç oynamağa cürət edirdilər. Mən onların dilində danışmağı və danışılanı başa düşməyi ala-babat öyrənmişdim.

Bir dəfə imperator məni akrobatik tamaşalarla əyləndirmək fikrinə düşdü. Belə tamaşalar təşkilində liliputlar öz çeviklik və bacarıqları ilə mənim tanıdığım xalqların hamısından üstündürlər. Məni hər şeydən artıq heyran edən, ip üstündə oynayan kəndirbazlar oldular. Bunlar yerdən on iki düym hündürlükdə tarım çəkilmiş iki fut uzunluğunda nazik ağ sap üzərində məharətlə oynayırdılar. Bu tamaşa haqqında mən bir qədər ətraflı məlumat vermək istəyirəm, odur ki, oxuculardan bir azca səbirli olmalarını xahiş edirəm.

İp üstündə yalnız böyük mənsəblərə namizəd olanlar və sarayın rəğbətini qazanmaq istəyənlər oynaya bilərdilər. Onlar gənc yaşlarından bu sənəti öyrənməyə başlayırlar və bunların nəcabətli nəsildən olmaları və ya geniş təhsil almaları o qədər də vacib deyildir. Hər hansı bir əyanın vəfatı, ya da gözdən düşməsi (belə hallar tez-tez

olur) üzündən mühüm bir vəzifə yeri boşaldıqda, rəğbət qazanmaq istəyənlərdən beş-altı nəfəri imperatora ərizə verib xahiş edirlər ki, ip üstündə oynamaqla əlahəzrət imperatoru və saray adamlarını əyləndirmək üçün onlara icazə verilsin. İp üstündə çox hündürə tullanıb yıxılmayan şəxs böyük vəzifəyə təyin olunur. Hətta nazirlər də öz qabiliyyətlərini itirmədiklərini sübut etmək üçün, ip üstündə çeviklik göstərmək barədə imperatordan əmrlər alırlar. Dövlət xəzinəsinin rəisi *Flimnap yaxşı tullanmaqda xüsusi şöhrət qazanmışdı**. Tarım çəkilmiş ip üstündə o, imperiyanın başqa əyanlarına nisbətən, azı bir düym, daha hündürə tullana bilmişdi. Kəndirə bənd edilmiş balaca bir taxta üzərində onun bir neçə dəfə dalbadal mayallaq aşdığını mən özüm gördüm. Məxfi şuranın baş katibi, mənim dostum Reldresel – ona olan sədaqətimə görə səhv edib şişirtmirəmsə – dövlət xəzinəsinin rəisindən sonra bu cəhətdən ikinci yeri tutur.

Qalan əyanlar öz çevikliklərinə görə bir-birindən az fərqlənirlər.

Belə yarışlar çox vaxt bədbəxt hadisələrlə nəticələnirdi. Belə rəğbət gözləyənlərdən iki-üç nəfərinin yıxılıb yaralandığını mən öz gözümlə görmüşəm. Ancaq nazirlər öz çevikliklərini göstərmək üçün əmr aldıqda, təhlükə daha da artır. Onlar başqalarından üstün olduqlarını göstərmək istədikləri üçün o qədər canfəşanlıq edirlər ki, yıxılmayanlar az olur. Məni inandırırlar ki, buraya gəldiyimdən bir-iki il əvvəl Flimnap özü azca qalıbmış ki, yıxılıb boynunu sındırsın. Xoşbəxtlikdən o, təsadüfən yerdə olan bir balışın üstünə yıxılmış və bunun sayəsində ölümdən qurtulmuşdur.

Arabir sarayda tamamilə xüsusi mahiyyətdə tamaşalar düzəldirlər; bu tamaşalarda yalnız imperator, imperatriçə və birinci nazir iştirak edirlər. İmperator stolun üzərinə hər biri altı düym uzunluqda – göy, qırmızı və yaşıl rəngdə – üç nazik ipək sap qoyur. Bu saplar imperatorun xüsusi lütfünə nail olan şəxsləri fərqləndirmək arzusu ilə onlara mükafat olaraq verilir. Bu mərasim, əlahəzrətin taxtı olan böyük salonda icra edilir. Bu mükafatları qazanmaq arzusunda olanların məharətləri xüsusi bir sınaqdan keçirilir ki, belə bir sınağa Köhnə və Yeni dünyanın heç bir ölkəsində rast gəlmək mümkün olmamışdır. İmperator bir ağacı əlində üfüqi vəziyyətdə tutur, mükafat qazanmaq arzusunda olanlar isə ağacın yuxarıda və ya aşağıda olmasına görə, növbə ilə ya onun üstündən atılır, ya da sürünüb altından keçirlər. Bəzi vaxt ağacın o biri ucundan birinci nazir yapışır, bəzən isə ağacı

təkcə nazir tutur. Bu oyunu hamıdan yaxşı icra edənə mükafat olaraq göy sap verilir. *Qırmızı sap çeviklikdə ikinci yeri, yaşıl sap isə üçüncü yeri qazananlara verilir**. Padşahın lütf etdiyi bu sapları qazananlar, bunları qurşaq kimi ikiqat edib bellərinə bağlayırlar. Sarayda bu cür qurşağı olmayan şəxslərə az-az rast gəlmək olar.

Mehtərlər qoşunun və padşahın tövlələrində olan atları minib, hər gün mənim dövrəmə hərlənirdilər. Buna görə də bir müddətdən sonra atlar daha məndən ürküb qaçmır, lap ayaqlarımın yanına qədər yaxınlaşırdılar. Mən əlimi yerə qoyurdum, atlılar öz atlarını əlimin üstündən sıçradırdılar; bir dəfə isə padşahın baş sürücüsü iri bir atın belində, hətta mənim çəkməli ayağımın üstündən sıçrayıb keçdi ki, bu, doğrudan da cürətli bir sıçrayış idi.

Mən fikirləşib, imperator üçün qəribə bir əyləncə tapdım. Xahiş etdim ki, mənə iki fut uzunluğunda və adi əl ağacı yoğunluğunda bir neçə ağac tapıb gətirsinlər. Əlahəzrət baş meşə məmuruna əmr etdi ki, lazımi sərəncamlar versin və ertəsi gün səhər, yeddi meşəbəyi istədiyim ağacları, hərəsinə səkkiz at qoşulmuş olan altı arabada gətirib gəldi. Mən doqquz ağac götürüb, onları kvadrat şəklində möhkəmcə yerə sancdım, bu kvadratın hər tərəfi iki yarım fut uzunluğunda idi. Mən öz yaylığımı bu doqquz paya üzərinə tarım bir halda çəkdim, yuxarıdan isə kvadratın dörd bucağına, yerə paralel dörd ağac da bağladım. Bu ağaclar yaylığın səthindən təxminən beş düym hündür durub, hər tərəfdən barı kimi bir şey əmələ gətirmişdi.

Bu hazırlığı qurtardıqdan sonra imperatordan xahiş etdim ki, qurduğum bu meydançada təlim oyunları oynamaq üçün ən yaxşı at sürənlərdən iyirmi dörd nəfərlik bir dəstə ayırsın. Əlahəzrət mənim təklifimi bəyəndi. At sürənlər gəldikdə, mən onları bir-bir qaldırıb, yaylığın üstünə qoydum. Onlar nizam ilə düzəlib, iki dəstəyə ayrıldılar və təlimə başladılar: bir-birinə ucu küt oxlar atır, sıyırma qılıncla bir-birinə hücum edirdilər. Onlar gah qaçır, gah hücum edir, gah geri çəkilirdilər. Bu zaman onlar elə gözəl bir hərbi intizam nümunəsi göstərirdilər ki, mən bunun mislini heç bir zaman görməmişdim. Üfüqi vəziyyətdə bağladığım ağaclar atlıları və atları yerə yıxılmağa qoymurdu. İmperator bundan o qədər xoşlandı ki, məni bu əyləncəni bir neçə gün dalbadal təkrar etməyə məcbur etdi, bir dəfə özü də lütf edib meydançaya çıxdı və təlimə şəxsən özü komanda verdi. İmperatriçəni örtülü kresloda qaldırıb meydançadan iki yard aralı tutmağıma icazə

verməyə imperator onu böyük bir çətinliklə razı sala bildi. Beləliklə, o, bütün tamaşanı yaxşıca görə bilərdi. Mənim xoşbəxtliyimdən, bütün bu təlim salamatlıqla başa çatdı. Tək bircə dəfə zabitlərdən birinin qızmış atı, dırnağı ilə vurub, mənim cib yaylığımı dəldi, büdrəyib yıxıldı və üstündəki atlını yerə yıxdı. Mən həmin saat onların köməyinə çatdım. Bir əlimlə dəliyin altını tutdum və bütün atlıları aşağı endirdim. Yıxılan atın sol qabaq ayağı çıxmışdı, ancaq atlıya heç bir şey olmamışdı. Mən yaylığımı yamadım, ancaq bundan sonra belə təhlükəli təlimlər üçün ondan istifadə etmədim.

Azad edilməyimdən iki-üç gün əvvəl bir dəfə mən cürbəcür oyunlarla saray adamlarını əyləndirirdim. Birdən əlahəzrətin hüzuruna bir qasid gəlib xəbər verdi ki, məni tapdıqları yerin yaxınlığında, onun təbəələrindən bir neçəsi yerdə qəribə şəkilli böyük və qara rəngli bir cisim görmüşlər. Həmin cismin ortası bir adam boyu hündürlüyündə, kənarları çox alçaq və genişdir. O cismin tutduğu sahə əlahəzrətin yataq otağı qədər olar. Əvvəlcə elə güman etmişlər ki, bu, yəqin misli görünməmiş bir heyvandır. Ancaq tezliklə bunun belə olmadığını yəqin etmişlər. Həmin cisim, otların üstündə hərəkətsiz bir halda düşüb qalıbmış və onlar bir neçə dəfə onun dövrəsinə hərlənmişlər. Onlar bir-birinin çiyninə çıxıb, həmin qəribə cismin təpəsinə qədər qalxmışlar; üstü yastı imiş. Onlar ayaqlarını həmin cismə döyüb, yəqin etmişlər ki, onun içi boşdur. Nəticədə bu məlumatı yazan adamlar acizanə bir surətdə təxmin etmişlər ki, bu cisim, bəlkə, Dağ boyda Adamındır. Onlar həmin cismi vur-tut beşcə atın köməyilə paytaxta gətirməyi öz öhdələrinə alırlar.

Mən həmin saat bunun nə olduğunu başa düşdüm və bu xəbərə ürəkdən şad oldum. Görünür, gəmi batdıqdan sonra mən sahilə çıxdıqda, halım o qədər xarab imiş ki, şlyapamın başımdan düşdüyünü hiss etməmişəm. Mən hələ qayığın içində ikən, onun bağlarını möhkəm çəkib, çənəmin altında bağlamışdım, suya düşdükdə isə lap qulağıma qədər başıma basmışdım. Quruya çıxdıqda, o qədər yorğun idim ki, onu tamam yadımdan çıxarmışdım. Görünür, sahildə bağ açılıb, şlyapam da başımdan düşübmüş; mən isə güman etmişdim ki, onu dənizdə, dalğaların arasında itirmişəm.

Əlahəzrətə həmin cismin nə olduğunu izah edib, xahiş etdim ki, şlyapanı təxirsiz olaraq, paytaxta gətirmələri üçün sərəncam versin. Ertəsi gün şlyapanı gətirib gəldilər. Ancaq arabaçılar çox da onun

qeydinə qalmamışdılar. Onlar şlyapanı iki yerdən dəlmiş, həmin dəliklərə, ucunda qarmaq olan uzun kəndirlər keçirmiş və bu kəndirləri də atlara bağlamışdılar. Beləliklə, onlar mənim şlyapamı düz yarım mil yer ilə sürümüşdülər.

Xoşbəxtlikdən həmin ölkənin yeri yumşaq və düzəngah olduğundan, şlyapam gözlədiyimdən az xarab olmuşdu.

Təsvir etdiyim hadisədən iki həftə sonra, imperator paytaxtda və paytaxt ətrafında olan qoşunlara əmr verdi ki, səfərə hazır olsunlar. Əlahəzrət özünə çox qəribə bir əyləncə düzəltmək xəyalına düşmüşdü. O buyurdu ki, mən *Koloss Rodoss vəziyyətində durub, ayaqlarımı mümkün qədər gen ayırım**. Sonra (qoca təcrübəli bir sərkərdə və mənim böyük hamim olan) baş komandana əmr verdi ki, qoşunu sıx cərgələrə düzsün, piyadalar iyirmi dörd nəfərlik, atlılar isə on altı nəfərlik cərgələrlə təbil vura-vura, bayraqlarını dalğalandıra-dalğalandıra, süngülərini dik tutub mərasim marşı çala-çala mənim ayaqlarımın arasından keçsinlər. Ordu üç min piyada və min atlıdan ibarət idi. Parad çox parlaq oldu və əlahəzrətə çox ləzzət verdi.

İmperatora mənə azadlıq bəxş etməsi üçün o qədər ərizə yazmışdım ki, axırda əlahəzrət bu məsələni əvvəlcə nazirlərin, sonra da dövlət şurasının müzakirəsinə qoymuşdu. Dövlət şurasında məni azad etməyin əleyhinə tək bircə nəfər çıxmışdı, bu da Skayreş Bolqolam idi ki, aramızda heç bir şey olmadığı halda, nədənsə, mənə çox qəddar bir düşmən olmuşdu. Ancaq onun əleyhimə getməsinə baxmayaraq, məsələ mənim xeyrimə həll edilmişdi. Bolqolam *qalbeta,* yəni kral donanmasının admiralı vəzifəsində idi, imperatorun böyük etimadını qazanmışdı, öz işini yaxşı bilən, ancaq qaraqabaq və kobud bir adam idi. Axırda onu da razı saldılar. Ancaq təkid etdi ki, mənə azadlıq verilməsi şərtlərini tərtib etmək ona tapşırılsın. Bu şərtləri iki katib və bir neçə əyan ilə birlikdə mənə Skayreş Bolqolam özü gətirib gəldi. Bu şərtləri oxuyub qurtardıqdan sonra, mənə and içdirdilər ki, bunları pozmayacağam. Andiçmə mərasimi əvvəlcə mənim ölkəmin adətlərinə görə, sonra isə yerli qanunların təyin etdiyi bütün qaydalar üzrə icra olundu. And içən zaman mən gərək sağ ayağımı sol əlimlə tutub, eyni zamanda sağ əlimin ortancıl barmağını təpəmə, baş barmağımı isə sağ qulağımın üst kənarına qoyaydım; ancaq, bəlkə, oxucu mənim öhdəmə götürməli olduğum öhdəliklərlə maraqlanıb, onları bilmək

istəyir. Buna görə də mən həmin sənədin tam və dürüst tərcüməsini burada dərc edirəm.

"Liliputstanın qüdrətli imperatoru, Kainatın fəxri və qənimi, mülkünün hüdudu beş min blestreq (on iki mil qədər) Yer kürəsinin son həddinə qədər uzanan padşahlar padşahı, insan övladının ən böyüyü, ayaqları yerin mərkəzinə, başı Günəşə dirənən, bir işarəsindən dünya hökmdarlarının dizləri əsən, bahar kimi xoşsima, yay kimi səxavətli, payız kimi əliaçıq, qış kimi amansız olan əlahəzrət əzəmətli *Qolbasto momaren evlem qerdaylo şefinmolli olli Qu,* bu yaxınlarda bizimsə mavi ölkəmizə gəlmiş olan Dağ boyda Adamın aşağıdakı şərtləri təklif buyurur. Dağ boyda Adam isə təntənəli surətdə and içərək, bunları yerinə yetirməyi öhdəsinə alır:

1. Dağ boyda Adamın, bizim böyük möhürlə möhürlənmiş xüsusi icazənaməmiz olmadan, bizim məmləkəti tərk etməyə ixtiyarı yoxdur.

2. Bizim xüsusi sərəncamımız olmadan, onun paytaxta girməyə ixtiyarı yoxdur, belə hallarda əhali iki saat əvvəldən xəbərdar edilməlidir ki, öz evlərinə girib gizlənə bilsinlər.

3. Həmin Dağ boyda Adam gəzməyə çıxanda ancaq böyük yollarda gəzməklə kifayətlənməlidir. O, çəmənliklərdə və tarlalarda gəzməməli və uzanmamalıdır.

4. Gəzməyə çıxdığı zaman o, öz ayağının altını diqqətlə yoxlamalıdır ki, bizim mehriban təbəələrimizdən heç kəsi və ya onların at-arabalarını tapdamasın. Təbəələrimizin razılığı olmadan onları əlinə almamalıdır.

5. Əgər bir qasidi təcili surətdə imperatorluğun hər hansı bir uzaq şəhərinə aparmaq lazım gəlsə, – ancaq ayda bir dəfədən tez olmayaraq, – Dağ boyda Adam onu təxirsiz bir surətdə atı ilə birlikdə altı günlük məsafəyə aparmalı, lazım gəlsə, həmin qasidi sağsalamat əlahəzrətimizin hüzuruna təqdim etməlidir.

6. Düşmənimiz olan Blefusku adasına qarşı müharibədə bizim müttəfiqimiz olmalı və hazırda *bizə hücum etməyə hazırlaşan** düşmən donanmasını məhv etmək üçün qüvvəsini sərf etməlidir.

7. Həmin Dağ boyda Adam boş vaxtında baş parkın divarını tikməkdə, eləcə də başqa binaları tikməkdə çox ağır daşları qaldırmaq işində bizim fəhlələrə kömək etməlidir.

8. Həmin Dağ boyda Adam iki ay ərzində bizim məmləkətin hüdudunu bütün sahil boyu gəzməli və addımlarını sayıb dürüst ölçməlidir.

9. Həmin Dağ boyda Adam təntənəli surətdə vəd etməlidir ki, bu şərtləri eynən yerinə yetirəcəkdir. Bunun əvəzində Dağ boyda Adama hər gün bizim təbəələrimizdən 1728 nəfərə kifayət edəcək qədər yemək-içmək veriləcək, o, biz şövkətməabın hüzurunu azad bir surətdə ziyarət etmək və bizim sair lütflərimizdən istifadə etmək haqqına malik olacaqdır.

Bu sərəncam, Belfaborakda hökmdarlığımızın doxsan birinci ayının on ikinci günündə bizim sarayımızda verilmişdir".

Bu şərtlərin bəziləri bir o qədər ləyaqətli olmasa da, bunları mən çox məmnuniyyətlə qəbul edib and içdim və imzaladım. Bu ləyaqətsiz şərtlər yalnız baş admiral Skayreş Bolqolamın mənə olan kini nəticəsində yazılmışdı. Mən and içdikdən sonra həmin saat zəncirlərimi açdılar və mən tamamilə azad oldum.

İmperator o qədər lütfkar idi ki, mənim azad olunmağımda şəxsən özü iştirak etdi. Minnətdarlıq əlaməti olaraq, əlahəzrətin hüzurunda diz çöküb səcdə etdim, ancaq imperator buyurdu ki, ayağa qalxdım. O, yüksək mərhəmət ifadə edən bir nitq ilə mənə müraciət edib, nəticədə belə bir ümid izhar etdi ki, mən ona faydalı bir xidmətkar olacağam, onun mənə göstərmiş olduğunu və gələcəkdə də göstərə biləcəyi lütflərə tamamilə layiq olduğumu sübut edəcəyəm.

Oxucu bu cəhətə diqqət yetirsin ki, şərtlərin axırıncı maddəsində imperator mənə 1728 liliputu yedirib-içirməyə kifayət edəcək qədər yemək-içmək verməyi vəd etmişdi. Mən belə dəqiq bir rəqəmin nə cür müəyyən edildiyi məsələsilə maraqlandım və bir dəfə, dostum olan bir saray xidmətçisindən bunu soruşdum. O cavab verdi ki, əlahəzrətin riyaziyyatçıları kvadrantın[1] köməyi ilə mənim boyumu ölçüb, liliputdan on iki dəfə uca olduğumu təyin edib hesablamışlar ki, bədənimin həcmi 1728 liliputun bədəninin həcminə bərabərdir və bu bədən bu qədər artıq qida tələb edir. Bu misal həm liliputların zəkalarını, həm də onların padşahlarının nə dərəcədə ağıllı və haqq-hesab bilən bir adam olduğunu göstərir.

[1] *Kvadrant* – səyyarələrin (başlıca olaraq Günəşin) uzaqlığını təyin etmək üçün qədim astronomiya aləti.

DÖRDÜNCÜ FƏSİL

Liliputstanın paytaxtı Mildendonun və imperator sarayının təsviri.
Müəllifin birinci katiblə dövlət işləri barəsində söhbəti.
Müəllifin müharibə zamanı imperatora
öz xidmətini təklif etməsi.

Mən azadlıq alar-almaz, hər şeydən əvvəl, ölkənin paytaxtı olan Mildendonu gözdən keçirməyə icazə istədim. İmperator asanlıqla icazə verdi, ancaq ciddi surətdə əmr etdi ki, nə əhaliyə, nə də onların ev-eşiyinə bir zərərim toxunmasın. Mənim şəhəri gəzmək arzusunda olduğumu xüsusi elanlarla əhaliyə xəbər verdilər.

Şəhər iki yarım fut ucalıqda və təxminən on bir düym qalınlığında bir divar ilə əhatə edilmişdir. Həmin divarın üstü ilə iki at qoşulmuş bir kareta tamamilə sərbəst gedə bilər. Bir-birindən on fut aralı olaraq ucalan möhkəm bürclər, şəhərə giriş yollarını qoruyur.

Mən böyük Qərb darvazaları üstündən aşıb, yan-yana və ağır-ağır iki baş küçədən keçdim. Kaftanımın ətəklərinin evlərin damlarını və çıxıntılarını zədələyəcəyindən ehtiyat edib, əvvəlcədən onu əynimdən çıxarmışdım. Əhalinin evlərinə çəkilmələri və bayıra çıxmamaları barədə ciddi əmr verildiyinə baxmayaraq, küçələrdə laqeyd halda xeyli adam gəzişirdi. Buna görə də mən son dərəcə ehtiyatla hərəkət edir, çalışırdım ki, onlardan heç birini basıb əzməyim. Yuxarı mərtəbələrin pəncərələrində və evlərin damlarında hədsiz-hesabsız tamaşaçılar görünürdü. Mənə elə gəlir ki, ömrümdə bu qədər çox adam görməmişdim.

Şəhər düzgün bir dördbucaq şəklindədir, onun divarlarının hər tərəfi beş yüz futdur. Hərəsi beş fut enində olan iki baş küçə düzbucaq şəklində bir-birini kəsib, şəhəri dörd məhəlləyə bölür.

Yan küçələrə və döngələrə gedə bilməzdim, onları yalnız yuxarıdan gördüm, onların eni on ikidən on səkkiz düymə qədərdir.

Şəhərdə beş yüz minə qədər əhali yerləşə bilir. Evlər üç və beş mərtəbəlidir. Dükanlar və bazarlar mal ilə doludur.

İmperatorun sarayı şəhərin mərkəzində, iki baş küçənin birləşdiyi yerdədir. İki-üç həyəti olan baş bina, dövrəsinə iki fut ucalıqda hasar çəkilmiş geniş bir meydanın ortasındadır. Meydan o qədər böyükdür ki, əlahəzrətin icazəsilə mən sərbəst bir surətdə ora aşdım və

sarayı hər tərəfdən gözdən keçirdim. İmperatorun yaşadığı evlər ikinci iç həyətdədir. Mən oranı çox görmək istəyirdim. Ancaq bu arzumu yerinə yetirmək çox çətin idi: çünki bir həyəti o biri ilə birləşdirən baş darvazanın hündürlüyü ancaq on səkkiz düym, eni isə yeddi düym idi.

Bayır həyətin binası o biri tərəfdən beş fut hündürlükdə olardı. Buna görə də mən onların üstündən aşa bilməzdim; çünki divarlar dörd düym enində yonulmuş daşdan möhkəm tikilmiş olsa da, hər halda onları xeyli zədələmiş olardım. Eyni zamanda imperator özü də gözəl sarayını mənə göstərməyi çox arzu edirdi...

Ancaq mən bizim bu müştərək arzumuzu yalnız üç gün sonra yerinə yetirə bildim, bu üç günü isə hazırlıq işlərinə sərf etdim.

Şəhərin yüz yardlığında olan padşahlıq parkından mən cib bıçağımla ən iri ağaclardan bir neçəsini kəsib, bunlardan ağırlığıma davam gətirə biləcək dərəcədə möhkəm və hərəsi üç fut qədər hündürlükdə olan iki kətil düzəltdim. Sonra əhalini yenidən xəbərdar etdilər və mən şəhərin içi ilə keçib, sarayın yanına çatdım, iki kətili də əlimdə aparırdım. Meydança tərəfdən saraya yaxınlaşıb, kətillərdən birinin üstünə çıxdım, o birini isə damın üstündən qaldırıb ehtiyatla, səkkiz fut enində olan birinci iç həyətə qoydum. Sonra ayağımın birini kətilin üstünə qoyub, o birini sərbəstcə binanın üstündən aşırıb, o biri kətilə qoydum və birinci kətili, ucunda qarmaq olan uzun bir ağacla qaldırıb, bu tərəfə qoydum. Bu sayaqla da mən ikinci həyətə yetişdim.

Orada mən yerə uzanıb üzümü ikinci mərtəbənin pəncərələrinə yaxınlaşdırdım. Beləliklə, mən xəyala gətirilə bilən ən gözəl otaqları gözdən keçirə bildim. Mən əyanlarla əhatə olunmuş imperatriçəni və cavan şahzadələri gördüm. İmperatriçə həzrətləri lütf edib gülümsündü və zərif bir əda ilə pəncərədən əlini mənə uzatdı; mən onun əlini öpdüm.

Mən saraya tamaşa etdikdən sonra, yenə həmin kətillərin köməyilə saray meydanına çıxdım və sağ-salamat evimə qayıtdım.

Mən azad olduqdan iki həftə sonra bir dəfə gizli işlər üzrə baş katib olan (burada onun mənsəbini belə adlandırırlar) Reldresel mənim yanıma gəldi. O öz faytonçusuna kənara sürüb gözləməyi əmr etdikdən sonra, onu qəbul etməyimi xahiş etdi. Mən buna şadlıqla razı oldum, çünki rütbəsinə və şəxsi ləyaqətlərinə görə ona hörmətim vardı. Bundan başqa, o, sarayda dəfələrlə mənə yaxşılıq etmişdi. Mən yerə uzanmağa hazır olduğumu bildirdim. Ancaq xahiş etdi ki, söhbətimiz zamanı mən onu öz əlimdə tutum.

O, hər şeydən əvvəl, məni azad olmağım münasibətilə təbrik etdi; bu işdə, əlbəttə, onun köməyi olmuşdu. Ancaq onun sözlərinə görə, mənə azadlıq verilməsi, vəziyyətin xüsusi bir şəkil alması nəticəsində mümkün olmuşdu. O mənə söylədi:

"Bizim ölkəmizdə işlərin ümumi vəziyyəti kənardan gələn adama çox gözəl görünə bilər. Ancaq bu, yanlış bir təsirdir. Bizim vətənin üstünü iki qorxunc təhlükə almışdır. Yetmiş ay bundan əvvəl imperatorluqda *Tremeksenlər* və *Slemeksenlər* adı ilə məşhur olan iki düşmən partiya əmələ gəlmişdir. *Birincilər hündürdaban, ikincilər isə alçaqdaban tərəfdarıdırlar**.

Tremeksenlər iddia edirlər ki, hündürdaban bizim qədim dövlət quruluşumuza daha çox uyğundur; ancaq əlahəzrət alçaqdaban tərəfdarıdır, qərara alınmışdır ki, dövlət və saray idarələrində işləyən bütün xidmətçilər alçaqdabanlı ayaqqabılar geysinlər. Yəqin ki, siz də buna diqqət yetirmişsiniz. Şübhəsiz ki, siz əlahəzrətin öz ayaqqabılarının dabanlarının başqa saray xadimlərinin dabanlarından bir drerr alçaq olduğunu da görmüşsünüz (bir drerr bir düymün on dörddə bir hissəsinə bərabərdir).

Bu iki partiya arasında ədavət o dərəcəyə çatmışdır ki, bir partiyanın üzvləri o biri partiyanın üzvlərinin evində yeyib-içməzdilər, onları dindirməzdilər. Biz bu fikirdəyik ki, Tresmeksenlər və ya hündürdabanlılar sayca bizdən artıqdırlar, ancaq dövlət hakimiyyəti bütünlükdə bizim əlimizdədir. Bizi qorxudan budur ki, taxt-tacın varisi olacaq şahzadə həzrətlərinin bir dərəcəyə qədər hündürdabanlılara hüsn-rəğbəti vardır. Onun çəkməsinin bir tayının dabanı hündürdür. *Buna görə də o, bir az axsayır**.

İndi budur, belə bir ədavət bizim dövlətimizi taqətdən saldığı bir zamanda, demək olar ki, əlahəzrətin imperatorluğu kimi böyük və qüdrətli bir imperatorluq olan Blefusku imperatorluğu bizi istila etməklə hədələyir. Doğrudur, siz söyləyirsiniz ki, dünyada başqa krallıqlar və elə dövlətlər var ki, orada sizin kimi nəhəng adamlar yaşayır. Ancaq bizim filosoflar buna çox şübhə edirlər. Onlar daha artıq buna inanırlar ki, siz ya Aydan, ya da başqa bir ulduzdan düşübsünüz. Axı heç bir şübhə yoxdur ki, yüz nəfər sizin boyda adam, ən qısa bir müddət içərisində əlahəzrətin ölkəsində olan bütün meyvələri və heyvanları yeyib qurtarar. Bundan başqa, bizim salnamələrimiz var. Onlarda altı min aydan bəri baş verən bütün hadisələr təsvir edilmişdir,

ancaq iki böyük imperatorluq olan Liliputstan ilə Blefuskudan başqa ölkələr mövcud olduğu barədə heç bir şey yazılmamışdır.

Budur, indi otuz altı aydan bəridir ki, bu iki qüdrətli dövlət birbirilə ən amansız bir surətdə müharibə edir. Bu müharibənin səbəbi bundan ibarətdir: hamıya məlumdur ki, ən qədim zamanlardan bəri, bişmiş yumurtanı alt tərəfdən sındırarlar. İndiki imperatorun babası hələ uşaq ikən, bir dəfə ona nahar vaxtı bişmiş bir yumurta veriblərmiş. Uşaq yumurtanı qədim ümumi qayda ilə sındıranda barmağını kəsibmiş. Onda uşağın atası, imperator bir fərman verib, bütün təbəələrini ən ağır cəza ilə hədələyərək, *yumurtanı iti ucundan sındırmağı əmr edibmiş**.

Fərman əhalini o qədər qəzəbləndiribmiş ki, bizim salnamələrdə yazıldığına görə bu, altı üsyana səbəb olubmuş; bu üsyanlar zamanı bir imperator həyatından, biri də taxt-tacından məhrum edilibmiş. Blefusku padşahları daim bu üsyanları qızışdırıb, *üsyan iştirakçılarını öz ölkələrində gizlətmişlər**. Hesab edildiyinə görə, on bir min nəfərə qədər mövhumatçını, yumurtanı iti ucundan sındırmaqdan imtina etdikləri üçün, edam cəzasına məhkum etmişlər. Bu məsələ barədə yüz cildlərlə böyük kitab yazılmışdır. Ancaq yumurtanı altdan sındırmaq tərəfdarlarının kitabları daha çoxdan qadağan edilmiş və onların partiyası dövlət vəzifələrində işləmək hüququndan məhrum edilmişlər.

Blefusku hökmdarları öz elçiləri vasitəsilə bizə neçə dəfə xəbərdarlıq ediblər. Onlar bizi təqsirləndirirlər ki, biz daim araya nifaq salırıq və böyük peyğəmbərimiz Lyüstroqun müqəddəs Blundekralının (məlum olduğuna görə, bu kitab liliputların müqəddəs kitabıdır) əlli dördüncü fəslində yazılmış ehkamını pozmuşuq. Amma bu ittiham heç də düz deyildir. Ehkamın əsl mətni belədir: "Bütün həqiqi etiqad sahibləri yumurtanı rahat sındırıla bilən ucundan sındırmalıdırlar". Yumurtanın hansı ucunun – iti ucunun və ya alt tərəfinin rahat olub-olmadığını təyin etmək, məncə *etiqad sahibinin öz şəxsi işidir**. Nəhayət, bu məsələnin həll edilməsini imperatorluğun baş hakiminə tapşırmaq olar.

Müxtəsər ki, buradan qovulmuş yumurtanın altucu tərəfdarları özlərinə Blefusku imperatorluğunda möhkəm bir sığınacaq tapmışlar. Bu qaçqınlar oranın imperatorunu tədricən öz təsirləri altına alıb, onu bizim dövlətə müharibə elan etmək dərəcəsində qızışdırıblar. İndi otuz altı aydır ki, müharibə davam edir, ancaq vuruşan

tərəflərdən heç biri qəti qələbə qazanmaqla iftixar edə bilməz. Bu müddət ərzində biz otuz hərb gəmisi, saysız-hesabsız xırda gəmi və otuz min ən yaxşı dənizçi və əsgər itirmişik. Güman edirlər ki, düşmənin itkisi bundan da artıqdır. Ancaq buna baxmayaraq, düşmən yeni bir donanma düzəldib, bizim torpağa qoşun çıxarmağa hazırlaşır. Buna görə də sizin qüvvət və cürətinizə tamamilə inanan imperator həzrətləri mənə tapşırmışdır ki, ölkəmizin həqiqi vəziyyətini sizə təsvir edim".

Mən katibdən xahiş etdim ki, acizanə hörmətimi imperatora yetirib, ona bildirsin ki, mən xarici təbəəsi olduğuma görə, yerli partiyalar arasındakı ədavətə qarışmamalıyam, amma imperatora, xilas və azad edildiyim üçün borclu olduğuma görə, canımı əsirgəmədən, onun ölkəsini düşmən hücumundan qorumağa hazıram.

BEŞİNCİ FƏSİL

Müəllifin son dərəcə ağıllı bir tədbir sahəsində düşmən hücumunun qarşısını alması. Ona yüksək rütbə verilməsi. Blefusku imperatoru elçilərinin gəlib sülh bağlamaq istəmələri.

Blefusku imperatorluğu Liliputstanın şimal-şərqində olan bir adadır. Bu iki dövləti bir-birindən səkkiz yüz yard enində dayaz bir boğaz ayırır.

Mən həmin bu adanın göründüyü sahilə heç bir vaxt getməmişdim. İndi isə bu yerlərdə görünmək, məncə, heç də ağıllı bir hərəkət olmazdı.

Müharibə elan edildiyi vaxtdan bəri hər iki imperatorluq arasında gediş-gəliş ölüm cəzasıyla qadağan edilmişdir. Bizim imperator bununla kifayətlənməyib, heç bir gəminin Liliputstan limanlarından çıxmasına icazə vermirdi. Buna görə də, blefuskulular mənim liliputlar arasında olmağımdan xəbərdar deyildilər. Bu, mənim düşmən donanmasını tamamilə gözlənilmədən ələ keçirmək barədə planlarıma uyğun idi. Buna görə də, mən boğaz tərəfdəki sahildə gözə görünməməyə çalışırdım. Çünki düşmənlər də məni görə bilərdilər.

Kəşfiyyatçılar bizə xəbər gətirdilər ki, Blefusku donanması boğazlardan birində hazır durub, yelkənlərini qaldırmaq üçün səmt küləyinin əsməsini gözləyir. Mən imperator ilə məsləhətləşib, öz məqsədimi təxirsiz yerinə yetirməyi qərara aldım.

Mən, hər şeydən əvvəl, dənizçilərdən boğazın dərinliyini soruşub öyrəndim. Onlar mənə söylədilər ki, onun dərinliyi, hətta, qabarma zamanı da yetmiş *qlyumqleffdən* (altı Avropa futu qədər) artıq olmur. Sonra mən Blefusku ilə qarşı-qarşıya olan şimal-şərq sahilinə ehtiyatla gəlib, bir təpənin dalında uzandım. Limanda lövbər salıb duran düşmən donanmasını durbinlə nəzərdən keçirdim. Donanmanın əliyyə qədər hərbi gəmi və çox miqdarda nəqliyyat gəmisindən ibarət olduğunu gördüm.

Evə qayıdıb əmr verdim ki, mənə ən yoğun kəndirlərlə çoxlu dəmir çubuq gətirsinlər. Onların kəndirləri bizim ciyə kimi, dəmir çubuqları isə corab mili boyda idi. Kəndirləri davamlı etmək üçün üçqat hördüm, dəmir çubuqları da üç-üç burub, uclarını qarmaq kimi əydim. Bu cür əlli qarmağı həmin miqdarda kəndirin ucuna bağlayıb, şimal-şərq sahilinə qayıtdım, kaftanımı, ayaqqabılarımı, corablarımı çıxarıb, əynimdə bircə meşin yarımkürk olduğu halda suya, onun qabarmasına yarım saat qalmış girdim. Əvvəlcə ayaqla getdim, sonra otuz yard qədər üzdüm, axırda ayağım dənizin dibinə çatdı. Bütün bunları mən çox sürətlə etdim və yarım saatdan da az bir müddətdə düşmən donanmasının durduğu limana çatdım.

Düşmənlər məni görən kimi, elə qorxuya düşdülər ki, özlərini gəmilərdən suya atıb, sahilə doğru üzməyə başladılar. Orada otuz minə qədər adam yığışmışdı. Mən hazırladığım kəndirləri çıxarıb, hər gəminin burnuna bir qarmaq taxdım və hamısının ucunu bir yerə yığıb düyünlədim. Bu əməliyyat zamanı düşmən mənim üzərimə bulud kimi ox yağdırırdı, onlardan bir çoxu mənim əllərimə və üzümə sancılırdı. Onlar məni yaman incidir və işləməyimə mane olurdu. Hər şeydən çox mən gözlərimçün qorxurdum. Gözlərimi qorumaq üçün tədbir görməsəydim, yəqin ki, kor olardım. Mənə lazım olan xırda şeylər arasında gözlüyüm də vardı ki, bunu gizli cibimdə saxlamışdım. Mən gözlüyümü taxıb möhkəm bağladım. İndi ciddi əngəl olmadan işimi görə bilərdim. Oxlar tez-tez gözlüyümün şüşələrinə dəyir, ancaq mənə zərər yetirmirdi.

Bütün qarmaqları taxıb qurtardıqdan sonra, bir-birinə düyünlədiyim kəndiri əlimə alıb gəmiləri çəkdim, ancaq bircə gəmi də yerindən

tərpənmədi. Gəmilər hamısı lövbərlərində möhkəm durmuşdu. Mən çox təhlükəli bir işə girişməli oldum. Gəmilərin dövrəsinə hərlənib lövbər kəndirlərini bıçaqla kəsdim. Bu zaman iki yüzə qədər ox mənim üzümə və əllərimə sancıldı. Sonra mən gəmiləri bağlamış olduğum kəndirləri yenidən əlimə yığıb, düşmənin ən iri, əlli hərbi gəmisini asanlıqla çəkib apardım.

Özlərini itirmiş blefusklar mənim nə etmək istədiyimi xeyli müddət anlaya bilməmişdilər. Onlar mənim lövbər kəndirlərini kəsdiyimi görüb, elə güman etmişdilər ki, mən gəmiləri külək və dalğaların ixtiyarına buraxmaq, ya da onları bir-birilə toqquşdurmaq istəyirəm. Ancaq bütün donanmanı arxamca çəkib apardığımı gördükdə, onlar yaman təşvişə düşüb ucadan acı-acı fəryad qopardılar. Onlardan ox mənzili uzaqlaşdıqda, mən durub üzümə və əllərimə sancılmış oxları ehtiyatla çıxartdım və yerlərini məlhəmlə ovdum. Sonra gözlüyümü çıxarıb, suyun çəkilməsini bir saata qədər gözlədim və boğazın ortasından ayaqla keçib gəmilərlə birlikdə sağsalamat Liliputstanın imperatorluq limanına gəldim.

İmperator və bütün saray adamları sahildə durub, bu böyük işin nəticəsini gözləyirdilər. Boğazın ortasında su xirtdəyimə qədər çıxırdı. Odur ki, onlar məni görə bilmirdilər. Onlar yalnız böyük bir yarımdairə halında bizim sahilə gəlməkdə olan donanmanı görürdülər. İmperator bu fikrə gəlmişdi ki, yəqin mən batmışam və düşmən donanması müharibə məqsədilə ora yaxınlaşır. Ancaq onun bu qorxusu tezliklə yox oldu. Boğaz getdikcə dayazlaşır və mən suda daha aydın görünürdüm. Səsim sahildə eşidilə biləcək bir məsafəyə çatdıqda, mən gəmilərə bağladığım kəndirləri yuxarı qaldırıb, ucadan çığırdım: "Yaşasın Liliputstanın qüdrətli imperatoru!" Mən sahilə çıxdıqda, böyük padşah mənə hər cür tərifl ər yağdırıb, oradaca məni ölkənin ən yüksək rütbəsi olan *nardak* rütbəsi ilə təltif etdi.

Ancaq padşahların şöhrətpərəstliklərinin həddi-hüdudu yoxdur. Əlahəzrət padşah çox istəyirdi ki, mən düşmənin bütün qalan gəmilərini də qəsb edəm. Görünür o, bütün Blefusku imperatorluğunu fəth etmək niyyətində idi. Blefuskunu öz naibi vasitəsilə idarə edərək, orada öz istədiyi qanun-qaydanı qura bilərdi, orada gizlənmiş olan bütün yumurtanı altdan sındırmaq tərəfdarlarını qırdırar və bütün blefuskuluları yumurtanı iti ucundan sındırmağa məcbur edərdi. Belə olduqda, *o, bütün kainatın yeganə hökmdarı olacaqdı**. Ancaq

mən hər cür çalışırdım ki, imperatoru bu fikrindən daşındırım. Mən ona həm siyasi məqsədlərlə, həm də ədalət duyğusu ilə ağlıma gələn bir çox dəlillər gətirdim. Nəticədə qəti olaraq bildirdim ki, heç bir zaman cürətli və azad bir xalqın qul edilməsinə bir alət olmağa razılıq verə bilmərəm.

Mənim bu cürətli və açıq bəyanatım imperator həzrətlərinin şöhrətpərəstlik xəyallarına tamamilə zidd idi. Onun planlarının yerinə yetirilməsindən boyun qaçırmağımı mənə əsla bağışlaya bilməzdi. İmperator dövlət şurasının iclasında bunu çox nəzakətlə mənə eşitdirdi. Şuranın ən ağıllı üzvləri görünür ki, mənim tərəfimdə idilər, lakin onlar bunu yalnız sükutla ifadə edirdilər. Mənim gizlin düşmənlərim isə əllərinə düşən bu fürsətdən istifadə etməyə tələsib, əleyhimə bir çox mülahizələr söylədilər. O vaxtdan padşah həzrətləri və mənə düşmən olan nazirlər, əleyhimə amansız bir fitnəyə başladılar. Heç iki ay keçməmiş, onlar öz fəsadları ilə məni az qala məhv edəcəkdilər. Beləliklə, padşahlara göstərilən ən böyük xidmətlər də, onların nəzərində, tamahkarlıqlarına alət olmaqdan imtina etdikdə puç olurmuş.

Mənim təsvir edilən şücaətimdən üç həftə sonra Blefusku imperatorundan sülh təklifilə təntənəli bir elçi heyəti gəldi. Elçilər hər cəhətdən güzəştə getdilər və bir neçə gün sonra bizim imperator üçün çox əlverişli sülh müqavilənaməsi imzalandı.

Bu heyət altı nəfər elçi və beş yüz nəfərə qədər məiyyətdən ibarət idi. Bu dəstə çox dəbdəbəli olub, padşahın əzəmətinə və onların vəzifələrinə tamamilə uyğun idi. Sülh danışıqlarında mən də bir dərəcəyə qədər iştirak etdim. Sarayda olan həqiqi və ya yalnız zahiri nüfuzum sayəsində mən elçilərə xeyli yardım etdim. Danışıqlar qurtardıqdan sonra, elçilər onlara rəğbət bəslədiyimi görüb, cürətim və alicənablığım haqqında bir çox xoş sözlər söylədilər, imperatorun adından məni, onların ölkəsini ziyarət etməyə çağırdılar. Nəhayət, onlar mənim, insanı heyrətə gətirən gücüm barədə çox sözlər eşitdiklərini söyləyib, xahiş etdilər ki, onlara öz gücümü nümayiş etdirim. Mən onların arzularını yerinə yetirməyə şadlıqla razı olub, bir neçə qəribə oyun göstərdim və onlar buna çox heyrət etdilər.

Onlardan ayrıldıqda, xahiş etdim ki, öz şücaətilə haqlı olaraq bütün dünyanı heyran etmiş əlahəzrət hökmdarlarına mənim dərin

hörmətimi bildirsinlər və öz vətənimə qayıdarkən, hər necə olsa, şəxsən onun hüzuruna gedib, özümü ona təqdim edəcəyimi söyləsinlər.

Bundan sonra öz imperatorumuzla ilk görüşümdə hörmətlə xahiş etdim ki, mənə Blefusku padşahını ziyarət etməyə icazə versin. İmperator razılıq verdi; ancaq mənimlə çox soyuq rəftar etdi. Mən bu soyuqluğun səbəbini xeyli müddət anlaya bilmədim. Axırda əyanlardan biri işin nə yerdə olduğunu mənə söylədi. Məlum oldu ki, Flimnap və Bolqolam elçilərlə görüşümü imperatora mənim üçün ən namünasib bir şəkildə təsvir ediblərmiş. Öz-özünə aydındır ki, onların bütün söylədikləri yalan idi. *İmperatorun hüzurunda mənim vicdanım tərtəmiz idi*. Bu zaman mən, ilk dəfə hələ tutqun bir şəkildə də olsa, nazirlərin necə adamlar və saray həyatının nə demək olduğunu anlamağa başladım.

Bunu qeyd etmək lazımdır ki, elçilər mənimlə tərcüməçi vasitəsilə danışırdılar. Blefuskuluların dili ilə liliputların dili arasında iki Avropa xalqının dilləri arasında olduğu kimi bir fərq vardır. Həm də bu millətlərdən hər biri öz dilinin qədimliyi, gözəlliyi və ifadəli olmasıyla öyünür, öz qonşularının dilinə açıq-aşkar həqarətlə baxırlar. İmperatorumuz düşmən donanmasını ələ keçirərək, üstün bir vəziyyətdə olmağımızdan istifadə edib, Blefusku elçilərini öz etimadnamələrini liliput dilində təqdim etməyə və müzakirələri də bu dildə aparmağa məcbur etmişdi.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, iki dövlət arasında olan geniş ticarət münasibətləri, qonşu dövlətdən qaçıb gələn adamlara həm Liliputstan, həm də Blefusku tərəfindən göstərilən qonaqpərəstlik, eləcə də əsilzadə cavanları dünyanı görmək, insanların həyat və adətləri ilə tanış olmaq üçün xaricə göndərmək adəti nəticəsində, burada hər iki dildə danışmayan təhsil görmüş bir əsilzadəyə, dənizçiyə və dənizkənarı şəhərlərdə yaşayan tacirə az-az rast gəlmək olar. Bir neçə həftədən sonra Blefusku imperatoruna öz hörmətimi izhar etmək üçün getdiyim zaman, mən də bunun şahidi oldum.

Bir qədər keçdikdən sonra məlum oldu ki, oraya getməyin mənə çox xeyri olmuşdur. Düşmənlərim kin və qəzəblərindən mənim üçün böyük bir fəlakət hazırlayıblarmış. Ancaq bu barədə sonra danışacağam.

ALTINCI FƏSİL

Liliputstan əhalisi; onlarda elm, qanunlar və adətlər; uşaqların tərbiyə sistemi. Müəllifin bu ölkədəki yaşayış tərzi. Onun bir əyan xanımının şərəfini qoruması.

Mən Liliputstanın ətraflı təsvirinə xüsusi bir tədqiqat əsəri həsr etmək fikrindəyəm. Ancaq bununla belə bir ölkə və onun əhalisi barədə indidən bir qədər məlumat verməyi lazım bilirəm.

Yerlilərin orta boyu altı düymdən azacıq uzundur. Bütün heyvan və bitkilərin də boyu buna tamamilə uyğundur: məsələn, orada at və öküzlərin boyu dörd və ya beş düymdən, qoyunlarınkı isə bir yarım düymdən uca olmaz. Qazları bizim sərçə boydadır. Xırda heyvanları, quşları və həşəratları isə mən, demək olar ki, gözlə seçə bilmirdim. Ancaq təbiət liliputların gözlərini ətraflarındakı şeylərə uyğun yaratmış və onlar ancaq yaxın məsafəni çox yaxşı görürlər. Onların gözlərinin itiliyinə bir misal göstərim: mən, bizim milçəkdən böyük olmayan bir torağayın tüklərini ütən bir aşpaza və gözə görünməyən iynənin gözünə ipək sap keçirən bir qıza tamaşa etməkdən böyük ləzzət apardım. Liliputstanda ən böyük ağac yeddi futdan hündür deyildir; mən böyük padşahlıq parkında olan ağacları nəzərdə tuturam. Mənim əlim bu ağacların təpəsinə güclə çatırdı. Bütün başqa bitkilər də buna uyğun ölçüdədir, ancaq mən bunu hesablamağı oxucunun öz öhdəsinə buraxıram.

İndi mən xalqın içərisində çoxdan bəri hər sahədə inkişaf etməkdə olan elm və fənn haqqında yalnız qısaca məlumat verməklə kifayətlənəcəyəm. Ancaq diqqəti onların çox orijinal yazı yazmaq tərzinə cəlb edirəm; liliputlar avropalılar kimi, soldan sağa yazmırlar, ərəblər kimi sağdan sola da yazmırlar, heç çinlilər kimi üstdən aşağı da yazmırlar. Onlar, ingilis xanımları kimi, səhifə boyu köndələninə, səhifənin bir küncündən o biri küncünə yazırlar.

Liliputlar ölülərini qəbirə başıaşağı qoyub, dəfn edirlər. Onlar inanırlar ki, ölülər on bir min aydan sonra diriləcəklər. O vaxta qədər isə yer (liliputlar yerin yastı olduğunu güman edirdilər) başı aşağı çevriləcək, ölülər də dirildikdə, düz ayaq üstə durmuş

olacaqlar. Alimlər bu etiqadın mənasız olduğunu təsdiq edirlər. Ancaq qara camaat arasında bu adət indiyə qədər də davam edir.

Bu imperatorluqda çox qəribə qanun və adətlər var. Bu qanun və adətlər mənim əziz vətənimin qanun və qaydalarına tamamilə zidd olmasaydı, mən onları müdafiə edərdim. Ancaq arzu edərdim ki, bu qanun-qaydalara işdə də ciddi surətdə əməl edilsin. Hər şeydən əvvəl, xəbərçilər barədəki qanunu göstərim. Bütün dövlət cinayətlərinə görə burada adamları çox ağır cəzalandırırlar. Ancaq müttəhim məhkəmədə müqəssir olmadığını sübut edərsə, ona şər atmış adam təxirsiz olaraq rüsvayçılıqla edam edilir və bəraət almış adamın xeyrinə olaraq vaxtını itirməsi, məruz qaldığı təhlükə, həbsxanada qaldığı müddətdə çəkdiyi məhrumiyyətlər üçün və müdafiəyə sərf etdiyi bütün məxaric böhtançıdan cərimə kimi alınır. Bu cərimə həqiqi miqdardan dördqat artıq olur. Şər atan adamın əmlakı cəriməyə kifayət etmədikdə, çatışmayan məbləğ dövlət xəzinəsindən verilir. Bundan əlavə, imperator azad edilmiş adamı öz lütfünün əlaməti olan bir ictimai nişanla mükafatlandırır. Onun günahsız olduğu bütün ölkədə elan edilir.

Liliputlar fırıldaqçılığı oğurluqdan da ağır bir cinayət sayırlar. Buna görə də yalnız tək-tək hallarda ola bilər ki, fırıldaqçını ölümlə cəzalandırmasınlar. Onlar bu fikirdədirlər ki, adam müəyyən dərəcədə ehtiyatlı, sayıq və bir qədər də sağlam düşüncə sahibi olsa, öz malını oğrudan qoruya bilər; ancaq mahir fırıldaqçıdan qorunmaq mümkün deyildir. Onlarda bütün ticarət alver edənlərin bir-birinə qarşılıqlı surətdə etibar etməsi əsasında qurulmuşdur. Buna görə də qanun ticarət işlərində hər cür adamaldatma və hiylə işlətməyi ciddi surətdə təqib etməlidir. Belə olmasa, sədaqətli tacir həmişə zərərli çıxar, fırıldaqçı və hiyləgər adamlar isə bütün qazanca sahib olarlar.

Bir dəfə mən padşahın hüzurunda bir cani üçün minnətçi olmuşdum. Onun təqsiri bundan ibarət idi ki, öz ağasının etibarnaməsi üzrə çoxlu miqdarda pul alıb mənimsəmiş və qaçmaq istəmişdi. Mən onun cəzasının yüngülləşdirilməsini xahiş edəndə, imperatora demişdim ki, burada yalnız etibardan pis istifadə məsələsi vardır. Müqəssiri müdafiə etmək üçün, məhz, onun cinayətini ağırlaşdıran bir cəhəti, yəni etibara xəyanət etməyi mənim dəlil göstərməyim imperatoru son dərəcə təəccübləndirdi. Boynuma

alıram ki, buna mən heç bir cavab verə bilmədim: sadəcə belə bir mülahizə söylədim ki, müxtəlif xalqların adətləri də müxtəlifdir. Bu zaman mən yaman pərt olmuşdum.

Biz adətən mükafat və cəzanı dövlət maşınını hərəkətə gətirən başlıca yaylar hesab ediriksə də, ancaq bu qayda yalnız Liliputstanda ciddi bir surətdə yerinə yetirilir. Yeddi ay ərzində ölkənin adətlərinə doğru-dürüst əməl etdiyini sübut edən hər bir adam özü də orada müəyyən imtiyazlar almağa haqq qazanır. Dövlət vəsaitindən ona müəyyən pul mükafatı verilir. Bundan başqa o, *snilpel*, yəni qanunlara əməl edən adam rütbəsi qazanır. Bu rütbə onun familiyasına əlavə olunursa da, övladlarına keçmir. Mən liliputlara bizim ölkədə vətəndaşların qanunu gözləməsinin yalnız cəza qorxusu ilə təmin edildiyini, qanunları doğru-dürüst gözləmək üçün heç bir mükafat verilmədiyini danışdıqda, liliputlar bunu bizim idarə üsulumuz üçün ən böyük bir nöqsan saydıqlarını söylədilər. Buna görə də buradakı məhkəmə müəssisələrində ədalət altıgözlü bir qadın surətində təsvir olunur. Bu qadının – ikisi qabaqda, ikisi arxada və hər böyründə bir gözü vardır ki, bu da sayıqlıq timsalıdır. Onun sağ əlində qızıl ilə dolu ağzı açıq bir kisə, sol əlində isə qın içində bir qılınc var; bunun mənası belədir: *o, cəzalandırmaqdan artıq mükafatlandırmağa hazırdır**.

Hər bir vəzifəyə namizəd seçdikdə, adamın zehni istedadından artıq əxlaqi sifətlərinə fikir verilir. Liliputlar belə bir fikirdədirlər ki, orta dərəcədə zehni inkişafa malik olan hər bir adam, bu və ya digər vəzifəyə qabildir. Axı tale ictimai işləri idarə etməyi hələ heç bir zaman elə dərin və mürəkkəb bir sirrə çevirməyi nəzərdə tutmamışdır ki, bu sirri yalnız bir əsrdə üç nəfərdən artıq doğulmayan böyük dahilər həll edə bilsinlər. Əksinə, liliputlar bu fikirdədirlər ki, doğruluq, yumşaqlıq və başqa bu kimi sadə xoş sifətlər, təcrübə və xeyirxahlıqla birlikdə hər bir insanı öz vətəninə xidmətkar bir adam edir. Belə bir adam xüsusi bilik tələb edən vəzifələrdən başqa, hər bir vəzifəni tuta bilər. Onların rəyincə, ən yüksək zehni istedad əxlaqi ləyaqəti əvəz edə bilməz. Onlar deyirlər: "Mühüm vəzifələri belə istedadlı adamlara tapşırmaqdan təhlükəli bir şey yoxdur. Xeyirxah məqsədlər güdən bir adamın cəhalətindən əmələ gələn səhvi, həmişə asanlıqla düzəltmək olar. Amma öz nöqsanlarını gizlətməyi və heç bir cəza görmədən bunlara uymağı bacarmaq qabiliyyətinə

malik olan bədniyyət bir adamın fəaliyyəti ictimai mənafe üçün çox böyük bir təhlükədir".

Mən öz təsvirimdə ölkənin köhnə, ən qədim adət və qanunlarını nəzərdə tuturam. Onlardan bir çoxu indi, demək olar ki, unudulmuşdur. Bir çox başqa ölkələrdə olduğu kimi, indi Liliputstanda da əxlaq kökündən pozulmuşdur. Bu da xalqın əslini itirməkdə olmasına bir əlamətdir. Məsələn, yüksək dövlət vəzifələrinə mahir kəndirbazları təyin etmək və ya ağacın üstündən çox zirəkliklə hoppanan, ya da onun altından sürünüb keçən adamlara xüsusi nişanlar vermək kimi eybəcər adət ilk dəfə indi hökmranlıq edən imperatorun babası tərəfindən tətbiq edilmişdir.

Liliputlarda yaxşılığı bilməmək cinayət sayılır. Liliputlar deyirlər: "Hətta yaxşılığını gördüyü bir adama da pislik etməyi bacaran şəxs, yəqin ki, heç bir yaxşılıq görmədiyi bütün başqa adamları özünə düşmən bilir. Buna görə də belə adam ölümə layiqdir".

Onların ailəyə, uşaqlara, ata-ana arasındakı münasibətlərə baxışları da bizimkindən xeyli fərqlidir. Liliputlar belə hesab edirlər ki, uşaqların tərbiyəsini cəmiyyət və hökumət öz üzərinə götürməlidir. Odur ki, hər bir şəhərdə xüsusi tərbiyə müəssisələri təşkil edilmişdir ki, hamı iyirmi aylığa çatmış uşaqlarını ora verməyə məcburdur.

Bu məktəblərdə şagirdlərin təlim və tərbiyəsi, onların tərkibindən asılı olaraq müxtəlifdir. Oğlan və qızlar üçün adlı-sanlı adamların və varlıların, peşəkarların və yoxsulların uşaqları üçün ayrı-ayrı məktəblər vardır. Məktəbləri təhsil görmüş təcrübəli müəllimlər idarə edirlər. Bunlar uşaqları ata-analarının ictimai vəziyyətinə və onların öz qabiliyyət və meyillərinə uyğun olan işlərə hazırlayırlar.

Mən əvvəlcə oğlan uşaqları üçün, sonra da qızlar üçün olan tərbiyə müəssisələri haqqında bir neçə söz deyəcəyəm.

Nəcabətli əyan uşaqlarına məxsus tərbiyə müəssisələri nüfuzlu və təhsil görmüş müəllimlərin idarəsi altındadır. Uşaqların geyimləri və yeməkləri sadə, adidir. Onlar namuslu, ədalətli və cürətli olmaq ruhunda tərbiyə edilməklə, onlarda təvazökarlıq, mehribanlıq, dini hisslər, vətənə məhəbbət də inkişaf etdirilir. Onlar həmişə məşğuldurlar. Yeməyə və yatmağa çox az vaxt verilir. İstirahət və bədən tərbiyəsinə gündə iki saat ayrılır. Qalan vaxt isə təlim və tədrisə sərf olunur. Uşaqları dörd yaşına qədər xidmətçilər geyindirib-soyundururlar. Ancaq dörd yaşından başlayaraq, bunu onlar özləri edirlər. Uşaqlara heç bir vaxt xidmətçilərlə danışmağa icazə verilmir. İstirahət zamanı onlar həmişə mürəbbinin və ya köməkçinin nəzarəti altında olurlar. Beləliklə, onlar hər cür dedi-qodu, axmaq, cəfəngiyat və pis təsirlərdən qorunmuş olurlar. Ata-analara ildə yalnız iki dəfə uşaqları ilə görüşməyə icazə verilir. Hər görüş bir saatdan artıq davam etmir. Onlar uşaqlarını bir görüşəndə, bir də ayrılanda öpə bilərlər. Görüş zamanı mürəbbi həmişə onların yanında olur. O, nəzarət edir ki, ata-analar uşaqlarla pıçıldaşmasınlar, onlara cürbəcür nəvazişli sözlər söyləməsinlər, oyuncaq, şirniyyat və sairə bu kimi şeylər gətirib verməsinlər.

Orta mülkədarların, tacirlərin və peşəkarların uşaqları üçün olan tərbiyə müəssisələri də belə qurulmuşdur. Bütün fərq bundan ibarətdir ki, peşəkar olacaq uşaqlara on bir yaşından başlayaraq peşə öyrədilir. Əyan uşaqları isə ümumi təhsilə on beş yaşına qədər davam edirlər. Qeyd etmək lazımdır ki, yuxarı yaşlı məktəblilər üçün məktəb rejimi bir qədər yumşaldılır.

Qızlar üçün olan tərbiyə müəssisələrində adlı-sanlı ailələrin qızları, demək olar ki, oğlanlar kimi tərbiyə edilirlər. Ancaq xidmətçi kişilər əvəzinə bunları əxlaqlı dayələr geyindirib-soyundururlar. Bu zaman həmişə ya mürəbbiyə, ya da köməkçi onların yanında olur. Dayələrə qızlar üçün cürbəcür qorxulu və ya axmaqcasına nağıllar danışmaq, sarsaq oyunlar çıxarmaq çox ciddi surətdə qadağan edilir. Bu qaydanı pozmaqda müqəssir olan dayə, camaat arasında üç dəfə qamçı ilə döyülür, bir il həbsə alınır, sonra isə həmişəlik ölkənin ən uzaq bir guşəsinə sürgün edilir. Belə bir tərbiyə sistemi sayəsində Liliputstanda cavan xanımlar da kişilər kimi qorxaqlıqdan, axmaqlıqdan çəkinir, təmizlik və səliqədən başqa hər cür bəzək-düzəyə nifrət edirlər. Mən qızlarla oğlanların tərbiyəsi arasında heç bir mühüm fərq görmədim. Yalnız, qızlar üçün bədən tərbiyəsi bir qədər yüngüldür və fənn kursları çox geniş deyildir; bunun müqabilində qızlara evdarlıq öyrədirlər; çünki Liliputstanda belə hesab edirlər ki, yüksək siniflərdə də arvad kişinin düşüncəli və mehriban yoldaşı olmalıdır. Qız on iki yaşa, yəni oranın adətinə görə ərə getmək yaşına çatanda, ata-anaları və ya qəyyumları onları öz evlərinə aparırlar. Bu zaman cavan qızın öz yoldaşları ilə vidalaşması çox az-az hallarda ağlaşmasız keçir.

Aşağı siniflərdən olan qızlar üçün tərbiyə müəssisələrində onlara cürbəcür peşələr öyrədirlər. Peşə ilə məşğul olacaq qızlar tərbiyə müəssisəsində yeddi yaşına qədər, başqaları isə on bir yaşına qədər qalırlar.

Kəndlilər və kənd fəhlələri öz uşaqlarını evlərində tərbiyə edirlər. Onlar əkinçiliklə məşğul olduqlarından, hökumət onların təhsili işinə xüsusi əhəmiyyət vermir. Xəstələr və qocalar xeyriyyə müəssisələrində saxlanılır. İmperatorluqda dilənçilik deyilən şey yoxdur.

Ancaq ola bilər ki, maraqlanan oxucular mənim bu ölkədə necə yaşadığımı və nə ilə məşğul olduğumu bilmək istəyirlər. Axı mən orada doqquz ay on üç gün qalmışam.

Mən əl işini həmişə xoşlamışam. Odur ki, burada dülgərlik sənətindəki vərdişlərim mənim xeyli işimə yaradı, padşahlıq parkının ən iri ağaclarından mən özüm üçün xeyli rahat bir stol və stul düzəltmişdim.

İki yüz dərzi qadına mənim üçün köynək, yorğan-döşək və süfrə tikmək əmri verilmişdi. Bunlar ölkədə olan ən möhkəm və qalın kətandan tikilməli idi. Ancaq bu kətan bizim ən zərif kisəyimizdən də nazik idi. Buna görə, dərzi qadınlar parçanın davamlı olması üçün bir neçə qat parçanı üst-üstə sırımalı olmuşdular. Onların ən iri kətan parçasının uzunu üç fut, eni üç düym idi. Mən yerə uzandım ki, dərzi qadınlar ölçümü götürə bilsinlər. Bir tikişçi qadın mənim boğazımın yanında, o birisi isə dizimin yanında durdu. Onların hərəsi ipin bir ucundan tutub çəkdilər, üçüncüsü isə bir düym uzunluğunda olan xətkeşlə ipin uzunluğunu ölçdü. Sonra onlar mənim sağ əlimin baş barmağını ölçdülər. Onlara daha heç bir şey lazım deyildi. Onlar biləyin dairəsinin baş barmağın dairəsindən ikiqat artıq, boyun dairəsinin isə biləyin dairəsindən ikiqat artıq olduğunu bildiklərindən, mənim üçün əynimə yaxşı gələn alt paltarı tikdilər. Onlar üçün nümunə olaraq, mən köhnə köynəyimi səliqə ilə yerə sərmişdim.

Elə həmin vaxtda üç yüz dərziyə mənim üçün kostyum tikmək də tapşırılmışdı. Mən dizi üstə oturdum. Dərzilər çiynimə nərdivan qoydular, onlardan biri bu nərdivanla çiynimə çıxıb, boğazlığımdan aşağı şaquli bir ip salladı, beləliklə, o, kaftanın uzunluğunu təyin etdi. Qollarımı və belimi özüm ölçdüm. Şəhərdə heç bir elə ev tapılmadı ki, mənim kostyumumun hissələrini orada yerə sərə bilsinlər. Buna görə dərzilər mənim qaldığım qəsrdə işləməli oldular. Kostyum zahiri cəhətdən ingilis xanımlarının cürbəcür parçalardan tikdikləri qurama yorğanlara bənzəyirdi. Ancaq buradakı parçaların hamısı bir rəngdə idi.

Mənim xörəyimi üç yüz aşpaz bişirirdi. Onlar öz ailələri ilə birlikdə mənim evimin yanında tikilmiş kiçik və rahat baraklarda yaşayırdılar. Mənə, hərəsi iki cür yeməkdən ibarət, səhər, günorta və axşam yeməyi bişirməyə məcbur idilər. Mən iyirmi xidmətçini götürüb stolun üstünə qoydum, onların yüz nəfər yoldaşı aşağıda döşəmə üzərində işləyirdi. Bəziləri yemək daşıyır, bəziləri çiyinlərində şərab və sair içki ilə dolu çəlləklər gətirirdilər. Stol üstündəki xidmətçilər Avropada quyudan su ilə dolu vedrədən çəkdikləri kimi, təkərli qarqaralarla onları məharətlə stolun üstünə qaldırırdılar. Onların gətirdikləri hər dolu boşqabı birdəfəyə ağzıma boşaldır, hər şərab çəlləyini bir uduma içirdim. Buradakı qoyun əti bizimkindən dadsızdır. Amma mal əti çox ləzzətlidir. Bir dəfə mənə elə bir qabırğa rast gəldi ki, onu üç tikəyə bölməli oldum. Ancaq bu, müstəsna bir hal idi. Bizdə torağayları yedikləri kimi, mal ətini sümükqarışıq yediyimə baxan xidmətçilər heyrət edirdilər. Bunların qaz və hinduşkalarını mən adətən birdəfəyə ağzıma qoyub yeyirdim. Düzünü söyləmək lazımdır ki, buranın quşları bizimkilərdən çox dadlıdır. Xırda quşların iyirmisini-otuzunu birdəfəyə bıçağın ucuna keçirib yeyirdim.

Əlahəzrət imperator yaşayış tərzim barədə cürbəcür rəvayətlər eşitdiyindən, bir dəfə bildirmişdi ki (o belə buyurmaq lütfündə olmuşdu), şövkətli arvadı və gənc şahzadə qız və oğlanları ilə birlikdə mənimlə nahar etməyi özü üçün səadət hesab edir. Onlar gəldikdə, mən onları da qarşımdakı stolda, bəzəkli qoltuq kürsülərində yerləşdirdim. Onların dörd bir tərəfində şəxsi keşikçiləri durmuşdu. Qonaqlar arasında əlində ağ dövlət əsası tutmuş dövlət xəzinəsinin baş müdiri lord[1] Flimnap da var idi. O, mənə acıqlı-acıqlı baxırdı, ancaq mən özümü elə göstərirdim ki, guya onun baxışlarını seçmirəm və öz əziz vətənimin şərəfinə buradakı saray əhlinin heyrətini daha da artırmaq üçün həmişəkindən də çox yeyirdim. Mənim belə güman etməyə haqqım var ki, əlahəzrətin bu ziyarəti məni gözündən salmaq üçün Flimnapın əlində bir vasitə olmuşdu. Flimnap mənə bu qaraqabaq adamdan gözlənə biləcəyindən xeyli artıq bir nəzakət göstərirdisə də, əslində o, həmişə mənə düşmən olmuşdur. O, imperatorluq xəzinəsinin pis vəziyyətdə olduğunu imperatorun nəzərinə çatdırdı. O dedi:

[1] *Xəzinənin baş müdiri lord* – maliyyə naziri deməkdir.

"Biz yüksək faizlə borc almaq məcburiyyətindəyik. Bizim pullar qiymətdən düşür. Halbuki Dağ boyda Adamın saxlanılması əlahəzrətə indiyədək bir milyon yarım *sprup*dan da yuxarı oturmuşdur (spruq liliputların ən iri qızıl pullarıdır; bu, ən xırda balıq pulu boydadır). Axırda əlavə etdi ki, ilk fürsət düşən kimi imperator məni ölkədən kənar edərsə, çox ağıllı bir iş görmüş olar.

Günahsız ola-ola, mənim üstümdə əziyyət çəkmiş hörmətli bir xanımın adını təmizə çıxarmağı özümə borc bilirəm. Xəzinənin baş müdiri qəlbiqaralığından öz arvadını mənə qısqanırdı. Dedi-qoduçu adamlar ona çatdırmışdılar ki, onun hörmətli arvadı guya coşqun bir məhəbbətlə mənə bənd olmuşdur. Söz çıxarıblarmış ki, guya o, xəlvətcə mənim yanıma gəlirmiş. Bu dedi-qodu sarayda böyük hay-küyə səbəb olmuşdu. Mən təntənəli bir surətdə bəyan edirəm ki, bütün bunlar ən həyasız bir iftira və böhtandır. Doğrudan da həmin hörmətli xanım mənə dostcasına münasibət bəsləyirdi və dəfələrlə mənim yanıma gəlmişdi. Ancaq bunu həmişə açıq-aşkar etmişdi. Həm də karetada onunla üç nəfər: bacısı, qızı və rəfiqəsi olardı. Mənim yanıma başqa saray xanımları da gəlib-gedərdilər. Mən öz xidmətçilərimi buna şahid çağırıram; qoy onlardan bircəsi söyləsin görək, heç mənim qapımda elə bir kareta görüblərmi ki, içindəkinin kim olduğunu bilməsinlər? Mənim evimə bir kareta yaxınlaşdıqda, xidmətçim həmişə kimin gəldiyini mənə xəbər verərdi. Mən həmin saat qapıya çıxardım. Gələn adamla hörmətlə salamlaşıb, karetanı iki atı ilə birlikdə götürüb (əgər altı at qoşulmuş olardısa, sürücü həmişə dördünü açardı) stolun üstünə qoyardım. Bir bədbəxtlik üz verməsin deyə, mən əvvəlcədən stolun kənarına beş düym hündürlüyündə bir taxma məhəccər taxardım. Çox vaxt mənim stolumun üstündə dörd kareta olardı ki, bunların da içərisində gözəl xanımlar əyləşərdilər. Özüm isə stulumda oturub, onlara sarı əyilərdim. Mən bir karetadakı xanımlarla söhbət etdikdə, o biri karetalar stolun üstündə aram-aram dövrə vurardı. Yeməkdən sonrakı saatlarımın çoxunu mən beləcə söhbətlərlə çox xoş keçirərdim. Nə Flimnap, nə də onun casusları olan Krestril və Drenlo (əllərindən nə gəlirsə etsinlər, mən onların adlarını çəkəcəyəm) heç bir zaman, heç bir kəsin mənim yanıma xəlvət gəldiyini sübut edə bilməzlər. Yalnız bircə dəfə dövlət katibi Reldresel yanıma gizlicə gəlmişdi. Ancaq, əvvəldən dediyim kimi, o da əlahəzrət imperatorun xüsusi əmrilə belə hərəkət etmişdi.

Bəlkə də bu mənasız hadisə haqqında uzun-uzadı danışmağa dəyməz. Amma işin içində bir əyan xanımın namus məsələsi var. Bundan başqa, öz adımın təmiz qalması da mənim üçün çox qiymətlidir. Axı mən *nardak* adı qazanmaq şərəfinə nail olmuşam ki, xəzinənin baş müdiri Flimnapın özünün də belə bir adı yoxdur. Hamıya məlumdur ki, o, yalnız *qlüm-qlüm*dür; bu ad isə mənim rütbəmdən, bizdə markiz dərəcəsi hersoqdan aşağı olduğu qədər aşağıdır. Ancaq mən etiraf etməyə razıyam ki, o tutduğu vəzifəyə görə məndən yüksəkdə durur. Hər nə isə, bu dedi-qodular gedib Flimnapın qulağına çatmış, bir müddət arvadı ilə onun arasını vurub, mənə qarşı olan kin və qəzəbini daha da artırıbmış. Ancaq o, belə dedi-qodunun yalan olduğuna inanıb, bir az sonra arvadı ilə barışmışdı, mən isə həmişəlik onun gözündən düşmüşdüm. Bir az sonra mən hiss etməyə başladım ki, imperatorun da, mənə olan münasibəti dəyişib, xarablaşmışdır. Bunda təəccüblü heç bir şey yox idi; çünki əlahəzrət imperator öz sevimlisinin təsiri altında idi.

YEDDİNCİ FƏSİL

Müəllifin, onu dövlətə xəyanətdə təqsirləndirmək istədiklərindən xəbər tutması. Blefuskuya qaçmaq tədbiri. Orada qəbul edilməsi.

İndi mən bu ölkəni necə tərk etdiyimi danışmalıyam. Lakin əvvəlcə son iki ay ərzində mənə qarşı törədilən gizlin fitnə-fəsadla oxucularımı xəbərdar etməyi lazım bilirəm.

Mən sakit və yoxsul bir adam olduğumdan, Liliputstana gəlib çıxmamışdan əvvəl kral saraylarını görməmişdim. Doğrudur, böyük padşahların adətləri barədə çox eşitmiş və oxumuşdum. Bununla bərabər, heç güman etməzdim ki, bu uzaq ölkədə də hökmdarların adət və xasiyyətləri dövlət işlərinin gedişinə bu dərəcədə dəhşətli təsir edə bilər. Mənə elə gəlirdi ki, burada Avropadakı idarə üsullarından tamamilə başqa üsullar hakimdir.

Mən Blefusku imperatorunun yanına getməyə hazırlaşırdım. Birdən, axşam vaxtı sarayda mühüm mövqe tutan bir nəfər yanıma gəldi. Vaxtilə imperatorun hüzurunda mən onu müdafiə etməklə, ona böyük bir yaxşılıq etmişdim. O, örtülü portşezdə[1] gizlincə gəlmiş və kim olduğunu bildirmədən, qəbul olunmasını xahiş etmişdi. Mən onu gətirən adamları kənara göndərdim, o, möhtərəm zatı portşezi ilə bərabər kaftanımın cibinə qoyub, ən etibarlı xidmətçimə əmr etdim ki, hər kəs gəlsə, mənim xəstə olduğumu söyləsin. Sonra qapıları möhkəmcə bağlayıb, portşezi stolun üstünə qoydum və onunla üz-üzə stulda oturdum. O, möhtərəm zat portşezi açdı, biz salamlaşdıq. Bu zaman gördüm ki, qonağım çox təşvişdədir. Mən bunun səbəbini bilmək istədikdə, o möhtərəm zat xahiş etdi ki, səbirli olub onun söyləyəcəyi bütün sözləri diqqətlə dinləyim. Onun sözlərinə görə, söhbət mənim şərəf və həyatım barədə idi. Aydındır ki, mən onun dediklərindən bircə kəlmə də buraxmadım və o çıxıb gedən kimi, bunları öz qeyd dəftərimə köçürdüm. Onun danışdıqları bundan ibarət idi.

"Sizə söyləməliyəm ki, – o, sözə başladı, – son zamanlar *şuranın xüsusi komissiyalarının bir çox, tamamilə gizlin iclasları** olmuş və orada sizin taleyiniz müzakirə edilmişdir. İki gün bundan əvvəl əlahəzrət bu barədə qəti qərar qəbul etmişdir. Əlbəttə, sizə məlumdur ki, buraya gəldiyiniz ilk günlərdən biri qelbet Skayreş Bolqolam sizin ən qəddar düşməninizdir. Bu ədavətin necə və nə səbəbə əmələ gəldiyindən mənim xəbərim yoxdur. Ancaq bunu bilirəm ki, sizin Blefusku üzərindəki böyük qələbənizdən sonra onun kin və qəzəbi xüsusilə şiddətlənmişdir. Siz öz şücaətinizlə admiralın şöhrətini kölgədə qoymusunuz. Bu əyan öz arvadının üstündə sizə ədavət bəsləyən baş xəzinə müdiri Flimnapla, general Limtokla, baş saray naziri Lelkenlə və baş hakim Belmafla birlikdə sizi dövlətə xəyanətdə və başqa ağır cinayətlərdə töhmətləndirən bir məruzə tərtib etmişdir..."

Bu müqəddimə məni çox həyəcanlandırdı. Mən özümün tamamilə günahsız olduğumu və ölkəyə necə xidmətlər göstərdiyimi çox yaxşı bilirdim. Az qalmışdı ki, qəzəbdən coşub natiqin sözünü kəsəm. Ancaq o, mənim sükutla durub gözləməyimi xahişlə sözünə davam etdi:

[1] *Portşez* – içərisində adlı-sanlı adamlar gəzən örtülü kəcavə

"Siz mənə o qədər yaxşılıq edibsiniz ki, canımdan keçib, bu ittihamnamənin surətini birtəhər əldə etməyi özümə borc bildim. Onu sizə təqdim edirəm".

KUİNBUS FLESTRİN,
Dağ boyda Adam
əleyhinə

İTTİHAMNAMƏ

M. 1

Yuxarıda adı çəkilən Kuinbus Flestrin, Blefusku imperatorunun donanmasını əsir alıb, imperatorluq limanına gətirdikdən sonra, imperator həzrətlərindən əmr almışdı ki, Blefusku imperatorluğunun qalan gəmilərini də tutub gətirsin. Bu əmrdə son dərəcə əhəmiyyətli olan dövlət mənafeyi nəzərdə tutulmuşdu; belə ki, bu imperatorluq bizim canişinin idarəsi altında bir əyalətə çevrilməli, orada gizlənmiş yumurtanı altdan sındırmaq tərəfdarlarının başçıları edam edilməli və ümumiyyətlə, bütün mürtədlərin kökü kəsilməli idi. Lakin məzkur Flestrin mərhəmətli və müqəddəs imperator həzrətlərindən xaincəsinə xahiş etmişdi ki, onu yəni Flestrini bu tapşırığın icrasından azad etsin; onun söylədiyinə görə, guya vicdanı işlərdə zor işlətmək və təqsiri olmayan bir xalqı azadlıqdan məhrum etmək istəmirmiş.

M. 2

Blefusku sarayından əlahəzrətin sarayına sülh üçün elçilər gəldikdə, həmin Flestrin elçilərin imperator həzrətlərinə açıq düşmən olub, əlahəzrət ilə açıqdan-açığa müharibə edən bir padşahın xadimləri olduqlarını bildiyi halda, qəddar bir xain kimi onlara havadar olub kömək etmiş, ruhlandırmış və əyləndirmişdir.

M. 3

İndi isə, həmin Kuinbus Flestrin sadiq təbəəlik vəzifəsinin əksinə olaraq Blefusku sarayına və imperatorluğuna səyahətə getməyə

hazırlaşır. Bu səyahət üçün o, imperator həzrətlərinin yalnız şifahi icazəsini almışdır. Halbuki, Flestrin bu mübarək icazəyə əsaslanaraq təxirsiz surətdə yola düşmək niyyətindədir. Onun məqsədi hələ bu yaxında əlahəzrətin düşməni olub, onunla açıq-aşkar müharibə edən Blefusku imperatoruna yardım etmək, onu ruhlandırmaq və həvəsləndirməklə bizim dövlətə qarşı qəddarcasına xəyanət etməkdən ibarətdir.

Mən ittihamnamənin yalnız ən mühüm maddələrini misal gətirdim. *Orada əhəmiyyəti nisbətən az olan bir çox başqa şeylər də var idi*.

Əyan sözünə davam edib dedi:

"...Etiraf etmək lazımdır ki, bu ittihamnamə ətrafında gedən uzan-uzadı müzakirə zamanı əlahəzrət imperator sizə xeyli güzəştə getdi. O, dəfələrlə sizin xidmətlərinizi yad edib cinayətinizi mümkün qədər yumşaltmağa cəhd etdi. Xəzinənin müdiri və admiral təkid edirdilər ki, sizi ən işgəncəli və rüsvayçı ölümə məhkum etsinlər. Onlar təklif etdilər ki, gecə sizin eviniz yandırılsın və qoşun komandanına əmr verilsin ki, evinizi iyirmi min nəfərlik bir ordu ilə mühasirəyə alıb, sizin üzünüzə və əllərinizə zəhərlənmiş oxlar yağdırsınlar. Başqa bir təklif də irəli sürülmüşdü: xidmətçilərinizə əmr verilməli idi ki, sizin köynəyinizi və döşəkağınızı zəhərləsinlər. Bu zəhərin təsirilə siz öz bədəninizi qaşıyıb didəcək və ən ağır iztirablarla öləcəksiniz.

Qoşun komandanı da bu fikrə şərik idi.

Uzun müddət şuranın əksəriyyəti sizin əleyhinizə oldu. Ancaq əlahəzrət sizin həyatınızı mümkün qədər qorumaq istəyirdi. Axır ki, o, baş saray nazirini öz tərəfinə çəkə bildi.

Bu mübahisələrin ən qızğın bir vaxtında özünü həmişə sizin dostunuz kimi tanıtmış olan, məxfi işlər üzrə baş katib Reldreselə əlahəzrət imperator əmr etdi ki, o da öz fikrini söyləsin. Reldresel bu əmrə tabe olub, sizin onun haqqında olan müsbət fikirlərinizi doğrultdu. O, etiraf etdi ki, sizin işlətdiyiniz cinayətlər doğrudan da böyükdür. Ancaq bu hal padşahların ən böyük məziyyəti, o cümlədən əlahəzrətin həqiqətən zinəti olan mərhəməti aradan qaldıra bilməz. O dedi: "Mənimlə Flestrin arasında olan dostluq hamıya məlumdur. Buna görə də mənim rəyimi möhtərəm şura üzvləri, bəlkə də, tərəfgirlik hesab edəcəklər. Ancaq mən əlahəzrətin əmrinə itaət edərək, rəyimi açıq söyləməyi özümə borc bilirəm. Əgər əlahəzrət lütf edib razı olarsa,

Kuinbus Flestrinin göstərdiyi xidmətləri nəzərə alıb, özünə məxsus olan bir mehribanlıqla onun həyatını qoruyaraq, yalnız gözlərini çıxarmaq əmrini verməklə kifayətlənər; güman edirəm ki, bu tədbir müəyyən bir dərəcəyə qədər ədaləti də təmin edər. Eyni zamanda belə bir qərara bütün dünya heyran qalar. Hamı böyük bir heyranlıqla həm padşahın mülayimliyini, həm də onun müşaviri şərəfinə nail olmuş şəxslərin alicənablığını tərif edər". Bunu da nəzərə almaq lazımdır ki, gözdən məhrum olmanız sizin fiziki qüvvənizə heç bir zərər yetirməyəcək və bunun sayəsində siz əlahəzrət imperatora yenə fayda verə biləcəksiniz; korluq sizin təhlükəni görmənizə mane olub, cürətinizi daha da artıracaqdır. Düşmən donanmasını əsir etdiyiniz zaman, sizə ən çox mane olan şey gözlərinizi itirmək qorxusu idi. Halbuki, hətta böyük padşahlar da nazirlərin məsləhətləri ilə kifayətlənmədikləri üçün, sizin də hər bir şeyi nazirlərin gözlərilə görməniz kifayətdir.

Ali şura bu təklifi son dərəcə narazılıqla qarşıladı. Admiral Bolqolam öz soyuqqanlığını mühafizə edə bilmədi. O, yaman qəzəblənmiş bir halda yerindən sıçrayıb söylədi ki, bir cinayətkarın həyatını qorumaq lehinə katibin söz söyləməsinə təəccüb edir, guya sizin göstərdiyiniz xidmətlər cinayətlərinizi daha da qorxunc və təhlükəli bir hala salır. Çünki özünüzü incidilmiş və ya təhqir edilmiş sandıqda, siz düşmən donanmasını əsir aldığınız həmin o qüvvə ilə, o donanmanı geri də apara bilərsiniz. Bundan başqa, guya sizin ürəkdən yumurtanı altdan sındırmaq tərəfdarı olduğunuzu göstərən möhkəm dəlillər varmış. Xəyanət isə, həyata keçirilməmişdən əvvəl, insanın qəlbində doğulduğundan Bolqolam sizi xəyanətkarlıqda ittihamla edam olunmanızı tələb edirdi.

Baş xəzinə müdiri də bu fikirdə idi. O, sizin saxlanmanızın xəzinə üçün nə qədər ağır bir yük olduğu barədə iclasa məlumat verib söylədi ki, bir az sonra xəzinə tamamilə yoxsullaşacaqdır. Həm də sizin gözlərinizi çıxarmaq barədə katibin təklifi əlahəzrəti nəinki bu bəladan qurtarmayacaq, çox ehtimal ki, məxarici daha da artıracaqdır. Təcrübə göstərir ki, bəzi ev quşları kor edildikdən sonra daha çox yeyir və tezliklə kökəlirlər.

Buna görə də əgər əlahəzrət şura üzvləri sizin müqəssir olduğunuza vicdanla və möhkəm inanmışdırsa, bu, sizi ölümə məhkum etmək üçün kifayətdir: daha qanunun tələb etdiyi rəsmi dəlillər axtarmağa ehtiyac yoxdur.

Ancaq əlahəzrət ölüm cəzasına qarşı qəti surətdə etiraz etdi. O, lütf edib belə buyurdu ki, əgər gözlərinizi çıxarmaq şuranın rəyincə çox yumşaq bir cəzadırsa, daha ağır bir hökm çıxarmaq üçün həmişə vaxt tapılar. Bunu eşitdikdə, sizin dostunuz olan katib sizin saxlanmanıza guya hədsiz məxaric lazım gəldiyi barədə baş xəzinə müdirinin sözlərinə cavab vermək üçün icazə istədi. O söylədi ki, əlahəzrətin bütün gəlirləri tamamilə baş xəzinə müdirinin öz ixtiyarındadır. Buna görə də o, sizin yeyib-içmənizə sərf edilən məxarici tədricən azaltmaq üçün lazımi tədbirlər görə bilər. Lazımınca yeyib-içmədikdə, siz zəiflər, arıqlar iştahadan qalar və bir neçə ayda taqətdən düşərsiniz. Bu cür hərəkətin bir faydası da budur ki, sizin cəsədinizin çürüməsi təhlükəsi də azalar, çünki bədəninizin həcmi yarıbayarı kiçilir. Beləliklə, siz ölən kimi, əlahəzrətin beş-altı min təbəəsi iki-üç günün içində ətinizi sümüyünüzdən ayırıb, arabalara yüklər və yoluxucu xəstəliklərə səbəb olmamaq üçün, şəhərdən uzaq bir yerdə basdırarlar, skeletinizi isə gələcək nəsillərə maraqlı bir yadigar kimi mühafizə edərlər.

Beləliklə, katibin sizə qarşı olan dostcasına münasibətinə siz o cəhətdən minnətdar olmalısınız ki, onun sayəsində hər iki tərəfi razı salan bir qərara gəlmək mümkün oldu. Sizi tədricən acından öldürmək planını gizlin saxlamaq əmr olundu, gözlərinizin çıxarılması barədəki hökm isə, kitablara qeyd edildi. Qərar bir səslə çıxarıldı. Yalnız imperatriçənin nümayəndəsi olan admiral Bolqolam öz rəyində qaldı. O, əlahəzrət imperatriçənin təkidli təşviqlərinin təsirilə, sizin ölümünüzü tələb edirdi. İmperatriçə, cürbəcür saray dedi-qodularına görə sizə kin bəsləyir. Saray xanımlarından bəziləri, onlara qarşı lazımınca diqqətli olmadığınızı güman edib, sizi onun nəzərində ləkələməyə müvəffəq olmuşlar.

Üç gündən sonra dostunuz katib, əlahəzrətin əmrilə ittihamnaməni oxumaq üçün sizin yanınıza gələcəkdir. O, əlahəzrətin və dövlət şurasının mərhəmət və lütfkarlığının nə qədər böyük olduğunu sizə izah edəcəkdir. Axı bu qərara görə, sizin yalnız gözləriniz çıxarılacaqdır. Buna görə də əlahəzrət şübhə etmir ki, siz bu hökmə itaət və minnətdarlıqla tabe olacaqsınız. Bu əməliyyatın lazımınca yerinə yetirilməsindən ötrü əlahəzrətin iyirmi cərrahı nəzarət üçün təyin edilmişdir. Siz yerə uzanacaqsınız və ən təcrübəli oxatanlar, ən zərif oxlarla sizin göz almacıqlarınızı nişan alıb oxlayacaqlar.

Bununla mən verəcəyim məlumatı qurtarıram. Nə cür hərəkət etmək lazım gəldiyini öz öhdənizə buraxıram. Mən isə şübhə oyatmamaq üçün, təxirsiz çıxıb getməliyəm".

Bu sözlərdən sonra həmin möhtərəm zat məni tərk edib getdi, mən əzablı şübhə və tərəddüdlər içində tək qaldım.

İndiki imperator və onun nazirləri, liliputlar arasında elə qaydalar qoymuşdular ki, deyilənlərə görə, əvvəllərdə bunların heç biri yox imiş. Hər dəfə kinli padşahın kefinə və ya onun dostunun kin və qəzəbinə görə, bir adamı məhkəmə amansız cəzaya məhkum etdikdə, imperator dövlət şurası iclasında bir nitq söyləyir. Bu nitqdə onun şəfqət və mərhəməti nümayiş etdirilir. Nitqi o saat bütün ölkəyə yayırlar. Ölkəni, heç bir şey imperatorun mərhəmətini tərifləyən bu nitqlər qədər qorxuya salmır; çünki hamıya məlumdur ki, bu nitqlər nə qədər geniş və dəbdəbəli olursa, *cəza da bir o qədər vəhşicəsinə, buna düçar olan qurban isə bir o qədər günahsız olur**. Ancaq etiraf edirəm ki, belə işlərdən mənim çox da başım çıxmaz. Nə doğuluşum, nə də tərbiyəm etibarilə saray adamı olmaq mənim qismətimə yazılmışdır. Buna görə də mən öz barəmdə çıxarılan hökmdə nə şəfqət, nə də mərhəmət əlamətləri görə bilmədim. Əksinə, mən (kim bilir, bəlkə də haqsız olaraq) bu hökmü yumşaq olmaqdan artıq, sərt hesab edirəm. Bəzən ağlıma gəlirdi ki, şəxsən məhkəməyə gedib özümü müdafiə edim. Doğrudur, mən ittihamnamədə göstərilən dəlilləri inkar edə bilməzdim, amma hər halda ümid edirəm ki, bunları öz xeyrimə izah edə bilərdim. Ancaq mən siyasi mühakimələr barədə çox şeylər oxumuşdum və bilirdim ki, bunlar həmişə hakimlərin istədikləri kimi qurtarır. Buna görə də mən öz taleyimi belə qüvvətli düşmənlərin əlinə verə bilməzdim. Bəzən müqavimət göstərmək fikrinə qapılardım. Mən çox yaxşı bilirdim, nə qədər ki azadam, bu imperatorluğun bütün qüvvələri mənə üstün gələ bilməyəcəkdir. Mən bütün paytaxtı daşa basıb, xarabazara çevirə bilərdim. Ancaq imperatora and içdiyimi, onun mənə lütfkarlıq göstərib verdiyi yüksək *nardak* rütbəsini yada salıb, bu fikirdən nifrətlə əl çəkdim. Sarayın minnətdarlıq barədəki nöqteyi-nəzəri mənə yad idi və heç cürə inana bilmirdim ki, əlahəzrətin indi mənə qarşı olan bu sərtliyi məni onun hüzurunda öhdəmə götürdüyüm öhdəliklərdən azad edir.

Axırda belə bir qərara gəldim; çoxları, bəlkə də, bu qərarıma görə məni qınayacaqlar. Bunu açıqca söyləyim ki, gözlərimin

salamat qalması və həm də azad olmağım mənim ehtiyatsızlıq və təcrübəsizliyim sayəsində mümkün olmuşdur. Doğrudan da, əgər mən padşahın və nazirlərin xasiyyətini, sonralar başqa dövlətlərdə saray həyatını müşahidə etmək nəticəsində bildiyimi onda bilmiş olsaydım, belə bir yüngül cəzaya böyük bir məmnuniyyətlə razı olardım. Ancaq mən cavan və coşqun idim. Blefusku imperatorunu ziyarət etmək üçün əlahəzrətdən icazəm var idi. Buna görə də, üçgünlük möhlətin başa çatmasını gözləmədən, dostum katibə bir məktub göndərib, onu xəbərdar etdim ki, imperatorun icazəsilə mən Blefusku ölkəsinə gedirəm.

Mən cavab gözləmədən, həmin günün səhəri dəniz sahilinə getdim; bizim donanmamız burada lövbər salıb durmuşdu. Orada mən böyük bir hərbi gəmini ələ keçirib, onun burnuna bir kəndir bağladım və lövbəri qaldırdım. Sonra soyunub paltarlarımı, özümlə bərabər götürdüyüm yorğanı həmin gəmiyə qoydum və gəmini dalımca çəkə-çəkə yola düşdüm. Yolun bir qismini ayaqla yeridim, bir qismini üzə-üzə gəlib Blefuskunun padşahlıq limanına çatdım; *burada əhali məni çoxdan gözləyirdi**. Mənə iki nəfər bələdçi qoşub, Blefusku ölkəsinin həmin bu adda olan paytaxtına göndərdilər. Bələdçiləri mən ovcumun içində aparırdım. Şəhər darvazalarına iki yüz yard qalmış, onları yerə qoyub, xahiş etdim ki, gəldiyimi dövlət katiblərindən birinə xəbər versinlər və əlahəzrətin əmrlərini gözlədiyimi bildirsinlər.

Bir saat sonra mənə cavab gəldi ki, əlahəzrət özü, şövkətli ailəsi və yüksək rütbəli saray adamları ilə bərabər məni qarşılamağa çıxıblar. Mən yüz yard da yaxınlaşdım. İmperator və onu müşayiət edənlər atlarından düşdülər, imperatriçə və saray xanımları karetalardan çıxdılar və mən onların üzlərində azacıq da olsun qorxu və ya narahatlıq əlaməti görmədim. Mən imperator və imperatriçənin əllərini öpmək üçün yerə uzandım. Əlahəzrətə bildirdim ki, öz vədimə əməl edib, hökmdarım olan imperatorun icazəsilə, qüdrətli padşahın mübarək üzünü görməyə və ona öz xidmətimi təklif etməyə gəlmişəm; əlbəttə, bu xidmət mənim Liliputstanın sadiq bir təbəəsi olaraq, öhdəmə götürdüyüm öhdəliklərə zidd olmamalıdır. Mən Liliputstanın padşahının qəzəbinə düçar olduğum barədə rəsmi məlumat almadığımdan, mənim əleyhimə olan tədbirlərdən xəbərdar olmaya bilərdim. O biri tərəfdən, mən güman edirdim ki, Liliputstan imperatoru öz hökmü altındakı ölkədən kənarda olduğumu bildikdə, haqqımda olan cəza tədbirlərini gizlin saxlar. Ancaq tezliklə məlum oldu ki, mən öz təxminimdə çox böyük səhv etmişəm.

Blefusku imperatorunun sarayında mənə göstərilən qəbul mərasimini ətraflı təsvir edib, oxucunun diqqətini yormayacağam. Bu qəbul mərasimi, buranın qüdrətli padşahının səxavətinə tamamilə uyğun idi. Münasib bina və yataq olmamasından, çəkdiyim narahatlıqdan da danışmayacağam. Mən quru yerdə öz yorğanıma bürünüb yatmalı oldum.

SƏKKİZİNCİ FƏSİL

Xoşbəxt bir təsadüf nəticəsində müəllifin Blefuskunu tərk edə bilməsi və bəzi çətinliklərdən sonra sağ-salamat öz vətəninə qayıtması.

Blefuskuya gəldikdən üç gün sonra, mən bu adanın şimal-şərq sahilini seyr etməyə getdim. Dənizin dayaz yerlərində gəzərkən yarım liqa[1] məsafədə üzü üstə çevrilmiş qayığa bənzər bir şey gördüm. Ayaqqabılarımı və corablarımı çıxarıb, suyun içi ilə iki və ya üç yüz yarda qədər getdikdən sonra gördüm ki, qabarma həmin şeyi sahilə doğru gətirir. Bir neçə dəqiqə sonra yəqin etdim ki, bu şey, fırtınanın bir gəmidən qoparıb dənizə atdığı böyük bir qayıqdır.

Həmin saat şəhərə qayıdıb, imperator həzrətlərindən xahiş etdim ki, mənim ixtiyarıma iyirmi böyük gəmi, üç min nəfər dənizçi və çox miqdarda kəndir versin, bu kəndirləri möhkəm olmaq üçün üç qat hördüm. Donanma adanı hərlənərək getdi. Mən isə tələsik qayığı gördüyüm yerə qayıtdım.

Qabarma onu sahilə daha da yaxınlaşdırmışdı. Gəmilər gəlib çatdıqda, mən soyunub qayığa sarı getdim. Əvvəlcə ayaqla gedirdim, ancaq ona yüz yard qalmış üzməyə məcbur oldum. Gəmilərdən birinin dənizçiləri mənə kəndir atdılar. Mən kəndiri qayığın burnunda olan halqaya bağladım. Kəndirin o biri ucu gəminin arxasına bənd edilmişdi və gəmi onu sahilə çəkirdi. Ancaq bundan bir şey çıxmadı.

[1] *Liqa* – 4,82 kilometrə bərabər olan uzunluq ölçüsüdür.

Mən qayığın arxasına üzüb, bir əlimlə onu itələməyə başladım. Qabarma mənə kömək edirdi. Əldən düşdüm, nəhayət, qayığı ayağımın dəniz dibinə çatdığı bir yerə gətirib çıxara bildim. Su mənim çənəmdən idi. Bir neçə dəqiqə yorğunluğumu aldıqdan sonra, yenidən qayığı itələməyə başladım, nəhayət, su qoltuğumdan oldu.

İşin ən çətini qurtarmışdı. Mən gəmilərdən birinə yığılmış olan o biri kəndirləri də götürdüm, qayığın burnuna bağlayaraq, yanımca gələn doqquz gəmiyə bənd etdim. Səmt küləyi əsirdi. Dənizçilər qayığı gəmilərin yedəyinə çəkirdilər, mən də arxadan itələyirdim. Bir azdan sonra bir sahilə qırx yard yaxınlaşdıq. Burada mən durub suyun çəkilməsini gözlədim. Su çəkildikdə, qayıq dayaz yerdə qaldı. İki min nəfərin köməyi ilə mən qayığı çevirib, onun alt hissəsini yoxladım. Zədə çox da böyük deyildi.

Mənim birinci işim avar düzəltmək oldu. Bu iş on günə başa gəldi. Avar çəkərək, xeyli əziyyətdən sonra qayığı Blefuskun padşahlıq limanına gətirdim. Burada saysız-hesabsız camaat bu əcaib və yekə gəminin tamaşasına yığılmışdı. Mən imperatora söylədim ki, bu qayığı mənə bəxt ulduzum vətənimə qayıda bilmək üçün göndərmişdi. Əlahəzrət imperatordan xahiş etdim ki, gəmini qaydaya salmaq üçün mənə zəruri olan ləvazimat və getmək üçün icazə versin. Əvvəlcə imperator məni dilə tutub saxlamaq istədi. Lakin bu təşəbbüsün boşa çıxdığını görüb razı oldu.

Mənə məlum olduğuna görə, bütün bu müddətdə bizim imperatorun mənim barəmdə Blefusku sarayına müraciət etməməsi məni çox təəccübləndirirdi. Ancaq bunun nə üçün belə olduğunu mənə sonradan izah etdilər. Bizim imperator həzrətləri mənim haqqımdakı niyyətlərindən xəbərdar olduğumu heç ağlına da gətirməmişdi, buna görə də mənim Blefuskuya getməyimə, sadəcə olaraq, elçilərə verdiyim vədi yerinə yetirmək kimi baxırmış. O arxayın imiş ki, qəbul mərasimi qurtardıqdan sonra mən ora qayıdacağam. Ancaq, mənim uzun müddətə qayıtmağım onu narahat etməyə başlamışdı. O, xəzinənin baş müdiri və mənə düşmən olan başqa əyanlarla məsləhətləşib, bir məmuru ittihamnamənin surətilə birlikdə Blefusku sarayına göndərmişdi. Bu elçiyə tapşırılmışdı ki, Blefusku padşahına öz hökmdarının mərhəmətli olduğunu və bu qədər ağır cinayətlər müqabilində məni belə yüngül bir cəzaya məhkum etdiyini söyləsin. Bundan başqa, o söyləməli idi ki, mən ədalət məhkəməsindən qaçmışam və əgər iki saat ərzində qayıtmasam, *nardak* rütbəsindən məhrum olacaq və xain elan ediləcəyəm. Elçi əlavə etmişdi: Əlahəzrət inanır ki, onun qardaşı olan Blefusku imperatoru etdiyim cinayətin cəzasına çatmaq üçün mənim, əl-qolum bağlı halda, Liliputstana göndərilməmi əmr edəcəkdir.

Blefusku imperatoru üçgünlük müşavirədən sonra ona bir çox üzrxahlıqla dolu mehriban bir cavab göndərdi. O yazdı ki, qardaşı mənim əl-qolum bağlı halda Liliputstana göndərilməyimin əsla mümkün olmadığını başa düşər. Bundan başqa, sülh müzakirələri zamanı mən ona xeyli kömək etmişəm. Bir də o əlavə etmişdi ki, hər iki padşah bu yaxında asudə nəfəs ala biləcəklər; çünki mən sahildən yekə bir gəmi tapmışam və bu gəmidə dənizə çıxa biləcəyəm. O, öz təbəələrinə əmr etmişdi ki, gəmini hazırlamaqda mənə kömək etsinlər və ümid edir ki, bir neçə həftədən sonra hər iki imperatorluq nəhayət *belə dözülməz bir yükdən qurtarmış olacaqdır**.

Elçi bu cavabla Liliputstana qayıtdı və Blefusku padşahı bütün əhvalatdan məni xəbərdar etdi. Onun yanında xidmət etmək üçün qalmağa razı olsam, məni mehribancasına himayə edəcəyini gizlincə bildirdi. İmperatorun bu təklifini çox səmimi hesab edirdimsə də, padşahsız keçinmək mümkün olduğu üçün, bir də onlara etibar etməməyi qərara aldım. Buna görə də mənə göstərdiyi mərhəmətli diqqətinə görə ona minnətdarlığımı bildirib xahiş etdim ki, məni bağışlasın. Əlavə etdim ki, taleyin bu gəmini mənə xoşbəxtliyimdənmi, yoxsa bədbəxtliyimdənmi göndərdiyini bilmirəm, ancaq mən bu qədər qüdrətli olan iki padşahın arasında ixtilafa bais olmaqdansa, özümü okeanın ixtiyarına verməyi qərara almışam. Mənə elə gəldi ki, imperator mənim cavabımdan məyus olmadı. Əksinə, təsadüfən öyrəndim ki, nazirlərin bir çoxu və elə o özü də mənim qərarımdan çox razı qalmışdı.

Bu vəziyyət məni getmək üçün tələsməyə məcbur etdi. Saray adamları, onların ölkəsini tezliklə tərk etməmi istədiklərindən, qayığın təmirində mənə hər cəhətdən kömək edirdilər. Beş yüz nəfər adam mənim nəzarətim altında ən möhkəm kətanları on üç qat sırıyıb, qayığım üçün iki yelkən hazırladı. Kəndir və burazları mən özüm düzəldirdim. Mən oranın ən qalın və davamlı kəndirlərini on, iyirmi və otuz qat edirdim. Sahildə tapdığım iri bir daşı özümə lövbər düzəltdim. Qayığı yağlamaq və sair ehtiyaclar üçün mənə üç yüz inəyin piyini verdilər. Mən böyük bir çətinliklə inşaatda işlənən bir neçə ən uca

ağacı kəsib, dor düzəltdim, bu işdə əlahəzrətin ustaları mənə xeyli kömək etdilər; onlar kobud dor ağaclarını yonub hamarlayırdılar.

Bir aya hər şey hazır oldu. Mən əlahəzrətin əmrlərini almaq və onunla vidalaşmaq üçün paytaxta getdim. İmperator şövkətli ailəsilə birlikdə saraydan çıxdı. Mən onun böyük bir mehribanlıqla uzatdığı əlini öpmək üçün yerə uzandım. İmperatriçə də, padşah nəslindən olan bütün şahzadələr də onun kimi etdilər. Əlahəzrət mənə hərəsində iki yüz *spruq* pul olan əlli kisə və özünün ayaq üstə çəkilmiş şəklini bağışladı, şəkil, yaxşı qalsın deyə onu həmin saat əlcəyimin içinə qoydum.

Mən qayığa yüz öküz və üç yüz qoyun cəmdəyi yüklədim, müvəffəq miqdarda çörək, içki və dörd yüz aşpazın hazırlaya bildiyi miqdarda qızarmış ət, bundan başqa altı diri inək, iki öküz və eyni miqdarda qoç və qoyun da götürdüm ki, bunları öz vətənimdə bəsləyib törədim. Bu heyvanları yolda yedirtmək üçün, qayığa iri bir dərz quru ot və bir kisə taxıl yüklədim. Mən çox istəyirdim ki, özümlə yerlilərdən bir on nəfər aparım, ancaq əlahəzrət buna heç bir vəchlə razı olmadı. Əlahəzrət ciblərimi diqqətlə yoxlamaqla kifayətlənməyib, məndən vicdan naminə söz aldı ki, onun təbəələrindən bircə nəfərini də, hətta, onların öz arzu və razılığı olsa belə, özümlə aparmayım.

Beləliklə, səfərə hazırlaşdıqdan sonra mən 1701-ci il sentyabrın 24-də səhər saat altıda yelkənləri qaldırdım. Cənub-şərqdən əsən küləklə şimala doğru dörd liq yol getdikdən sonra axşam saat altıda şimal-qərb tərəfdə yarım liq məsafədə kiçik bir ada gördüm. Mən adaya yaxınlaşıb üzü küləyə lövbər saldım. Görünür, bu adada kimsə yaşamırdı. Bir az yeyib-içdikdən sonra dincəlmək üçün uzandım. Mən yaxşıca yatmışdım, yuxum təxminən altı saata qədər davam etmişdi; çünki mən oyananda, səhərin açılmasına iki saat qalmışdı. Gecə aydınlıq idi. Qəlyanaltı etdikdən sonra gün doğmamış lövbəri qaldırdım və cib kompasının köməyilə, yenə həmin istiqamətdə yol aldım. Səmt küləyi əsirdi. Məqsədim təxminimə görə Vandimen Torpağından şimal-şərqdə olan adalardan birinə çatmaq idi. Həmin gün nəzəri cəlb edən bir hadisə olmadı. Ancaq ertəsi gün, günortadan üç saat sonra cənub-şərqə doğru hərəkət edən bir yelkən gördüm, mən özüm isə düz şərqə doğru gedirdim və hesabıma görə, Blefuskudan iyirmi dörd millik bir məsafədə idim. Mən gəmini səslədim, ancaq cavab almadım. Bir az sonra külək yatdı və gördüm

ki, gəmiyə yetişə biləcəyəm. Bütün yelkənləri açdım, yarım saat sonra gəmidən məni gördülər, bayraq qaldırıb top atdılar.

Gözlənilmədən məndə əziz vətənimi və burada qoyub gəldiyim sevimli adamlarımı yenidən görmək arzusu oyandıqca, qəlbimi bürüyən sevinci təsəvvür etmək çətindir. Gəmi yelkənlərini yığdı və sentyabrın 26-da axşam saat altıda mən ona yan aldım. İngilis bayrağını gördükdə, həyəcandan ürəyim çırpındı. Mən inək və qoyunları ciblərimə doldurub, bütün azacıq yükümlə bərabər gəminin göyərtəsinə qalxdım.

Bu, ingilis ticarət gəmisi idi, həmin gəmi Yaponiyadan gəlirdi. Gəminin kapitanı deptfordlu Con Bill idi. O, son dərəcə mehriban bir adam və çox gözəl bir dənizçi idi. Biz bu zaman 50° cənub en dairəsində idik. Gəminin işçiləri əlli nəfərdən ibarət idi. Onların arasında mən köhnə yoldaşım Piter Vilyamsa rast gəldim. O, mənim barəmdə kapitana çox gözəl bir məlumat verdi. Kapitan məni mehribanlıqla qəbul etdi və xahiş elədi ki, haradan gəlib, hara getdiyimi danışım. Mən başıma gələn macəranı qısaca ona nağıl edərkən, o mənim sayıqladığımı və çəkdiyim əziyyətlərdən ağlımın çaşdığını güman etdi. Bu vaxt mən cibimdən inək və qoyunları çıxardım. Bunları gördükdə, o heyran qalıb sözlərimin doğruluğuna inandı. Sonra mən Blefusku imperatorundan aldığım qızılları, əlahəzrətin şəklini və sair qəribə şeyləri ona göstərdim. Mən kapitana hərəsində iki yüz *spruq* olan iki pul kisəsi verərək, İngiltərəyə çatdıqda, bir südlü inəklə bir qoyun verəcəyimi vəd etdim.

Mən sağ-salamat keçən bu səfəri ətraflı surətdə təsvir etməklə oxucunu yormayacağam. Biz 1702-ci il aprelin 15-də Duansa çatdıq. Yolda yalnız bircə xoşagəlməz hadisə baş verdi ki, bu da gəmi siçovullarının bir qoyunu oğurlayıb aparması idi. Mən bir dəlikdən onun gəmirilmiş sür-sümüyünü tapdım. Bütün qalan mal-qaranı sağ-salamat sahilə çıxardım. Qrinviçdə onları çəməndə oynaşmağa buraxdım. Burada olan zərif, təzə otlar onlara mənim gözlədiyimdən gözəl yem oldu. Əgər kapitan özünün ən yaxşı suxarılarını verməsəydi, mən bu uzun səfər müddətində onları doydurub saxlaya bilməzdim. Mən bu suxarıları narın ovub, suda isladır və heyvanlarımı onunla bəsləyirdim. İngiltərədə qaldığım qısa müddətdə mən bu heyvanları adlı-sanlı şəxslərə göstərib, xeyli pul yığdım. İkinci səyahətə çıxmazdan əvvəl mən onları altı yüz funta satdım. Axırıncı səyahətdən İngiltərəyə

qayıtdıqda, mən xeyli böyük bir sürüyə rast gəldim. Qoyunlar xüsusilə çox artmışdı və mən ümid edirdim ki, onlar *son dərəcə zərif yunları ilə** mahud sənayesində xeyli faydalı olacaqlar.

Mən arvad-uşağımın yanında iki aydan artıq qalmadım. Evdə çox qərarım gəlmədi. Başqa ölkələri görməyə olan böyük həvəsim məni rahat qoymurdu. Arvadıma min beş yüz funt verib, onun üçün Redrifdə yaxşı bir ev tutdum. Sərvətimi artırmaq niyyətilə, qalan əmlakımı qismən satıb pula çevirdim, qismən də mal halında özümlə apardım. Böyük əmim Con, Eppinq yaxınlığında olan və ildə otuz funta qədər gəlir gətirən mülkünün mənə çatmasını vəsiyyət etmişdi, bir bu qədər də Fetter-Leyndə uzun müddətə icarə etdiyim "*Qara Öküz*" meyxanasından gəlirim vardı. Beləliklə, ailəmin pis günə düşməsindən qorxum yox idi. Öz əmisi Coninin adını daşıyan oğlum sərf-nəhv məktəbinə gedir və yaxşı oxuyurdu. Qızım Betti (indi ərə gedib, uşaqları da var) dərzilik öyrənirdi. Mən arvadım, qızım və oğlumla vidalaşdım; əlbəttə, hər iki tərəfdən göz yaşları töküldü. "*Advençer*" adlı üç yüz tonluq bir ticarət gəmisinə mindim, gəminin səfəri Surata, kapitanı isə liverpullu Con Nikoles idi. Bu səyahət barədəki məlumatı xatirələrimin ikinci hissəsində verəcəyəm.

İKİNCİ HİSSƏ

Brobdinqneqə səyahət

BİRİNCİ FƏSİL

Şiddətli fırtınanın təsviri. İçməli su üçün barkas göndərilməsi. Müəllifin həmin barkasda ölkəni tədqiq etmək üçün getməsi. Onun sahildə qalması; bir nəfər yerlinin onu tapıb fermerin yanına aparması. Müəllifin fermada qəbul edilməsi və orada başına gələn cürbəcür əhvalatlar. Əhalinin təsviri

Bəli, təbiət və tale özü məni fəal və narahat bir həyat keçirməyə məhkum etdiyindən, mən yenidən vətənimi tərk edib dənizə çıxdım.

Ümid (Dobraya Nadejda) burnuna qədər səmt küləyi ilə getdik. Burada biz təzə su götürmək üçün lövbər saldıq. Ancaq gəmi su buraxmağa başladı. Biz malları boşaldıb, gəminin dəlik-deşiyini tutmalı olduq. Nəticədə kapitan titrətmə-qızdırma azarına düşdü. Biz Ümid burnunda qışlamalı olduq. Yalnız martın sonlarında yelkən açıb, Madaqaskar boğazını[1] sağ-salamat keçdik. Şimal səmtinə gedirdik, təxminən 50° cənub en dairəsinə qədər mülayim şimal və qərb küləkləri əsirdi; bunlar bu yerlərdə dekabrın əvvəllərindən mayın əvvəllərinədək çox əsən küləklərdir. Ancaq aprelin 19-da hava dəyişdi: qərbdən son dərəcə şiddətli külək, demək olar ki, fırtına qopub, iyirmi gün ara vermədən əsdi. Bu müddət içərisində bizi çəkib Molukk adalarından şərqə və ekvatordan üç dərəcə şimala apardı. Hər halda, mayın 2-də kapitanın apardığı hesablama belə göstərirdi. O gün külək yatdı və sakitlik oldu ki, bu da məni çox sevindirdi. Lakin bu dənizlərdə səfər etmək təcrübəsi olan kapitan hamının fırtınaya hazır olmasını əmr etdi. Doğrudan da, elə ertəsi

[1] *Madaqaskar boğazı* – Madaqaskar adasını Afrikanın cənub-şərqindən ayıran Mozambik boğazı

gün musson adı ilə məşhur olan şiddətli cənub küləyi qopdu. Külək tədricən tufana çevrildi.

Biz küləyin getdikcə daha da qüvvətləndiyini görüb, iri yelkənləri yığaraq, xırda yelkənləri açmağa hazırlaşdıq. Ancaq hava getdikcə daha da xarablaşırdı. Topların möhkəm sarılıb-sarılmadığını yoxladıqdan sonra biz, arxa dordakı yelkəni də yığdıq. Gəmi düz arxası küləyə gedirdi və biz bu qərara gəldik ki, bütün yelkənləri yığmaqdansa, küləyin səmtilə axına uyub getmək daha yaxşıdır. Ön dordakı kiçik yelkəni açıb, ipini gəminin arxasına bənd etdik. Sükanı küləyin əsdiyi səmtə çevirmişdik. Gəmi sükançıya tabe olaraq gedirdi. Biz qabaq dorun dirəklərini boşaltdıqsa da, ancaq yelkən yenə də parçalandı. Onda biz yelkən dirəyini endirib, yelkəni ondan açdıq və bütün kəndirlərini çıxartdıq. Fırtına, doğrudan da, dəhşətli idi. Dalğalar dağ kimi ucalırdı. Biz sükançının işini yüngülləşdirmək üçün sükan dəstəyini möhkəm bağladıq. Dora bağlı olan yelkən dirəklərini endirməyib, bütün qalan yelkənləri öz yerinə qoyduq, çünki gəmi arxası küləyə gedir, qarşımız isə açıq dəniz idi. Fırtına yatmağa başladıqda, orta və ön yelkənləri də qaldırıldı və gəmi axına uyub getməyə başladı. Bir az sonra biz arxa dordakı və altdakı, iri və kiçik yelkənləri də açdıq. Biz şimal-şərq istiqamətində gedirdik, külək isə cənub-qərbdən əsirdi. Biz küləyin əks tərəfindəki yelkənçəkən kəndirləri boşaldıb, külək əsən tərəfdən bərkitdik. Gəmini arxa yelkənin köməyilə idarə edirdik. Biz daima küləyin istiqamətilə getməyi gəmi dorlarının gücü yetdiyi dərəcədə *yelkənləri açıq saxlamağa çalışırdıq**.

Bu fırtına müddətində külək bizi mənim hesabıma görə heç olmasa beş yüz liq şərqə aparmışdı. Ən qoca və təcrübəli dənizçilər də bizim dünyanın hansı qitəsində olduğumuzu söyləyə bilməzdilər. Yeməyimiz bol, gəmimiz saz, gəmi heyəti sapsağlam idi. Ancaq içməli suyun çatışmaması bizi narahat edirdi. Biz əvvəlki yolumuza davam etməyi üstün tutur və şimala sarı getmək istəmirdik; çünki belə olsa, külək bizi Böyük Tatarıstanın[1] şimal-qərb sahillərinə və Buzlu okeana apara bilərdi.

1705-ci il iyunun 16-da, dorda növbə çəkən gənc dənizçi torpaq gördü. Ayın 17-də biz böyük bir adaya və qitəyə yanaşdıq. Buranın hara olduğunu bilmirdik. Cənub tərəfdə dənizə uzanmış bir burun və körfəz görünürdü. Ancaq ora o qədər dayaz idi ki, yüz tondan artıq su tutumu olan bir gəmi bu körfəzə girə bilməzdi. Biz bu körfəzdən bir liq kənarda lövbər saldıq və kapitan yaxşı silahlanmış on dənizçini barkasla sahilə göndərdi. Onlar özlərilə çəlləklər götürdülər. İçməli su tapılarsa, bu çəlləkləri doldurmaq ümidində idilər. Mən onlara qoşulmaq üçün kapitandan icazə istədim. Bu vaxta qədər məlum olmayan bu yeri mümkün qədər tədqiq etmək istəyirdim.

Sahilə çıxdığımız yerin yaxınlığında nə çay, nə də bulaq gördük. Bura sanki bomboş bir yer idi, insan yaşadığını göstərən heç bir əlamət yox idi. Dənizçilər içməli su axtarmaq üçün sahil boyu dağılışmışdılar. Mən isə təkbaşına əks tərəfə getdim. Bir mil qədər yol getdim, maraqlı heç bir şey görmədim. Ətraf yenə də qeyri-münbit və daşlıq səhradan ibarət idi.

Mən yorulduğumu hiss edərək geri dönüb, ağır-ağır körfəzə sarı gəldim. Qarşımda dənizin böyük bir mənzərəsi açılmışdı. Bir də gördüm ki, bizim dənizçilər artıq qayığa doluşub, avarları var güclərilə çəkə-çəkə gəmiyə doğru üzürlər. Mən onları səsləmək istəyirdim ki, birdən onların ardınca nəhəng bir adamın yüyürdüyünü gördüm. Su onun dizlərinə zorla çatırdı. O çox iri addımlar atırdı. Ancaq qayıq ondan təxminən yarım liqə qədər uzaqlaşmışdı. Bundan başqa, dəniz iti qayalarla dolu idi və nəhəng adam qayığa çata bilməzdi. Bütün bunları mənə sonra danışmışdılar. Mən özüm isə bu qaçdı-tutdunun axırını gözləməyə cürət edə bilmədim. Körfəzə sarı gəldiyim həmin yolla var gücümlə geri qaçmağa başladım. Tövşüyə-tövşüyə dik bir təpəyə çıxdım, buradan ətrafı görmək mümkün idi. Ətrafda torpaq çox yaxşı becərilmişdi. Ancaq otların hündürlüyü məni heyrətə saldı. Onların boyu iyirmi futa qədər olardı.

Mənə çox böyük görünən bir yola çatdım, ancaq bura yerlilər üçün arpa zəmisi içindən keçən dar bir cığır idi. Bir müddət ətrafımda heç bir şey görə bilmədim; çünki biçin vaxtı çatmışdı, arpanın hündürlüyü isə 40 fut olardı. Yalnız bir saat sonra bu zəminin qurtaracağına çata bildim. Zəminin dövrəsinə 120 fut hündürlükdə çəpər çəkilmişdi. Ağaclar o qədər yekə idi ki, mən onların hündürlüyünü təyin edə bilmədim. Bu zəmidən qonşu zəmiyə keçmək üçün dörd pillə çıxıb, bir də böyük bir daşın üstündən adlamaq lazım

[1] *Böyük Tatarıstan* – Asiya qitəsində Monqolustan və Çin hissəsinin qədim adıdır.

gəlirdi. Bu pilləni çıxmaq mənim işim deyildi. Hər pillənin hündürlüyü altı fut, yuxarıdakı daşın hündürlüyü isə iyirmi futdan artıq idi.

Mən çəpərdən keçməyə bir yarıq axtarırdım ki, birdən qonşu zəmidən bir nəhəngin pilləyə yaxınlaşdığını gördüm. O da bizim qayığın dalınca düşən həmin nəhəng kimi idi. Onun boyu kilsə qüllələsi hündürlüyündə, *hər addımı isə, mənim təxminimə görə, on yard olardı**. Mən heyrət və dəhşət içində bir kənara qaçıb arpa zəmisində gizləndim. Gizləndiyim yerdən baxıb gördüm ki, həmin nəhəng adam pillələri çıxıb, yuxarıdakı daşın üstündə durdu və ətrafa boylanıb kimisə səslədi, onun səsi bizim şeypurların səsindən qat-qat güclü idi. Bu səs o qədər ucadan gəlirdi ki, mən əvvəlcə onu göy gurultusu zənn etdim. Onun səsinə həmin saat yeddi nəfər özü kimi nəhəng adam gəldi. Onların əllərində, hər biri bizim altı dəryaz boyda olan oraqlar var idi. Bu gələn adamlar əvvəlkinə nisbətən yoxsul geyinmişdilər. Görünür bunlar onun nökərləri və ya muzdurları idilər. Ağaları nə isə dedi və onlar mənim gizləndiyim zəmini biçməyə başladılar.

Mən mümkün qədər onlardan uzaq qaçmağa çalışırdım. Ancaq çox böyük çətinliklə hərəkət edə bilirdim. Arpa o qədər sıx bitmişdi ki, bəzi yerlərdə mən onun bəndəmləri arasından zorla keçirdim. Bununla bərabər, birtəhər zəminin elə bir yerinə gəlib çıxa bildim ki, burada yağış və külək arpanı yerə yatırtmışdı. Burada mən dayanmalı oldum: bəndəmlər bir-birinə elə ilişib sarmaşmışdı ki, onların arasından keçmək əsla mümkün deyildi, yerə yatmış sünbüllərin qılçıqları isə elə bərk və iti idi ki, paltarımı dəlib bədənimə batırdı.

Taqətdən düşüb, tamam məyus halda xışın buraxdığı izə uzanıb, ürəkdən ölümü arzu edirdim. Dul arvadım və yetim uşaqlarımın halına acıyırdım. Mən dost-əqrəbanın məsləhətlərinə baxmayaraq, məni ikinci dəfə səyahətə çıxmağa sövq edən tərsliyimə nifrət edirdim.

Ürəyimi qəm-qüssə bürümüşdü. Mən qeyri-ixtiyari Liliputstanı yadıma saldım. O ölkənin əhalisi mənə dünyada ən qəribə bir möcüzə kimi baxırdı. Orada mən tək əlimlə bir imperatorluq donanmanı çəkib apara bilmişdim. Çox-çox başqa şücaətlər də göstərə bilərdim. Mənim fəaliyyətim həmin ölkənin salnamələrinə düşə bilərdi. Həmin saat bu xalqın içərisində mənə ediləbiləcək təhqirləri gözümün önünə gətirdim. Axı burada mən, bizə bir liliputun göründüyü qədər miskin və cılız görünəcəyəm. Şübhə etmirdim ki, indiki halım burada mənim başıma gələ biləcək fəlakətlərin ən dəhşətlisi deyildir. Müşahidə göstərir ki,

insanın sərtlik və qabalığı boyuna uyğun olur. Mən bu nəhəng vəhşilərdən nə gözləyə bilərdim. Yəqin, ilk əvvəl məni kim tapmış olsa, həmin saat yeyəcəkdi. Filosoflar böyük və kiçik anlayışının nisbi olduğunu iddia etməkdə, şübhəsiz ki, haqlıdırlar. Bəlkə, taleyin gərdişilə liliputlar da, mənə nisbətən kiçik olduqları kimi, özlərinə nisbətən kiçik olan adamlara rast gələ biləcəklər. Kim bilir, bəlkə, dünyanın uzaq bir guşəsində elə bir insan növü var ki, bu nəhənglərdən də yekədir.

Mən bu düşüncələrdə ikən biçinçilər mənə yaxınlaşmaqda idilər. Birdən onlardan biri mənim uzandığım çuxura on yard yaxınlaşdı. O, bircə addım atsa və ya orağını hərləsə idi, ya məni tapdalayıb əzəcək, ya da iki parça edəcəkdi. Mən dəhşətə gəlib var gücümlə fəryad etdim. Nəhəng adam durdu, əyildi, xeyli müddət ayağımın altındakı yeri nəzərdən keçirdi, axırda məni gördü.

Biz naməlum bir kiçik heyvanı əlimizə almaq istərkən, onun bizi dişləyəcəyindən çəkindiyimiz zaman etdiyimiz kimi, o bir dəqiqəyə qədər üzündə mütərəddid bir ifadə ilə məni gözdən keçirdi. Nəhayət, nəhəng adam cürətlənib, məni baş və şəhadət barmaqları arasında belimdən yapışıb götürdü. O, məni yaxşıca görmək üçün gözlərinə yaxınlaşdırdı. Mənim sürüşüb əlindən düşməyimdən qorxub, qabırğalarımı bərk-bərk sıxdı. Xoşbəxtlikdən mən onun məqsədini həmin saat anladım və o məni yerdən altmış fut ucada tutmuş olduğu halda, ağıllı hərəkət edib, ona əsla müqavimət göstərmədim. Mən yalnız gözlərimi günəşə sarı döndərib, əllərimi yalvarıcı bir halda qaldırdım, sakit və kədərli bir səslə bir neçə söz dedim.

Mən hər an gözləyirdim ki, biz ayaqlayıb əzmək istədiyimiz xırdaca, iyrənc bir heyvanı tullayan kimi, o nəhəng də məni yerə tullayacaqdır. Ancaq mənim bəxt ulduzuma eşq olsun! Görünür mənim səsim və hərəkətlərim nəhəngin xoşuna gəlmişdi. O, mənim sözlərimin mənasını anlamasa da, danışdığımı görüb heyran qaldı və diqqətlə mənə baxmağa başladı. Ancaq onun barmaqları məni elə bərk ağrıdırdı ki, zarımaq və göz yaşları tökməkdən özümü saxlaya bilmədim. Cürbəcür işarələrlə onu başa salmağa çalışırdım ki, qabırğalarımı çox bərk sıxır. Görünür o, mənim fikrimi başa düşdü; çünki paltarının ətəyini qaldırıb məni ehtiyatla ora qoydu və qaça-qaça öz ağasının – mənim çöldə ilk rast gəldiyim həmin fermerin yanına getdi.

Fermer öz muzdurundan məni haradan tapdığını ətraflı soruşub, əlağacı yoğunluğunda bir saman çöpü götürdü və onunla

mənim kaftanımın ətəklərini qaldırmağa başladı, görünür o elə güman edirdi ki, paltarım təbiətin mənə bəxş etdiyi dəri kimi bir şeydir. Sonra üzümü yaxşı görmək üçün mənim saçlarımı üfürüb qaldırdı. O, öz muzdurlarını səsləyib (sonra öyrəndiyimə görə) onlardan zəmilərdə mənə bənzər başqa kiçik heyvanlar tapıb-tapmadıqlarını soruşdu. Sonra o məni əllərim və ayaqlarım üstə ehmalca yerə qoydu. Mən həmin saat ayağa qalxıb, o baş-bu başa gedib-gəldim və bununla göstərmək istədim ki, qaçmaq niyyətində deyiləm.

Onlar mənim hərəkətlərimi yaxşı görmək üçün dövrə vurub oturdular. Mən şlyapamı çıxarıb fermerə təzim etdim. Sonra diz çöküb, başımı və əllərimi göyə qaldıraraq, mümkün qədər ucadan bir neçə söz söylədim. Cibimdən qızıl ilə dolu pul kisəmi çıxarıb, tam itaətkar bir əda ilə ağaya təqdim etdim. O, pul kisəsini ovcunun içinə qoyub gözlərinin qabağına gətirdi. Sonra bir sancaq çıxarıb, bir neçə dəfə pul kisəmə batırdı. Ancaq bundan heç bir şey çıxmadı: o, bunun nə olduğunu başa düşə bilmədi. Bunu gördükdə mən işarə etdim ki, əlini yerə qoysun, mən kisəni açıb, bütün qızılları onun ovcuna boşaldım. Orada hərəsi dörd pistol olmaq üzrə, altı İspaniya qızılı, iyirmi və ya otuz xırda pul var idi. O, çeçələ barmağının ucunu yaş edib əvvəlcə iri qızıllardan birini, sonra da ikincisini qaldırdı, ancaq yenə bunların nə olduğunu başa düşə bilmədi. O, işarə ilə mənə başa saldı ki, bu pulları kisəyə yığıb cibimə qoyum. Bir neçə dəfə onu başa salmaq istədim ki, bu pul kisəsini məndən hədiyyə olaraq qəbul etsin, ancaq bir şey çıxmadı və mən onun əmrinə tabe oldum.

Fermer yavaş-yavaş başa düşdü ki, qarşısındakı şüurlu bir məxluqdur. O, tez-tez mənimlə danışırdı. Onun sözləri kifayət qədər aydın olsa da, səsi qulaqlarımda su dəyirmanın gurultusunu xatırladırdı. Mən mümkün qədər ucadan, cürbəcür dillərdə cavab verirdim və o, tez-tez qulağını mənə iki yard qədər yaxınlaşdırırdı. Ancaq heç bir nəticə çıxmırdı: biz bir-birimizin dediyini əsla başa düşə bilmirdik, nəhayət, fermer muzdurlara əmr etdi ki, işə başlasınlar. Özü isə çömələb, sol əlini ovcu yuxarı yerə qoydu, cib yaylığını iki qat büküb ora sərdi və mənə işarə etdi ki, yaylığın üstünə çıxım. Bu o qədər də çətin deyildi; çünki əlinin qalınlığı bir futdan artıq olmazdı. Mən onun əmrinə tabe olmağı ağıllı bir hərəkət bildim və yıxılmamaq üçün yaylığın üstünə uzandım. Mənim təhlükəsizliyim üçün fermer məni, yorğana bürüyən kimi yaylığa bürüdü və bu vəziyyətdə evinə

apardı. Oraya çatdıqda o, arvadını çağırıb, məni ona göstərdi. O, eynən ingilis xanımları qurbağa və ya hörümçək görəndə etdikləri kimi, çığırıb geri çəkildi. Ancaq özümü nümunəvi bir surətdə aparmağım və ərinin bütün işarələrinə tamamən əməl etməyim tezliklə onu sakitləşdirdi və o, mənimlə çox mehriban rəftar etməyə başladı.

Günorta idi; xidmətçi sadə bir nahar gətirdi; nahar, diametri dörd futa qədər olan bir nimçə içində böyük bir mal əti parçasından ibarət idi. Fermer, arvadı, üç uşağı, bir də qoca nənə süfrəyə oturdular. Fermer məni yerdən otuz fut hündürlükdə olan stol üzərində, öz qabağında əyləşdirdi. Belə hündür bir yerdən yıxılmaqdan qorxub, mən stolun kənarından ortasına çəkildim. Fermerin arvadı bir parça mal əti kəsdi, boşqaba bir qədər çörək doğrayıb tökdü və mənim qabağıma qoydu. Mən ona hörmətlə baş əyib çəngəl-bıçağımı çıxartdım və yeməyə başladım, bu isə onlara böyük bir ləzzət verdi. Xanım qulluqçuya əmr etdi ki, likör qədəhini versin, bu qədəh təxminən iki qallon[1] maye tutardı, xanım bu qədəhə bir cür içki tökdü. Mən qədəhi iki əlimlə güclə qaldırıb, böyük bir hörmətlə xanımın sağlığına içdim. Bu, orada olanları elə güldürdü ki, az qaldı qəhqəhələrindən qulağım bata. Bu içki, yüngül sidr içkisinə bənzəyirdi və dadı xeyli xoş idi.

Ev sahibi məni işarə ilə öz boşqabının yanına çağırdı. Stolun üstü ilə gedərkən, ayağım çörək qabığına ilişdi və mən yerə sərildim. Xoşbəxtlikdən bir yerim əzilmədi. Mən həmin saat ayağa qalxdım. Bu mehriban adamların yıxılmağımdan çox narahat olduqlarını görüb, şlyapamı çıxartdım (yaxşı tərbiyə görmüş bir adama yaraşan kimi, onu qoltuğumda tutmuşdum), üç dəfə başımın üstündə yellədim və salamat qurtardığımı bildirmək üçün üç dəfə "ura" çığırdım. Ancaq, mən ev sahibinə (fermeri bundan sonra belə adlandıracağam) yaxınlaşdıqda onun yanında oturmuş on yaşlı dəcəl oğlu ayaqlarımdan yapışıb məni elə hündürə qaldırdı ki, ürəyim qopdu. Xoşbəxtlikdən atası məni oğlunun əlindən aldı və ona elə bir sillə vurdu ki, bu, yəqin ki, Avropa atlı qoşunlarının tam bir eskadronunu atdan salardı. O, çox qəzəbləndi və oğluna həmin saat süfrədən durub getməsini əmr etdi. Ancaq mən istəmirdim ki, uşaq məndən incisin və onun qəlbində mənə qarşı kin əmələ gəlsin. Həm də mən bizim uşaqların çox zaman sərçələrlə, dovşanlarla, pişik balaları ilə və küçüklərlə necə sərt rəftar etdiklərini yadıma saldım. Mən diz çöküb, barmağımla oğlanı

[1] *Qallon* – 4,5 litrə bərabərdir.

göstərərək, var gücümlə ağamı başa salmağa çalışdım ki, oğlunu bağışlaması üçün ona yalvarıram. Ata yumşaldı və oğlan yenə öz yerinə oturdu. Mən ona yaxınlaşıb əlini öpdüm. Ev sahibi gülümsündü və oğlunun əlindən tutub onun əliylə məni zərif-zərif oxşadı.

Yemək zamanı xanımın sevimli pişiyi onun dizinin üstünə atıldı. Mən arxamda şiddətli bir gurultu eşitdim, sanki on nəfər toxucu dəzgahda işləyirdi. Dönüb baxanda gördüm ki, bu xanımın yedirtdiyi və tumarladığı pişiyin xorultusudur. Başından və pəncələrindən görünürdü ki, bu pişik bizim öküzdən üç dəfə böyük olardı. Mən stolun o biri başında, pişikdən əlli fut uzaqda idim. Xanım pişiyin mənim üzərimə atılacağından qorxub, öz sevimli heyvanını bərk-bərk tutmuşdu. Bununla bərabər mən bu amansız yırtıcı heyvanı gördükdə, qorxudan özümü itirdim. Ancaq mənim qorxum yersiz imiş, ev sahibi məni əlinə alıb pişiyə üç yard qədər yaxınlaşdırdı. Pişik isə mənə əsla etina etmədi. Səyahətlərim zamanı mən bu ümumi fikri dəfələrlə yoxlamışdım: yırtıcı heyvandan qorxsan və onun qabağından qaçsan, əlbəttə, sənə hücum edəcəkdir. Buna görə mən bu qərara gəldim ki, qorxduğumu əsla büruzə verməyim. Mən beş-altı dəfə sürətlə pişiyin lap sifətinə qədər yaxınlaşdım və o məndən daha çox qorxurmuş kimi geriləməyə başladı. Naharın qurtarmasına azca qalmış, üç-dörd köpək qaça-qaça otağa girdi. Ancaq bunlar məni daha az qorxutdular. Onlardan biri dörd fil boyda bir mastif[1], o biri isə mastifdən daha hündür, amma ondan zərif bir tazı idi.

Sonra, qucağında biryaşar körpə olan dayə içəri girdi. Körpə məni görər-görməz, uşaqlara xas olan natiqlik məharəti qaydalarına uyğun, elə bir fəryad qopardı ki, əgər o, Çelsidə çığırmış olsaydı, yəqin ki, səsini London körpüsündə eşidərdilər: o məni bir oyuncaq zənn etmişdi. Xanım analıq hissinə qapılaraq, məni götürüb körpənin qabağına qoydu. Uşaq həmin saat belimdən yapışıb başımı ağzına soxdu. Mən elə dəhşətlə çığırdım ki, uşaq qorxub məni əlindən yerə saldı. Xoşbəxtlikdən xanım öz önlüyünü mənim qabağıma tutmağa macal tapdı. Yoxsa yerə yıxılıb, oradaca ölərdim.

Dayə uşağı sakit etmək üçün ona şaxşaxı səsləndirməyə başladı. Bu şaxşax, içi daşla dolu bir çəlləyə bənzəyirdi və yoğun bir iplə uşağın belindən asılmışdı. Dayə uşağı sakit edərkən, alçaq bir kürsü üstündə mənə o qədər yaxın oturdu ki, mən onun üzünü yaxşıca görə

[1] *Mastif* – keşik və ov tulalarının bir cinsidir.

bilirdim. Etiraf etməliyəm ki, bu çox xoşagəlməz bir mənzərə idi. Üzünün bütün dərisi ləkələr və yekə-yekə sızanaqlarla dolu idi. Ancaq onun siması uzaqdan xeyli qəşəng görünürdü. Bunu gördükdə mən, bizim ingilis xanımlarının dərilərinin zərifliyi və gözəllikləri barədə bəzi şeylər fikirləşdim. Onlar bizə yalnız ona görə belə gözəl görünürlər ki, bizimlə bir boydadırlar. Biz onların üzlərindəki xırda kələ-kötürləri görmürük. Ən zərif və ən ağ bir dərinin əslində nə qədər qaba, qalın və rənginin nə qədər pis olduğunu, bizə ancaq zərrəbin göstərə bilər.

Yadımdadır, Liliputstanda olduğum zaman, mənə elə gəlirdi ki, dünyada bu xırdaca məxluqlara təbiətin bəxş etdiyi qədər gözəl dəriyə malik olan insanlar yoxdur. Mən yaxın dostum olan liliput alimi ilə bu barədə söhbət edərkən o demişdi ki, mən uzaqdan ona daha xoşsima görünürəm. O, açıqca etiraf etmişdi ki, onu ilk dəfə alıb üzümə yaxınlaşdırdığım zaman yaman qorxubmuş. Onun sözlərinə görə, mənim dərimin üzərində böyük kələ-kötürlər görünür, üzümün rəngi isə cürbəcür rənglərin yaraşıqsız qarışığından əmələ gəlmiş bir rəngdir. Saqqalımın tükləri də qaban tükündən on qat qalındır. Bunu qeyd etməyi lazım bilirəm ki, mən öz həmvətənlərimin çoxundan da kifir deyiləm və uzun zaman səyahət etdiyimə baxmayaraq, üzümün dərisi çox da yanıb qaralmamışdır. Digər tərəfdən, həmin alim mənimlə saray xanımları barədə danışarkən, tez-tez deyirdi ki, birinin üzündə çil var, birinin ağzı, o birinin burnu çox yekədir, ancaq mən bunların birisini də sezməmişdim. Aydın şeydir ki, bu sözlərdə yeni bir şey yoxdur. Mən bunu ona görə söyləyirəm ki, oxucular, aralarına düşdüyüm nəhəng adamların çox kifir olduqlarını güman etməsinlər. Əksinə, mən onlar haqqında düzünü söyləməliyəm. Onlar çox gözəl bir irqdirlər.

Yeməkdən sonra ev sahibi, səsindən və işarələrindən anladığıma görə, arvadına mənimlə yaxşı rəftar etmələri barədə əmrlər verib, öz muzdurlarının yanına getdi. Mən çox yorulmuşdum və yatmaq istəyirdim. Xanım bunu duyub məni öz yatağına uzatdı və üstümə təmiz və ağ bir cib yaylığı saldı ki, bu yaylıq hərbi gəmilərin yelkənindən iri və qalın idi.

Mən iki saata qədər yatdım, yuxuda gördüm ki, öz evimdə, ailəmin yanındayam. Ancaq oyandığım zaman özümü, yeni iki və ya üç yüz fut, hündürlüyü isə iki yüz futdan artıq olan yekə bir otaqda və eni iyirmi yard olan bir çarpayıda uzanmış gördükdə, dərdim daha

da artdı. Xanım öz işinə getmiş, qapını üzümə bağlayıb məni otaqda tək qoymuşdu. Çarpayının yerdən hündürlüyü səkkiz yard idi. Halbuki bəzi təbii ehtiyaclara görə mən aşağı düşməli idim. Köməyə bir adam çağırmağa cürət etmirdim. Bir də ki, bunun xeyri olmazdı; ev adamları hamısı mətbəxdə olduqlarından, mənim zəif səsimi eşidə bilməzdilər. Mən nə edəcəyimi fikirləşməkdə ikən, iki siçovul çarpayıya dırmaşıb, yatağı qoxulamağa başladı. Siçovullardan biri mənim üzümə yaxınlaşdı. Mən dəhşətlə yerimdən sıçrayıb qısa qılıncımı çəkdim. Bu murdar heyvanlar iki tərəfdən mənə həyasızcasına hücum etdilər. Siçovullardan biri qabaq pəncələrilə mənim boğazlığımdan yapışmışdı. Xoşbəxtlikdən o mənə bir zərər yetirməyə macal tapmamış, mən xəncərlə onun qarnını yırtdım. O mənim ayağım altına yıxıldı, o biri isə yoldaşının pis aqibətini görüb qaçdı. O qaçanda, mən onun belinə bir qılınc vurdum, onun ardınca qanlı bir iz qaldı. Bu şücaətdən sonra mən nəfəsimi dərmək və özümə gəlmək üçün çarpayıda o baş-bu başa gəzişməyə başladım. Bu siçovulların hərəsi bir köpək boyda, amma daha zirək və daha qəzəbli idi. Əgər mən yatanda qılıncımı açmış olsaydım, onlar, yəqin ki, məni parçalayıb yeyəcəkdilər. Mən ölü siçovulun quyruğunu ölçüb gördüm ki, iki yarddan bir düym əskikdir. Ancaq mən siçovulu çarpayıdan aşağı atmağa cürət edə bilmirdim.

Bu əhvalatdan bir az sonra xanım içəri girdi. Üstümdə qan ləkələri görüb tələsik yanıma gəldi və məni əlinə götürdü. Mən öldürdüyüm siçovulu göstərib, gülümsəyə-gülümsəyə işarə ilə onu başa saldım ki, özüm yaralanmamışam. Xanım buna çox şad oldu. O, qulluqçunu çağırıb tapşırdı ki, siçovulu maşa ilə götürüb pəncərədən eşiyə atsın, özü isə məni stolun üstünə qoydu. Onda mən qanlı qılıncımı ona göstərdim, qılıncı ətəyimə sildim və qınına qoydum. Ancaq mənim elə bir şeyə ehtiyacım vardı ki, onu mənim əvəzimə kimsə edə bilməzdi. Buna görə də var qüvvəmlə xanımı başa salmağa çalışırdım ki, aşağı düşmək istəyirəm. Bu arzum yerinə yetirildikdən sonra utandığımdan, daha əyani bir surətdə onu başa sala bilmədim, ancaq bunu etdim ki, barmağımla qapını göstərib, ona bir neçə dəfə baş əydim. Mehriban qadın, nəhayət, çox böyük çətinliklə işin nə yerdə olduğunu bildi. O, məni əlinə alıb bağçaya apardı və orada yerə qoydu. Mən iki yüz yard qədər uzaqlaşıb işarə etdim ki, o mənə baxmasın və bir ot yarpağının dalında gizlənib ehtiyacımı yerinə yetirdim.

Ümid edirəm ki, mərhəmətli oxucum onun vaxtını bu cür təfsilatlarla aldığım üçün məni bağışlar. Bayağı və səthi düşüncəyə malik olanlar isə, şübhəsiz ki, bunu mənasız və yersiz hesab edəcəklər. Ancaq həqiqi filosof mənim bu sözlərimdə cəmiyyətin xeyrinə olaraq, düşünmək üçün əsas tapa bilər. Mənim həm bu, həm də başqa səyahətnamələri nəşr etdirməkdən yeganə məqsədim cəmiyyətin xeyrini düşünmək olmuşdur. Mən əsla öz biliyimi və ya üslubumu qələmə verməyə deyil, həqiqətən aşkara çıxarılmasına cəhd etmişəm. Bu səyahət zamanı başıma gələn bütün işlər mənə o qədər dərin təsir edib və yadımda elə möhkəm qalıb ki, indi bunları kağızda yazarkən, əhəmiyyətli olan hadisələrdən heç birinin üstündən keçə bilmədim. Bundan başqa, əlyazmalarımı bir də diqqətlə yoxladıqdan sonra, səyahətnamənin cansıxıcı və xırdaxuruşla dolu olmaması üçün bəzi əhəmiyyətsiz şeyləri pozdum; çünki haqlı olaraq bir çox səyyahı bu cəhətdən qınayırlar.

İKİNCİ FƏSİL

Fermerin qızı. Müəllifin qonşu şəhərə, sonra isə paytaxta aparılması. Səyahətin təfsilatı.

Bizim xanımın doqquz yaşında bir qızı vardı. Qız çox gözəl tikiş tikirdi. Gəlinciyini çox yaxşı geyindirirdi və ümumiyyətlə, öz yaşına nisbətən çox inkişaf etmişdi. O, anası ilə birlikdə öz gələcəyinin beşiyində, gecə yatmaq üçün mənə bir yataq düzəltdi. Bu beşiyi bir kiçik qutuya qoydular və qutunu tavandan asılmış bir taxtanın üstündə yerləşdirdilər ki, məni siçovullardan qorusunlar. Mən fermerin evində yaşadığım müddətdə bu qutunun içində yatdım. Onların dillərini öyrənməyə başlayıb, mənə nə lazım olduğunu başa sala bildikcə, yatağım gün-gündən daha da rahat olurdu. Qız o qədər zirək idi ki, bir neçə dəfə mənim necə soyunduğumu gördükdən sonra, özü məni soyundurub-geyindirə bilirdi. Ancaq mən heç bir zaman onun xidmətlərindən həddindən artıq istifadə etməyib, özümə geyinib-soyunmağa icazə verməsini istəyirdim. O, tapılması mümkün olan ən zərif və nazik kətandan mənə yeddi köynək və alt paltarı tikmişdi,

ancaq mübaliğəsiz deyə bilərəm ki, bu kətan bizim girdən də qat-qat qalın idi. Həmişə mənim paltarımı özü yuyurdu. Qız eyni zamanda mənim müəllimim olub, öz dillərini öyrədirdi. Barmağımla bir şeyi göstərirdim, o da bu şeyin adını deyirdi. Bir neçə gündən sonra mən daha özümə lazım olan hər bir şeyi istəyə bilirdim. Qızın xasiyyəti çox gözəl idi və yaşına görə boyu çox uca deyildi, cəmi qırx fut olardı. O, mənə *Qrildriq* ad qoymuşdu və mənim adım da belə qalmışdı. Bu sözün mənası "adamcıq", "cırtdan" demək idi.

Bu ölkədə başıma gələn bütün macəralardan sağ-salamat qurtarmağım üçün bu qıza minnətdaram. Mən orada olduğum müddətdə, biz əsla bir-birimizdən ayrılmadıq. Mən ona *Qlyumdalkliçim*, yəni mənim dayəm adı qoymuşdum ki, əgər burada Qlyumdalkliçin mənə göstərdiyi qayğı və xoş rəftarını qeyd etməsəm, özümü naşükür adlanmağa layiq hesab edərdim. Mən bütün varlığımla onun xəcalətindən çıxmağı arzu edirdim. Bunun əvəzində isə, görünür ki, qeyri-ixtiyari olaraq, kralın ona qəzəblənməsinə bais olmuşam.

Mən orada göründükdən bir az sonra qonşular arasında belə bir şayiə yayılmışdı ki, mənim ağam çöldən təxminən spleknok (oralarda olan altı fut uzunluğunda xırdaca, qəşəng bir heyvandır) boyda, ancaq zahirən tamamilə insana bənzəyən xırdaca bir heyvan tapmışdır. Deyirdilər ki, bu heyvan insanın bütün hərəkətlərini təqlid edir. Hətta, özünə məxsus bir şivə ilə danışır və yerli dildə bir neçə söz söyləməyi də öyrənmişdir. Deyirlər ki, o, iki ayağı üstə durub dik gəzir. Əl heyvanıdır, itaətkardır, çağıranda gəlir və əmr edilən hər şeyi yerinə yetirir, bədəninin quruluşu çox zərifdir, üzü isə üçyaşlı bir mülkədar qızının üzündən də ağdır.

Mənim ağamın yaxın qonşusu və dostu olan fermer bu deyilənlərin doğru olub-olmadığını yoxlamağa gəlmişdi. Məni həmin saat gətirib stolun üstünə qoydular. Mən o baş-bu başa gedib-gəlir, komanda ilə qılıncımı qınından çəkir, yenə yerinə qoyur, ağamın qonağına təzim edir, onun əhvalını soruşur, onu görməkdən şad olduğumu söyləyirdim; müxtəsər, dayəmin mənə öyrətdiyi bütün hərəkətləri edirdim.

Yaşlı və gözləri zəifləşmiş bir adam olan bu fermer məni yaxşı görmək üçün gözlüyünü taxdı. Mən ona baxanda, gülməkdən özümü saxlaya bilmədim; çünki onun gözləri gözlüyün arxasından iki pəncərə ardından otağa işıq salan, bədirlənmiş Aya bənzəyirdi. Evdəkilər

mənim gülməyimin səbəbini başa düşüb gülüşdülər. Qoca o qədər axmaq idi ki, küsüb özünü təhqir edilmiş hesab etdi.

O, xəsislikdə ad çıxarmışdı, bədbəxtliyimdən, onun haqqında yayılan bu söz-söhbət doğru çıxdı. O həmin saat mənim ağama, doğrudan da, əcaib bir məsləhət görüb söylədi ki, məni qəribə bir şey kimi qonşu şəhərdə camaata nümayiş etdirsin. Bizim ev ilə həmin şəhər arasında yarım saatlıq, yəni iyirmi iki mil qədər bir məsafə var idi. Qoca arabir məni göstərərək, ağamın qulağına nə isə pıçıldamağa başlayanda mən həmin saat hiss etdim ki, nə isə işlər fırıqdır. Qorxudan mənə elə gəldi ki, bir neçə kəlmə eşidib başa da düşdüm. Mənim dayəciyim Qlyumdalkliç bütün əhvalatı məharətlə anasından öyrənib, ertəsi gün səhər məsələnin nə yerdə olduğunu mənə danışdı. Yazıq qız məni bağrına basıb, xəcalətindən və dərdindən ağlayırdı. O qorxurdu ki, qaba və yöndəmsiz adamlar mənə bir zərər yetirsinlər, onlar məni əllərinə götürsələr, yəqin ki, boğacaq və şikəst edəcəkdilər. O biri tərəfdən qız mənim əslən təvazökar və şərəf məsələsində həssas olduğumu bildiyindən, qorxurdu ki, mən pul ilə camaatı əyləndirmək üçün tamaşaya qoymalarını özüm üçün böyük bir həqarət sayaram.

Qız deyirdi ki, atam və anam Qrildriqi mənə bağışlamağa söz vermişdilər. Ancaq görürəm ki, indi keçənilki kimi etmək istəyirlər. Keçən il mənə bir quzu bağışlamışdılar, yekəlib kökələn kimi onu qəssaba satdılar.

Açıqca etiraf edirəm ki, bu xəbər məni, dayəm qədər narahat etmirdi. Mən möhkəm inanmışdım ki, – bu inam heç bir zaman məni tərk etmirdi – bir gün azad olacağam. Əlbəttə, xalq qarşısında tamaşaya qoyulan bir əcaib məxluq rolunu oynamaq həqarətli bir şey idi. Ancaq mən özümü bu ölkədə tamamilə yad bir adam hesab edirdim və bu fikirdə idim ki, İngiltərəyə qayıdacaq olsam, heç kəsin məni məzəmmət etməyə haqqı ola bilməz. Hətta, Böyük Britaniya kralı özü də mənim yerimdə olsaydı, belə bir həqarətə dözməyə məcbur olardı.

Ağam öz dostunun məsləhətinə qulaq asıb, ən yaxın bazar günlərindən birində məni bir qutunun içində qonşu şəhərə apardı. O, dayəciyimi də tərkinə alıb, özü ilə bərabər götürdü. Qutu hər tərəfdən bağlı idi, mənim girib-çıxmağım üçün kiçik bir qapısı və hava girmək üçün bir neçə dəliyi vardı. Qız o qədər qayğıkeş idi ki, öz gəlinciyinin çarpayısının sırınma yorğanını qutuya qoymuşdu. Mən bu

yorğanın üstündə uzana bilirdim. Bununla bərabər, yol cəmisi yarım saatlıq olsa da, məni yaman silkələyib yormuşdu. Atın hər addımı təxminən qırx futa bərabər idi. O, iri addımlar ilə yortur və onun hərəkəti fırtına zamanı gəminin yırğalanmasını, gah dalğanın təpəsinə qalxıb, gah da sonsuz bir uçuruma enməsini xatırladırdı, ancaq atın hərəkətləri gəmiyə nisbətən daha sürətli idi. Bizim getdiyimiz yol təxminən London ilə Sent-Olbans arasındakı məsafəyə bərabərdir. Ağam həmişə qaldığı mehmanxananın qapısında atdan düşdü. Mehmanxana sahibi ilə məsləhətləşib bir *qrultruda*, yəni carçı tutdu. Bu carçı mehmanxanada tamaşaya qoyulan əcaib bir məxluq olduğunu şəhər əhalisinə elan etməli və deməli idi: "Bu *spleknok* insana çox bənzəyir, bir neçə söz söyləyə bilir və cürbəcür əyləncəli hərəkətlər edir".

Məni mehmanxananın, ehtimal ki, üç yüz kvadrat fut yekəliyində olan ən böyük bir otağında stolun üstünə qoydular. Dayəciyim stolun lap yanında bir kürsünün üstündə durub, məni qorumalı və mənə göstərişlər verməli idi. Basırıq olmasın deyə, ağam otağa hər dəfə otuz nəfərdən artıq adam buraxmırdı. Qızın komandası ilə mən stolun üstündə o baş-bu başa gedib-gəlirdim, o mənə suallar verir, mən isə ona ucadan cavab verirdim. Bir neçə dəfə mən tamaşaçılara müraciətlə gah onlara hörmətimi izhar edir, gah da onları təkrar burada görmək istədiyimi söyləyirdim. Qlyumdalkliçin qədəh əvəzinə verdiyi oymağı şərabla doldurub, tamaşaçıların sağlığına içirdim. Qılıncımı çəkib, İngiltərədə qılınc təlimi verən müəllimlər kimi, havada oynadırdım. Dayəciyim mənə bir saman çöpü verirdi və mən onunla nizə ilə oynayan kimi hərəkətlər göstərirdim. Bu sənəti mənə gəncliyimdə öyrətmişdilər. Bir günün içində mənə on iki dəstə tamaşaçı baxdı və hər dəfə eyni hərəkətləri təkrar etməli oldum. Axırda bütün bunlar zəhləmi apararaq, məni çox yordu və əldən saldı. Məni görənlər, haqqımda elə qəribə şeylər danışırdılar ki, camaat mehmanxanaya axışmağa başlamışdı. Ağam öz mənfəətini güdərək, qızından başqa kimsəni mənə əl vurmağa qoymurdu. Ehtiyat üçün tamaşaçıların skamyaları stoldan uzaqda qoyulmuşdu. Bununla bərabər, bir məktəbli mənə fındıq atdı. Fındıq bizim qabaq boyda olardı. Xoşbəxtlikdən fındıq mənə dəymədi, yoxsa yəqin ki, başımı yarardı. O dəcəli döyüb salondan qovdular və bu mənə çox ləzzət verdi.

Ağam şəhərə elan verdi ki, ən yaxın bazar günü məni yenə göstərəcəkdir. Bu müddətdə isə, mənim üçün daha rahat bir səyyar evcik

hazırladı. Mənim buna çox ehtiyacım var idi. Birinci səyahət və səkkiz saatlıq fasiləsiz tamaşa məni lap əldən salmışdı. Zorla ayaq üstə dururdum, dilim söz tutmurdu. Dincəlib özümə gəlməyim tamam üç gün çəkdi; çünki evdə də rahatlığım yox idi. Mənim barəmdə eşitmiş olan qonşu mülkədarlar ara vermədən bu əcaib şeyi görmək üçün ağamın yanına gəlirdilər. Hər gün otuza qədər adam öz arvad-uşağı ilə gəlib mənə tamaşa edirdi. Ağam bu işdən böyük pullar qazanırdı; çünki məni evdə göstərəndə, hər ailədən bütün bir salonun tamaşa pulunu alırdı. Beləliklə, bir neçə həftə ərzində məni şəhərə aparmadıqlarına baxmayaraq, heç dincələ bilmədim. Yalnız çərşənbə günləri, onların istirahət günü olduğundan dincəlirdim.

Ağam, ona çox mənfəət verdiyimi görüb, mənimlə krallığın bütün böyük şəhərlərini gəzməyi qərara aldı. Uzun sürəcək səyahət üçün bütün lazım olan şeyləri toplayıb, təsərrüfat barədə tapşırıqlarını verib, öz arvadı ilə xudahafizləşdi və 1905-ci il avqustun 17-də, yəni mənim oraya gəlməyimdən iki ay keçəndən sonra biz bu ölkənin, demək olar ki, mərkəzindən və bizim evdən üç min mil məsafədə olan paytaxta yola düşdük. Ağam qızı Qlyumdalkliçi də tərkində oturtmuşdu. Qız məni öz kəmərinə bənd olmuş bir qutunun içində, dizi üstündə tutmuşdu. O, qutunun divarlarına, orada tapılması mümkün olan ən yumşaq parça çəkmiş, yerinə keçə döşəmiş, gəlinciyinin çarpayısını mənim üçün qoymuş, mənim üçün alt paltar və başqa lazım olan şeylər hazırlamış və ümumiyyətlə, rahatlığımı mümkün qədər təmin etməyə çalışmışdı. Yüklərimizi gətirən bir işçi də ardımızca gəlirdi.

Ağam yolumuzun üstündə olan bütün şəhərlərdə məni nümayiş etdirdi. Bəzən o, yoldan əlli, hətta yüz mil qədər kənara çıxıb, yaxşı pul qazanmaq ümidində olduğu bir qəsəbəyə və ya adlı-sanlı adamın malikanəsinə gedirdi. Biz gündə yüz qırx və ya yüz əlli mildən artıq yol getmirdik: çünki Qlyumdalkliç mənim qayğıma qalaraq, at üstündə getməkdən yorulduğunu söyləyib şikayətlənirdi. Mənim istəyimlə o, məni təzə hava almaq və ətrafa tamaşa etmək üçün tez-tez qutudan çıxarırdı. Belə hallarda o məni bərk-bərk tuturdu ki, yıxılmayım. Biz Nil və Qanq çayından qat-qat enli və dərin olan beş-altı çaydan keçdik. Yolumuzun üstünə London körpüsü yanındakı Temza kimi kiçik bircə çaya da rast gəlmədik. On həftə yolda olduq. Bu müddətdə bir xeyli kəndləri və xüsusi evləri nəzərə almasaq, məni on səkkiz böyük şəhərdə nümayiş etdirdilər.

Oktyabrın 25-də biz Lorbrulqrud və ya "Kainatın Fəxri" adlanan paytaxta gəldik. Ağam kral sarayının yaxınlığında olan baş küçədə düşüb, mənim özümü və məharətlərimi təsvir edən afişalar buraxdı. O, eni üç və ya dörd yüz fut olan böyük bir salon kirayələyib, ora altmış fut diametri olan bir stol qoydurdu. Bu stolun dövrəsinə üç fut hündürlüyündə barmaqlıq çəkdirmişdi ki, yıxılmayım. Mən bu stol üzərində öz oyun və hərəkətlərimi ifa etməli idim. Məni gündə on dəfə nümayiş etdirir və hamı buna heyran olub çox məmnun qalırdı. Bu zaman artıq, yerli dildə babat danışır və verilən sualları çox gözəl başa düşürdüm. Bundan başqa, hərfləri öyrənmiş və sadə cümlələri oxuya bilirdim. Bunu mənə Qlyumdalkliç evdə və yolda dərs verməklə öyrətmişdi. O özü ilə bərabər qızlar üçün qısaca ədəb-ərkan dərsliyi olan kiçik bir kitabça götürmüşdü. Bu kitabdan mənə əlifba və qiraəti öyrətmişdi.

ÜÇÜNCÜ FƏSİL

Müəllifin saraya tələb edilməsi. Kraliçanın onu fermerdən satın alıb krala təqdim etməsi. Müəllif əlahəzrət kralın böyük alimləri ilə mübahisəyə girişir. Ona sarayda bina tikirlər. Kraliçanın ona böyük lütfü. O öz vətəninin şərəfini müdafiə edir. Onun kraliçanın cırtdanı ilə höcətləşməsi.

Bir neçə həftə davam edən gündəlik tamaşalar məni tamam taqətdən salmışdı. Ağam nə qədər çox pul qazanırdısa, pula hərisliyi bir o qədər artırdı. Mən tamam iştahadan düşdüyüm üçün lap skeletə dönmüşdüm. Fermer bunu görüb güman etdi ki, mən tezliklə öləcəyəm. Buna görə də mənim vasitəmlə mümkün qədər çox pul qazanmaq qərarına gəldi. Ancaq elə bu zaman *slardral*, yəni kralın yaveri onun yanına gəlib, kraliçanı və saray xanımlarını əyləndirmək üçün mənim saraya aparılmamı tələb etdi. Bu xanımlardan bəziləri artıq məni görmüş və gözəlliyim, ədəb-ərkanım və ağıl-kamalım barədə qəribə şayiələr yaymışdılar. Həzrət kraliça və yanındakı xanımlar məni görəndə təsviredilməz dərəcədə vəcdə gəldilər. Mən diz çöküb, ülyahəzrət kraliçanın ayağını öpməyə icazə istədim, ancaq kraliça lütf edib çeçələ barmağını mənə uzatdı və

mən onu iki əlimlə qucaqlayıb, böyük bir hörmətlə dodaqlarıma yaxınlaşdırdım. O, vətənim və səyahətlərim barədə mənə bir neçə sual verdi. Mən bu suallara qısa və aydın cavab verdim. Sonra məni sarayda saxlasalar məmnun olub-olmayacağımı soruşdu. Kraliçaya ikiqat təzim etdim və təvazökarlıqla cavab verdim ki, mən öz ağamın quluyam. Əgər ixtiyarım öz əlimdə olsaydı, bütün həyatımı məmnuniyyətlə ülyahəzrət kraliçanın xidmətinə həsr edərdim. Onda kraliça ağamdan məni yaxşı qiymətə satmağa razı olub-olmadığını soruşdu. Ağam məni başından rədd etmək fürsətinə çox şad oldu: çünki mənim bircə ay da ömür edə bilməyəcəyimdən qorxurdu. O, min qızıl tələb etdi və bu pulu həmin saat ona verdilər. İngilis puluna çevirdikdə, bu təxminən min qiney edər. Sövdələşmə qurtardıqdan sonra mən kraliçaya müraciətlə xahiş etdim ki, indi mən siz ülyahəzrətin ən sadiq bir təbəəsi olmaq etibarilə, xüsusi lütfünüzü dinləməyə cəsarət edirəm. Mənim dayəciyim Qlyumdalkliç mənimlə həmişə çox mehriban və diqqətli rəftar etmişdi. O mənim vərdişlərimi çox gözəl bilir və mənə çox yaxşı baxır. Buna görə siz ülyahəzrətdən xahiş edirəm ki, onu xidmətə götürəsiniz və o yenə də əvvəlki kimi mənim dayəciyim və mürəbbiyəm olaraq qalsın.

Kraliça mənim xahişimi qəbul etdi. Onun atası öz qızının sarayda işə düzəlməsinə çox şad oldu. Qlyumdalkliç özü isə sevincini gizlədə bilmirdi. Keçmiş ağam mənə sağlıq diləyib getdi. O əlavə etdi ki, məni çox gözəl bir qulluqda qoyub gedir. Mən ona heç bir cavab verməyib, yalnız yüngülcə təzim etdim.

Kraliça mənim bu soyuq rəftarımı duydu və fermer getdikdən sonra bunun səbəbini soruşdu. Mən ülyahəzrət kraliçaya ətraflı cavab verməyə cürət edib dedim:

– Bu adama yalnız ona görə minnətdaram ki, mən yazığı onun zəmisində təsadüfən tapdıqları zaman başımı ayaqlayıb əzmədi. Ancaq fermer özünün bu lütfkarlığı müqabilində qat-qat artıq mükafat almışdır. Mənim sayəmdə o qədər pul qazanmışdır ki, varlı bir adam olmuşdur. Halbuki, mən onun evində çox pis güzəran keçirirdim. Onun mənim üçün yaratdığı güzəran şərtlərinə heç heyvan da dözə bilməzdi. O məni səhərdən axşama qədər avara adamları əyləndirməyə məcbur edirdi. Bu, məni elə taqətdən salmışdı ki, fermer öləcəyimdən qorxurdu. Yalnız buna görə, o məni belə ucuz satdı. Ancaq ümid edirəm ki, o nahaq yerə nigaran olurdu. Təbiətin

zinəti, kainatın sevimlisi, öz təbəələrinin səadət mənbəyi, xalqın qüdrəti olan böyük lütfkar məlikənin himayəsində mənimlə pis rəftar ediləcəyindən əsla qorxum ola bilməz və şübhə etmirəm ki, tezliklə sağalacağam. Bircə ülyahəzrət kraliçanın hüzurunda olmağım sayəsində artıq özümü xeyli yaxşı və gümrah hiss edirəm.

Mənim nitqimin ümumi əsas mənası bundan ibarət idi. Bu nitq çox nöqsanlı idi və mən bunu çox çətinliklə söyləyirdim. Nitqin axırında mən burada padşah ailəsi haqqında işlədilən bəzi ifadələri də işə saldım. Bunları mənə Qlyumdalkliç öyrətmişdi.

Kraliça mənim dili kifayət qədər yaxşı bilmədiyimə çox mülayim bir münasibət göstərdi. O mənim kimi kiçik bir məxluqun bu dərəcə zəka və dərin ağıl sahibi olmasına son dərəcə heyrət etdi. O məni əlinə alıb, kralın kabinetinə apardı. Təkəbbürlü və sərt bir adam olan əlahəzrət padşah mənə ötəri bir nəzər salıb, kraliçadan soyuq əda ilə soruşdu ki, nə vaxtdan bəri, o, spleknoklara rəğbət göstərməyə başlamışdır. Mən kraliçanın sağ əlinin içində üzüqoylu uzanmışdım və görünür ki, padşah mənim spleknok bilmişdi. Zərif bir ağıla, şən bir səciyyəyə malik olan kraliça məni ehtiyatla yazı stolunun üstünə qoyub, öz sərgüzəştimi əlahəzrət krala danışmağımı əmr etdi. Mən bütün başıma gələnləri qısaca danışdım. İçəri girməyə icazə almış olan Qlyumdalkliç mənim sözlərimi təsdiq etdi.

Kral bütün ölkədə ən alim adamlardan biri olub, gözəl fəlsəfə və xüsusən riyaziyyat təhsili almışdı. O, məni diqqətlə nəzərdən keçirdi. Mənim dik gəzdiyimi görüb əvvəlcə məni ixtiraçı bir usta tərəfindən düzəldilmiş və içərisində saat mexanizmi olan bir oyuncaq hesab etdi. Ancaq səsimi eşidib, rabitəli və düşüncəli danışdığımı görüb, heyrətini gizləyə bilmədi. O, danışdığım sözlərin bircə kəlməsinə də inanmadı. Yəqin, elə güman edirdi ki, bütün bunları mənə Qlyumdalkliç və onun atası əzbərlətmişdilər ki, məni baha qiymətə satsınlar. Buna görə mənə bir neçə başqa sual verdi və hamısına tamamilə ağıllı cavablar aldı. Mənim danışığımın yeganə nöqsanı tələffüzümün pis olması və bəzi ifadələrin yöndəmsizliyi idi ki, bu da dili yaxşı bilmədiyimi göstərirdi. Bundan başqa, mən saraya uyğun olmayan bir neçə sadə xalq ifadəsi işlətmişdim ki, bunları da tez-tez fermerin ailəsindən eşitmişdim. Bütün bunlar əcnəbi bir adam üçün tamamilə üzrlü sayıla bilən şeylər idi.

Bu ölkədə mənim zahirimi xeyli və diqqətlə tədqiq edib, birbirinə zidd qərara gəldilər. Yalnız bir cəhətdən onların fikri bir idi ki, mənim kimi bir məxluq təbiətin normal qabiliyyətinə malik deyiləm: sürətlə qaça bilmirəm, ağaca dırmaşmağı bacarmıram, yerdə yuva qaza bilmirəm. Alimlər mənim dişlərimi diqqətlə yoxlayıb, bu qərara gəldilər ki, mən qidanı necə əldə edirəm; çünki dördayaqlı heyvanların çoxu məndən güclüdür, çöl siçanları və sair xırda heyvanlar isə çox zirək və cəlddirlər. Əvvəlcə bu fikrə gəldilər ki, mən ilbiz və cürbəcür həşərat yeyib dolanıram, ancaq bir çox elmi müzakirə və mübahisələrdən sonra bu fikir rədd edildi.

Bu alimlərdən biri bu qənaətə gəldi ki, mən yalnız rüşeym halında qalmışam və ya vaxtından əvvəl doğulmuşam. Ancaq iki nəfər başqa alim bu fikri rədd edib göstərdi ki, bədənimin bütün üzvləri yaxşı inkişaf etmişdir və xeyli yaşım var. Zərrəbinlə yaxşıca görə bildikləri saqqalım bunu sübut edir. Onlar məni, sadəcə olaraq, boyca inkişaf etmiş bir cırtdan da hesab edə bilmirdilər; çünki mən çox kiçik idim. Ölkədə ən kiçik boylu və kraliçanın sevimli cırtdanı olan adamın boyu otuz fut idi.

Xeyli mübahisədən sonra onlar yekdilliklə bu qərara gəldilər ki, mən *relplyum skolkatsdan* başqa bir şey deyiləm, bunun hərfi tərcüməsi "lusus naturae", yəni "təbiətin əyləncəsi" deməkdir. Bu, tamamilə müasir Avropa fəlsəfəsi ruhundadır. Məlum olduğu kimi, bizim filosoflar təbiəti tədqiq edərkən, rast gəldikləri bütün çətinlikləri bu əcaib, lakin az anlaşılan hadisə ilə izah edirlər, şübhəsiz ki, *bəşəriyyət zəkasının böyük tərəqqisi bununla izah edilir*.*

Mən bu ağıllı qərarı dinlədikdən sonra bir neçə söz söyləməyə icazə istədim. Krala müraciətlə əlahəzrəti inandırmağa çalışdım ki, mənim gəldiyim ölkədə mən boyda olan milyonlarla insan yaşayır. Orada bütün heyvanlar, ağaclar, evlər buradakı heyvanlara, ağaclara, evlərə görə eyni nisbətdə kiçikdirlər. Buna görə də öz ölkəmdə mən əlahəzrətin bir təbəəsi kimi özümü qorumağı və özümə qida tapmağı bacarıram. Buna görə də, cənab alimlərin bütün dəlilləri əsassızdır.

Bunun müqabilində onlar istehzalı bir təbəssümlə cavab verdilər ki, fermer mənə çox yaxşı dərs vermişdir. Bütün bu alimlərdən xeyli ağıllı bir adam olan kral, alimləri buraxıb fermerin dalınca adam göndərdi. Xoşbəxtlikdən o hələ şəhərdən çıxıb getməmişdi. Əlahəzrət əvvəlcə fermeri tək dindirib, sonra onu mənimlə və qız ilə

üzləşdirərək, bu qənaətə gəlməyə başladı ki, dediklərimin hamısı həqiqətə yaxındır. O, öz arzusunu bildirib, kraliçaya tapşırdı ki, məndən yaxşı muğayat olun. Qlyumdalkliçin mənim yanımda qalmasına razı oldu; çünki ilk baxışdan bizim bir-birimizə isinişmiş olduğumuzu gördü. Qız üçün sarayda otaq ayrılmışdı, onun tərbiyəsilə məşğul olmaq üçün mürəbbi, geyindirib-soyundurmaq üçün qaravaş və başqa işlərlə məşğul olmaq üçün iki qulluqçu vermişdilər. Ancaq mənə qulluq etmək tamamilə Qlyumdalkliçə tapşırılmışdı.

Kraliça saray dülgərinə əmr etdi ki, mənə yataq otağı ola biləcək bir qutu düzəltsin. Bu dülgər gözəl bir usta idi, o mənim göstərişimlə üç həftənin içində uzunu və eni on altı fut, hündürlüyü on iki fut olan bir taxta otaq düzəltdi. Londonda qurulan bütün adi yataq otaqları kimi, bu otağın da pəncərə və qapıları açılıb-örtülürdü və içərisində iki dolab vardı. Tavanı elə düzəldilmişdi ki, onu açıb-örtmək mümkündü. Beləliklə, Qlyumdalkliç hər gün otağın havasını dəyişdirir və silib-süpürürdü.

Kraliçanın mebel ustası mənə gözəl bir çarpayı düzəltdi. Dayəciyim hər səhər onu havaya çıxarar, öz əliylə səliqəyə salır və axşam gətirib yerinə qoyurdu. Zərif oyuncaqlar hazırlayan başqa bir usta fil dişinə bənzər xüsusi bir materialdan mənə söykənəcəyi və dirsəklərimi qoymaq üçün yeri olan iki kürsü, iki stol və kamod düzəltdi. Otağın bütün divarlarına, döşəməsinə və səqfinə keçə vurulmuşdu ki, mənzilimi bir yerdən başqa bir yerə aparanda, bədbəxtlik üz verməsin və arabada aparanda az silkələnsin.

Otağımı siçovul və siçanlardan qorumaq üçün, qapılarıma qıfıl düzəldilməsini xahiş etdim. Xeyli çalışdıqdan sonra çilingər, nəhayət, bu ölkədə misli görünməmiş ən kiçik bir qıfıl düzəltdi ki, mən bundan böyüyünü yalnız bircə dəfə İngiltərədə, bir varlı evinin darvazasında görmüşdüm. Açarı Qlyumdalkliçin itirə biləcəyindən qorxub, həmişə öz cibimdə gəzdirirdim.

Kraliça mənə tapılması mümkün olan ən zərif ipəkdən paltar tikilməsini əmr etdi. Amma bu parça ingilis yorğanlarından qalın idi və mən buna öyrəşincəyə qədər xeyli əziyyət çəkdim. Paltar bir az İran, bir az Çin modasına bənzəyən yerli modada tikilmişdi, çox sadə və abırlı idi.

Kraliça yanımda olmağı o qədər xoşlayırdı ki, mənsiz heç vaxt nahar etmirdi. Mənim balaca stolumu və stulumu ülyahəzrət kraliçanın stolunun üstünə, onun sol dirsəyinin yanına qoyurdular. Qlyumdalkliç bir kürsünün üstündə, yanımda dururdu. O mənə nəzarət yetirir və kömək edirdi. Mənim gümüşdən nimçə, boşqab və sair qab-qacaqdan ibarət bir servizim var idi. Kraliçanın qab-qacağına nisbətən bunlar Londonun oyuncaq mağazalarında gördüyüm oyuncaq servizlərinə bənzəyirdi. Dayəciyim bu qab-qacağı gümüş qutunun içində cibində gəzdirirdi. Yemək zamanı lazım olan şeyləri mənim stolumun üstünə düzür, yeməkdən sonra isə yuyub təmizləyirdi. Kraliçadan başqa onunla bu süfrədə iki şahzadə qızı yemək yeyirdi. Böyüyünün on altı yaşı var, kiçik isə on üç yaş bir aylıq idi. Ülyahəzrət kraliça, adəti üzrə, özü mənim nimçəmə bir parça mal əti qoyardı və onu özüm doğrardım. Mənim yeməyimə və azacıq payıma tamaşa etmək ona böyük ləzzət verirdi. Kraliça özü isə birdəfəyə ağzına elə iri ət parçası qoyurdu ki, bunun bircəsi bir düjün ingilis fermerini doydurardı.

Əvvəllər mən onun yeməyinə iyrənmədən baxa bilməzdim. Bizim hind toyuğunun qanadından on dəfə böyük olan torağay qanadını sümüklərilə çeynəyib yeyir və hər dəfə bizim on iki penin ağırlığında olan iki qalac boyda çörək dişləyirdi. Birdəfəyə tutumu bizim çəllək qədər olan bir qızıl qədəhlə şərab içirdi. Onun yemək bıçaqları bizim dəryazımızdan iki dəfə böyük idi. Qaşıq və çəngəllər də eyni nisbətdə böyük idi. Bir dəfə Qlyumdalkliç bir yerə yığılmış on-on iki dənə belə yekə bıçaq və çəngəli göstərmək üçün məni yemək otağına apardı. Mənə elə gəlir ki, belə dəhşətli bir mənzərəni heç bir zaman görməmişəm.

Hər çərşənbə günü (çərşənbə burada bayram günü hesab olunur) kral, kraliça və uşaqları əlahəzrət kralın otağında bir yerdə yemək yeyirdilər. Belə hallarda mənim stol və stulumu əlahəzrət kralın sol tərəfində qoyurdular, o da məni çox xoşlayır və əzizləyirdi.

Kral mənimlə məmnuniyyətlə söhbət edirdi. O, Avropa barədə, oradakı adətlər, din, qanunlar və maarif barədə məndən ətraflı soruşur və mən ona bacardığım qədər müfəssəl məlumat verirdim. Kral aydın fikir və düzgün mühakimə sahibi idi. Ona verdiyim məlumat barədə çox dərin və incə mülahizələr söyləyirdi. Ancaq bir dəfə kral dözə bilmədi. Mən ona öz əziz vətənim barədə, bizim ticarət, quru və dəniz müharibələri, dini nifaq və siyasi partiyalar haqqında uzun-uzadı və şövqlə danışırdım. Kral diqqətlə dinləyirdi, ancaq axırda ondakı

mövhumatçılıq dilə gəldi. O məni sağ əlinə alıb, sol əliylə tumarlayaraq, ucadan gülə-gülə mənim kim: viqlərdən və ya torilərdən olduğumu soruşdu. Sonra kral, oradaca əlində "Monarx" adlı ingilis gəmisinin ən uca doru boyda ağ bir əsa tutub durmuş birinci vəzirinə müraciətlə, mənim kimi xırdaca həşəratın da insanlıq iddiasına düşdüyündən, insan əzəmətinin nə qədər kiçildiyini söylədi. O əlavə etdi: "Mərc tuturam ki, bu məxluqların rütbə və ordenləri də vardır, onlar xırdaca yuvalar düzəldib, adlarını da ev və şəhər qoyurlar, onlar bəzənib-düzənib seyrə çıxır, sevişir, vuruşur, mübahisə, hiyləgərlik və xəyanət edirlər".

Bu barədə o xeyli danışdı, qəzəbimdən rəng alıb-rəng verirdim. Mənim elm və incəsənət mənbəyi, vuruşmalarda qalib gələn, Fransanın qənimi, Avropanın ədalət məhkəməsi, xeyirxahlıq və dindarlıq məkanı, Kainatın fəxri və qibtə etdiyi bir diyar olan əziz vətənim barədə bu istehzalı sözləri eşidərkən qəzəbdən qanım beynimə vururdu.

Ancaq dərindən düşünüb, özümün təhqir edilib-edilmədiyimə şübhələnməyə başladım, həm də elə bir vəziyyətdə idim ki, təhqirə təhqirlə cavab verə bilməzdim. Bəlkə də, burada olduğum bir neçə ay ərzində yerli əhalinin zahiri görkəminə və danışıqlarına alışmışdım. Bundan əlavə, ətrafda olan bütün şeylər bu adamların nəhəng boylarına uyğun idi. Yavaş-yavaş daha onlardan qorxmurdum. Mənə elə gəlirdi ki, əyinlərinə bəzək-düzəkli bayram paltarları geyinib vüqarla gəzişən, bir-birinə təzim edən və boş-boş danışan ingilis lordları və xanımları arasındayam. Sözün düzü, kral və əyanların mənə baxıb güldükləri kimi, mən özüm də onlara gülmək ehtiyacı duyurdum. Bir dəfə kraliça məni bədənnüma güzgünün qabağına apardıqda və ikimizin şəkli boya-boy aynaya düşdükdə, öz-özümə baxıb gülümsəməkdən özümü saxlaya bilmədim. Bu ziddiyyətdən daha gülünc bir şey ola bilməzdi. Hərdən mənə elə gəlirdi ki, guya onlar nəhəng deyil, mən özüm bir neçə qat kiçilmişəm.

Məni hamıdan artıq kraliçanın cırtdanı acıqlandırır və təhqir edirdi. Onun boyu otuz futdan uca deyildi və mən gəlməmişdən əvvəl bu ölkədə ən kiçik boylu adam sayılırdı. Təəccüblü deyil ki, özündən bir neçə qat kiçik boylu bir adam gördüyündən, o lovğalanmışdı və kraliçanın giriş otağında rastlaşdıqda, məni təkəbbür və həyasızlıqla süzürdü.

Mən stol üzərində durub əyanlarla söhbət etdikdə, o mənim boyum və görünüşüm barədə sacmaq fürsətini də əldən vermirdi.

Bunun müqabilində mən onu öz qardaşım adlandırır və ya təkbətək vuruşmağa çağırır, müxtəsər, saray xidmətçiləri arasında qəbul edilmiş bütün hiylələri işə salırdım.

Bir dəfə bu kinli küçük yemək vaxtı mənim bir sözümdən elə qəzəbləndi ki, ülyahəzrət kraliçanın stulunun dirsək qoyulan yerinə dırmaşıb, mənim belimdən yapışdı və gümüş qaymaq qabının içinə atdı. Mən başı üstə qaymağın içinə düşdüm. Xoşbəxtlikdən yaxşı üzə bilirdim. Yoxsa, halım pis olacaqdı. Bu zaman Qlyumdalkliç otağın o biri başında idi. Kraliça isə özünü elə itirmişdi ki, mənə kömək edə bilmədi. Axırda dayəciyim qaçaraq gəldi və məni qabdan çıxartdı. Ancaq qarnıma iki pint qədər qaymaq getmişdi. Məni yatağa uzatdılar. Xoşbəxtlikdən axırı yaxşı qurtardı. Ancaq paltarım xarab olduğundan onu tullamalı olduq. Cırtdanı isə bərk döydülər, məni içinə yıxdığı qabdakı qaymağı içməyə məcbur etdilər. O vaxtdan, cırtdan həmişəlik olaraq, kraliçanın gözündən düşdü. Bir müddət sonra kraliça onu bir əyan xanımına bağışladı və onu bir daha görmədim. Mən buna çox şad oldum. Bu kinli eybəcərin başıma daha nələr gətirə biləcəyini söyləmək çətindir.

Hələ əvvəllər də o mənimlə qaba zarafat etmişdi. Bir dəfə yemək zamanı kraliça buluddan bir ilikli sümük götürüb boşqaba qoyaraq, içindən iliyini çıxarmış və onu yenə yerinə qoymuşdu. Cırtdan Qlyumdalkliçin bufetə getməsindən istifadə edib, dayəmin yemək zamanı həmişə üstündə durub, mənə nəzarət etdiyi kürsüyə sıçramış, iki əli ilə məni götürərək, ayaqlarımı bir-birinə sıxmış və qurşaqdan yuxarıya qədər boş sümüyün içinə soxmuşdu. Köməyə çağırmaq mənə həqarətli görünmüş və aradan bir dəqiqəyə qədər keçəndən sonra, bu dəcəlliyi görüb, məni sümüyün içindən çıxarmışdılar. Görünür, mən çox gülməli görünürmüşəm. Sarayda isə xörək nadir hallarda verilirdi. Yalnız buna görədir ki, ayaqlarım yanmamış, ancaq corablarımla şalvarım pis kökə düşmüşdü. Kraliça məni bu kökdə gördükdə, gülməyini saxlaya bilməmişdisə də, ancaq buna baxmayaraq, cırtdana bərk acığı tutmuşdu. Mənim ona tərəfdar çıxmağım, onu qovulmaqdan qurtarmışdı.

Kraliça tez-tez mənim qorxaqlığıma gülür və həmvətənlərimin də belə qorxaq olub-olmadıqlarını soruşurdu. Kraliçanın belə istehzasına aşağıdakı vəziyyət səbəb olmuşdu. Yayda burada yaman çox milçək olur. Hərəsi iri torağay boyda olan bu murdar həşərat,

yemək vaxtı məni bir dəqiqə də rahat qoymurdu. Onlar bəzən yeməyimin üstünə qonur, öz iyrənc nəcislərini və ya yumurtalarını tökürdülər ki, bunları mən adicə gözlə aydın görürdüm. Bəzən milçəklər alnıma və ya burnuma qonub elə dişləyirdilər ki, qan çıxırdı. Onlar yaman pis qoxuyurdu. Mən onların ayaqlarında bir növ yapışqan kimi maye görürdüm ki, bizim təbiət alimlərinin sözlərinə görə, milçəklər bunun sayəsində tavanda da sərbəstcə gəzirlər. Bu murdar həşəratdan qorunmaq mənim üçün xeyli əziyyətli bir iş idi. Cırtdanın ən çox sevdiyi əyləncə bu idi ki, bizim məktəblilər kimi o da, ovcuna bir neçə milçək doldurub, kraliçanı güldürmək və məni qorxutmaq üçün onları gözlənilmədən mənim üstümə atırdı. Mənim milçəklərdən qorunmaq üçün yeganə müdafiə silahım kiçik xəncərim idi; onlar mənə yaxın uçduqları zaman, mən xəncərimlə vurub onları parçalayırdım. Mənim bu çevikliyimə hamı heyran qalırdı.

Hava yaxşı olanda, Qlyumdalkliç hər səhər təmiz hava almaq üçün mənim qutumu pəncərənin içinə qoyardı. Yeri gəlmişkən bunu da deyim ki, bizim İngiltərədə quş qəfəslərini pəncərədən bayırda asdıqları kimi, mənim qutumun da bayırdan asılmasına əsla razı olmurdum. Yadımdadır ki, bir səhər dayəciyim qutumu pəncərəyə qoyub harasa getmişdi. Mən pəncərəni açdım. Stol arxasında oturub, bir parça şirin qoğaldan ibarət olan səhər yeməyinə başladım. Birdən, şirin qoxu duymuş iyirmiyə qədər arı otağıma doluşdu. Otağa elə bir vızıltı düşdü ki, elə bil, iyirmi tütək birdən çalırdı. Arılardan bir qismi qoğalımın üstünə qonub onu parçalayır, bir qismi isə başımın üstündə hərlənib, vızıltıları ilə qulaqlarımı batırır, neştərləri ilə canıma yaman qorxu salırdı. Bununla bərabər mən xəncərimi çəkib, cürətlə onlara hücum etdim. Dördünü öldürdüm, qalanları isə uçub getdilər və mən həmin saat pəncərəni örtdüm. Bu arılardan hər biri bir kəklik boyda idi. Mən öldürdüyüm arıların neştərlərini çıxartdım, bunlar bir yarım düym uzunluğunda olub, iynə kimi iti idi. Bütün dörd neştəri diqqətlə qoruyurdum, sonra bunları başqa nadir şeylərlə bərabər Avropada camaata göstərdim. İngiltərəyə qayıtdıqdan sonra mən bunlardan üçünü Qreşemkollecə verdim. Dördüncünü isə özüm üçün saxladım.

DÖRDÜNCÜ FƏSİL

Ölkənin təsviri. Müəllifin coğrafiya xəritələrini düzəltmək təklifi. Kral sarayı. Paytaxt haqqında bir neçə söz. Müəllifin səyahətə çıxması. Baş ibadətgahın təsviri.

İndi mən ölkəni, daha doğrusu, onun səyahətlərim zamanı gördüyüm hissəsini – krallığın paytaxtı olan Lorbrulqrudun təxminən iki min mil qədər ətrafını təsvir etmək istəyirəm. Bu səyahətlərə mən kraliçaya yol yoldaşlığı etdiyim zaman çıxmışam. O isə heç bir zaman paytaxtdan, bundan artıq uzağa getməz, hətta kralı müşayiət edərkən də, bundan o yana ayaq basmaz, durub əlahəzrətin qayıtmasını gözlərdi. Bu padşahın ölkəsinin uzunu altı min, eni isə üç mindən beş min milə qədərdir. Buradan bu nəticəyə gəlirəm ki, bizim Avropa coğrafiyaşünasları *Yaponiya ilə Kaliforniya arasında başdan-başa okean olduğunu güman edərkən, çox böyük səhv edirlər**. Mən həmişə bu fikirdə olmuşam ki, burada Böyük Tatarıstan qitəsinə əks olan mütləq bir qitə mövcud olmalıdır. Məncə onlar öz xəritələrini düzəltməli və bu böyük ölkəni oraya daxil etməlidirlər. Mən onlara hər cəhətdən həvəslə kömək edərəm.

Təsvir etdiyim krallıq şimal-şərq tərəfində otuz mil qədər ucalıqda dağ silsiləsi olan bir yarımadadır. Bu dağ silsiləsi tamamilə keçilməzdir; çünki bu dalğaların təpələri fəaliyyətdə olan vulkanlardan ibarətdir. Ən böyük alimlər dağların o tayında kimlər yaşadığını və orada yaşamaq mümkün olub-olmadığını bilmirlər. Qalan üç tərəfdən yarımadanı okean əhatə edir. Ancaq bütün krallıqda bircə rahat liman da yoxdur. Dənizə tökülən çayların sahilləri başdan-başa iti qayalıqdır. Qayaların arasında həmişə coşqun dalğalar hökm sürür. Müxtəsər, sahilə hətta ən kiçik qayıqlar da yan ala bilməz. Ancaq geniş çaylar gəmilərlə və gözəl balıqlarla doludur. Dəniz balığını isə onlar tək-tək hallarda tuturlar, çünki bu balıqlar da Avropada olduğu böyüklükdədir. Yəni onlar üçün çox xırdadır.

Oxucu görür ki, təbiət belə fövqəladə böyüklükdə heyvan və bitkilər yaradarkən, onları yalnız bir qitəyə yaymışdır. Bu hadisənin səbəblərini axtarıb tapmağı bizim filosofların öhdəsinə buraxıram. Ancaq bəzən fırtına balinaları sahil qayalarının üstünə atır, yerlilər

bunları tutur və iştaha ilə yeyirlər. Mən bir dəfə iri bir balina gördüm, bunu bir adam çiynində zorla aparırdı. Bəzən onları qəribə bir şey kimi səbətə qoyub, Lorbrulqruda gətirirlər. Bir dəfə mən kralın süfrəsində nəhəng bir balina gördüm, onu nadir bir yemək kimi süfrəyə qoymuşdular, ancaq mən bu yeməyin krala xoş gəldiyini sezmədim. Mənə elə gəlir ki, o, balina cinsindən olan bu nəhəngdən iyrənirdi.

Ölkədə əhali sıxdır. Burada əlli bir böyük şəhər, dövrəsi hasarlı yüzə qədər qala və çoxlu kənd vardır. Oxucuların marağını təmin etmək üçün Lorbrulqrudu təsvir etmək kifayətdir. Şəhər, çayın hər iki sahilində salınmışdır ki, bu çay onu təxminən bir-birinə bərabər iki hissəyə bölür. Bu şəhərdə səksən mindən çox ev və altı yüz minə qədər əhali var. Şəhərin uzunu üç *qlyunqlyunq* (təxminən əlli dörd ingilis mili), eni isə iki yarım *qlyunqlyunq* dur. Mən özüm bunu, kralın əmri ilə tərtib edilmiş və qəsdən mənim üçün yerə sərilmiş yüz kvadrat fut ölçüdə olan bir plan üzrə ölçdüm. Çəkmələrimi soyunub planın üstünə çıxaraq, onun diametrini və dövrəsini bir neçə dəfə addımımla ölçdüm. Bundan sonra miqyas üzrə şəhərin ölçüsünü asanlıqla təyin etdim.

Kral sarayı yeddi mil sahə tutan qarmaqarışıq binalardan ibarətdir. Mərasim salonlarının çoxunun hündürlüyü iki yüz qırx fut olub, eni və uzunu da bu nisbətdədir.

Mənə və dayəciyimə bir kareta verilmişdi. *Qlyumdalkliç*, mürəbbiyəsi ilə birlikdə tez-tez şəhərə tamaşa və ya bazarlıq etməyə gedərdi. Mən də həmişə öz qutumun içində oturub, bu gəzintilərdə iştirak edərdim. Öz xahişimlə məni qız tez-tez qutudan çıxarıb, əlində tutardı ki, küçələrdən keçdiyimiz zaman evlərə və adamlara rahat-rahat tamaşa edə bilim. Mənə elə gəlir ki, bizim kareta *Vestminster-Holldan*[1] kiçik deyildi, ancaq ondan alçaq idi. Bir dəfə mürəbbiyə sürücüyə əmr etdi ki, dükanların qarşısında dursun. Bu fürsətdən istifadə edərək, dilənçilər karetanın ətrafına toplaşdılar. Bir avropalı olmaq etibarilə, bu mənim üçün görünməmiş bir mənzərə idi. Dilənçilər arasında olan bir qadının döşündə elə yaralar vardı ki, mən asanlıqla onların içinə girib, bir mağarada olduğu kimi gizlənə bilərdim. Başqa bir dilənçinin boynunda beş tay yun yekəliyində bir şiş vardı. Üçüncünün ayaqları taxtadan idi, bunların hər birinin ucalığı iyirmi fut olardı. Ancaq hamıdan iyrənc şey, onların paltarlarında gəzişən bitlər idi. Mən adi

[1] *Vestminster-Holl* – Londonda ali məhkəmənin iclas salonudur.

gözlə tüfeylilərin ayaqlarını, mikroskopda Avropa bitlərinin ayaqlarını gördüyümüzdən daha yaxşı görürdüm, xortumlarını da aydın görürdüm. Bitlər xortumları ilə həmin bədbəxtlərin dərilərində donuz kimi eşələnirdi. Mən belə heyvanlara ömrümdə ilk dəfə idi ki, rast gəlirdim. Bu bitlərin görkəmi ürəyimi bulandırırdısa da, onların birini böyük bir maraqla yarıb tədqiq edərdim. Amma cərrahlıq alətlərim yox idi, bədbəxtlikdən onlar gəmidə qalmışdı.

İçində yaşadığım böyük qutu səyahət üçün çox narahat idi. O, Qlyumdalkliçin dizi üstünə zorla yerləşir və karetada da xeyli yer tuturdu. Buna görə kraliça bir qədər kiçiyini, yəni uzunu iki futa qədər olan bir yol qutusu düzəltməyi sifariş etdi. Bu ikinci qutunu mənim göstərişimlə yenə həmin usta düzəltdi. Qutu kvadrat şəklində olub, üç divardan pəncərə açılmışdı. Yolda hər cür xoşagəlməz təsadüflərdən qorunmaq üçün pəncərələrin önündə bayırdan dəmir məftillər çəkilmişdi. Bütöv olan dördüncü divara bayırdan iki möhkəm halqa vurulmuşdu. Mən at üstə gəzmək istədiyim zaman, atlı qayışını bu halqalara keçirib qutunu öz belinə bənd edərdi. Bu vəzifəni həmişə etibar etdiyim sadiq və təcrübəli bir xidmətçi yerinə yetirərdi. Mən belə gəzintilərə tez-tez çıxardım. Bəzən mən kral və kraliçanı səyahətləri zamanı müşayiət edər, bəzən də parklara və bağlara tamaşaya gedər, çox vaxt isə saray xanımlarının və nazirlərin ziyarətində olardım. Qeyd etmək lazımdır ki, çox qısa bir müddətdə mən ən yüksək rütbəli əyanlarla tanış oldum. Onlar hamısı mənə çox böyük hörmət edirdilər, əlbəttə, bu mənim şəxsi ləyaqətimdən çox, əlahəzrət kral və kraliçanın lütfünə nail olduğum üçün idi.

Uzaq səyahətlərə çıxdığımız zaman kareta məni yorduqda, at üstündə gedən xidmətçi mənim qutumu kəmərinə bənd edib, onu qarşısında bir yastığın üstünə qoyardı. Beləliklə, mən pəncərədən ətrafa tamaşa edə bilirdim. Qutunun içində mənim səfər yatacağım, tavandan asılmış yelləncəyim, at və kareta hərəkət etdiyi zaman aşmamaq üçün yerə bənd edilmiş bir stol və iki stulum vardı. Köhnə bir dənizçi olduğum üçün, yoldakı silkələnmə – bəzən çox şiddətli olsa da – məni bir o qədər də narahat etmirdi.

Hər dəfə şəhərə tamaşa etmək istədikdə, mən öz yol kabinəmə girərdim. Qlyumdalkliç onu öz dizi üstə qoyub, açıq taxt-rəvana oturardı və bu ölkədəki adət üzrə taxt-rəvanı dörd adam, kraliçanın iki nökərinin müşayiətilə aparardı. Mənim barəmdə kifayət qədər eşitmiş

camaat həmişə taxt-rəvanın ətrafına yığışardı. Onda qız bizi aparanları dayandırıb, məni əlində yuxarı qaldırardı ki, maraqlananlar rahat görə bilsinlər.

Mən baş ibadətgahı və xüsusən, onun üstündə ucalan və bütün krallıqda ən hündür sayılan qülləni çox görmək istəyirdim. Nəhayət, bir dəfə dayəciyim mənimlə birlikdə onun lap təpəsinə çıxdı. Ancaq, açıqca etiraf edirəm ki, mən evə məyus qayıtdım. Qüllənin özülündən təpəsinə qədər, hündürlüyü üç min futdan artıq deyildi. Avropalı ilə yerli adamın boyu arasındakı fərqi nəzərə aldıqda, bu ucalıq çox da təəccüblü bir şey deyildi. Əlbəttə, ciddi desək, hər iki qülləni tikən adamların boyuna nisbətən bu güllə *Solsberi kilsəsinin zəng qülləsindən xeyli alçaqdır**. Lakin bu qədər minnətdar olduğum bir millətin istedadını əsla kiçiltmək istəmirəm. Buna görə, məmnuniyyətlə söyləyirəm ki, bu güllə nisbətən alçaq olsa da, onun müstəsna gözəlliyi və möhkəmliyi diqqətçəkəndir. Onda təxminən yüz fut qalınlığında olan divarları yonulmuş daşdan tikilmişdir. Bu daşlardan hər biri qırx kub futa bərabərdir. Divarlardakı tağların içində allahların və imperatorların təbii böyüklükdən artıq olan mərmər heykəlləri ucalır. Qüllənin yanında olan zibilliyə heykəllərdən birinin sınmış çeçələ barmağı düşmüşdü. Mən onu ölçüb gördüm ki, uzunluğu dörd fut bir düymdür. Qlyumdalkliç bu qırıntını əl yaylığına büküb cibinə qoydu. Bütün başqa uşaqlar kimi, o da əyləncəli şeyləri xoşlayır və böyük həvəslə toplayırdı.

Kralın mətbəxi altı yüz fut ucalıqda tağları olan, doğrudan da, əzəmətli bir binadır. Onun baş ocağının eni müqəddəs *Pavel kilsəsinin günbəzindən** yalnız onca addım azdır; bu günbəzi mən İngiltərəyə qayıtdıqdan sonra qəsdən ölçdüm. Ancaq elə bilirəm ki, bu mətbəxdəki raşperləri[1], hədsiz dərəcədə yekə olan güvəcləri, qazanları və sair nəhəng qab-qacağı təsvir etsəm, heç kəs sözlərimə inanmaz. Amansız tənqidçilər yəqin güman edəcəklər ki, bütün səyyahlar kimi mən də bir qədər mübaliğə edirəm. Ancaq, eyni zamanda, qorxuram ki, mübaliğə töhmətindən çəkinməyə çalışarkən, başqa bir ifrata varım. Ehtimal ki, bu qeydlərim bir zaman Brobdinqneq dilinə (Brobdinqneq bu krallığın adıdır) tərcümə ediləcəkdir. Mən heç istəməzdim ki, kral və onun təbəələri, onların ölkəsi haqqında yanlış və kiçildilmiş şəkildə məlumat verdiyim üçün məndən inciməyə haqları olsun.

[1] *Raşper* – ət qovrulan qab

Əlahəzrət kralın tövlələrindəki atların sayı altı yüzdən artıq olmur. Onların boyu əlli dörddən altmış futa qədərdir. Təntənəli mərasim zamanı kralı beş yüz atlıdan ibarət qvardiya müşayiət edir. Uzun zaman mənə elə gəlirdi ki, bundan daha dəbdəbəli və əzəmətli bir mənzərə ola bilməz. Ancaq kral ordusunu tam hərbi nizam halında gördüyüm zaman, bu fikrimi dəyişməli oldum.

BEŞİNCİ FƏSİL

Müəllifin başına gələn müxtəlif macəralar. Onun dənizçilik məharətini nümayiş etdirməsi.

Əgər boyuma görə başıma cürbəcür gülməli və kədərli macəralar gəlməsəydi, mənim buradakı həyatım çox xoşbəxt sayıla bilərdi. Bu macəralardan bəzilərini oxuculara nəql etməyi münasib bilirəm.

Qlyumdalkliç məni tez-tez səfər qutusunun içində sarayın bağçasına çıxarırdı. Bəzən o, məni qutudan götürüb əlində tutur və ya yerə qoyurdu. Bir dəfə, hələ kraliçanın cırtdanı sarayda yaşadığı zamanlarda, o da bizim ardımızca bağa gəldi. Dayəciyim kiçik alma ağacları yanında məni yerə düşürtdü. Cırtdan da orada durmuşdu. Bunu görəndə, özümü saxlaya bilməyib zarafatla dedim ki, ağaclar da cırtdanla bir boydadır. Bunun əvəzində kinli təlxək, mən bir ağacın altından keçəndə fürsət tapıb, onu silkələdi, hərəsi bir çəllək boyda olan ona qədər alma başıma töküldü, onlardan biri belimə düşüb məni yerə yıxdı. Üzüqoylu yerə sərildim. Xoşbəxtlikdən heç yerim zədələnmədi. Cırtdan bu dəcəlliyi üçün cəza almadı. Ona əvvəlcə mən özüm sataşdığımdan, bağışlanması üçün çalışdım.

Bir dəfə də Qlyumdalkliç öz mürəbbiyəsi ilə harasa gedib, məni bağın çəmənliyində tək qoymuşdu. Birdən dəhşətli dolu yağmağa başladı, həmin saat yerə sərildim və hərəsi tennis topu boyda olan dolular məni o ki var döyəclədi. Böyük bir çətinliklə imək-ləyə-imək-ləyə gəlib, kolların dibində gizləndim. Ancaq dolu məni elə əzişdirmişdi ki, on gün yatmalı oldum. Burada təəccüblü bir şey yoxdur; çünki buradakı dolu bizim Avropada olan dolulardan min səkkiz

yüz dəfə böyükdür. Mən bunu təcrübə əsasında təsdiq edə bilərəm; çünki maraqlandığımdan, oradakı dolu dənələrini ölçmüş və çəkmişdim.

Həmin o bağçada mənim başıma daha təhlükəli başqa bir iş gəlmişdi. Mən çox zaman düşüncə və xatirələrimə dalmaq üçün tək qalmaq istəyirdim. Belə hallarda dayəmdən bağçanın sakit və təhlükəsiz bir guşəsində məni tək buraxmasını xahiş edərdim. Bir dəfə Qlyumdalkliç məni bağçaya aparmışdı, orada məni tam sərbəst buraxıb, mürəbbiyəsi və başqa tanış xanımlarla bağın başqa bir guşəsinə getmişdi, oradan mənim səsimi eşidə bilməzdi. Dayəm yanımda olmadığı zaman, bağbanlardan birinin ov tulası təsadüfən bağa girib, uzandığım yerin yanından keçirdi. Tula mənim iyimi duydu. Üstümə yüyürdü. Məni dişinə alıb sahibinin yanına apardı və quyruğunu bulaya-bulaya məni yavaşca yerə qoydu. Xoşbəxtlikdən tula yaxşı öyrədilmiş olduğundan, məni elə ehtiyatla apardı ki, nə bədənimi yaraladı, nə də paltarımı cırdı. Yazıq bağban məni çox yaxşı tanıyırdı və yaman qorxuya düşmüşdü. O, məni ehmalca iki əliylə qaldırıb, özümü necə hiss etdiyimi soruşdu. Bu gözlənilməz hadisədən özümü elə itirmişdim ki, dilim tutulmuşdu, buna görə bircə kəlmə də cavab verə bilmədim. Bir neçə dəqiqədən sonra özümə gəldikdə, bağban məni sağ-salamat öz dayəciyimin yanına apardı. O da artıq qayıdıb gəlmiş və böyük bir həyəcanla məni axtarıb səsləyirdi. Dayəm, tulanın üstündə bağbanı danladı. Ancaq biz bu hadisəni kimsəyə bildirmədik. Qlyumdalkliç kraliçanın qəzəbindən qorxurdu. Mən isə, açığı bu əhvalatda rolum çox da yaxşı olmadığından, bu söhbəti sarayda açmaq istəmirdim.

Bu hadisədən sonra Qlyumdalkliç gəzinti zamanı məni bir dəqiqə də gözdən qoymamağı möhkəm qərara aldı. Mən belə bir qərardan çoxdan qorxduğum üçün o, yanımda olmayan zaman başıma gələn xırda işləri ondan gizlədirdim. Bir dəfə bağçanın üzərində süzən bir çalağan üstümə şığımışdı. O, yəqin ki, məni caynağına alıb aparacaqdı. Ancaq mən cürətlə, xəncərimi çəkib qoruna-qoruna qalın bir kolun altına qaçdım. Bir dəfə də mən yenicə eşilmiş bir kor siçan yuvasının üstünə çıxıb, boğazıma qədər yuvanın içinə düşmüşdüm. Paltarımın xarab olmasının səbəbini izah etmək üçün qəribə bir əhvalat uydurmuşdum ki, bunu da danışmağa dəyməz. Bir dəfə bağçanın xiyabanında təkbaşına gəzə-gəzə, öz zavallı

vətənim İngiltərəni yad edərkən, bir ilbiz qabığına ilişib yıxılaraq, sağ ayağımı sındırmışdım.

Bağda tək gəzdiyim zamanlarda ləzzət aldığımı və ya həqarət duyduğumu söyləməyə çətinlik çəkirəm. Hətta ən kiçik quşlar da məni gördükdə ürkmürdülər. Onlar məndən bircə yard aralı atılıb-düşür və xırdaca qurdları, kəpənəkləri elə bir asudəliklə tuturdular ki, guya yaxınlarında heç bir kəs yox idi. Bir dəfə bir qaratoyuq quşu həyasızlıq edib, Qlyumdalkliçin mənə yeməyə verdiyi bir qoğal parçasını əlimdən qapmışdı. Mən xırdaca quşlardan birini tutmaq istədikdə, o cürətlə mənə sarı dönüb, barmağımı dimdikləmək istəyir, sonra da heç bir şey olmamış kimi, yenə xırdaca qurdları və ilbizləri ovlamağa başlayırdı. Ancaq bir dəfə mən yoğun bir ağac parçası götürüb var gücümlə xırdaca bir kətanquşuna atdım. Zərbəni elə məharətlə endirdim ki, quş ölü kimi yerə sərildi. Mən ikiəlli onun boğazından yapışıb, sevinclə dayəmin yanına yüyürdüm. Sən demə, quş huşunu itiribmiş, birdən o özünə gəldi və şiddətlə əlimdə çapalamağa başladı. O, qanadları ilə mənim başıma və bədənimə elə zərbələr endirirdi ki, az qala, onu əlimdən buraxacaqdım. Xidmətçilərdən biri mənə köməyə gəlib, quşun boğazını üzdü. Kraliçanın əmrilə ertəsi günü həmin quşu mənim üçün nahara bişirdilər. Yadımda qaldığına görə, həmin quş bizim qu quşundan yekə idi.

Kraliça mənim öz vətənimçün çox darıxacağımdan narahat olub, məni əyləndirmək üçün hər bir fürsətdən istifadə edirdi. O mənim dəniz səyahətlərim haqqındakı söhbətlərimi çox eşitmiş olduğundan, bir dəfə məndən yelkənli və avarlı qayıq sürə bilib-bilmədiyimi və avar çəkməklə məşğul olarsam, səhhətim üçün bunun daha da yaxşı olub-olmayacağını soruşdu. Mən cavab verdim ki, həm yelkənli, həm də avarla sürülən qayıqları çox gözəl idarə edə bilirəm, sənətim həkimlik olsa da, gəmidə təhlükəli zamanlarda dəfələrlə dənizçi kimi işləməli olmuşam. Ancaq əsla başa düşə bilmirdim ki, kraliçanın arzusu necə yerinə yetirilə bilərdi. Bu ölkədə ən balaca qayıq, bizim birinci dərəcəli hərbi gəmidən kiçik deyildi. Mənim sürə biləcəyim gəmini isə burada ən kiçik çay axıdıb apara bilərdi. Onda əlahəzrət kraliça dedi ki, kralın dülgəri mənim rəhbərliyim ilə mənə yarayan bir qayıq düzəldə bilər və qayıqla üzmək üçün xüsusi bir hovuz hazırlatdırar. Çox mahir bir usta olan

dülgər, mənim göstərişimlə on günün içində, bütün ləvazimatı olan oyuncaq bir gəmi düzəltdi. Bu qayıq səkkiz nəfər avropalıya rahatca davam gətirə bilərdi. Qayıq hazır olanda kraliça o qədər sevindi ki, həmin saat onu krala göstərməyə apardı. Kral onu yoxlamaq üçün su ilə dolu bir ləyənə buraxmağı əmr etdi. Ancaq ləyən çox dar olduğundan, mən kürək çəkə bilmədim. Kraliçanın fikrində başqa şey vardı. O, dülgərə əmr etdi ki, uzunu üç yüz, eni əlli və dərinliyi səkkiz fut olan taxta təknə düzəltsin. Sızmamaq üçün bu qutunu yaxşıca qatranladılar və sarayın otaqlarından birində divarın dibinə qoydular. Köhnəlmiş suyu açıb buraxmaq üçün təknənin dibində bir deşik var idi və iki nəfər xidmətçi onu yarım saata su ilə asanca doldura bilərdi. Mən bu hovuzun içində həm özüm ləzzət almaq, həm də kraliçanı və onun yanındakı xanımları əyləndirmək üçün tez-tez avar çəkərdim, onlar da mənim bu məharət və zirəkliyimə baxmaqdan çox xoşlanardılar. Bəzən mən yelkənləri qaldırardım, xanımlar da öz yelpikləri ilə külək əmələ gətirərdilər. Onlar yorulanda, xidmətçi oğlanlar yelkənlərə üfürərdilər və mən əsl bir gəmiçi kimi məharətlə ya küləyə qarşı, ya da yanı küləyə gəmini sürərdim. Gəzintidən sonra Qlyumdalkliç qayığı öz otağına aparıb qurutmaq üçün mıxdan asardı.

Bir dəfə bu gəzinti zamanı elə bir hadisə baş verdi ki, az qala, mən həlak olacaqdım. Xidmətçi oğlan qayığı təknəyə buraxdıqdan sonra Qlyumdalkliçin mürəbbiyəsi məni nəvazişlə qaldırdı ki, qayığa oturtsun. Necə oldusa, onun barmaqları arasından sürüşərək az qaldı qırx fut hündürlükdən yerə yıxılım; ancaq xoşbəxt bir təsadüf nəticəsində xilas oldum. Yıxılarkən, mən bu mehriban xanımın korsajına sancılmış iri bir sancağa ilişdim. Sancağın başı mənim köynəyimlə şalvarımın kəməri arasına keçdi və mən havadan asılı qaldım. Həmin bu dəqiqədə Qlyumdalkliç mənə köməyə yetişdi.

Bir dəfə də, təknənin suyunu hər üç gündən bir dəyişməli olan xidmətçi vedrənin içinə su ilə bərabər iri bir qurbağa düşdüyünü görməyibmiş. Qurbağa təknənin dibində gizlənmişdi. Ancaq mən qayığın içində suyun ortasına çatdığım zaman o sudan çıxıb, qayığa dırmanmaq istədi və qayığı şiddətlə bir yanı üstə əydi. Qayığın çevrilməməsi üçün, mən bütün ağırlığımla qayığın o biri kənarını basdım. Qurbağa başımın üstündə skamyadan-skamyaya atılaraq, üzümü və paltarımı üfunətli, yapışqan kimi bir maddəyə buladı.

O mənə, insanın təsəvvür edə biləcəyi ən kifir və iyrənc bir heyvan kimi görünürdü. Bununla bərabər, Qlyumdalkliçdən xahiş etdim ki, qurbağanın öhdəsindən gəlməyi mənim ixtiyarıma versin. Nəhayət, ona bir neçə şiddətli avar zərbəsi vurduqdan sonra, qurbağa qayıqdan suya atılmağa məcbur oldu.

Ancaq bu krallıqda mənim başıma gələn macəralardan ən qorxulusu kralın mətbəxində işləyən bir qulluqçunun meymunu ilə olan əhvalat idi. Qlyumdalkliç harasa işə və ya qonaqlığa gedərək, məni öz otağında tək qoyub qapını bağlamışdı. Hava isti olduğundan həm otağın, həm də mənim qutumun pəncərələri və qapısı açıq idi. Mən sakitcə, stolumun arxasında oturub fikrə getmişdim. Birdən kiminsə pəncərədən Qlyumdalkliçin otağına atıldığını gördüm. Mən çox qorxdum, lakin bununla belə başımı pəncərədən çıxarıb baxmağa cürət etdim.

Mən bir meymun gördüm. O, otağın içində atılıb-düşür, oynayırdı. Meymun mənim qutuma rast gələn kimi böyük bir maraqla onun bütün pəncərə və qapılarına baxmağa başladı. Bu qorxunc heyvanı gördükdə, mən otağımın ən uzaq bir bucağına çəkildim. Özümü elə itirmişdim ki, çarpayının altına girib gizlənmək ağlıma da gəlməmişdi. Meymun tezliklə məni gördü. Ağız-burnunu əyib, qışqıra-qışqıra pəncəsini qapıdan uzadaraq, məni tutmağa çalışdı. Mən onun əlinə keçməmək üçün nə qədər o künc-bu küncə qaçmağa çalışdımsa da, bir şey çıxmadı. O, çevik bir hərəkətlə möhkəm ipək parçadan tikilmiş kaftanımın ətəyindən yapışıb, məni bayıra çəkdi. Sağ əlinin pəncəsilə məni tutub, dayə uşağı tutan kimi bağrına basdı. Mən özüm vətənimdə meymunların pişik balalarını belə tutduqlarını görmüşdüm. Müqavimət göstərmək istəyəndə o, məni elə bərk sıxdı ki, ona tabe olmağı daha ağıllı bir hərəkət hesab etdim. Çox ehtimal ki, o, məni öz cinsinə mənsub bir meymun balası hesab edirdi. Hər halda, məni sol pəncəsi ilə zərif-zərif tumarlamağa başladı. Açılan qapının gurultusu onun bu nəvazişinə mane oldu. Meymun həmin saat pəncərəyə atıldı və oradan su boruları vasitəsilə qonşu binanın damına dırmaşdı. Meymun məni götürüb qaçdığı zaman mən Qlyumdalkliçin çığırtısını eşitdim. Yazıq qız az qalmışdı ki, dəli olsun; saraydakılar hamı bir-birinə dəymişdi; xidmətçilər nərdivan gətirməyə yüyürüşdülər. Yüzlərcə adam həyətə yığışıb, gözlərini damın lap dik yerində oturmuş meymuna zilləmişdi. O, bir pəncəsilə məni körpə

kimi tutub, o biri pəncəsilə çənəsi altındakı kisəcikdən çıxartdığı yeməli şeyləri ağzıma tıxayırdı. Bunları yemək istəmədikdə, o məni yumruqlayırdı. Aşağıda yığışmış olan həyət adamları bu mənzərəyə tamaşa edərək, qəhqəhə ilə gülüşürdülər. Mənə elə gəlir ki, bunun üçün o adamları çox da məzəmmət etmək olmaz. Bu mənzərə, şübhəsiz ki, məndən başqa hamı üçün əyləncəli idi. Yığışanlardan bəziləri meymunu qovmağa çalışaraq, ona daş atmağa başladı. Ancaq saray polisi daşlardan birinin mənə dəyə biləcəyindən ehtiyat edib, bunu qəti surətdə qadağan etdi.

Nərdivanlar qoyuldu və bir neçə adam dama çıxdı. Meymun özünü hər tərəfdən əhatə edilmiş görcək, məni damın ən dik yerində qoyub qaçdı. Mən yerdən üç yüz yard hündürlükdə qalmışdım, hər dəqiqə gözləyirdim ki, ya külək vurub salacaq, ya da özüm buradan aşağı diyirlənəcəyəm.

Xoşbəxtlikdən, dayəmin xidmətçisi olan qoçaq bir oğlan dama çıxdı, məni şalvarının cibinə qoyub, sağ-salamat aşağı düşdü.

Mən, meymunun ağzıma tıxadığı zirzibildən boğulurdum. Mehriban dayəciyim iynə ilə ağzımı təmizlədi. Mən qusdum və sonra özümü xeyli yüngülləşmiş hiss etdim. Ancaq o murdar heyvan məni elə əzişdirmişdi ki, azarlayıb on beş gün yataqda yatdım.

Kral, kraliça və bütün saray adamları hər gün mənim səhhətimdən xəbər tuturdular. Xəstəliyim zamanı əlahəzrət kraliça bir neçə dəfə mənə baş çəkməyə gəldi. Meymunu öldürdülər və qəti surətdə əmr edildi ki, belə heyvanlar sarayda saxlanılmasın.

Sağaldıqdan sonra mən, göstərdiyi mehribanlığa görə, təşəkkür etmək üçün kralın hüzuruna getdim. Əlahəzrət kral mənim başıma gələn macəra münasibətilə xeyli zarafat etmək lütfündə oldu. O mənim, meymunun pəncəsində olduğum zaman ağlıma nə kimi fikirlər gəldiyini, onun verdiyi yeməklərin və bunu necə bir əda ilə verdiyinin xoşuma gəlib-gəlmədiyini, damdakı təmiz havanın iştahama necə təsir etdiyini soruşdu. Əlahəzrət kral, lütfən soruşdu ki, belə hal vətənimdə başıma gəlsəydi, nə edərdim. Bu sualların müqabilində mən əlahəzrət krala cavab verdim ki, Avropada meymun yoxdur. Onları Avropaya başqa ölkələrdən qəribə bir şey kimi gətirirlər və onlar o qədər xırdadırlar ki, bir düjünü də üstümə düşsə, onlarla bacararam. Yəqin ki, mən qorxudan və qəflətən baş verən bu hadisədən özümü itirməmiş olsaydım, bu nəhəng ilə də

(meymun fildən kiçik deyildi) bacarardım. O, pəncəsini otağıma uzatdığı zaman, qılıncımla onu vurub elə yaralardım ki, qaçıb qurtulmağına özü də şad olardı. Bu sözləri söyləyərkən, öz cürətindən şübhələnməyə yol verməyən bir adam kimi, mən döyüş vəziyyəti alıb, əlimi qılıncımın dəstəsinə atdım. Lakin sarayda olanlar əlahəzrət krala göstərdikləri bütün hörmətə baxmayaraq, qəhqəhə çəkib mənim bu sözlərimə gülməkdən özlərini saxlaya bilmədilər. Bundan mən belə kədərli bir nəticə çıxartdım ki, bizdən xeyli uca olan adamların hörmətinə nail olmağa çalışmaq əbəsdir. Sözarası deyim ki, İngiltərəyə qayıtdığım zaman, rəftarları zahirən mənim nəhənglər ölkəsindəki rəftarıma çox bənzəyən adamlara dəfələrlə rast gəldim. Görürsən ki, heç bir ləyaqət və qabiliyyəti olmayan sarsağın biri, bəzən özünü çəkir və dövlətin ən böyük adamları ilə bərabərləşməyə can atır.

Mən hər gün sarayda şən gülüşlərə səbəb olurdum. Qlyumdalkliçin mənə incə bir məhəbbət bəslədiyinə baxmayaraq, ülyahəzrət kraliçanı əyləndirəcəyini güman etdiyi hərəkətlərim barədə ona danışmaq fürsətini əldən verməzdi. Bir dəfə qız xəstələndi və mürəbbiyəsi onu təmiz hava almaq üçün saraydan otuz mil qədər kənara apardı. Kareta, bir tarlanın ortasından keçən cığırın kənarında Qlyumdalkliç mənim səfər qutumu yerə qoydu və mən gəzməyə çıxdım. Yolda bir mal təzəyi vardı. Mən öz çevikliyimi yoxlamaq üçün onun üstündən hoppanmaq istədim. Mən yüyürdüm, ancaq bədbəxtlikdən uzun məsafəyə tullana bilməyib düz təzəyin ortasına düşdüm və dizimə qədər onun içinə batdım. Çox çətinliklə kənara çıxa bildim. Nökərlərdən biri cib yaylığı ilə mənim bulaşmış paltarımı silib təmizlədi. Qlyumdalkliç isə daha evə qayıdana qədər məni qutudan bayıra buraxmadı.

Bu hadisəni həmin saat kraliçaya danışdılar, nökərlər isə bunu bütün saraya yaydılar, belə ki, bir neçə gün mən hamının gülüş hədəfi oldum.

ALTINCI FƏSİL

Kral və kraliçanı əyləndirmək üçün müəllifin cürbəcür vasitələr düşünməsi. Onun öz musiqi qabiliyyətini nümayiş etdirməsi. Kralın Avropadakı ictimai quruluşla maraqlanması. Müəllifin danışdığı şeylər barədə kralın mülahizələri.

Adət üzrə, mən həftədə bir-iki dəfə kralın səhər tualetində iştirak edər və bərbərin onun üzünü necə qırxdığını görərdim. Əvvəlcə bu, məni qorxuya salırdı; çünki onun ülgücü bizim dəryazdan, demək olar ki, iki dəfə böyük idi. Əlahəzrət kral, ölkənin adətlərinə görə, həftədə yalnız iki dəfə üzünü qırxdırardı. Bir dəfə bərbərdən xahiş etdim ki, sabun köpüklərini mənim üçün yığsın, mən köpüyün içindən qırxəlliyə qədər ən yoğun tükü çəkib çıxartdım. Sonra ən nazik bir talaşa tapıb, onu daraq beli kimi yondum və Qlyumdalkliçin iynələrinin ən naziyi ilə taxtada bir cərgə dəlik açdım. Tüklərin ucunu cib bıçağımla kəsib yonaraq, bu dəliklərə keçirdim. Xeyli yararlı bir daraq düzəltdim. Bu təzə daraq çox yerinə düşdü; çünki darağımın dişləri sınmışdı. Buradakı ustalardan heç biri mənim üçün daraq düzəldə bilmirdi.

Bununla əlaqədar, mənim ağlıma çox qəribə bir fikir gəldi. Bunu həyata keçirmək üçün xeyli vaxt və zəhmət sərf etməli oldum. Kraliçanın otaq xidmətçisindən xahiş etdim ki, ülyahəzrət kraliçanın başını daradığı zaman tökülən saçlarını yığıb, mənim üçün saxlasın. Tədricən məndə xeyli saç toplandı. Bütün xırda sifarişlərimi yerinə yetirmək əmri almış dostum dülgərə tapşırdım ki, yataq otağımdakı stullar boyda iki stul düzəldib, oturacağı və söykənəcəyinin dövrəsində ən nazik bizlə dəliklər açsın. Mən ən möhkəm saçları bu dəliklərdən keçirib, bizdə qamışdan hörmə stullar kimi onları hördüm. İşimi qurtardıqdan sonra stulları kraliçaya bağışladım. O, həmin stulları öz qəbul otağına qoyub, nadir bir əşya kimi hamıya göstərirdi. Kraliça mənim bu stullardan birinə oturmağımı arzu etdisə də, mən qəti surətdə razı olmadım və dedim ki, vaxtilə ülyahəzrət kraliçanın başını bəzəmiş bu qiymətli saçların üstündə oturmaqdansa, ölməyə razıyam. Həmin bu saçlardan mən beş futa qədər uzunluğu olan kiçik və zərif bir pul kisəsi toxudum və ülyahəzrət

kraliçanın adının baş hərflərini zərlə bu kisənin üstünə nəqş etdim. Kraliçanın razılığı ilə bu kisəni Qlyumdalkliçə bağışladım. Doğrusu, bu kisə yalnız tamaşa üçün toxunmuşdu. Ondan istifadə etmək olmazdı; çünki o buranın iri pullarının ağırlığına davam gətirməzdi. Buna görə də Qlyumdalkliç oraya yalnız qızların çox xoşladıqları xırdaca oyuncaqları qoyardı.

Kral musiqini xoşlayırdı, odur ki, sarayda tez-tez konsertlər verilərdi. Bəzən mən də bu konsertlərə gedərdim. Mənim qutumu konsert salonuna gətirib, stolun üstünə qoyardılar. Ancaq orkestr elə gurultu ilə çalırdı ki, mən havaları zorla seçə bilərdim. Əminəm ki, ingilis ordusunun bütün şeypur və təbilçilərinin hamısı birdən çalsaydılar da, belə bir gurultu qopara bilməzdilər. Konsert zamanı mən çalanlardan mümkün qədər uzaq olmağa çalışıb, qutumun bütün pəncərə və qapılarını örtər, pərdələrini salardım. Yalnız beləliklə, onların musiqisindən bir zövq ala bilərdim.

Gəncliyimdə mən spinet çalmağı öyrənmişdim. Qlyumdalkliçin otağında da belə bir musiqi aləti var idi. Həftədə iki dəfə müəllim ona dərs verməyə gələrdi. Mən bu aləti, hər şeydən əvvəl, ona görə spinet adlandırıram ki, onu da spinet kimi çalırlar. Başıma belə bir fikir gəldi ki, həmin bu alətdə ingilis havaları çalmaqla, kral və kraliçanı əyləndirim. Ancaq bu çox çətin və mürəkkəb bir iş idi. Alətin uzunluğu altmış futa yaxın olub, hər dilinin eni bir fut idi. Hər iki qolumu açdıqda, mənim əlim ancaq beş dilə çatırdı, hər dili çalmaq üçün isə, mən var gücümlə yumruq vurmalı idim. Məlum şeydir ki, iş belə olduqda, mən bərk yorğunluqdan başqa heç bir nəticə əldə edə bilməzdim. Bir qədər fikirləşib, iki dəyirmi ağac düzəltdim, bunların bir ucu o birindən nazik idi. Yoğun uclarına siçan dərisi çəkdim ki, korlanmasın və zərbələrin səsi batsın. Spinetin qarşısına dillərdən dörd fut qədər alçaq olan uzun bir skamya qoydular. Mən bu skamyanın üstündə o baş-bu başa qaçıb, ağaclarla dilləri çalırdım. Beləliklə, mən ciqa[1] havasını çala bildim və bu, əlahəzrətin çox xoşuna gəldi. Ancaq bu mənim üçün ən yorucu bir bədən hərəkəti idi. Bununla bərabər, nə qədər cidd-cəhd etdimsə də, havanı spinetin yalnız on altı dilində çala bildim... Eyni bir vaxtda hər iki açarda – həm bas, həm də diskantda – çalmaq mənim üçün mümkün deyildi və aydındır ki, bu çalmağıma xeyli zərər verirdi.

[1] *Ciqa* – İngiltərədə dənizçilərin rəqsidir.

Xatırlatdığım kimi, kral çox ağıllı və hər şeylə maraqlanan bir adam idi. O, tez-tez məni qutunun içində öz kabinetinə apartdırırdı. Sonra o, qutudan stul götürməmi təklif edib, məni özündən üç yard qədər aralı olan kamodun üstündə, demək olar ki, öz üzü ilə bir ucalıqda qoyub mənimlə uzun-uzadı söhbət edərdi. Bir dəfə mən cürətlənib ona söylədim ki, Avropaya və qalan bütün aləmə hərarətli bir münasibət göstərməsi, nəcib ağlının yüksək keyfiyyətlərinə uyğun deyildir. Axı zehni qabiliyyət bədənə mütənasib olaraq artmır. Əksinə, bizim ölkədə ən uca boylu adamlar çox zaman zehni inkişaf cəhətdən başqalarından geri qalmış olurlar. Sözümə davam edərək dedim ki, bu da diqqətəlayiqdir ki, heyvanlar içərisində arılar və qarışqalar ən fərasətli, məharətli və ağıllı həşərat kimi şöhrət qazanmışdı. Amma onlar heç də məxluqatın ən iriləri deyildir. Mənə gəlincə, kralın nəzərində nə qədər heç yerində olsam da, ümid edirəm ki, gec və ya tez ona böyük xidmət göstərməyə müvəffəq olacağam. Kral mənim sözlərimi böyük bir diqqətlə dinlədi. Ümumiyyətlə, bu söhbətdən sonra kralın mənim barəmdəki fikri yaxşılığa doğru xeyli dəyişdi. Bir dəfə o məndən xahiş etdi ki, İngiltərənin necə və hansı qanunlar əsasında idarə olunduğunu ona mümkün qədər ətraflı və dürüst nağıl edim. O əlavə etdi: "Zira padşahlar öz ölkələrinin adətlərinə həmişə nə qədər çox möhkəm əməl etsələr də, mən başqa məmləkətlərdə təqlidəlayiq bir şey görsəm, çox şad olaram".

Ah, o zaman mən öz əziz vətənimin əzəmət, qüdrət və nailiyyətlərini ona layiq sözlərlə şöhrətləndirə bilmək üçün *Demosfen və ya Siseron** kimi gözəl bir natiq olmağı nə qədər böyük bir həvəslə arzu edirdim.

Hər şeydən əvvəl mən əlahəzrət krala söylədim ki, bizim dövlət iki adadan ibarət krallıqdır[1]. Bunlara bizim Amerikada olan müstəmləkələri də əlavə etmək lazımdır. Mən bizim torpağın bərəkətli və iqlimimizin mülayim olması barədə xeyli ətraflı danışdım. Sonra bizim iki palatadan ibarət parlamentimizin quruluşunu təfsilatı ilə nağıl etdim.

*Şərəfli perlər palatasına** ən məşhur nəsildən olan, ən qədim və böyük torpaq sahibləri toplaşırlar. Mən kralın və kraliçanın iştirak edən və hökmləri qəti olan ali məhkəmə üzvləri kimi gələcək perlərin təlim-tərbiyəsi işinə necə böyük bir qayğı göstərildiyini ona təsvir etdim. Bun-

[1] Böyük Britaniya və İrlandiya

lar həmişə öz padşah və vətənlərinin müdafiəsinə hamıdan əvvəl hazır olan kübar, nəcib və sədaqətli əsgərlərdir.

Mən sözümə davam edib dedim ki, bu adamlar krallığın zinəti və istinadgahıdırlar. Onlar öz məşhur dədə-babalarının ləyaqətli varisləri olub, onların öz şəxsi şücaətləri sayəsində qazandıqları bütün hörmətlərdən daim istifadə edirlər. Bu yüksək məclisin tərkibinə həmçinin yepiskop rütbəsində olan müəyyən miqdarda ruhanilər də daxildirlər. Onların vəzifəsi dini geniş yaymaq qayğısına qalmaq və dini həqiqətləri xalqa təlqin edənlərə nəzarət yetirməkdir. Kral və onun ağıllı müşavirləri yepiskopluğa, şəxsi həyatlarında qüdsiyyətə ən çox riayət edən və dərin məlumat sahibi olan ruhaniləri seçirlər. Buna görə onlar, doğrudan da, bütün ruhanilərin və xalqın mürəbbiləri və mənəvi atalarıdırlar.

Mən davam edib dedim ki, parlamentin o biri hissəsi nümayəndələr palatası adlanan məclisdən ibarətdir. Bu məclis birinci dərəcəli centlmenlərdən təşkil olunur. Onları xalq özü nüfuzlu və varlı təbəqənin üzvlərindən *azad* bir surətdə seçir.

Tamamilə məlum bir şeydir ki, xalq onları yalnız böyük qabiliyyət və doğma vətənə olan məhəbbətlərinə görə, bütün millətin zəkasını təmsil etmək üçün seçir, buna görə də hər iki palata Avropada ən əzəmətli bir məclis sayılır. Bütün qanunvericilik işləri kral ilə birlikdə onlara tapşırılmışdır.

Bundan sonra mən bizim həqiqi zəka sahibləri olan və qanunu şərh edən möhtərəm hakimlərimiz tərəfindən idarə olunan məhkəmə palatalarının təsvirinə keçdim ki, mübahisəli məsələlərin həll edilməsi, pis hərəkətlərin cəzalanması və günahsızların qorunması bu zatlara tapşırılmışdır. Maliyyə işlərinin səliqə ilə idarə olunmasından və ordumuzun həm quruda, həm də dənizdə göstərdiyi qəhrəmanlıqlarından danışdım. Ölkəmizin əhalisinin ümumi miqdarını göstərib, bunlardan hər bir dini təriqətə və hər bir siyasi partiyaya neçə milyon adamın mənsub olduğunu dedim. Həmçinin ingilislərin oyun və əyləncələrindən də danışdım və ümumiyyətlə, öz mülahizəmə görə, vətənimin əzəmətini göstərə biləcək heç bir şeyi yaddan çıxarmadım. Verdiyim məlumatı İngiltərənin son yüzillik tarixinin qısaca icmalı ilə tamamladım.

Əlahəzrət krala etdiyim bu məruzə, hərəsi bir neçə saat davam edən beş görüşdə başa gəldi. Kral mənim sözlərimi çox böyük bir

diqqətlə dinləyir, bir çox şeyləri qeyd edir və mənə verəcəyi sualları hazırlayırdı.

Mən öz uzun söhbətimi qurtardıqdan sonra, altıncı görüşdə əlahəzrət kral danışdığım hər məsələ haqqında bir çox şübhələri olduğunu söylədi və mənə xeyli suallar verdi. O soruşdu ki, əyan təbəqəsinə mənsub olan gənclərin bədəni və zehni inkişafı üçün nə edilir və onlar insan üçün təsir və təlqinə ən çox əlverişli olan məktəb illərini nə kimi məşğələlərlə keçirirlər? Kral bu məsələ ilə də maraqlandı ki, məşhur bir nəslin son nümayəndəsi öldükdə, lordlar palatasında onun yerini kim tutur, kimə və hansı xidmətlərinə görə lord adı verilir? Elə bir hal olurmu ki, bu təyinlərdə kralın şəxsi arzusu və ya saraya mənsub bir xanıma, yaxud bir vəzirə, yerində və məharətlə təklif edilmiş pul, ya da ki, nəhayət, ümumi dövlət mənfəətinə zidd olaraq, bir partiyanı qüvvətləndirmək meyli baş rol oynamış olsun? Bu lordlar doğrudanmı öz ölkələrinin qanunlarını yaxşı bilirlər və ən mühüm dövlət işlərinin müqəddəratını həll edəcək dərəcədə qabiliyyətlidirlər? Onlar hamısı doğrudanmı elə müstəqil qərəzsiz adamlardır ki, şəxsi mənafelərindən uzaq olub satılmaqdan, yaltaqlıq etməkdən və məhdud partiya mülahizələrindən özlərini saxlaya bilsinlər? Lord-yepiskop olanlar bu adı həmişə dini ehkamı dərindən bilmək və ruhani həyat keçirmək sayəsindəmi qazanırlar? Görəsən onlardan heç biri adi ruhani olduğu zaman bu dünya ilə kifayətlənən adlısanlı adamların məişət tələblərinə xidmət etməmişdirmi? Bu yüksək məclisdə əyanlardan birinin evində keşişlik edib, indi də öz hamisinin itaətkar bir qulu olaraq qalan bircə nəfərdəmi yoxdur?

Sonra kral mənim nümayəndələr palatası dediyim məclis nümayəndələrinin seçilməsində nə kimi bir sistem olduğunu bilmək istədi. Məgər yerli mənafeyə tamamilə laqeyd olan, kənardangəlmə bir adam, seçiciləri dopdolu pul kisəsi sayəsində yerli əhali içərisindən göstərilmiş daha ləyaqətli bir namizəd əvəzinə özünə səs verməyə qane edə bilməzmi? Nəhayət, parlament üzvü olmaq insanı tamam sınaq çıxaracaq məsrəflər tələb etdiyi və onlara heç bir mükafat, maaş və ya təqaüd verilmədiyi halda, bu adamlar parlament üzvü olmağa nə üçün belə ehtirasla can atırlar. Belə bir fədakarlıq insandan çox böyük bir vətəndaşlıq şücaəti tələb etdiyindən, əlahəzrət kral onun səmimi olduğuna şübhələndi. Kral aydınlaşdırmaq istəyirdi ki, xalq nümayəndəsi olmağa belə canfəşanlıq edən adamların keçirdikləri

həyəcan və etdikləri məsrəf müqabilində ictimai mənafeyin zərərinə, zəif günahkar padşahın və onun əxlaqsız nazirlərinin arzularına əməl etməklə mükafat almağı ümid etmirlərmi? Kral mənə sualları verəndə, yeri gəldikcə, elə mülahizələr söyləyirdi ki, bunları təkrar etməyi *namünasib və naqabil hesab edirəm*.

Daha sonra əlahəzrət kral bizim məhkəmələrin fəaliyyəti barədə bəzi məlumat almaq arzusunda idi. Bu məsələdə onun marağını tamamilə təmin etmək çətin deyildi. Vaxtilə özüm ali məhkəmədə uzun-uzadı davam edən bir iş nəticəsində az qala müqəssir olacaqdım. Özü də elə bir şəraitdə ki, işi mən qazanmışdım və müqəssir, məhkəməyə etdiyim məsarifi mənə verməli idi. Kral soruşdu ki, məhkəmədə kimin haqlı, kimin haqsız olduğunu aşkara çıxarmaq üçün nə qədər vaxt, nə qədər məxaric lazımdır. Ədalətsiz və qeyriqanuni olduğu əvvəlcədən məlum olan bir işin vəkillər və məhkəmə işçiləri tərəfindən müdafiə edilməsinə icazə verilirmi? Məhkəməyə işi düşən adamların dini təriqətlərə və ya siyasi partiyaya mənsub olmaları hakimlərin qərar çıxarmasına təsir edirmi? Vəkillər möhkəm hüquq təhsili almağa məcburdurlarmı, yoxsa onların yerli, məhəlli və milli adət və ənənələrlə tanış olmaları kifayətdir. Həmin bu vəkillər və ya hakimlər şərh və izah etməli olduqları qanunların tərtibində iştirak edirlərmi? Heç elə hallar olurmu ki, bir işdə əvvəlcə ittihamçı sifətilə iştirak edən eyni şəxslər, sonra müdafiəçi kimi çıxış etsinlər. Bu adamlar məhkəmədə öz məsləhətləri və iş aparmaları üçün nə qədər pul alırlar? Bu adamlar aşağı palataya üzv ola bilərlərmi?

Bundan sonra kral bizim maliyyə işlərinə keçdi. O, bu fikirdə idi ki, mən dövlətin mədaxil və məxaricləriнə aid rəqəmləri söylədikdə yanılmışam; çünki mənim sözlərimə görə, dövlətin mədaxili ildə beş və ya altı milyon, məxarici isə həmin rəqəmdən çox zaman iki dəfə artıq olurmuş. Kral, sözlərindən məlum olduğu kimi, maliyyə işlərimiz barədə mənim bütün söylədiklərimi xüsusi bir diqqətlə qeyd etmişdi; çünki o, ümid edirdi ki, bizim maliyyə sistemimizlə tanış olduqda özü üçün faydalı bir nəticə çıxara bilər. Ona görə də, öz qeydlərinin yanlış olmasına yol verə bilməzdi. Lakin mənim söylədiyim rəqəmlər doğru isə, onda kral başa düşə bilmirdi ki, dövlət tək bir şəxs kimi, bu cür israflara necə yol verə bilər. O soruşurdu ki, dövlət əlavə vəsaitləri haradan alır və borcları ödəmək üçün pulu

haradan tapır. O, mənim ardı-arası kəsilməyən və çox baha başa gələn müharibələr haqqındakı sözlərimi dinlərkən heyrətə düşmüşdü. O, yəqin etmişdi ki, ya biz özümüz çox dalaşqan bir xalqıq, ya da dövrəmizdəki qonşular pis adamlardır. O qeyd etdi ki, yəqin bizim generallar krallardan dövlətlidirlər. Kral soruşurdu ki, bizim sahillərimizi donanmanın köməyilə qorumaqdan başqa nə işimiz ola bilər. Bizim – azad bir xalqın – sülh zamanında məvaciblə saxlanan müntəzəm orduya ehtiyacımız olmasına o, xüsusilə təəccüb edirdi. Kral heyrətlə soruşdu ki, əgər siz özünüzü idarə edirsinizsə, onda sizin kimdən qorxunuz ola bilər və kiminlə müharibə etməlisiniz. Kral məndən soruşdu ki, məgər ev sahibi uşaqları və öz ev adamları ilə birlikdə evini, təsadüfən küçədən tutulmuş nadürüst adamlardan daha pismi qoruya bilər?

Mən öz ölkəmizdə yaşayan əhalinin miqdarını, mövcud dini təriqətlərin və siyasi partiyalara mənsub adamların miqdarını cəmləyib təyin edərkən, kral mənim bu qəribə hesabıma (o bunu hesab adlandırmaq lütfündə olmuşdu) xeyli güldü.

Kral buna çox təəccüb etdi ki, bizim adlı-sanlı adamlarımızın və mülkədarlarımızın əyləncələri arasında mən qumar oyunlarının da adını çəkdim. O bilmək istəyirdi ki, qumarı hansı yaşdan başlayaraq oynayırlar və bu məşğələ hansı yaşa qədər davam edir. Bəzən bu qumar oyunlarına qapılmaq insanların var-yoxlarının əlindən çıxmasına səbəb olmurmu? Ona elə gəlir ki, nadürüst adamlar oyunun bütün incəliklərini öyrənib, bunun sayəsində böyük var-dövlət qazanır və cinayətlə böyük nüfuz sahibi olurlar. Eyni zamanda adlı-sanlı və hörmətli adamlar qumarbazlarla oturub-durduqda, tədricən onların da əxlaqı pozulur və uduzduqlarını qaytarmaq, yaxud udmaq üçün cürbəcür fırıldaqlara əl atmağa başlayırlar.

Ölkəmizin son yüz il içərisindəki tarixi haqqında verdiyim qısa məlumat kralı son dərəcə heyrətləndirdi. Söylədi ki, onun fikrinə görə, bu tarix acgözlük, riyakarlıq, xəyanət, amansızlıq, quduzluq, azğınlıq, nifrət, həsəd, kin və şöhrətpərəstlikdən doğan yığın-yığın sui-qəsdlər, şuluqluqlar, qətllər və dava-dalaşdan başqa bir şey deyildir.

Söhbətimizin nəticəsində əlahəzrət kral mənim bütün söylədiklərimi xülasə etmək zəhmətini öz öhdəsinə götürdü. Sonra məni ovcunun içinə alıb yavaşca oxşayaraq, heç bir zaman unuda bilməyəcəyim aşağıdakı sözləri söylədi:

"Mənim balaca dostum Qrildriq, siz öz vətəniniz barədə heyranedici bir tərif söylədiniz. Siz aydın bir surətdə sübut etdiniz ki, cəhalət, tənbəllik və cürbəcür nöqsanlar çox zaman qanunvericilər üçün ən faydalı sifətlər sayılır, qanunları çox zaman hamıdan yaxşı elə adamlar izah, şərh və təcrübədə tətbiq edirlər ki, onlar həmin qanunların təhrif edilməsindən, dolaşdırılmasından və onlara əməl edilməsindən hər kəsdən çox mənfəət güdürlər. Sizin adət və qanunlarda bəzi şeyləri ağıllı və faydalı hesab etmək olardı, ancaq bütün bunlar sonradan insanı qəzəbləndirən izahlar və uydurmalarla o qədər təhrif edilmiş, murdarlanmış və kirlənmişdir ki, bu yaxşı cəhətlərdən, demək olar ki, heç bir iz qalmamışdır. Bütün söylədiklərinizdən belə məlum olur ki, sizin ölkənizdə yüksək vəzifə sahibi olmaq üçün insanın heç bir ləyaqət sahibi olması lazım deyil. İnsanlara yüksək adlar onların öz qabiliyyət və şücaətləri sayəsində verilmir. Ruhanilər yüksək rütbəyə öz dindarlıqları və ya elmləri, hərbi adamlar öz qəhrəmanlıq və nəcabətli rəftarları, hakimlər öz yenilməzlikləri, senatorlar vətənə olan məhəbbətləri, dövlət müşavirləri isə ağıl və zəkaları sayəsində yüksək rütbə qazanmırlar. – Kral sözlərinə davam edib dedi: – Sizin önünüzə gəlincə, həyatınızın çoxunu səyahətlərdə keçirmişsiniz. Mənə elə gəlir ki, siz bu vaxta qədər ölkənizin bir çox nöqsanlı cəhətlərindən öz yaxanızı qurtarmışsınız. Ancaq sizin sözlərinizdən, eləcə də sizdən çox böyük çətinliklə qopara bildiyim cavablardan mən bu nəticəyə gəlirəm ki, sizin həmvətənlərin çoxu bu vaxta qədər dünya üzündə sürünən bütün murdar heyvanların ən murdarı və ən zəhərlisi olan xırda-xuruş heyvanlardan ibarətdir".

YEDDİNCİ FƏSİL

Müəllifin öz vətəninə məhəbbəti. Onun krala çox faydalı bir təklif etməsi və kralın bundan imtina etməsi. Kralın siyasət işlərindən əsla baş çıxarmaması. Bu ölkədə maarif məsələsi. Ölkənin qanunları, hərbi işi və partiyaları.

Mənim başıma gələn macəraların bu hissəsini yalnız həqiqətə olan coşqun məhəbbətimə görə gizlətmədim. Mənim qəzəblənməyim və

coşmağım bir xeyir verə bilməzdi; qəzəbim gülüşdən başqa heç bir şeyə səbəb olmazdı. Buna görə də, nəcib və çox sevimli vətənim barədə söylənən bu təhqiramiz sözləri sakit və səbirlə dinləməyə məcbur oldum. Çox təəssüf edirəm ki, belə bir rolu ifa etmək mənim öhdəmə düşmüşdür. Ancaq bu padşah hər şeylə o qədər maraqlanır və məndən bizim dövlətin həyatı barədə elə xırda təfərrüatları soruşurdu ki, nə mənim minnətdarlığım, nə də yaxşı bir tərbiyə görmüş adam olmağım onun bu marağını yerinə yetirməkdən boyun qaçırmağa mənə icazə vermirdi. Özümü doğrultmaq üçün bunu da qeyd etməliyəm ki, kralın bir çox suallarını böyük bir məharətlə cavabsız qoymağı bacardım və ona cavab verərkən çalışırdım ki, hər şeyi, əsl həqiqətin tələbatına uyğun olmadığı halda, ölkəmiz üçün daha faydalı bir surətdə göstərim. Həmişə öz vətənimin ən yaxşı cəhətlərini coşqun bir məhəbbətlə təsvir edirdim. Öz vətənimizin həyatından olan mənfi və pis cəhətləri gizlətməyə can ataraq onun gözəlliklərinin də yaxşı cəhətlərini parlaq surətdə nümayiş etdirməyə çalışırdım. Qüdrətli padşah ilə dəfələrlə etdiyim söhbətlərdə dönmədən və böyük bir ehtirasla yalnız bu məqsədi güdürdüm. Əgər mənim bu cidd-cəhdim müvəffəqiyyətli bir nəticə verməmişsə, bunun təqsiri məndə deyildir.

Lakin bütün dünyadan əlaqəsi kəsilmiş, başqa xalqların ənənə və adətləri haqqında heç bir təsəvvürü olmayan bir kraldan nə tələb etmək olardı. Belə bir xəbərsizlik həmişə təfəkkürün darlığına səbəb olub, bir çox yanlış fikirlər doğurur ki, biz məlumatlı avropalılara bu tamamilə yaddır. Bu da aydındır ki, geridə qalmış belə bir kralın yaxşı və pis haqqındakı fikrini bütün bəşəriyyətə nümunə göstərmək mənasız bir iş olardı.

Söylədiklərimi sübut etmək və kifayət qədər təhsil sahibi olmamağın nə kimi nəticələr verdiyini göstərmək üçün burada qəribə bir hadisəni yada salmaq istəyirəm. Mən xüsusi minnətdarlıq əlaməti olaraq, krala bir xidmət göstərmək ümidi ilə ona üç və ya dörd yüz il bundan əvvəl icad olunmuş qəribə bir toz haqqında məlumat verdim. Mən krala izah etdim ki, həmin bu toz ən kiçik bir qığılcımdan bir anda alovlanmaq və bu zaman şimşək kimi dəhşətli bir sarsıntı və gurultu qoparmaq qüdrətinə malikdir. Əgər bir dəmir və ya mis lülə götürüb, onun içini müəyyən miqdarda həmin toz ilə doldursan, o alışdıqda, həmin lülənin içindən mis və ya dəmir bir küreni

uzağa tullaya bilər. Bu kürə, lülədən elə bir sürət və qüvvətlə çıxar ki, onun zərbəsinə heç bir şey dözə bilməz. Bu kürələrin ən böyükləri, nəinki cərgə-cərgə əsgərləri məhv edir, həm də ən möhkəm divarları uçurur, içərisində minlərlə adam olan ən yekə gəmiləri batırır, bu kürələr bir-birinə zəncirlə bənd edildikdə isə gəmilərin dorlarını, bütün yelkən və kəndirlərini qırıb tökür, yüzlərlə insanı parça-parça edir və ətrafında olan hər bir şeyi puça çıxardır. Bəzən biz içərisi boş olan yekə dəmir kürələri bu tozla doldururuq, xüsusi alətlər vasitəsilə, mühasirə olunmuş şəhərlərin içərisinə atırıq. Bu kürələr həmin şəhərdə dağıntılar əmələ gətirir, küçələri partladır, evləri darmadağın edir, yandırır və partlarkən ətrafa saçılan qəlpələrlə yaxında olan bütün adamların kəlləsini dağıdır. Bunlara əlavə olaraq, mən söylədim ki, bu tozun tərkibini çox gözəl bilirəm və onu hazırlamaq üçün lazım olan bütün maddələr ucuz başa gəlir. Onları hər yerdə tapmaq olar. Mən təklif etdim ki, əlahəzrət kralın ustalarına bu kürələri atmaq üçün metaldan lazımi lülələr hazırlamağı öyrədim. Onun ölkəsində olan ən böyük şəhərin qala bürclərini uçurmaq və əgər əhali padşahın sonsuz hakimiyyətinə müqavimət göstərərsə, bütün paytaxtı bir neçə saat ərzində xarabazara çevirmək üçün iyirmi və ya otuz lülə kifayət edər. Mənə göstərdiyi bu qədər lütf və himayə müqabilində təşəkkür əlaməti olaraq, mən təvazökarlıqla əlahəzrət krala bu kiçik xidməti göstərməyə hazır olduğumu bildirdim.

Kral mənim sözlərimi eşidəndə dəhşətə gəldi. O çox heyrət etdi ki, mənim kimi zəif və heç yerində olan bir həşərat (bu, onun şəxsi ifadəsidir) nəinki belə qeyri-insani fikirlərə malikdir, həm də bunları tamamilə ağıllı və təbii bir şey hesab edir. Mənim bu təxribatçı maşınların törətdikləri dəhşətli qantökmə və xarabazarlıq mənzərələrini bu qədər laqeydlik ilə təsvir etməyim onu son dərəcə qəzəbləndirdi. Kral söylədi ki, bu cür şeyləri yalnız kinli və insan nəslinin düşməni olan bir düha düzəldə bilər. Kralın sözlərinə görə o, elmi ixtiralardan son dərəcə böyük bir ləzzət alır, ancaq bu cür ixtiraların sirrinə vaqif olmaqdansa, öz ölkəsinin yarısından əl çəkməyə razı olar. Nəticədə, kral mənə məsləhət gördü ki, əgər həyatım mənim üçün qiymətlidirsə, bundan sonra heç bir zaman bu şeylər barədə bir kəlmə də danışmayım.

Dar bir görüş, məhdud bir təhsil sahibi olmağın nəticəsində belə olur. Bu padşah öz təbəələrinin məhəbbət və hörmətini qazanmaq üçün bütün sifətlərə malikdir. O böyük bir zəkaya, dərin

məlumata və ölkəni idarə etmək üçün müstəsna bir qabiliyyətə malikdir. Ancaq bununla bərabər, biz avropalılara əsla anlaşılmayan hədsiz vasvasılıq sayəsində, bu ağıllı padşah öz xalqının həyat, azadlıq və əmlakının tam sahibi olmaq kimi bir imkanı əlindən buraxır. Mən bu sözlərlə bu gözəl kralın yaxşı cəhətlərini əsla azaltmaq istəmirəm. Ancaq çox yaxşı bilirəm ki, mənim sözlərim onu ingilis oxucularımın nəzərindən xeyli salacaqdır. Yalnız burasını qeyd edirəm ki, bu cür zəiflik, bu xalqın cəhalətinin nəticəsidir. Bunların içərisində siyasət bu vaxta qədər, bizdə olduğu kimi, elm dərəcəsinə yüksəlməmişdir.

Bir dəfə kralla söhbət vaxtı qeyd etdim ki, bizdə hökuməti idarə etmək barədə minlərlə kitab yazılmışdır. Gözlədiyimin əksinə olaraq, bu sözlərim kralda bizim zəkamız barədə ən pis təsir əmələ gətirdi. O bizim siyasət adamlarının bütün incəlik və hiylələrinə həqarət nəzərilə baxıb, dövlət işlərində hər cür əsrarəngizlik və intriqalara qarşı nifrət duyduğunu bildirdi. O heç cür başa düşə bilmirdi ki, mən dövlət sirri dedikdə, düşməni və ya düşmən olan bir milləti nəzərdə tuturam. Onun fikrinə görə, dövləti yaxşı idarə etmək üçün yalnız sağlam, dərin zəka, ədalət, qərəzsizlik və mehribanlıq kifayətdir. O, bu fikirdə idi ki, eyni tarlada bir sünbül və ya bir ot əvəzinə, ikisini yetirə bilən hər bir adam, öz ölkəsinə bütün siyasət adamlarının hamısının birlikdə verdiyi mənfəətdən daha artıq xeyir vermiş olur.

Bu xalqın zehni inkişafı çox məhduddur. Burada yalnız əxlaq, tarix, şeir və riyaziyyat öyrənirlər. Lakin onlara haqq verərək həmin sahələrdə böyük nailiyyətlər əldə etdiklərini demək lazımdır. Burada riyaziyyat yalnız əməli işlərdə tətbiq olunur. Onun əsas vəzifəsi əkinçiliyi və texnikanın müxtəlif sahələrini təkmilləşdirməkdən ibarətdir. Tamamilə aydındır ki, riyaziyyatın bu cür tətbiq edilməsi bizdə yüksək qiymət qazanmazdı. Mücərrəd ideyalara və hər cür fəlsəfi incəliklərə gəlincə, mən onlara bu barədə ən kiçik bir məlumat verməyə nə qədər çalışdımsa, bir şey çıxmadı.

Bu ölkədə heç bir qanunun sözləri əlifbada olan hərflərin miqdarından artıq deyildir. Əlifbada isə cəmisi iyirmi iki hərf vardır. Ancaq bu qanunların da az bir hissəsi bu qədər uzun sözlə ifadə olunur. Bütün qanunlar ən aydın və ən sadə ifadələrlə tərtib olunmuşdur. Bir də əlavə etmək lazımdır ki, bu insanlar qanunda bir neçə məna tapmaq dərəcəsində zəkalı deyildirlər. Qanunlara şərh və izah yazmaq isə onlarda böyük bir cinayət hesab olunur.

Burada kitab çap etmək, çinlilərdə olduğu kimi, lap qədim zamanlardan bəri mövcuddur. Ancaq onların kitabxanaları çox da böyük deyildir. Məsələn, ölkənin ən böyük kitabxanası olan kral kitabxanasında min cilddən artıq kitab yoxdur. Bunlar da yüz iyirmi fut uzunluğu olan bir dəhlizdə düzülmüşdür. Mənə bu kitabxananın kitablarından sərbəst surətdə istifadə etməyə icazə verilmişdi. Kraliçanın dülgəri, Qlyumdalkliçin otaqlarından birində iyirmi beş fut hündürlüyündə olan taxta dəzgah qayırmışdı. Zahiri cəhətdən bu dəzgah hər pilləsi əlli fut uzunluğunda olan bir nərdivana bənzəyirdi. Bu dəzgah elə bir vəziyyətdə qoyulurdu ki, onun aşağı pilləsi otağın divarından on fut aralı olurdu. Oxumaq istədiyim kitabı divara söykəyirdilər. Mən nərdivanın ən yuxarı pilləsinə çıxıb üzümü kitaba çevirib və səhifənin başından oxumağa başlayıb, pillə uzunu soldan sağa hərəkət edirdim. Gözlərimin səviyyəsindən aşağıda olan sətrə yetişdikdə, aşağı pilləyə enirdim, beləliklə, bütün səhifəni oxuyub qurtarırdım. Sonra yenə yuxarı pilləyə qalxıb bu sayaqla o biri səhifəni də oxuyurdum. Kitabın səhifələrini ikiəlli tutub çevirirdim. Bu çox çətin bir iş deyildi; çünki kitabın kağızı bizim kartondan qalın olmazdı. Ən böyük kitabın isə uzunluğu cəmisi on səkkizdən iyirmi futa qədər olardı.

Bu adamların üslubu aydın, cəsarətli, sadə idi. Onlar, hər şeydən artıq, lüzumsuz sözlər və cürbəcür bəzək-düzək işlətməkdən çəkinirlər. Mən onların əksəriyyətlə tarixi və əxlaqi mahiyyətdə olan xeyli kitablarını oxudum. Mənə kiçik və qədim bir elmi əsər xüsusən çox ləzzət verdi. Bu kitab Qlyumdalkliçin yataq otağında olub, onun mürəbbisi, əxlaqi-dini mövzularda çox-çox kitab oxumuş, hörmətli və yaşlı xanıma məxsus idi. Alimlər bu əsərə çox da böyük qiymət vermirlər. Ancaq insan nəslinin naqisliyindən danışan bu kitab qadınlar və qara camaat arasında böyük bir hörmət qazanmışdır. Mən yerli yazıçının bu mövzuda nələr söyləyə biləcəyilə də çox maraqlanırdım. Avropa moralistləri kimi bu kitab da insanın öz təbiəti etibarilə nə qədər zəif, həqir və aciz bir məxluq olduğunu adi sözlərlə göstərir. Amansız iqlimin təsirlərindən və yırtıcı heyvanların qəzəbindən insanın özünü qorumaq üçün nə qədər aciz olduğunu; bu heyvanların bəzilərinin öz gücü, bəzilərinin öz sürəti, bəzilərinin ehtiyatlılığı, bəzilərinin zəhmətsevərliyilə insandan nə qədər üstün olduğunu sübut edir. Bu kitab sübut edir ki, son yüz il içərisində təbiət qədim zamanlarda yaşamış insanlara nisbətən yalnız alayarımçıq

insanlar yaradır. Müəllifin fikrinə görə, qədim zamanlarda nəhəng insanların mövcud olduğunu düşünmək üçün mühüm dəlillər mövcuddur. Bunu həm tarix, həm də xalq nağılları sübut edir. Krallığın cürbəcür yerlərində tapılan yekə sümüklər və insan kəllələri də bunun belə olduğunu göstərir. Bu sümük və kəllələr həcm etibarilə indiki xırdalaşmış insanlardan xeyli böyükdür. Bu mühakimələrdən müəllif gündəlik həyat üçün faydalı olan bir neçə əxlaqi qayda çıxarır ki, bunları burada təkrar etməyə dəyməz.

Mən bu kitabı oxuyanda qeyri-ixtiyari bir məsələ haqqında insanlar arasında əxlaqi mövzularda nəsihətnamələr yazmağı, eləcə də özünün təbiətlə mübarizədə zəiflədiyindən şikayətlənməyə nə üçün insanların bu qədər böyük bir həvəsi olduğu haqqında düşündüm. Mənə elə gəlir ki, bu məsələnin diqqətlə tədqiq olunması, bu cür şikayətlərin həm bizdə, həm də bu xalq içərisində tamamilə səhv olunduğunu göstərə bilər.

Buradakı yerlilər, kralın yüz yetmiş altı min piyada və otuz iki min atlıdan ibarət olan ordusu ilə öyünürlər. Ancaq bilmirəm ki, şəhərlərdə tacirlərdən, kəndlərdə isə fermerlərdən ibarət olan bu qəribə köməkçi dəstələrinə ordu demək olarmı? Bu dəstələrə əyanlar və ya xırda zadəganlar komandanlıq edirlər. Onlara heç bir maaş verilmir. Ancaq bu ordu kifayət dərəcədə yaxşı təlim görmüş və gözəl intizama malikdir. Bunda təəccüblü heç bir şey yoxdur. Nəzərə almaq lazımdır ki, hər bir fermer öz mülkədarının və hər bir şəhərli şəhərin adlı-sanlı adamlarının komandası altındadır. Bir də ki, bütün bu başçılar, Venesiyada olduğu kimi, səsverici üsulu ilə seçilirlər.

Mən tez-tez şəhərin yaxınlığında olan iyirmi kvadrat mil böyüklüyündəki meydanda paytaxt qoşunlarının hərbi təlimlərini görürdüm. Bu meydanda olan piyadanın sayı iyirmi beş mindən və atlıların sayı altı mindən artıq olmurdusa da, ancaq mən bunları heç bir vəchlə saya bilmirdim; çünki ordunun tutduğu sahə çox böyük idi. At üstündə oturmuş hər bir atlı yüz fut hündürlüyündə olan bir qülləyə bənzəyirdi. Mən bir dəfə bütün bu atlıların komanda ilə birdənbirə qılınclarını çəkib havada oynatdıqlarını gördüm. Heç bir xəyal bundan daha əzəmətli və daha heyranedici bir mənzərə təsəvvür edə bilməz. Elə bil ki, göyün üfüqlərində bir-birə on min şimşək parladı.

Mən çox maraqlanırdım ki, bu padşah necə olub ki, ordu yaratmaq və öz xalqını hərbi intizama öyrətmək fikrinə düşmüşdü. Axı onun tor-

paqları heç bir yerdə başqa bir dövlət ilə həmsərhəd deyildi. Bu barədə həm deyilənlərdən, həm də tarixi əsərləri oxuyaraq aşağıdakı şeyləri öyrəndim.

Bir neçə yüz il müddətində həmin bu ölkə də, bir çox başqa dövlətlər kimi bir azara tutulubmuş. Zadəganlar hakimiyyəti öz əllərinə almağa çalışır, xalq öz azadlığını qoruyur, kral isə tam ağalıq uğrunda mübarizə edirdi. Bu səbəbdən əmələ gələn nifaq, vətəndaş müharibələrinə səbəb olubmuş. Bu müharibələrdən axırıncısı, hazırda hökmranlıq edən padşahın babası zamanında müvəffəqiyyətlə qurtarıb, bütün partiyaları öz aralarında razılaşmağa və bir-birinə güzəştə getməyə məcbur edibmiş. O zaman hamının razılığı ilə bir ordu yaradılıbmış ki, o da həmişə nizam-intizamın keşiyində durur.

SƏKKİZİNCİ FƏSİL

Kral və kraliçanın ölkənin sərhədlərinə səyahətə çıxması. Müəllifin onlarla birlikdə getməsi. Müəllifin bu ölkəni tərk etməsi barədə ətraflı məlumat, onun İngiltərəyə qayıtması.

Mən həmişə bu fikirdə idim ki, gec və ya tez azad olacağam. Ancaq bunun nə cür baş verəcəyini qabaqcadan bilmədiyim kimi, hər hansı bir plan tərtib etməyi də, əlbəttə ki, bacara bilməzdim. Məni buraya gətirən gəmi bu sahillərdə görünən ilk gəmi idi və kral ciddi surətdə əmr vermişdi ki, yeni bir gəmi də gəlib çıxarsa, onu mütləq tutub bütün miniklərilə birlikdə arabaya qoyub, Lorbrulqruda gətirsinlər. Kral mənim üçün münasib bir arvad tapmağı çox arzu edirdi. O istəyirdi ki, mənim uşaqlarım olsun. Ancaq bizim sarı bülbülləri qəfəsdə saxladığımız kimi, mənim balalarımın da qəfəsdə saxlanılacağını və vaxtilə nəvə-nəticəmin qəribə heyvanlar kimi əyanları əyləndirmək üçün satılacaqlarını düşündükcə, dəhşətə gəlirdim. Doğrudur, mənimlə çox mehriban rəftar edirdilər; çünki mən qüdrətli kral və kraliçanın sevimlisi idim. Bütün sarayın diqqəti məndə idi, ancaq mənimlə olan bu rəftarda da insanlıq ləyaqətimi təhqir edən bir əlamət var idi. Vətənimdə qoyub gəldiyim ailəmi heç bir vaxt yadımdan çıxara bilmirdim.

Mən özümə bərabər olan insanlar arasında olmağı çox arzu edirdim. Bir qurbağa və ya küçük kimi ayaq altında qalıb əzilmək qorxusu duymadan, küçələrdə və çöllərdə gəzmək ehtiyacı duyurdum.

Nəhayət, mən gözlədiyimdən daha tez və qəribə bir şəkildə azadlığa qovuşdum. Bu qəribə hadisənin necə əmələ gəldiyini bu saat nağıl edəcəyəm.

Mənim bu ölkəyə gəldiyimdən artıq iki il keçirdi. Üçüncü ilin əvvəllərində mən, Qlyumdalkliçlə birlikdə kral və kraliçanı krallığın cənub sərhədlərinə olan səyahətlərində müşayiət etməli olduq. Məni, adət üzrə, yol qutusunda aparırdılar. Bu qutu, eni on iki fut olan çox rahat bir otaq idi. Mənim tapşırığımla onun içərisində ipək iplərlə möhkəm və böyük bir yelləncək asmışdılar. Bu yelləncək məni yoldakı silkələnmələrdən qoruyur və mən çox vaxt səyahət zamanı onun içində yuxulayırdım. Qutunun damında, düz mənim yelləncəyimin üstündə dülgər, arzuma görə, bir qapaq düzəltmişdi. Bir kvadrat fut böyüklükdə olan qapaq, isti olan vaxtlarda təmiz hava gəlmək üçün idi. Mən istədiyim zaman qapağı siyirmə taxa vasitəsilə açıb-örtə bilərdim.

Biz səyahət etdiyimiz yerə çatdığımız vaxt, kral dəniz sahilindən on səkkiz ingilis mili məsafədə olan Flenflasnik şəhəri yaxınlığındakı qəsrində bir neçə gün qalmaq qərarına gəldi. Qlyumdalkliç və mən bu uzun səyahətdən çox yorulmuşduq. Mən azacıq zökəm olmuşdum. Yazıq qız isə elə bərk azarlamışdı ki, öz otağında qalmalı olmuşdu. Mən okeanı çox görmək istəyirdim. Əgər mənə bir zaman azadlıq qismət olacaqdısa, bu, yalnız okean sayəsində mümkün ola bilərdi. Mən özümü həqiqətdə olduğundan daha bərk xəstələnmiş kimi göstərdim və xahiş etdim ki, çox sevdiyim cavan saray xidmətçisilə birlikdə mənə təmiz dəniz havası almağa icazə versinlər. Bu oğlan ilə birlikdə məni bir neçə dəfə gəzməyə buraxmışdılar. Qlyumdalkliçin buna necə həvəssiz razılıq verdiyini heç bir zaman unuda bilmərəm. Elə bil ki, o, başıma nə gələcəyini əvvəlcədən bilərək, ağlaya-ağlaya məni göz bəbəyi kimi qorumağı həmin xidmətçiyə dönə-dönə tapşırdı.

Həmin xidmətçi, içərisində yelləncəkdə uzanmış olduğum qutunu götürdü və yarım saat piyada yol getdikdən sonra biz qayalıq dəniz sahilinə çatdıq. Burada mən ona buyurdum ki, qutunu yerə qoysun. Mən pəncərəni açıb həsrətlə okeanın sularına baxdım. Özümü yaxşı hiss etmədiyimdən, xidmətçiyə söylədim ki, yatmaq istəyirəm. Ümid edirdim ki, yatsam, bir qədər yüngülləşərəm. Mən uzandım və

xidmətçi, soyuq dəyməsin deyə, pəncərələri möhkəm bağladı. Bir az sonra yuxuya getdim. Sonra nələr olduğunu bilmirəm. Ancaq güman edirəm ki, xidmətçi uzun zaman oturub mənim keşiyimi çəkməmişdi: yəqin ki, o, yuxu zamanı mənim başıma heç bir təhlükəli iş gəlməyəcəyini fikirləşib, qayaların arasında quş yuvası axtarmağa getmişdi. Mən dəfələrlə öz pəncərəmdən görmüşdüm ki, o, qayaların arasında belə yuvalar tapıb oradan yumurta götürür. Hər nə isə, mən şiddətli bir təkandan ayıldım. Elə bil kim isə qutumun üstünə vurulmuş halqanı şiddətlə çəkdi. Mən qutumun havaya qalxdığını, sonra böyük bir sürətlə getdiyini hiss etdim. Birinci təkan vurulduqda, az qalmışdı ki, yelləncəkdən yıxılam, ancaq sonra hərəkət daha müvazinətli oldu. Mən bir neçə dəfə var gücümlə bərkdən çığırdım, amma heç bir şey çıxmadı. Mən pəncərədən baxarkən, yalnız buludları və səmanı gördüm. Başımın üzərində qanad səslərinə bənzəyən bir xışıltı eşidib, yavaş-yavaş öz vəziyyətimin nə qədər təhlükəli olduğunu anlamağa başladım. Yəqin ki, bir qaraquş dimdiyilə mənim qutumun halqasından yapışıb havaya qaldırmışdı ki, oradan məni daşların üstünə salsın və qutunun qırıntıları altından bədənimi çıxarıb yesin. Bu ağıllı quşlar çanaqlı bağaların çanağını qırıb, ətlərini yemək istəyəndə də belə edirlər.

Bir neçə dəqiqə keçdikdən sonra hiss etdim ki, xışıltı artdı və qanadların hərəkəti sürətləndi. Mənim qutum küləkli bir gündə dirəkdən asılmış bir lövhə kimi o yan-bu yana yırğalanırdı. Başımın üstündə qəzəbli bir çığırtı və zərbə səsləri eşitdim. Birdən-birə elə sürətlə aşağı düşdüyümü hiss etdim ki, nəfəsim tutulan kimi oldu. Dəhşətli bir su şappıltısı eşidildi. Bu səs qulaqlarımda Niaqara şəlaləsinin gurultusundan daha bərk səsləndi. Bir an mən qatı bir qaranlığa batdım, sonra qutum yuxarı qalxmağa başladı və pəncərələrin üst tərəfindən işıq gördüm. İndi bildim ki, dənizə düşmüşəm. Görünür, məni havaya qaldıran qaraquşun üzərinə iki-üç rəqib hücum edib, onun qənimətini əlindən almaq istəyibmiş. Onlarla vuruşan zaman, qaraquş məni dimdiyindən buraxıbmış. Qutunun altında olan ağır dəmir təbəqələr havadan enən zaman onun müvazinətini saxlamasına və suya düşərkən parçalanmamasına kömək edibmiş. Qutunun divarları bir-birinə möhkəm bitişmiş, qapıları isə rəzə ilə bağlanmayıb siyirmə pəncərə kimi aşağı-yuxarı açılırdı. Bir sözlə, mənim otağım çox kip bağlandığından, içərisinə su az keçmişdi.

Mən böyük bir çətinliklə yelləncəkdən düşüb, damda olan qapını açmağa cürət etdim ki, içəri bir qədər təmiz hava gəlsin, çünki havasızlıqdan az qala boğulmuşdum.

Bu dəqiqələrdə mən dəfələrlə öz əziz Qlyumdalkliçimin yanında olmağı nə qədər arzu etmişdim. Mənim ondan ayrıldığımdan yalnız bircə saat keçməsinə baxmayaraq, aramızda, sanki, böyük bir uçurum əmələ gəlmişdi. Ən qorxunc təhlükələr hər tərəfdən mənə üz verib, bütün diqqətimi cəlb etmişdi. Bununla bərabər, öz yazıq dayəciyimi yadıma saldıqda, mənim itməyimin ona necə ağır gələcəyini, bütün ümidlərinin boşa çıxdığını və kraliçanın ondan narazı qalacağını düşündükcə, ağlamaqdan özümü saxlaya bilmədim. Yəqin ki, çox az səyyahlar mənim düşdüyüm bu çətin və təhlükəli vəziyyətə düşmüşdülər. Mən qutumun parçalanacağını və ya küləyin vurub, onu çevirəcəyini hər an gözləyə bilərdim. Tək bircə pəncərə şüşəsi sınmış olsaydı, mən, yəqin ki, həlak olacaqdım. Bu şüşələri nazir bir dəmir barmaqlıq qoruyurdu. Mən kiçik dəlmə-deşikdən içəri su dolmağa başladığını gördükdə, bacardığım kimi bunları tutmağa çalışdım. Qutumun qapağını açmağa qüvvəm çatmırdı; yoxsa, mütləq bunu edib, yuxarı çıxardım. Orada mən hər tərəfi bağlı olan (əgər belə demək mümkünsə), bu anbarda qalıb boğulmaqdansa, bir neçə saat artıq yaşaya bilərdim. Ancaq, bu qutu suyun üzündə hətta bir neçə gün sağ-salamat qala bilsəydi, mən yenə də mütləq acından və soyuqdan ölərdim. Beləliklə, hər dəqiqə ölümümü gözləyə-gözləyə, hətta bunu arzu edə-edə, dörd saata qədər vaxt keçirdim.

Söylədiyim kimi, qutumun yan divarlarında iki möhkəm qulp var idi. Məni at üstündə aparan xidmətçi, qayış kəmərini bu qulpdan keçirib, onu belinə bənd edərdi. Birdən-birə bilmirəm mənəmi elə gəldi, yoxsa doğrudanmı həmin qulplara bir şeyin toxunduğunu hiss etdim. Bundan sonra mənə elə gəldi ki, qutumu çəkir və ya yedəkləyib aparırlar. Bəzən mən qutumun dartıldığını hiss edirdim. Qutum dənizə xeyli batmış və otağım qaranlıqlaşmışdı. Bütün bunlar məndə, köməyimə kimin gələ biləcəyini bilmədiyim halda, xilas olmağa zəif bir ümid doğururdu. Mən döşəməyə bənd edilmiş stullardan birini açmağı qərara aldım və onu yuxarı qapağın düz altında, böyük çətinliklə yenə yerə bənd etdim. Bir az əvvəl həmin qapağı açmışdım. Stulun üstünə çıxıb ucadan köməyə çağırmağa başladım. Sonra yaylığımı bir ağaca bağlayıb, onu qapaqdan bayıra çıxartdım və yelləməyə başladım ki, əgər həqiqətən yaxınlıqda gəmi və ya qayıq varsa, bununla onların diqqətini cəlb edim və dənizçiləri başa salım ki, bu qutunun içində bədbəxt bir insan vardır.

Ancaq bütün bu işarələrə heç bir cavab almadım. Bununla bərabər, qutumun daim irəliyə doğru hərəkət etdiyini duyurdum. Təqribən bir saat keçdi. Birdən qutumun qulplu tərəfi bərk bir şeyə toxundu. Mən qorxdum. Bunun qaya olduğunu zənn etdim. Qutumun əvvəlkindən daha bərk yırğalandığını duydum. Otağımın damında, aşağı salınan və sanki, halqaya keçirilən bir buraz səsi – zəif bir cırıltı eşitdim. Bundan sonra qutumun yuxarı qaldırıldığını duydum. Mən yenidən ucunda yaylıq olan ağacı dəlikdən çıxarıb, səsim tutulana qədər bağırdım. Bunun cavabında üç dəfə təkrar olunan uca çığırtılar eşitdim. Mənim duyduğum həyəcanı, yalnız başlarına belə ağır fəlakətlər gələn adamlar başa düşə bilərlər. Başımın üstündə ayaq tappıltıları eşitdim. Kim isə ucadan ingiliscə bu sözləri çığırdı: "Əgər içəridə bir adam varsa, səsini çıxarsın!" Cavab verdim ki, mən bədbəxtliyimdən dünyada ağıllı bir məxluqa üz verə biləcək ən ağır fəlakətlərə düçar olmuş bir ingilisəm və onlara and verdim ki, məni bu zindandan qurtarsınlar. Bunun cavabında həmin səs söylədi ki, artıq təhlükədən qurtarmışam; çünki qutumu gəmiyə bağlayıblar. Bu saat dülgər gəlib qutunun damında, məni çıxarmaq üçün lazımi genlikdə bir deşik açacaqdır. Mən cavab verdim ki, nahaq yerə vaxt itirməsinlər. Qoy gəminin əmələlərindən biri barmağını qutunun halqasına keçirib onu sudan çıxartsın və kapitanın otağına aparsın. Bu sözlərimdən dənizçilərin bəziləri elə güman etdi ki, mən dəliyəm, bəziləri isə qəhqəhə ilə gülməyə başladı. Doğrudan da, mən tamamilə yaddan çıxarmışdım ki, indi özüm boyda və mənimlə bir qüvvədə olan adamlar arasındayam. Dülgər gəldi və bir neçə dəqiqənin içində dörd kvadrat fut enliyində bir deşik açdı. Sonra içəri kiçik bir nərdivan salladılar və mən yuxarı çıxdım. Bu vaxt özümü o qədər zəif hiss etdim ki, bu adamlar mənim qucaqlarına alıb, gəminin göyərtəsinə çıxartdılar.

Heyrət içində qalmış dənizçilər mənə suallar yağdırırdılar. Ancaq bunlara cavab verməyə məndə taqət yox idi. Mən bu cırtdanları görüb özümü itirmişdim. Nəhəng adamlar və nəhəng şeylər arasında yaşamağa o qədər alışmışdım ki, bu kiçikboylu adamlar mənə çox miskin və eybəcər görünürdülər.

Nəhayət, ləyaqətli və hörmətli bir şropşirli olan kapitan mister Tomas Vilkoks huşumu itirməkdə olduğumu görüb, məni öz otağına apardı. Orada mənə qüvvə dərmanı verdi və bir qədər dincəlməyi məsləhət görüb, yatağa uzandırdı. Bu, doğrudan da, mənim üçün son dərəcə zəruri idi. Yuxuya getməmişdən əvvəl mən kapitana söylədim ki, qutumun içində çox qiymətli mebel var, onları itirmək heyifdir. Orada gözəl bir yelləncək, səfər yatacağı, iki stul, bir stol və kamod var. Otağın bütün divarlarına ipək və pambıqdan toxunmuş parçalar çəkilmişdir. Kapitandan xahiş etdim ki, dənizçilərdən birinə mənim qutumu onun otağına gətirməsini əmr etsin. Burada mən qutumu açıb, bütün sərvətimi ona göstərmək istəyirdim. Kapitan bu sərsəmləməni eşidib, elə güman etdi ki, mən sayıqlayıram. Ancaq məni sakit etmək üçün söz verdi ki, arzumu yerinə yetirəcəkdir. Sonra o, göyərtəyə çıxıb bir neçə dənizçiyə əmr etmişdi ki, mənim qutumun içinə girsinlər. Onlar mənim şeylərimi çıxarmış, divarlara çəkilmiş parçaları qoparmışdılar. Təəssüf ki, stullar, kamod və yataq xeyli xarab olmuşdu. Dənizçilər şeylərin döşəməyə bərkidilmiş olduğunu bilmədiklərindən zorla çəkib qoparmışdılar. Onlar qutunun içində maraqlı saydıqları bütün şeyləri və gəmidə işə yaraya biləcək bir neçə taxtanı çıxarıb gətirmişdilər. Qutu isə dənizdə qalmışdı. Onun içi az zamanda su ilə dolmuş və batmışdı. Mən çox şad oldum ki, bu zaman özüm orada deyildim. Yəqin ki, bu mənzərə axır illərdə başıma gələn bütün fəlakətləri yadıma salıb, məni kədərləndirəcəkdi.

Mən bir neçə saat yatdım. Ancaq rahat yata bilmədim. Yaxın zamanda başıma gəlmiş hadisə və fəlakətləri hey yuxumda görürdüm. Hər halda, mən bir qədər dincələrək özümü xeyli yaxşı hiss edirdim. Axşam saat səkkiz olardı. Kapitan mənim çoxdan bəri ac olduğumu bilib əmr etdi ki, tez axşam yeməyi gətirsinlər. O, gözümdə dəlilik əlamətləri görünmədiyinə əmin olub, tamamilə rabitəli bir surətdə danışdığımı gördükdə, məni nəşə ilə qonaq etməyə başladı. Biz tək qaldıqda, xahiş etdi ki, başıma gələn macəraları danışım və bu qəribə qutunun içinə necə düşdüyümü izah edim. O söylədi ki, günortaya yaxın müşahidə borusu ilə mənim qutumu görmüş; əvvəlcə bunun bir yelkənli gəmi olduğunu güman edib, öz gəmisinin yolu üstündə olduğu üçün ona yanaşıb bir qədər suxarı almaq istəmişdir; çünki gəmidə suxarı qurtarmaq üzrə imiş. Yaxına gəlib səhv etdiyini gördükdə, bu şeyin nə olduğunu bilmək üçün bir qayıq göndərib. Dənizçilər qorxmuş halda geri qayıdıb, and içiblər ki, üzən bir evə rast gəliblər. Kapitan onlara gülüb, özü qayığa oturub və dənizçilərə əmr edib ki, özlərilə iki möhkəm kəndir götürsünlər.

Dəniz sakit olduğu üçün, kapitan bir neçə dəfə qutumun ətrafına hərlənib, bu qutunun dəmir barmaqlıqlı pəncərələri olduğunu görüb. Qutunun qapı-pəncərəsiz divarında o, iki möhkəm qulp görüb, əmr edib ki, kəndiri bunlardan birinə keçirsinlər ki, sandığımı (o buna belə ad verirdi) yedəkləyib gəmiyə aparsınlar. Bunu qurtardıqdan sonra kapitan əmr edib ki, o biri kəndiri qutunun damında olan halqaya keçirib, sandığımı gəminin göyərtəsinə qaldırmağa çalışsınlar. Ancaq bu sandıq o qədər ağır imiş ki, gəminin bütün əmələləri nə qədər çalışıblarsa da, onu iki və ya üç futdan artıq qaldıra bilməyiblər. Kapitan söylədi ki, onlar mənim qutunun deşiyindən uzatdığım, ucuna yaylıq bağlanmış ağacı görüb, bu nəticəyə gəliblər ki, sandığın içində bədbəxt bir adam vardır.

Kapitandan soruşdum ki, mənim qutuma rast gəldikləri yerdə, gəminin yaxınlığında nəhəng quşlar görüblərmi? Bunun cavabında kapitan söylədi ki, dənizçilərdən biri şimala doğru uçan üç qaraquş görmüşdür. Ancaq bunlar ona adi quşlar boyda görünmüşdür. Bu, yəqin ki, quşların xeyli ucada uçduqları ilə izah oluna bilər. Kapitan mənim bu sualı nə üçün verdiyimi başa düşə bilmədi. Sonra ondan soruşdum ki, biz qurudan çoxmu uzaqdayıq? Bu suala o cavab verdi ki, tam dürüst hesaba görə, ən yaxın sahil bizdən yüz liq qədər uzaqdadır. Mən onu inandırmağa çalışdım ki, çox səhv edir; çünki mən yaşadığım ölkəni cəmisi dənizə düşdüyümdən təqribən iki saat əvvəl tərk etmişdim.

Bu zaman kapitan ciddi bir görkəm alıb məsləhət gördü ki, mənim üçün ayırdıqları kayuta gedib, doyunca yatım. O işarə etdi ki, çəkdiyim iztirablardan, yəqin ki, huşum bir qədər pozulmuşdur. Mən onu inandırdım ki, onun mehribanca qonaqpərvərliyi sayəsində özümü çox gözəl hiss edirəm.

Onda o mənimlə tamamilə açıq danışmağa icazə istədi. Əlbəttə, mən buna razılıq verdim. Kapitan bir qədər sükutdan sonra məndən soruşdu ki, bəlkə, mən müdhiş bir cinayət işlətmişəm və buna görə də cəza olaraq məni bu sandığa salıb dənizə buraxıblar; bəlkə, bunun nəticəsində mənim ağlım bir qədər çaşmışdır. O dedi ki,

bəzi ölkələrdə ən dəhşətli caniləri sınıq-salxaq bir qayığa oturdub, dənizə buraxmaq adəti ona məlumdur. Kapitan əlavə etdi ki, mən heç bir şeyi gizlətmədən onunla açıq danışa bilərəm. Əlbəttə, belə bir canini öz gəmisinə aldığı üçün o, heç bir zaman özünü əfv etməyəcəkdir. Ancaq iş-işdən keçdiyi üçün, söz verir ki, məni ən yaxın bir limana qədər sağ-salamat aparacaqdır.

Mən də kapitandan xahiş etdim ki, bir qədər səbirli olub, bütün danışıqlarımı diqqətlə dinləsin. Mən İngiltərədən çıxdığım gündən ta o mənim qutumu görüncəyə qədər başıma gələn bütün macəranı tamam-kamal ona danışdım. Həqiqət həmişə ağıllı və düşüncəli adamın qəlbinə yol tapar. Tamamilə təbiidir ki, dərin ağıl sahibi və təhsil görmüş bir adam olan bu möhtərəm cənab, mənim sözlərimin doğruluğuna və səmimiliyinə tezliklə inandı. Onun axırıncı şübhələrini dağıtmaq üçün kapitandan xahiş etdim ki, kamodumu bura gətirmələrini əmr etsin. Kamodun açarı cibimdə idi. Kamodu açıb, belə qəribə bir surətdə tərk etdiyim ölkədə topladığım nadir şeylərdən ibarət kiçik kolleksiyanı kapitana göstərdim. Bunların içərisində kralın saqqalının tüklərindən düzəltdiyim daraqdan başqa, kraliçanın böyük barmağının dırnağının qırıntısından düzəltdiyim daraq da var idi. Bu kolleksiya hər biri bir futdan yarım yarda qədər olan iynə və sancaqlardan, kraliçanın başı darandığı zaman yığdığım saçlardan, onun çeçələ barmağından çıxarıb boyunbağı kimi boğazıma taxdığı qızıl üzükdən ibarət idi. Kapitandan xahiş etdim ki, mənə göstərdiyi xidmətin müqabilində, minnətdarlıq əlaməti olaraq, bu üzüyü qəbul etsin; ancaq o qəti surətdə imtina etdi. Mən öz əlimlə bir xanımın ayaq barmağından kəsdiyim döyənəyi də ona göstərdim. Bu döyənək iri alma boyda idi, özü də o qədər bərk idi ki, İngiltərəyə qayıtdıqdan sonra ondan bir qədəh düzəltdim və onu gümüş haşiyə içinə aldım. Nəhayət, kapitana siçan dərisindən olan şalvarımı göstərdim.

Kapitanı çox çətinliklə razı edə bildim ki, bir saray nökərinin dişini məndən hədiyyə olaraq qəbul etsin. O həmin bu dişi böyük bir maraqla nəzərdən keçirirdi. Kapitan bu hədiyyəni, belə boş bir şeyi layiq olmadığı dərəcədə, böyük bir təşəkkürlə qəbul etdi. Təcrübəsiz bir həkim Qlyumdalkliçin nökərlərindən birinin dişi ağrıdığı zaman, səhvən onun sağlam dişini çəkmişdi. Mən həmin bu dişi təmizləyib, qəribə bir əşya kimi öz kamodumda saxlamışdım. Bu dişin uzunluğu bir fut, diametri isə dörd düym olardı.

Kapitan mənim bu səmimi söhbətimdən çox razı qaldı. O ümid edirdi ki, mən İngiltərəyə qayıtdıqdan sonra bütün bunları yazıb kitab halında çap etdirəcəyəm. Onun fikrincə, beləliklə, mən insanlığa böyük bir xidmət etmiş olaram. Kapitana söylədim ki, mənim bu macəramın diqqəti cəlb edə biləcəyinə gümanım azdır. Dedim ki, hazırda oxucuları heç bir şeylə heyrətləndirmək olmaz. Bir çox müəlliflər həqiqətdən çox öz şöhrətpərəstlik və mənfəətlərini təmin etməyə çalışıb, avam oxucuları ən qəribə uydurmalarla cəlb etməyə can atırlar. Onların hekayələrinə nisbətən mənim kitabım, yəqin ki, solğun və darıxdırıcı olacaq və heç bir kəsin diqqətini cəlb etməyəcəkdir. Hər halda, haqqımda söylədiyi xoş sözlər və verdiyi məsləhət üçün kapitana təşəkkür etdim.

Kapitan mənim belə ucadan danışdığıma təəccüb etdi və yaşadığım həmin ölkənin kral və kraliçasının kar olub-olmadıqlarını soruşdu. Mən ona izah etdim ki, bu, uzun müddət nəhənglər arasında yaşadığımın nəticəsidir. Onlarla mən elə ucadan söhbət edirdim ki, elə bil, qüllənin başında duran bir adamla danışıram.

Boynuma aldım ki, onu dinləyəndə mənə elə gəlir ki, guya o, pıçıltı ilə danışır. Aldığım başqa bir təsiri də ona söylədim. Gəmiyə çıxıb, ətrafımda dənizçilər toplandığı zaman onlar mənə rast gəldiyim boyca ən kiçik məxluqlar kimi göründülər. Doğrudan da, gözlərim nəhəng şeylərə o qədər alışmışdı ki, mən güzgüdə özümə baxa bilmirdim; çünki bu, özümün nə qədər kiçik olduğum barədə məndə xoşa gəlməyən duyğular oyadırdı.

Kapitan mənə söylədi ki, yemək zamanı mənim hər bir şeyə diqqətlə baxdığımı və çox zaman özümü gülməkdən zorla saxladığımı sezmişdir. Mənim belə qəribə rəftarımın səbəbini başa düşmədiyindən, elə zənn etmişdi ki, ağlım bir qədər çaşmışdır.

Ona cavab verdim ki, müşahidəsi tamamilə doğrudur, qoy özü düşünsün: üç pens boyda bir boşqab, bir uduma yeyilə bilən bir donuz budu, fındıq qabığı boyda fincanlar və sair bu kimi şeyləri gördükdə, gülməyə bilərəmmi?

Kapitan bu zarafatımı yaxşıca başa düşüb, gülə-gülə mənə qədim bir ingilis məsəli ilə cavab verib dedi ki, mənim gözlərim mədəmdən böyükdür: çünki bütün günü heç bir şey yemədiyimə baxmayaraq, iştaham olmadığını görmüşdü. O gülə-gülə dedi ki, qaraquşun mənim qutumu dimdiyində apardığını və çox yüksəklərdən

necə dənizə düşdüyünü özü görüb, zövq almaq üçün yüz funt verərdi; çünki bu gələcək nəsillərə yadigar olmaq üçün təsvir edilə biləcək bir mənzərə idi.

Kapitan Tonkində[1] imiş və İngiltərəyə geri qayıdanda külək onu şimal-şərqə, 44° şimal en dairəsinə və 143° şərq uzunluq dairəsinə qədər kənara aparıbmış. Lakin onlar məni gəmiyə çıxartdıqdan sonra, passat küləyi əsməyə başlayıb, biz uzun müddət cənuba doğru getdik. Yeni Hollandiyanı keçdikdən sonra biz qərbə və cənub-qərbə doğru yönəldik, sonra cənuba və cənub-qərbə doğru getdik və nəhayət, Ümid burnuna döndük. Bizim bu səfərimiz çox yaxşı keçdi və mən onu təsvir etməklə oxucunu yormayacağam. Kapitan yolda bir-iki dəfə yemək və təzə su götürmək üçün limanlara yan aldı. Ancaq mən Daunsa çatana qədər gəmidən bir dəfə də olsun çıxmadım. Bura isə xilas olduqdan doqquz ay sonra, 1706-cı il iyunun 3-də, gəlib çatdıq. Mən gəmidə getmək haqqı olaraq, bütün var-yoxumu kapitana təklif etdim. Ancaq o, bircə fartinq də almadı. Biz bir-birimizdən dost kimi ayrıldıq və kapitan mənə söz verdi ki, Redrifə mənim yanıma gələcək. Kapitandan borc aldığım beş şillinqə bir at və bələdçi tutdum. Yolda mən xırdaca ağacları, evləri, adamları və ev heyvanlarını seyr edərkən, çox zaman elə bilirdim ki, yenə Liliputsandayam. Yolda qabağıma çıxan adamları basıb əzməkdən qorxaraq, çox zaman bərkdən çığırırdım ki, kənara çəkilsinlər. Az qalmışdı ki, bu qabalığım mənə çox baha tamam olsun. Bir-iki dəfə az qaldı ki, vurub başımı yarsınlar. Ətrafdakı yerləri çox böyük çətinliklə tanıya bilirdim. Evimin yolunu başqalarından soruşmalı oldum. Xidmətçi qapını açdı. Mən içəri girəndə, başım qapının yuxarısına dəyməsin deyə (darvaza altından keçən qaz kimi) başımı aşağı əydim. Arvadım yüyürüb məni qucaqlamaq istədi, ancaq onun boyunun üzümə çatması üçün mən onun dizindən də aşağı əyildim.

Qızım xeyir-duamı gözləyərək diz çökdü. Lakin mən nəhəng adamlarla danışdığım zaman həmişə başımı yuxarı qaldırmağa öyrəşdiyimdən, onu heç görmədim. Xidmətçilərə və evdə olan bir-iki tanış adama isə nəhənglərin cırtdanlara baxdığı kimi yuxarıdan aşağı baxırdım. Mən ürəyimdə arvadımı danlayırdım ki, yəqin həddindən artıq qənaət etmişdir; çünki həm özü, həm də qızım mənə çox xırdaca görünürdü. Müxtəsər, mən özümü o qədər qəribə aparırdım ki, yaxın adamlarım mənim dəli olduğumdan şübhələnməyə başladılar. Bunları ona görə qeyd edirəm ki, vərdiş və yanlış duyğuların nə qədər böyük bir qüvvəyə malik olduqlarını göstərim.

Mənimlə ailəm və dostlarım arasında əmələ gələn bu anlaşılmazlıq tezliklə aradan qalxdı: ancaq arvadım təntənəli surətdə elan etdi ki, mən bir də dəniz üzü görməyəcəyəm. Buna baxmayaraq, məşum tale öz hökmünü başqa cür verdi və oxucunun tezliklə görəcəyi kimi, hətta arvadım da məni vətəndə saxlaya bilmədi. Bununla məşum səyahətlərimin əhvalatının ikinci hissəsini qurtarıram.

[1] *Tonkin* – Hind-Çində bir şəhər adıdır.

ÜÇÜNCÜ HİSSƏ

Laputaya, Balnibarbiyə, Laqqneqqə, Qlabbdobdribə və Yaponiyaya səyahət

BİRİNCİ FƏSİL

Müəllifin üçüncü səyahətə çıxması. Dəniz quldurları tərəfindən tutulması. Qəddar hollandiyalı. Müəllifin boş bir adaya çıxması. Laputaya qəbul edilməsi.

Mən evə qayıtdıqdan sonra üç yüz tonluq "Xoş Ümid" gəmisinin kapitanı kornuelsli kapitan Vilyam Robinson yanıma gəldi. Keçmişlərdə onun komandası altında Levanta işləyən bir gəmidə cərrahlıq edərdim. O, mənimlə qardaş kimi dolanar, heç bir zaman məni özünə tabe bir adam hesab etməzdi. Görünür ki, köhnə bir dost kimi görüşümə gəlmişdi. Hər halda, birinci görüşdə bizim aramızda uzun zaman bir-birilə görüşməyən dostlar arasında gedən adi danışıqlardan artıq bir söhbət olmadı. Sonra o, tez-tez yanıma gəlməyə başladı və məni sağ-salamat gördüyü üçün dəfələrlə öz şadlığını bildirib, İngiltərədən ayrılmamağı qəti surətdə qərara alıb-almadığımı soruşdu və özünün iki aydan sonra Şərqi Hindistana getmək niyyətində olduğunu söylədi. Axırda bir çox üzrxahlıq və müqəddimədən sonra məni öz gəmisində cərrahlıq vəzifəsinə dəvət etdi. Kapitan dedi ki, mənim bir cərrah köməkçim də olacaqdır və mənə ikiqat artıq maaş verəcəkdir. Nəticədə əlavə etdi ki, gəmini idarə etmək işində mənim məsləhətlərimlə hesablaşmağı öhdəsinə alır; çünki mən gəmiçilik işini ondan az bilmirəm və onunla bir dərəcədə gəmi idarə edə bilərəm.

Kapitan mənə xeyli iltifatlı sözlər söylədi. Mən onu yaxşı bir adam kimi tanıdığımdan, təklifindən boyun qaçıra bilmədim. Başıma gələn bütün fəlakətlərə baxmayaraq, dünyanı görmək həvəsi məni əvvəlki qüvvəsilə cəlb edirdi. Arada bircə çətinlik qalmışdı ki, o da arvadımı razı etməkdən ibarət idi. Nəhayət, mən bu səyahətdən bizim uşaqlarımız üçün hasil olacaq faydaları sayıb, onu razı saldım.

Biz 1706-cı il avqustun 5-də lövbər qaldırıb, 1707-ci il aprelin 11-də Sen-Jorc fortuna çatdıq. Orada üç həftə qaldıq. Biz gəminin əmələlərini artırmalı idik; çünki dənizçilər arasında xəstələnənlər çox idi. Oradan Tonkinə yola düşdük. Tonkində kapitan çox qalmağı qət etdi; çünki ona lazım olan mallar bir neçə aydan tez hazırlanıb gəmiyə təhvil verilə bilməzdi. Burada dayanarkən, əmələ gələn məsarifi qismən ödəmək üçün kapitan kiçik bir gəmi satın alıb, onu işə gedən mallarla doldurdu və mənim komandam altında qonşu adalara göndərdi. O, Tonkində öz işlərini gördüyü müddətdə bu malları satmağı mənə tapşırmışdı.

Gəmidə məndən başqa on dörd nəfər əmələ var idi. Bunlardan üçü yerli idi. Biz sahildən ayrıldıqdan üç gün keçməmiş, şiddətli külək bizi əvvəlcə şimal-şərqə, sonra isə şərqə tərəf apardı. Bundan sonra, şiddətli qərb küləyinin sakitləşmədiyinə baxmayaraq, hava yaxşılaşdı. Onuncu gün dalımızca iki quldur gəmisi düşdü. Bizim çox yüklənmiş olan gəmimiz sürətlə gedə bilmirdi. Buna görə də bir az sonra onlar bizə çatdılar.

Gəmilər bizim gəmiyə yan aldı və hər iki quldur gəmisinin kapitanı, demək olar ki, eyni zamanda öz adamları ilə birlikdə bizim gəmiyə doluşdular. Hər cür müqavimət mənasız olduğundan mən əvvəlcədən komandaya əmr verdim ki, üzüqoylu yerə uzansınlar. Bunun sayəsində nahaq qan tökülmədi. Quldurlar bizim əl-ayağımızı möhkəm sarıyıb, üstümüzə keşikçi qoymaqla kifayətləndilər və gəmini axtarmağa başladılar.

Mən quldurların arasında bir hollandiyalı olduğunu gördüm. Görünür ki, o, gəmi komandiri olmasa da, quldurların arasında nüfuz sahibi idi. O həmin saat bizim ingilis olduğumuzu bildi və hamımızı söyə-söyə and içdi ki, bizi dal-dala bağlayıb *dənizə atacaqdır**. Mən ona müraciətlə xahiş etdim ki, bizim xristian və protestant, həm də onun ölkəsinə dost bir dövlətin təbəələri olduğumuzu nəzərə alsın. Ona görə o, bizi hədələməyib, əksinə, komandirin hüzurunda müdafiə etməlidir.

O, öz təhdidlərinə ara verməyib, yoldaşlarına müraciətlə qızğın bir surətdə, yəqin ki, yapon dilində nə isə söyləyərək, tez-tez "xristianos" sözünü təkrar edirdi.

Bu iri gəminin kapitanı yapon idi, Hollandiya dilində azca danışa bilirdi. O, mənə yanaşıb, bir neçə sual verdi. Mən bu suallara çox hörmətlə cavab verdim və o, söz verdi ki, bizi öldürməyəcəklər. Mən ikiqat əyilib kapitana təzim etdim və hollandiyalıya müraciətlə dedim ki, bir bütpərəstin, qardaşım olan bir xristiandan daha mərhəmətli olduğunu görmək mənim üçün çox kədərlidir. Düşünmədən söylədiyim bu sözlərimin tezliklə peşmançılığını çəkdim. Həmin yaramaz hollandiyalı dəfələrlə kapitana müraciət edib, məni dənizə atmağı xahiş etdi, nəhayət, işi o yerə çatdırdı ki, mənə ölümdən də ağır olan bir cəza təyin etdirdi. Mənim adamlarımı bərabər surətdə bölüb, iki quldur qayığına oturtdular; bizim gəmiyə isə yeni komanda təyin etdilər. Məni kiçik bir yelkənli qayığa oturtmağı və dörd günlük azuqə ilə küləyin və dalğaların ixtiyarına buraxmağı qərara aldılar. Yaponiyalı kapitan o qədər mərhəmətli bir adam idi ki, mənim üçün təyin edilən ərzaq miqdarını öz ehtiyatı hesabına ikiqat artırıb, məni axtarmağı qadağan etdi. Mən qayığa minərkən, hollandiyalı gəminin göyərtəsində durub, məni ağzına gələn hər cür söyüşlərlə söyüb lənət yağdırırdı.

Biz, quldur gəmilərinə rast gəlməzdən təxminən bir saat əvvəl hesablayıb 46° şimal en və 183° şərq uzunluq dairəsində olduğumuzu təyin etmişdim. Quldurlar gözdən itdikdən sonra, mən cibimdə gəzdirdiyim müşahidə borusunu çıxarıb, üfüqü diqqətlə gözdən keçirməyə başladım. Cənub-şərq tərəfdə bir neçə ada gördüm. Yelkəni qaldırıb onlara tərəf getdim. Səmt küləyi əsdiyi üçün, üç saatdan sonra, bu adalardan ən yaxında olanına çatdım. Qayaların üstündə xeyli quş yuvası görünürdü və mən heç bir əziyyət çəkmədən xeyli yumurta yığdım. Yanımda çaxmaq, daş və qov var idi. Od yandırıb, quru dəniz otu və çırpılardan tonqal qalayaraq, külləmə yumurta bişirdim. Axşam yeməyim bundan ibarət oldu; çünki ərzağımı mümkün qədər saxlamaq istəyirdim. Bir qayanın altında yerə quru ot sərib gecəni çox yaxşı yatdım.

Ertəsi gün o biri adaya, oradan isə üçüncü və dördüncü adaya getdim. Bu darıxdırıcı və yorucu səyahətimin yalnız beşinci günü, nəhayət, bu adaların ən şərqdə olanına çatdım. Bu ada dənizin çox uzaq bir guşəsində idi. Bu adaya yetişmək üçün beş saatdan artıq yol

getməli oldum. Adanın sahillərinə yan almaq mümkün deyildi. Yalnız uzun müddət axtarışdan sonra adaya çıxmaq üçün əlverişli bir yer tapa bildim. Bura kiçik bir körfəzdən ibarət idi, mənim qayığım kimi iki-üç qayıq zorla yerləşə bilərdi. Ada daşlıq olub, torpağı münbit deyildi. Yalnız orada-burada, qayaların arasında xırdaca ətirli kollar bitmişdi.

Mən ərzağımı çıxarıb, bir qədər yeyib qarnımı doydurdum. Bütün qalan ərzağı böyük bir diqqətlə sahildəki qayalar arasındakı mağarada gizlətdim və gecəni burada keçirməyi qərara aldım. Qayaların arasından xeyli yumurta yığıb, sonra da mağaraya bir-iki qucaq quru dəniz otu gətirdim. Fikrim bu idi ki, səhər qəlyanaltıya özümə yumurta bişirim. Mənim yatağım da həmin bu quru dəniz otlarından ibarət idi. Gecəni çox pis yatdım. Yorğunluğuma baxmayaraq, qorxunc fikirlər məni yatmağa qoymurdu. Fikirləşirdim ki, buradan xilas olmaq üçün ümidim çox azdır və başıma gələcək fəlakəti gözümün önünə gətirirdim. Bu qara fikirlər məni o dərəcədə taqətdən salmışdı ki, ayağa qalxmağa əsla gücüm yetmirdi.

Mən mağaradan çıxdığım zaman, hava artıq xeyli işıqlanmışdı. Bir qədər qayaların arasında gəzdim. Göyün üzü tamamilə açıq idi. Günəş adamı yaman bərk yandırırdı. Birdən-birə hava qaraldı, ancaq bu, əsla günəşin üzərini bulud aldığı zaman olan qaranlığa bənzəmirdi. Mən başımı qaldırıb havada, yerdən təxminən iki mil qədər ucalıqda böyük, qara bir cisim gördüm ki, bu cisim adaya tərəf hərəkət edirdi. Bir neçə dəqiqəliyə günəşin qabağını tutan şey həmin bu cisim imiş. Ancaq hava qaralan zaman mən soyuqluq hiss etmədim. Elə bir təsir hasil oldu ki, guya mən bir qayanın kölgəsində durmuşdum. Bu cisim par-par parıldayır, günəş işığına qərq olmuş dənizi əks etdirirdi. Mən sahildən iki yüz yard aralı olan uca bir qayanın üstünə çıxıb gördüm ki, bu yekə cisim, demək olar ki, dimdik aşağı enir. Bizim aramızda bir ingilis mili qədər məsafə olardı. Mən müşahidə borusunu götürüb, həmin cismin eniş tərəfində aşağı düşən və yuxarı qalxan adamları görə bildim. Ancaq bu adamların nə iş gördüklərini seçə bilmədim.

Şadlıqdan ürəyim çırpındı. Mən ümid edirdim ki, bu hadisə nəticəsində, hər halda, buradan xilas olacağam. Ancaq, eyni zamanda (oxucu bunu yaxşı başa düşər), təsviredilməz bir heyrətlə havada süzən bu adaya baxırdım. Bunun üzəri adamlarla dolu idi və bunlar mənə elə gəlirdi ki, öz arzularına görə həmin adanı istədikləri tərəfə

sürə bilirdilər. Ancaq bu dəqiqədə mənim bu barədə fəlsəfi düşüncələrə dalmağa macalım yox idi. Məni hər şeydən artıq maraqlandıran bu adanın hansı tərəfə getməsi məsələsi idi; çünki o deyəsən havada durmuşdu. Lakin bir neçə dəqiqədən sonra o yenə hərəkətə gəldi və mənə o qədər yaxınlaşdı ki, onu xeyli aydın görə bildim.

Adanın kənarları pillə halında bir neçə qat eyvan kimi üst-üstə düzülmüşdü. Bu eyvanları dikinə qoyulmuş pillələr həm bir-birilə, həm də adanın təpəsilə birləşdirirdi. Ən aşağı eyvanda bir neçə adam durmuş və oturmuşdu. Onlardan bəziləri uzun tilovlarla balıq tutur, bəziləri isə onlara tamaşa edirdi. Mən keçə papağımı çıxarıb yellətməyə başladım (şlyapam çoxdan köhnəlib yararsız hala düşmüşdü); ada, üzərində durduğum qayaya bir qədər də yaxınlaşdıqdan sonra, mən var gücümlə çığırmağa başladım. Bir neçə dəqiqədən sonra adanın mənə sarı çevrilmiş tərəfində camaatın yığışdığını gördüm. Adamlar barmaqları ilə məni göstərir, həyəcanla əl-qollarını yelləyirdilər. Başa düşdüm ki, onlar səsimə səs verməsələr də, məni görüblər. Birdən-birə camaatın içindən dörd-beş nəfər ayrılıb, pillələrlə adanın təpəsinə doğru yüyürməyə başladı. Orada mən onları gözdən itirdim. Başa düşdüm ki, bu adamlar böyük bir adamın yanına əmr almaq üçün gedirlər.

Camaat get-gedə çoxalırdı. Yarım saat çəkmədi ki, ada mənim durduğum qayaya tamamilə yaxınlaşdı, onun aşağı eyvanı mənimlə bir səviyyədə, qayanın təpəsindən yüz yard qədər aralı idi. Mən yalvarıcı bir vəziyyət alıb, şikayətli səslə imdada çağırmağa başladım. Ancaq bütün yalvarışlarım cavabsız qaldı. Mənə hamıdan yaxın duranlar, paltarlarından göründüyünə görə, adlı-sanlı adamlar idilər. Onlar daim mənə sarı baxaraq, nə barədə isə ciddi surətdə məşvərət edirdilər.

Nəhayət, onlardan biri səs cəhətindən italyancaya bənzər təmiz, zərif və ahəngdar bir dil ilə nə isə çığırdı. Mən italyanca cavab verdim. Güman edirdim ki, onlar sözlərimi başa düşməsələr də, italyan dili onlara hər bir başqa dildən daha artıq xoş gələr. Ancaq mənim nə demək istədiyimi sözsüz də başa düşmək çətin deyildi.

Mənə qayadan sahilə enməyi işarə etdilər. Həmin saat onların dəvətinə əməl etdim. Uçan ada düz başım üstündə aşağı enməkdə idi. Yuxarıdan tez zəncirə bənd olmuş bir oturacaq salladılar. Mən onun üstündə oturdum və onlar məni qarqaraların köməyilə yuxarı qaldırdılar.

İKİNCİ FƏSİL

Laputalıların xasiyyət və adətləri. Laputada elm. Kral və onun sarayı. Müəllifin sarayda qəbul edilməsi. Laputalıların arvadları. Laputalıların qorxu və həyəcanları.

Adaya çıxan kimi, camaat məni araya aldı. Mənə yaxın duran adamlar görünür ki, yüksək sinfə mənsub idilər. Onlar hamısı böyük bir heyrətlə məni süzürdülər. Ancaq mən özüm də onlara borclu qalmırdım: hələ ömrümdə görkəmləri, paltarları və üzlərinin ifadəsi cəhətdən insanı bu qədər heyrətə gətirən məxluq görməmişdim. Onların hamısının başı sağa və ya sola əyilmişdi, gözlərinin biri içəriyə doğru çəp olub, o biri isə düz yuxarı baxırdı. Üst paltarları Günəş, Ay, ulduz şəkillərilə və bunların arasında skripka, fleyta, arfa, şeypur, gitara, klavikord və bir çox başqa, Avropada məlum olmayan, musiqi alətləri şəkillərilə bəzənmişdi. Uzaqda əyinlərində nökər paltarı olan bir neçə adam gördüm. Onların əllərində alçaq ağaclar var idi. Bu ağacların ucuna içi hava ilə dolu qovuqlar bağlanmışdı.

Mənə sonra söylədilər ki, bu qovuqların içinə bir qədər quru noxud və ya xırda daş töküblərmiş. Nökərlər arabir həmin bu qovuqları öz yanlarında durmuş adamların dodaqlarına və qulaqlarına toxundururdular.

Mən xeyli müddət bunu nə üçün etdiklərini başa düşə bilmədim. Görünür bu adamlar o qədər dərin mənalı düşüncələrə dalmışdılar ki, nə həmsöhbətlərinin sözlərini eşitməyə, nə də onlara cavab verməyə taqətləri yox idi. Bu dalğınlıqdan ayılmaq üçün onların danışmaq və eşitmək üzvlərinə sırf fiziki, xarici bir təsir etmək zəruri idi. Buna görə də varlı adamlar öz qulluqçuları ilə bərabər, bir də qovuqvuranlar saxlayırlar (yerli dildə buna *klay menole* deyirlər) və onlar heç bir zaman yanlarında qovuqvuran xidmətçi olmadan evdən bayıra çıxmazlar. Qovuqvuranın vəzifəsi bundan ibarətdir ki, bir neçə adam bir-birinə rast gəldikdə, qovuqları yavaşcadan danışmalı olan adamın ağzına və eşitməli olan adamın sağ qulağına toxundursun. Gəzinti zamanı qovuqvuran arabir qovuğu öz ağasının gözlərinə toxundurmalıdır; çünki belə etməsə, ağası hər bir addımda ya çalaya düşər, ya başını dirəyə toxundurar, ya da yoldan ötən adamlarla toqquşar.

Mən bütün bu təfsilatı oxucuya bildirməliyəm; çünki belə olmasa, bu adamların məni pillələrlə adanın təpəsinə, oradan da kralın sarayına apararkən etdikləri hərəkət və ədalarını başa düşə bilməzlər. Onlar pillələri çıxarkən tez-tez nə etməli olduqlarını yadlarından çıxarır və məndən geridə qalırdılar. Bu zaman qovuqvuranlar öz ağalarını dalğınlıqdan ayıldırdılar. Görünür nə mənim zahiri görkəmim, nə paltarım, nə də ki dərin düşüncələrdən tamamilə uzaq olan qara camaatın heyrətli çığırtıları onlara heç təsir etmirdi.

Nəhayət, biz saraya çatıb, görüş salonuna girdik. Burada kral, ətrafında da ən məşhur əyanlar taxtda oturmuşdu. Taxtın qabağında üstü qlobuslar, planet dairələri və cürbəcür riyaziyyat alətlərilə dolu olan bir stol qoyulmuşdu. Bizim gəlişimiz saray xidmətçilərinin böyük səs-küy qoparmasına səbəb olmuşdusa da, ancaq əlahəzrət kral bizə əsla etina etmədi. Kral çətin bir məsələnin həlli üçün xəyala getmişdi və o, həmin məsələnin həll edincəyədək biz, heç olmazsa, bir saat gözləməli olduq. Kralın hər iki tərəfində əllərində qovuq olan iki xidmətçi oğlan durmuşdu. Onlardan biri kralın məsələni həll etdiyini görüb ehtiramla qovuğu onun dodağına, o biri isə sağ qulağına toxundurdu. Kral diksinib, nəzərlərini mənə və məni müşayiət edən adamlara dikdi. O bir neçə söz söylədi. Bundan sonra əlində qovuq olan cavan oğlan həmin saat mənə yaxınlaşdı və qovuğu yavaşcadan mənim sağ qulağıma toxundurdu. Mən işarə ilə onu başa saldım ki, buna ehtiyacım yoxdur. Sonradan öyrəndiyimə görə, bu hərəkətin əlahəzrət kral və bütün saray adamlarında mənim zehni qabiliyyətlərim barədə çox alçaq bir təsəvvür yaranmasına səbəb olmuşdu.

Kral mənə bir neçə sual verdi. Mən bildiyim bütün dillərdə ona cavab verdim. Bizim bir-birimizin dilini başa düşmədiyimiz aydın olduqda, kral əmr etdi ki, məni sarayın otaqlarından birinə aparsınlar. Orada yanımda iki xidmətçi qoydular. Bu kral, əvvəllər rast gəldiyim bütün krallara nisbətən, xaricilərə qarşı tamamilə mehriban idi. Bizə yemək gətirdilər və mənim taxt-tac salonunda kralın yanında gördüyüm dörd əyan böyük bir iltifat göstərib mənimlə bir süfrəyə oturdu. Bizə, hər dəfəsində üç cür xörəkdən ibarət iki dəfə yemək verdilər. Birinci dəfədə tərəfləri bərabər olan üçbucaq şəklində qoyun kürəyi, romboid şəklində bir parça mal əti və sikloid şəklində pudinq verdilər. İkinci dəfə skripka şəklində hazırlanmış iki ördək, fleyta və qaboy şəklində sosiska və kolbasa, arfa şəklində

dana döşü gətirdilər. Xidmətçilər bizim üçün konus, silindr, paraleloqram və başqa həndəsi cisimlər şəklində çörək doğradılar.

Yemək zamanı mən buranın dilində cürbəcür cisimlərə nə ad verildiyini soruşmağa cəsarət etdim. Qovuqvuranların köməyilə bu əyanlar mənə xeyli mehribanlıqla cavab verdilər. Yəqin onlar elə güman edirlər ki, mən onlarla sərbəst danışmaq imkanını qazansam, onların qabiliyyətlərinə olan heyranlığım bir qədər də artmış olar. Bir az sonra mən artıq çörək, su və özümə lazım olan başqa şeyləri onlardan istəyə bilirdim.

Nahardan sonra mənim yemək yoldaşlarım çıxıb getdilər və kralın əmrilə qovuqvuranlarla birlikdə yanıma yeni bir adam gəldi. O adam özü ilə qələm, mürəkkəb, kağız və üç-dörd kitab gətirib, işarə ilə məni başa saldı ki, ona yerli dili mənə öyrətmək əmr olunub. Biz dörd saat məşğul olduq. Bu müddətdə mən bir neçə cərgə söz yazıb, bir neçə xırda cümlə öyrəndim. Müəllimim tez-tez xidmətçilərdən birinə bir şey gətirib gəlmək və ya dönmək, əyilmək, oturmaq, qalxmaq, yerimək və sair bu kimi əmrlər verir və mən onun söylədiyi hər cümləni təkrar edib yazırdım. O, kitabdan mənə həmçinin Günəşin, Ayın, ulduzların, zodiak, tropik və qütb dairələrinin şəkillərini göstərib, bir çox yastı və stereometrik cisimlərin adlarını söyləyirdi. O bütün musiqi alətlərinin adlarını söyləyib təsvir edir və mən bunların hər birini çaldıqda, işlədilən texniki istilahlarla tanış edirdi. O getdikdən sonra mən bütün bu sözləri mənaları ilə birlikdə əlifba tərtibilə yazdım. Yaddaşım yaxşı olduğundan bir neçə gün ərzində Laputa dilində xeyli söz öyrəndim.

Mən, *Laputa* sözünün haradan əmələ gəldiyini heç vəchlə öyrənə bilmədim. Bu sözün mənası, məncə, *uçan* və *üzən* ada deməkdir. *Lap* sözü indi işlədilməyən qədim bir söz olub, "uca" mənasını verir. *Untu* sözü isə "hökmdar" deməkdir. Alimlərin söylədiyinə görə, təhrif edilmiş *Lapuntu* sözü *Laputa* kəlməsi də buradan əmələ gəlmişdir. Ancaq mən bu sözün belə izah edilməsinə razı deyiləm; çünki bu mənə bir qədər uydurma kimi görünür. Mən cürət edib, oranın alimlərinə bu sözün əmələ gəlməsi barəsində öz rəyimi söylədim. Mənim fikrimcə, *Laputa* sözü *lapauted* sözündən başqa bir şey deyildir: *lap* sözü Günəş şüalarının dənizin səthində oyanması, *auted* sözü isə qanad deməkdir. Ancaq mən öz rəyimin dürüst olduğuna arxayın deyiləm və bunu yalnız *dərin düşüncəli oxucuların mühakiməsinə buraxıram**.

Kralın mənə baxmaq üçün təyin etdiyi saray xidmətçiləri paltarımın çirklənmiş və köhnəlmiş olduğunu görüb, mənə təzə kostyum tikmək üçün həmin saat dərzi çağırtdırıb, ölçü götürməsini əmr etdilər. Usta bu tapşırığı yerinə yetirərkən, öz avropalı həmkarlarına nisbətən tamamilə başqa cür hərəkət edirdi. Hər şeydən əvvəl, o, kvadrat vasitəsilə mənim boyumu ölçdü, sonra əlinə pərgar və cədvəl taxtası alıb kağızda mənim bədənimin ölçü və şəklini hesablayıb təyin etdi. Altı gündən sonra paltar hazır oldu. Bu paltar əsla bədənimə görə tikilməmişdi, əynimdə çox pis dururdu. Usta məni başa saldı ki, yəqin o hesablayanda bir səhv buraxmışdır. Ancaq buna mənim çox da acığım tutmadı. Ətrafımda olan saray adamlarının paltarına baxdıqda, məlum olmuşdu ki, belə səhvlər çox tez-tez buraxılır.

Başıma gələn hadisələrdən sonra özümü çox yorğun hiss edirdim. Bundan başqa, layiqli bir paltarım da yox idi. Ona görə mən bir neçə gün evdən eşiyə çıxmayıb, bu müddətdə buranın dilini daha dərindən öyrənə bildim. Mən bir də saraya getdiyim zaman, kralın bir çox suallarına kifayət dərəcədə cavab verə bilirdim. Əlahəzrət kral əmr etdi ki, adanı bütün krallığın paytaxtı olan və aşağıda yer üzərində yerləşmiş Laqado şəhərinə, şimal-şərqə doğru sürsünlər. Bunun üçün doxsan liq yol getmək lazım idi və bizim səyahətimiz dörd gün yarım sürdü. Maraqlıdır ki, mən adanın havada hərəkətini əsla hiss etmirdim. O biri gün saat on bir radələrində kral, əyanlar, saray xadimləri və məmurlar musiqi alətlərini götürüb konsert verdilər. Bu konsert aravermədən üç saat davam etdi. Qulaqlarım tutuldu və bunun nə üçün edildiyini heç cür anlaya bilmədim. Ancaq müəllimim məni başa saldı ki, bu uçan adada yaşayan əhali fəza musiqisini dərk etmək qabiliyyətinə malikdir. Bu musiqi yalnız müəyyən vaxtlarda eşidilir. Bu vaxta artıq az qaldığından, hər bir saray xadimi ən yaxşı çaldığı musiqi alətilə bu dünya konsertində iştirak etməyə hazırlaşır.

Bir Laqadoya doğru uçduğumuz zaman, əlahəzrət kral öz təbəələrindən ərizə qəbul etmək üçün adanı bəzi şəhər və kəndlərin üzərində saxlamağı əmr etdi. Bu məqsədlə, ucuna kiçik bir şey bağlanmış nazik iplər aşağı salladıldı. Əhali öz ərizələrini bu iplərin uclarına bağlayır və onları məktəblilərin öz badbanlarının quyruqlarına bağladıqları kağız parçaları kimi çəkib yuxarı qaldırırdılar. Bəzən biz aşağıdan şərab və yeməli şeylər də alırdıq. Bütün bunları qarqaralarla yuxarı çəkirdilər.

Onların danışıq dillərini öyrənəndə riyaziyyat sahəsində olan məlumatım mənim işimə xeyli yaradı. Bunların dilində riyaziyyat və musiqidən alınmış ifadələr çoxdur. Bu adamların başları həndəsi çertyoj və fiqurlarla doludur. Məsələn, onlar qadın və ya hər hansı bir heyvanın gözəlliyini təsvir etmək istəyəndə, mütləq romb, dairə, paraleloqram, ellips kimi terminlər işlədir və yaxud musiqidən müqayisələr alırlar. Mən kralın mətbəxində bir çox riyaziyyat və musiqi aləti gördüm ki, aşpazlar əlahəzrətin süfrəsinə veriləcək qızarmış ətləri bu şəkildə doğrayırlar.

Laputalıların evləri çox pis tikilmişdir. Divarlar, demək olar ki, əyridir; heç bir otaqda düz küncə rast gəlmək olmaz. İş burasındadır ki, onlar tətbiqi həndəsəyə dərin nifrət edirlər. Onların fikrincə bu, son dərəcə qaba bir elmdir və bununla yalnız qaba peşəkarlar məşğul ola bilər. Onlar yalnız yüksək mücərrəd məsələlərlə məşğul olurlar və onların fəhlələrə verdikləri bütün göstərişlər o qədər mürəkkəb və qeyri-həyati olur ki, bu səbəbdən tez-tez ən qəribə səhvlər əmələ gəlir. Onlar kağız üzərində cədvəl taxtası, karandaş və pərgar işlətməkdə çox mahirdirlər. Ancaq mən adi həyatda bunlar kimi kobud, yöndəmsiz və qeyri-mütəhərrik, riyaziyyat və musiqidən başqa hər bir şeyi bunlar qədər gec başa düşən adamlara heç vaxt rast gəlməmişəm. Onlar çox pis mütəfəkkirdirlər. Mühakimələrini rədd etmək çox asandır. Əlbəttə ki, həqiqət onların tərəfində olduğu zaman, bu mümkün deyildir, ancaq belə hallar çox az olur. Bu adamlar təsəvvür, xəyal və ixtiraçılıqdan tamamilə məhrumdurlar. Onların dilində hətta bu anlayışları ifadə edən sözlər də yoxdur. Riyaziyyat və musiqidən başqa onlar heç bir şey bilmir və bilmək də istəmirlər.

Laputalılardan çoxu, xüsusən, astronomiya ilə məşğul olanlar, açıq söyləməkdən utansalar da, astrologiyaya[1] inanırlar. Ancaq onların yeniliklərə və siyasətə olan düşkünlükləri məni hər şeydən artıq təəccübləndirirdi. Onlar həmişə son yenilikləri bir-birindən soruşur və dövlət işləri barəsində saatlarla çənə döyüb, mənasız partiya ixtilaflarına aid qızğın mübahisələrə girişirlər. Riyaziyyat ilə siyasət arasında heç bir ümumi cəhət görməsəm də, həmin meyli mən Avropa riyaziyyatçılarının da çoxunda müşahidə etmişəm. Mənə elə gəlir ki, bu meyil, insanlar arasında bizi, mahiyyətcə heç

[1] *Astrologiya* – qədim zamanlarda ulduzlar haqqında sxolastik elm, həmçinin ulduzların vəziyyətinə görə falaçma.

bir münasibətimiz olmayan şeylərlə maraqlanmağa sövq edən bir zəiflikdən irəli gəlir.

Laputalılar daim təşviş içindədirlər. Onlar heç bir zaman mənəvi rahatlıqdan zövq almırlar. Ən qəribəsi budur ki, onlar başqalarını əsla həyəcanlandırmayan şeylər üçün təşvişə düşürlər. Onları, hər şeydən artıq, səma cisimlərində dəyişkənlik əmələ gələ biləcəyi fikri qorxudur. Onlar qorxurlar ki, Yer daim Günəşə yaxınlaşdığı üçün, nəhayət, Günəş onu udacaqdır. Onlar bir zaman, guya, Günəşin üzünü möhkəm bir qabıq tutacağı və onun işıq verməyəcəyi fikrindən dəhşətə gəlirlər. Onlar belə güman edirlər ki, Yer axırıncı quyruqlu ulduzun quyruğuna toxunmaqdan zorla qurtarmışdır və onların hesablamalarına görə, otuz bir ildən sonra gələcək yeni bir quyruqlu ulduz, yəqin ki, Yer kürəsini məhv edəcəkdir. Ancaq məsələ bununla bitmir. Laputalıların fikrinə görə, Günəş hər gün heç bir əvəz almadan, öz hərarətini sərf etdiyindən, nəhayət, yanıb məhv olacaqdır. *Bu isə Yerin və Günəşdən işıq alan bütün planetlərin labüd məhvinə səbəb olacaqdır**.

Laputalılar bütün bu fəlakətləri daim gözlədiklərindən, elə bir qorxuya düşmüşlər ki, öz yataqlarında rahat yata bilmir. Həyatın adi ləzzət və sevincini duymurlar. Səhər-səhər bir laputalı öz tanışına rast gəldikdə, hər şeydən əvvəl, soruşur ki, Günəşin vəziyyəti necədir? O, doğan və batan zaman nə vəziyyətdə idi, yaxınlaşan quyruqlu ulduzla toqquşmaqdan qurtarmağa ümid varmı? Onlar bu cür söhbətləri, uşaqların cinlər və divlər barədə qorxulu nağılları dinlədikləri kimi saatlarla davam etdirə bilərlər. Onlar bu söhbətləri acgözlüklə dinləyib, sonra isə qorxudan yata bilmirlər. Bu adadakı qadınlar kişilərə əsla bənzəmirlər. Onlar bu dünyadakı həyatı sevən və öz ərlərinə nifrət edən diribaş gümrah insanlardır. Onlar adadakı tənha həyatlarından həmişə şikayətlənirlər. Ancaq, fikrimcə, bu ada dünyanın ən gözəl bir guşəsidir. Adada yaşayan qadınlar paytaxt əyləncələri üçün həsrət çəkirlər. Adada ixtiyarlarında olan bütün bəzək-düzək və bolluq onları əsla təmin etmir. Ancaq dərd burasındadır ki, yerə ancaq kralın xüsusi icazəsilə enmək olar. Bu icazəni isə çox çətinliklə almaq mümkündür. İş burasındadır ki, sarayda olan nüfuzlu adamlar öz uzun təcrübələri əsasında inanmışlar ki, qadınları yerdən adaya qaytarmaq çox çətindir. Buna görə də onların paytaxta getmələrinə hər cür əngəl törədirlər.

Bir aydan sonra mən Laputa dilini xeyli yaxşı öyrəndim. İndi kralın mənə verdiyi sualların çoxuna sərbəst cavab verə bilirdim. Əlahəzrət

kral mənim gördüyüm ölkələrin qanunları, idarə üsulu, tarixi, dini adət və ənənələrilə əsla maraqlanmırdı. O yalnız riyaziyyatın vəziyyəti barədə suallar verir və qovuqvuranlar onun diqqətini cəlb etmək üçün nə qədər çalışırdılarsa da, mənim cavablarımı böyük bir laqeydlik və saymazlıqla dinləyirdi.

ÜÇÜNCÜ FƏSİL

Müasir fəlsəfə və astronomiyanın həll etdiyi məsələ. Laputalıların astronomiya sahəsindəki böyük nailiyyətləri. Kralın üsyanları yatırmaq üsulu.

Əlahəzrət kral lütf edib adanın görməli yerlərini gəzməyə mənə icazə verdi. Müəllimə tapşırılmışdı ki, yanımca getsin. Adanı hərəkətə gətirən mexanizm və ya təbii qüvvələrin nədən ibarət olduğunu bilmək məni hər şeydən artıq maraqlandırırdı. Bu barədə bu saat nəql edəcəyəm.

Uçan və ya üzən ada düzgün dairə halında olub, diametri yeddi min səkkiz yüz otuz yeddi yard və ya dörd yarım mil qədərdir. Beləliklə, onun sahəsi on min akra bərabərdir. Adanın hündürlüyü üç yüz yarddır. Onun bünövrəsi iki yüz yard qalınlığında almaz laydan ibarətdir. Aşağı səthi həmişə yerə doğru çevrilmişdir. Bu layın üzərində müxtəlif dağ-mədən təbəqələri olub, onların da üstü on və ya on iki fut dərinlikdə məhsuldar qaratorpaqla örtülüdür.

Adanın mərkəzində, diametri əlli yard olan bir uçurum var ki, buradan astronomlar böyük bir mağaraya enirlər. Bu mağara günbəz şəklində olduğuna görə *Flandona Qaqnole* və ya Astronomiya Mağarası adlanır. Bu mağara almaz təbəqəsinin yüz yard dərinliyindədir. Bu mağarada həmişə iyirmi çıraq yanır və bunlar almaz divarlarda əks edib, hər bir guşəni parlaq surətdə işıqlandırır. Bütün mağaranın içi cürbəcür sekstantlar, kvadrantlar, teleskoplar, astrolyabiyalar və sair astronomik cihazlarla doludur. Bu mağaranın içərisində ən görkəmli şey toxucu məkiyinə bənzər iri bir maqnitdir ki, adanın taleyi bundan asılıdır. Bu maqnitin uzunu altı, eni isə ən qalın yerdə üç yarda qədərdir. Maqnitin lap mərkəzində bir deşik

açılmışdır ki, buradan çox möhkəm bir almaz ox keçir. Bu ox, öz yerinə o qədər kip keçirilmişdir ki, ona bir balaca toxunduqda, maqnit hərlənməyə başlayır. Maqnit içi ovulmuş bir almaz silindrin içərisindən asılmışdır. Silinrdrin divarlarının qalınlığı dörd, hündürlüyü də dörd futa bərabərdir. Silindrin diametri on iki futa çatır. Silindr şəkli etibarilə nəhəng almaz üzüyə bənzəyir. Silindr, hər biri altı yard hündürlüyündə səkkiz almaz paya üzərinə üfüqi vəziyyətdə möhkəm bərkidilmişdir. Onun divarlarının iç üzündə, ortada hərəsi on iki düym dərinlikdə iki yuva düzəldilmişdir. Üzərində maqnitin hərləndiyi oxun ucları bu yuvalara qoyulmuşdur.

Bizim təsvir etdiyimiz maqniti heç bir qüvvə yerindən tərpədə bilməz, çünki silindr və onun ayaqları nəhəng almaz lay ilə bitişikdir ki, bu da adanın özülünü təşkil edir.

Ada bu maqnitin köməyilə yuxarı qalxıb aşağı enir və bir yerdən başqa yerə hərəkət edə bilir, çünki padşahın hökmü altında olan yer səthinə nisbətən maqnitin bir ucunda çəkici, o biri ucunda isə itələyici müsbət qütbü yerə doğru çevrilmiş olur, bu zaman ada aşağı enir. Maqnitin mənfi qütbü aşağı çevrildiyi zaman ada yuxarı qalxır. Maqnit çəp vəziyyətdə olduqda, ada da çəp istiqamətdə hərəkət edir; çünki bu maqnitin qüvvəsi həmişə müsbət üçün çevrildiyi istiqamətə yönəlir.

Adanın necə hərəkət etdiyini başa düşmək üçün fərz edək ki, "AB" xətti Balnibarbi ölkəsindən keçir. "VQ" xətti maqnit özüdür. "V" nöqtəsi onun mənfi, "Q" nöqtəsi isə müsbət qütbüdür. Tutaq ki, ada "V" nöqtəsi üzərindədir. Qoy maqnit "VQ" vəziyyətinə çevrilmiş olsun. Bu zaman onun mənfi qütbü çəpinə olaraq yerə doğru çevrilmiş olur. Belə olduqda, ada "Q" istiqamətində hərəkət etməyə başlayacaqdır. O, bu nöqtəyə çatdıqda, maqniti elə çevirək ki, onun müsbət qütbü "D" istiqamətinə dönmüş olsun. O zaman ada da çəp istiqamətdə "D" nöqtəsinə sarı hərəkət edəcəkdir. Əgər indi maqnitin mənfi qütbünü "E"-yə sarı aşağı çevirmiş olsaq, ada çəpinə olaraq, "E" nöqtəsinə doğru, oradan da müsbət qütbü "J" nöqtəsinə çevirsək, adanı "J" nöqtəsinə doğru sövq etmək mümkün olar. Beləliklə, maqnitin vəziyyətini dəyişdirərək, adanı çəpəki xətlər ilə qaldırmaq və endirmək olar və belə qalxıb-enmə sayəsində, onu ölkənin bir hissəsindən o biri hissəsinə hərəkət etdirmək mümkündür.

Ancaq qeyd etmək lazımdır ki, uçan ada yalnız Laputa padşahının məmləkəti üzərində hərəkət edə bilər. İş burasındadır ki, böyük

maqnitə təsir edən mədənlər yalnız bu krallığın torpaqlarındadır. Eyni zamanda ada yer üzərində dörd mildən yuxarı qalxa bilməz, çünki çox yüksəkliyə qalxdıqda, maqnitin təsiri kəsilir. Maqniti düz üfüqi vəziyyətə çevirdikdə, ada dayanır. Bu hadisəni izah etmək çətin deyildir. Maqnitin qütbləri yerdən eyni məsafədə olduqlarından, hər ikisi eyni qüvvə ilə – biri adanı aşağı doğru çəkir, digəri isə yuxarı qaldırır. Beləliklə, ada yerindən hərəkət edə bilmir.

Maqnit, təcrübəli astronomların sərəncamındadır. Onlar maqnitin vəziyyətini kralın əmri ilə dəyişdirirlər. Bu alimlər ömürlərinin çox hissəsini səma cisimlərinin hərəkətini müşahidə etməkdə keçiriblər. Buradakı teleskoplar keyfiyyətcə bizimkilərdən xeyli üstündür. Onların ən böyüyü üç futdan uzun deyildir. Ancaq onlar bizim yüz futluq teleskoplardan xeyli qüvvətlidir. Bu üstünlük sayəsində laputalılar bizim Avropa astronomlarını öz kəşfiyyatları ilə xeyli geridə qoymuşlar. Belə ki, onlar iki yüz min sabit ulduzun kataloqunu tərtib etmişlər. Halbuki, bizim kataloqların ən mükəmməlində bu rəqəmin üçdə birindən artıq ulduz yoxdur. Bundan başqa onlar Mars ətrafında hərəkət edən iki ulduz və ya iki peyk də kəşf etmişlər. Bunlardan ən yaxında olanı həmin planetdən onun diametrinin üç mislinə bərabər bir məsafədə, ikincisi isə beş mislinə bərabər məsafədədir.

Laputalılar söyləyirlər ki, onlar doxsan üç müxtəlif quyruqlu ulduzu müşahidə edib, onların qayıtma dövrünü böyük bir dürüstlüklə təyin etmişlər. Əgər bu, doğru isə, onların müşahidələrinin nəticəsini hamıya çatdırmaq çox yaxşı olardı. Bu, quyruqlu ulduzlara aid *indiki geridə qalmış nəzəriyyənin mükəmməlləşməsinə kömək etmiş olardı**.

Başa düşmək çətin deyildir ki, uçan adaya malik olmaq Laputa kralına yerdəki bütün başqa padşahlara nisbətən çox böyük üstünlüklər verir. Əgər o, öz nazirlərini onun istədiyi kimi iş görməyə məcbur edə bilsəydi, dünyada ən hökmran bir padşah ola bilərdi. Ancaq nazirlər çox yaxşı başa düşürlər ki, hakim – mütləq bir padşahın nədimi olmağa çox da bel bağlamaq olmaz. Bundan başqa, onlardan hər birinin yerdə çox böyük mülk və torpaqları vardır. Buna görə də ölkənin boyunduruq altına alınması onlar üçün əlverişli deyildir və onlar buna razı olmurlar.

Aşağıda, hər hansı bir şəhərdə üsyan qalxdıqda və bu şəhər əhalisi vergi verməkdən boyun qaçırdıqda, kral onları itaət altına almaq üçün iki vasitəyə əl atır. Bunlardan birincisi və bir qədər yumşağı bun-

dan ibarətdir: kral adanı üsyan etmiş şəhərin və onun ətrafındakı yerlərin üzərində saxlamağı əmr edir. Beləliklə, bu üsyankar camaatı günəşin və yağışın bərəkətli təsirindən məhrum edir, onların ölkəsində aclıq və xəstəlik başlanır. Əgər kralın fikrincə, həmin şəhərin əhalisi böyük bir cinayət işləmişsə, bu cəzanı qüvvələndirə bilər. Onun əmrilə şəhərin üzərinə böyük daşlar yağdırmağa başlayırlar ki, əhali yalnız anbarlara və zirzəmilərə girib gizlənməklə, özlərini qurtara bilirlər, çünki evlər tamamilə uçulub dağılır. Əgər üsyankarlar öz inadlarında davam edərlərsə, kral başqa və daha qəti vasitəni işə salır: ada aşağıya, üsyankarların düz başının üstünə enir və onları evləri ilə birlikdə sıxıb əzişdirir. Lakin bu son tədbirə kral çox nadir hallarda əl atır. Nazirlər də belə bir tədbiri ona çox tez-tez məsləhət görmürlər. Bir tərəfdən onlar xalqın nifrət və intiqamından qorxur, digər tərəfdən bununla öz mülklərinin də zərər çəkə biləcəyindən ehtiyat edirlər. Yaddan çıxarmamaq lazımdır ki, ada kralın yalnız öz şəxsi mülküdür. Əyanların bütün torpaqları, evləri və köşkləri aşağıda, yer üzərindədir. Bu ölkənin krallarının belə dəhşətli tədbirə yalnız ən zəruri hallarda və istəmədən əl atmalarının başqa və daha mühüm bir səbəbi də vardır.

Əgər məhv edilməli şəhər yüksək qayalar arasındadırsa (buradakı şəhərlərin çoxu qəsdən belə salınmışdır) və belə bir şəhərdə qüllə və ya daş qalalar çoxdursa, bu zaman ada sürətlə aşağı enərkən, onun almaz bünövrəsi zədələnə bilər. Doğrudur, bu bünövrə, söylədiyim kimi, iki yüz yard qalınlığında bütöv bir almaz laydan ibarətdir, ancaq, yenə şiddətli təkandan o parçalanar və ya şəhərin dağılması zamanı əmələ gələ bilən yığınlardan çatlaya bilər. Bu vəziyyət əhaliyə məlumdur. Buna görə də əhali öz azadlıq və əmlakına təcavüz edilməsinə qarşı müqavimət təşkil edərkən, bunu çox gözəl hesaba alır.

Kral da üsyankar bir şəhəri yer üzündən yox etmək istədikdə, adanı mümkün qədər yavaş və ehtiyatla aşağı endirməyi əmr edir. Bu zaman o, öz mərhəmət və şəfqətindən dəm vurur. Əslində isə öz almaz dairəsinin yerin səthinə toxunub sınmasından qorxur.

Mən laputalılar arasına gəlməmişdən üç il əvvəl qəribə bir hadisə baş veribmiş ki, bu hadisə, az qala, həmin padşahlıq üçün məşum bir nəticəyə səbəb olacaqmış. Kral öz torpaqları üzərindən uçub keçirmiş. Onun gəldiyi birinci şəhər krallığın ən böyük şəhərlərindən biri olan Lindalino imiş. Şəhərin əhalisi valinin zülmündən krala şikayət

edibmiş. Əvvəllərdə olduğu kimi, bu şikayətlər yenə də nəticəsiz qalıbmış. Kralın getməsindən üç gün keçməmiş, əhali şəhərin darvazalarını bağlayıb, valini həbs etmiş və qısa bir müddətdə şəhərin dörd bucağında dörd nəhəng qüllə tikibmiş. Bu qüllənin hər biri düz şəhərin mərkəzində olan itiuclu qranit qaya hündürlüyündə imiş. Onlar qüllələrin və qayanın üzərində iri maqnitlər qoyublarmış. Bu maqnitlər adanın idarə olunmasına təsir etməzsə, bunu nəzərə alıb, böyük miqdarda tez alışan yanacaq hazırlayıblarmış. Onlar od vasitəsilə adanın almaz bünövrəsini zədələmək istəyirlərmiş.

Lindalino şəhərində baş verən üsyanın xəbəri krala yalnız səkkiz aydan sonra çatır. O, adanı Lindalinoya sarı sürmək əmri verir. Bir neçə gündən sonra ada düz şəhərin üzərində durub, əhalini gün işığından və yağışdan məhrum edir. Bu tədbir kifayət etmir; çünki şəhərin ortasından böyük bir çay axırmış. Şəhər əhalisi özlərinə azuqə tədarük etməyə fürsət tapıblarmış və mühasirədən qorxuları yoxmuş. Onlar axıra qədər müqavimət etməyə qəti qərar veriblərmiş. Kral əmr veribmiş ki, adaya çox miqdarda kəndir sallasınlar. Ancaq itaətkaranə ərizələr əvəzinə, aşağıdan adaya cürətli tələblər göndərilibmiş. Onlar vurulan zərərlərin ödənilməsini, şəhər imtiyazlarının qüvvəyə mindirilməsini, şəhər əhalisinə vali seçməyə ixtiyar verilməsini və sair bu kimi ağlasığmaz şeylər tələb ediblərmiş. Bunun cavabında əlahəzrət kral adadan şəhər üzərinə iri daşlar yağdırılmasını əmr edibmiş. Ancaq şəhər əhalisi öz var-yoxunu qüllələrin və anbarların içinə toplayaraq, özləri də bu amansız cəzadan qaçıb oralarda gizlənibləmiş.

Onda kral bu məğrur adamları öz itaəti altına almağı qət edib, əmr verib ki, adanı qüllələrə və qayanın təpəsinə qırx yard qədər yaxınlaşdırıb aşağı endirsinlər. Kralın əmri yerinə yetirilmiş, ancaq məmurlar görmüşlər ki, maqniti çevirərkən, ada həmişəkindən xeyli sürətlə aşağı enir. Onlar maqniti üfüqi vəziyyətə çevirməklə, aşağı enməsinin qarşısını almışlar. Ancaq bu zaman məlum olub ki, adanı nə isə bir şey qüvvətlə aşağı çəkir və ada, beləliklə, yerə düşə bilər. Onlar bunu həmin saat əlahəzrət krala xəbər verib, adanı dərhal yuxarı qaldırmaq üçün icazə istəmişlər. Kral həmin saat öz razılığını vermişdir. Adanı xeyli yuxarı qaldırmışlar. Bundan sonra böyük bir şura çağırılmış və maqniti idarə edən məmurlar həmin şuraya dəvət edilmişlər. Bunların içərisində ən təcrübəli və bilik sahibi olan adam, bir təcrübə

aparmağa icazə istəmişdir. O, möhkəm və uzun bir ip götürüb, bunun ucuna (adanın bünövrəsini təşkil edən almaz kimi) içərisində azca dəmir külçəsi olan bir almaz parçası bağlayaraq, onu aşağı eyvandan düz qüllələrdən birinin üzərinə sallamağa başlamışdır. Ancaq almaz bir neçə yard aşağı endikdən sonra məmur hiss etmiş ki, daşı böyük bir qüvvətlə aşağı doğru çəkirlər və o, kəndiri zorla əlində saxlaya bilir. Bu vaxt bir neçə almaz parçasını aşağı atıb görüb ki, qüllələr həmin almazları özlərinə doğru çəkdilər. Bu cür təcrübə, qalan qüllələr üzərində də edilmiş və nəticə hər yerdə eyni olmuşdu.

Qorxuya düşmüş kral həmin şəhəri dağıtmaqdan əl çəkib, ona toxunmamışdır.

Nazirlərdən biri məni başa saldı ki, əgər ada şəhər üzərində çox aşağı enmiş olsaydı, daha yuxarı qalxa bilməzdi və şəhər əhalisi onu hərəkət etmək qabiliyyətindən həmişəlik məhrum edərək, kralı və onun tərəfdarlarını öldürüb, idarə üsulunu tamamilə dəyişəcəkdilər.

Bu ölkənin əsas qanunu, kralı və onun iki böyük oğlunu adadan ayrılmağı qadağan edir. Bu, eyni zamanda kraliçaya da aiddir.

DÖRDÜNCÜ FƏSİL

Müəllifin Laputanı tərk etməsi. Onun Balnibarbidə endirilməsi. Müəllifin paytaxta gəlməsi. Paytaxtın və ətrafdakı yerlərin təsviri. Bir əyanın müəllifi qonaqpərvərliklə qəbul etməsi. Onun bu əyanla söhbəti.

Adada mənə göstərilən qonaqsevərlikdən şikayətim olmasa da, etiraf etməliyəm ki, orada mənə çox da etina etmədilər. Bundan əlavə, laputalılar mənə bir qədər həqarətlə baxırdılar. Kralın və əhalinin riyaziyyat və musiqidən başqa heç bir şeylə maraqlanmadıqlarını nəzərə aldıqda, bu tamamilə aydın olar. Bu sahədə isə mənim məlumatım onlardan xeyli az idi. Ona görə də mən burada çox hörmət qazana bilməzdim.

Digər tərəfdən mən adanın bütün görməli yerlərini gözdən keçirdikdən sonra, özüm oranı tərk etmək istəyirdim. Bu adamlar mənim lap zəhləmi aparmışdılar. Onlar, doğrudan da, riyaziyyatı və musiqini

çox yaxşı bilirdilər. Lakin təhsilli laputalılar o qədər dərin düşüncələrə dalıb və huşsuz olublar ki, mən ömrümdə bunlar qədər xoşagəlməz və darıxdırıcı həmsöhbətlər görməmişdim. Buna görə də mən orada olduğum zaman onlarla söhbət etməkdən mümkün qədər çəkinir və başlıca olaraq qadınlar, tacirlər, qovuqvuranlar və xidmətçilərlə söhbət edirdim. Mən, verdiyim suallara yalnız bu adamlardan ağıllı cavablar ala bilirdim. Ancaq buna görə təhsilli laputalılar mənə daha artıq həqarətlə baxmağa başladılar.

Göstərdiyim cidd-cəhd sayəsində mən yerli dili yaxşı öyrənmişdim. Adada mən yaman darıxırdım. Burada mənə lap az etina edirdilər. Odur ki, ilk fürsət düşən kimi, buradan çıxıb getmək qərarına gəlmişdim.

Sarayda mən bir əyanla həmişə görüşürdüm. O, kralın yaxın qohumlarından idi. Bu səbəbdən də saray adamları onunla hörmətlə rəftar edirdilər. Əslində onlar bu adamı son dərəcə axmaq və cahil hesab edirdilər. O, dövlətə xeyli mühüm xidmətlər göstərmişdi. Böyük fitri qabiliyyət sahibi olub, ürəyi düz və sadiq bir adam idi. Ancaq, təəssüf ki, qulağı musiqiyə əsla həssas deyildi və düşmənlərinin söylədiyinə görə, çox zaman ahəngi tuta bilmirdi. Riyaziyyat cəhətdən də işi yaxşı deyildi. Müəllimləri çox böyük bir çətinliklə ona ən sadə riyaziyyat teoremlərini sübut etməyi öyrədə bilmişdilər. Bu əyan mənə böyük rəğbət və hörmət bəsləyirdi. Tez-tez yanıma gəlir, Avropa barədə və getdiyim ölkələrin qanunları, adətləri, əxlaq və elmi nailiyyətləri barədə məlumat almaq istəyirdi. Məni böyük bir diqqətlə dinləyir, söylədiyim sözlər barədə çox ağıllı mülahizələr deyirdi. Onun yanında da iki qovuqvuran vardı. Ancaq o, heç bir zaman onların yardımına müraciət etmir, yalnız mərasim və rəsmi qəbul zamanı onlardan istifadə edirdi. İkimiz təklikdə qaldıqda, həmişə onları azad buraxırdı.

Mən bu hörmətli zatdan xahiş etdim ki, adanı tərk etmək üçün əlahəzrət kraldan icazə almaq işində mənə kömək etsin. Lütf edib söylədiyinə görə, bu əyan mənim xahişimi təəssüflə yerinə yetirdi. O, məni adada saxlamaq üçün bir çox xoş təkliflər verdi, ancaq mən dərin minnətdarlığımı bildirib, bunları qəbul etmədim.

Fevralın 16-da mən əlahəzrət kral və saray xadimlərilə vidalaşdım. Kral mənə iki yüz ingilis funtu qiymətində olan hədiyyələr verdi. Kralın qohumu olan öz havadarımdan da eyni miqdarda bəxşişlər

aldım. Bundan başqa, o, mənə krallığın paytaxtı olan Laqado şəhərində yaşayan bir dostuna tövsiyə məktubu da verdi. Bu zaman ada, paytaxtdan iki mil məsafədə uçurdu və məni iki ay bundan əvvəl adaya qaldırarkən istifadə etdikləri həmin zəncirə bağlanmış stul ilə aşağı eyvandan yerə endirdilər.

Uçan ada padşahının yerdəki mülkləri Balnibardi adı ilə məşhur olub, paytaxtı, söylədiyim kimi, Laqado adlanır. Mən ayağımın yerə toxunduğunu hiss etdikdə xeyli sevindim. Əynimdə yerli paltar olduğundan və yerli əhali ilə danışa bilmək üçün dili kifayət dərəcədə bildiyimdən, heç bir çətinlik çəkmədən, gəlib paytaxta çıxdım. Havadarımın məni yanına göndərdiyi şəxsin evini tezliklə tapıb, tövsiyə məktubunu ona verdim və çox mehribanlıqla qəbul edildim. Adı Myunodi olan bu əyan evində mənim üçün bir otaq hazırlanmasını əmr etdi və mən paytaxtda olduğum bütün müddətdə orada yaşadım.

Gəldiyim günün sabahı ev sahibi məni bir minik arabasına oturdub, paytaxtı gəzməyə apardı. Bu şəhər Londondan iki dəfə kiçikdir. Buradakı evlər çox qəribə tikilmişdir. Bunların bir çoxu yarımxaraba halında idi. Adamlar çox əcaib bir vəziyyətdə idilər. Demək olar ki, hamısı cır-cındır içində yaşayırdılar. Onlar gözlərini bərəldərək, intizamsız halda şəhərin küçələrində o tərəf-bu tərəfə yüyürüşürdülər. Biz, şəhər darvazalarından çıxıb çölə getdik. Burada ən müxtəlif alətlərlə işləyən bir çox kəndli gördüm. Lakin onların nə işlə məşğul olduqlarını heç cür başa düşə bilmədim; çünki torpaq zahirən çox bərəkətli idisə də, ancaq heç bir yerdə nə ot, nə də taxıldan bir əlamət görünmürdü. Gördüyüm şeylərdən son dərəcə heyrətə düşüb, bunların barəsində izahat almaq üçün yoldaşıma müraciət etməyi qərara aldım. Rast gəldiyimiz adamların hamısının üzündə bir qayğı vardı. Hamısı hara isə tələsirdi. Həm şəhərdə, həm də çöllərdə, hamı nə iləsə məşğul idi. Amma, bununla belə, bütün bu qızğın fəaliyyətin heç bir nəticəsi görünmürdü. Əksinə, mən heç bir yerdə bu cür pis becərilmiş tarlalar, bu cür pis tikilmiş evlər və bu cür taqətdən düşmüş və dilənçi kimi cır-cındır içində yaşayan adamlar görməmişdim.

Cənab Myunodi çox məşhur bir zat idi. O, bir neçə il Laqado şəhərinin valisi olmuşdu. Ancaq nazirlərin fitnələri nəticəsində, guya, bacarıqsızlığına görə vəzifəsindən kənar edilmişdi. Lakin bununla bərabər o, kralın iltifatından məhrum olmamışdı. Kral, onu çox ağıllı olmasa da, etibarlı və sağlam düşüncəli bir adam hesab edirdi.

Myunodi mənə çox təmkinlə və qısa-qısa cavablar verirdi. O, yalnız bunu söylədi ki, mən bu ölkə və onun əhalisi barədə düzgün bir fikrə gələ bilmərəm, çünki hələ burada çox az qalmışam, hər xalqın isə öz adət və ənənələri vardır. Bu sözlərdən sonra o, söhbətin mövzusunu dəyişdi. Ancaq biz evə qayıtdığımız zaman o məndən öz evinin xoşuma gəlib-gəlmədiyini, evin tikilişində bir nöqsan görüb-görmədiyimi və onun xidmətçilərinin paltarları və zahiri görkəmləri barədə rəyimi soruşdu. O, belə sualları çəkinmədən verə bilərdi; çünki onun evində hər bir şey öz səliqə-sahmanı ilə olub, xeyli zərif və gözəl idi. Mən cavab verdim ki, o cənabın zəkası, şöhrəti və sərvəti onu həmvətənlərinin cəhalət və ya son dərəcə yoxsulluqları nəticəsində əmələ gələn bütün uyğunsuzluqlardan qorumuşdur. Bunun cavabında Myunodi söylədi ki, bu cür söhbətləri biz onun şəhərdən iyirmi mil qədər kənarda olan köşkündə etsək, daha yaxşı olar. O cənab sabah həmin yerə getməyi təklif etdi və mən buna böyük bir şadlıqla razılıq verdim.

Yolda Myunodi mənim diqqətimi kəndlilərin torpağı becərərkən işlətdikləri müxtəlif üsullara cəlb etdi. Bunlar hamısı mənim üçün naməlum və tamamilə anlaşılmaz idi, çünki bəzi müstəsna hallardan başqa, mən tarlalarda nə bir sünbül, nə də ot görə bilmədim. Lakin üç saat yol getdikdən sonra mənzərə tamamilə dəyişildi. Yerlilərin gözəl evləri, dövrəsinə çəpər çəkilmiş tarlalar, üzümlüklər, sıx taxıl bitmiş zəmilər və yaşıl çəmənlər görünməyə başladı. Mən çoxdan bəri belə gözəl bir mənzərə görməmişdim. Həmin cənab fərəhləndiyimi görüb söylədi ki, buradan onun torpaqları başlanır. Bu zaman o, dərindən köksünü ötürüb əlavə etdi ki, öz təsərrüfatını guya pis apardığı və başqalarına pis nümunə göstərdiyi üçün, həmvətənliləri ona nifrət edirlər.

Nəhayət, biz evə çatdıq. Bu, gözəl və qədim memarlıq üslubu ilə tikilmiş möhtəşəm bir bina idi. Fəvvarələr, bağlar, xiyabanlar, kiçik meşələr – hər şey düşünülmüş və böyük bir səliqə ilə tikilmişdi. Mən gördüyüm şeylər barədə bol-bol tərif söyləməkdən çəkinmədim. Ancaq həmin cənab sözlərimə əsla etina etmədi. Axşam yeməyindən sonra biz tək qaldıqda, ev sahibi məyus bir halda mənə söylədi ki, o, tez-tez öz evlərini son modanın tələblərinə görə yenidən tikmək və öz torpaqlarını yeni üsulla becərmək fikrinə düşür. Ancaq onu lovğalıqda, orijinal olmaqda, hoqqabaz, cahil və yekəbaş olmaqda

təqsirləndirib, bəlkə də, Allah göstərməsin, kralın qəzəbinə düçar edəcəklərindən qorxur. Əlahəzrət kral isə onsuz da ona çox etibar etmir. O qorxurdu ki, sarayda eşitmədiyim bəzi təfərrüat barədə mənə məlumat verərsə, mənim heyrətim xeyli azalmış olacaq. Axı orada, yuxarıda adamlar həddindən artıq yüksək düşüncələrə dalıb, yerdə olan hadisələrə əsla diqqət yetirmirlər.

Onun söylədiyi sözlərin əsl mənası bundan ibarət idi: təxminən qırx il bundan əvvəl, paytaxt əhalisindən bir neçə nəfər, bəziləri iş üçün, bəziləri isə əylənmək üçün Laputaya qalxıblarmış. Orada beş ay qaldıqdan sonra həmin hava diyarından riyaziyyatdan tamamilə səthi bir məlumatla, lakin bolluca hoqqabazlıqlar öyrənib aşağı eniblər. Bu adamlar adada qaldıqları müddətdə bizim bütün işlərimizə qarşı dərin bir həqarət və nifrət hissi bəsləməyi öyrənib, elmin, incəsənətin, dilin və texnikanın yeni qayda üzrə təzədən qurulması üçün layihələr tərtib etməyə başlayıblar. Bu məqsədlə onlar kraldan Laqado şəhərində layihəçilər Akademiyası təsis etməyə imtiyaz alıblar. Bu məsələ çox böyük müvəffəqiyyət qazanmışdır. İndi krallığın elə bir böyük və ya kiçik şəhəri tapılmaz ki, orada belə akademiyalar olmasın. Bu akademiyalarda professorlar torpağı becərmək və binalar tikmək üçün yeni üsullar, hər cür sənətlər üçün yeni alət və maşınlar ixtira edirlər. Onlar söyləyirlər ki, bu maşın və alətlərin köməyilə bir adam on adamın işini görə biləcəkdir. Onların sözlərinə görə, ixtira etdikləri vasitələrdən istifadə yolu ilə bir həftə ərzində bu möhkəm materialdan elə saray tikmək olar ki, o, heç bir təmirə ehtiyac olmadan, əbədi yaşar. Bütün yerdəki meyvələr ilin hər bir fəslində yetişəcək və bunlar indiki meyvələrdən guya yüz qat iri olacaqdır. Sözün qısası, onların bəşəriyyəti səadətə qovuşdurmaq üçün yaratdıqları bütün layihələri saymaqla qurtarmaq olmaz, ancaq, təəssüf ki, bu layihələrdən hələ heç biri başa çatdırılmamışdır. Hələlik ölkə gələcək səadət intizarı ilə xarabazara çevrilmişdir, evlər uçulub dağılır, əhali acından ölür və *cır-cındır içində gəzir**.

Lakin bu vəziyyət layihəçilərin coşqunluqlarını əsla soyutmur, əksinə, ümid və məyusluqdan eyni dərəcədə ruhlanmış olan bu adamlar öz layihələrini həyata keçirmək üçün daha da təkidlə çalışırlar.

Ancaq Myunodinin özünə gəlincə, o çox da təşəbbüskar bir adam deyildi və buna görə də köhnə qaydalara əməl edirdi. Əcdadları zəmanəsində tikilmiş evlərdə yaşayır və heç bir yenilik yaratmadan, hər

cəhətdən onları təqlid edirdi. Zadəganlar arasında hələ bir neçə əyan da bu sayaq yaşayır, lakin onlara həqarət və pis nəzərlə baxırlar; çünki onlara cahil, elm düşmənləri və ölkənin müvəffəqiyyətlərini öz rahatlıq və tənbəlliklərinə qurban edən zərərli cəmiyyət üzvləri kimi baxırlar.

Nəticədə, həmin cənab mənə söylədi ki, mənə bundan daha ətraflı məlumat verməyəcəkdir; çünki məni, aparmaq istədiyi Böyük akademiyanı nəzərdən keçirərkən ala biləcəyim zövqdən məhrum etmək istəmir. Yalnız məndən xahiş etdi ki, bizdən üç mil qədər məsafədə olan bir dağın ətəyində görünən xarabalara diqqət yetirim.

Bir zamanlar onun mülkünün yaxınlığında, böyük bir çayın kənarında qurulmuş gözəl bir su dəyirmanı var imiş. Bu dəyirman onun öz təsərrüfatı ilə bərabər, bütün icarədarlarının təsərrüfatlarına da gözəl xidmət edirmiş. Təxminən yeddi il bundan əvvəl, bir layihəçilik şirkəti gəlib bu dəyirmanı sökməyi və əvəzinə dağın ətəyində yenisini qurmağı təklif edibmiş. Onlar dağın təpəsində uzun bir arx qazımaq istəyirlərmiş, burada su yığılmalı imiş. Onlar həmin arxa suyu xüsusi nasoslarla vurmaq niyyətində imişlər. Onların fikrinə görə, dağın təpəsində külək və təmiz havanın təsirilə su, yerin dümdüz səthi ilə axan çaydakı suya nisbətən daha sürətlə hərəkət edəcəkmiş. Bundan başqa, su yuxarıdan aşağı axdığı üçün qüvvəsi iki dəfə artıq olacaq, buna görə də dəyirman əvvəlkindən iki qat artıq sürətlə işləyəcəkmiş. Elə bu zamanlar onun sarayla olan münasibəti bir qədər pozulubmuş. O, sarayla münasibətini yaxşılaşdırmaq üçün, dostlarının təhrikilə, həmin şirkətin təklifini qəbul edibmiş. İki ilin ərzində yüz nəfərdən artıq adamın işləməsinə baxmayaraq, məsələ baş tutmayıbmış. Layihəçilər qaçıb gizlənmiş və bütün günahı onun boynuna qoyublarmış. O vaxtdan bəri, layihəçilər daim onu istehzaya qoyub, başqalarını da bu cür təcrübələr etməyə təşviq edərək, onlara da bu cür müvəffəqiyyət üçün zəmanət verirlərmiş.

Bir neçə gündən sonra biz şəhərə qayıtdıq.

Həmin cənab akademiyada pis ad qazanmışdı. Ona görə də mənimlə bərabər ora getməyi münasib bilməyib, bu işi öz dostlarından birinə tapşırdı. Ev sahibi, məni layihələrlə çox maraqlanan, onlara vurğun və hər şeyə inanan bir adam kimi qələmə verdi ki, bu həqiqətən çox da uzaq deyildi, çünki gənclikdə mən özüm layihə ilə maraqlanırdım.

BEŞİNCİ FƏSİL

Müəllifin Laqado şəhərində Böyük akademiyanı nəzərdən keçirməsi. Akademiyanın ətraflı təsviri. Professorların məşğul olduqları elmlər və incəsənət.

Akademiya, küçənin hər iki tərəfində, tərk edilmiş və satın alınıb onun işləri üçün uyğunlaşdırılmış bir neçə evdə yerləşmişdi.

Prezident məni gülərüzlə qəbul etdi və mən bir çox günlərimi akademiyada keçirtdim. Hər otaqda bir və ya bir neçə xəyalpərvər otururdu; yadımda qaldığına görə, beş yüzə qədər otaq gəzdim.

Yanına getdiyim ilk alim üzünü və əllərini his basmış arıq bir adam idi. Onun paltarı, köynəyi və dərisi də belə idi, pırtlaşıq uzun saçlarını və saqqalını alov qarsalamışdı. Bu alim səkkiz il idi ki, xiyardan günəş şüaları almaq layihəsini hazırlayırdı. Bu şüaları o, ağzı kip bağlanan qablara yığmaq istəyirdi ki, yay soyuq və yağışlı olduqda, bunların vasitəsilə havanı qızdırsın. O, bu fikirdə idi ki, səkkiz ildən sonra valinin bağları üçün çox ucuz qiymətə günəş işığı verə bilər. Ancaq o, maddi imkanın çox az olduğundan şikayət edib, məndən xahiş etdi ki, ixtiraçılığını təşviq etmək üçün ona bir şey bağışlayım, çünki ilin bu fəslində xiyar çox baha idi. Ev sahibinin ehtiyat üçün cibimə qoyduğu pulların bir qədərini ona bağışladım. Mənim ev sahibim olan cənab, alimlərin akademiyaya gələn hər bir adamdan sədəqə diləndiklərini çox yaxşı bilirmiş.

Orada mən başqa bir alimə də rast gəldim, o, buzu şiddətli odda qızdırmaqla, barıta çevirməyə çalışırdı. O, mənə çap etdirmək üzrə olduğu bir əsərini də göstərdi ki, bu, alovun zindanda döyülə biləcəyinə aid bir tədqiqatdan ibarət idi.

Orada ev tikmək üçün yeni üsul icad etmiş ixtiraçı bir memar da var idi. Onun fikrinə görə, ev damından tikilməyə başlanıb, özülündə qurtarmalı idi. O, ən ağıllı həşərat olan arı və hörümçəyin yuva tikmək üsulunu göstərib, özünün haqlı olduğunu sübut edirdi.

Orada anadangəlmə bir kor da var idi. Bir neçə kor şagird onun rəhbərliyi altında rəssamlar üçün rəngləri qarışdırmaqla məşğul idilər. Professor onlara rəngləri qoxu və toxunma hissilə tanımağı öyrədirdi. Ancaq təəssüflər olsun ki, onlar bu vəzifəni çox da yaxşı yerinə

yetirmirdilər. Professor özü də daim səhv edirdi. Bu alim, yoldaşları arasında böyük hörmət qazanmışdı.

Başqa bir otaqda torpağı donuzların köməyilə şumlamaq üsulunu icad etmiş olan bir alim mənə çox ləzzət verdi. Bu üsul əkinçiləri kotan almaq, heyvan saxlamaq və əmələlərə pul vermək məsarifindən qurtarmalı idi. Onun ixtirası bundan ibarət idi: şumlanacaq olan bir akr torpağa bir-birindən altı düym aralı olaraq, səkkiz düym dərinlikdə qoza, xurma, şabalıd və sair bu kimi meyvə və göyərti basdırırsınız ki, bunları da donuzlar çox xoşlayır. Sonra həmin tarlaya altı yüz və ya daha artıq donuz buraxırsınız. Bir neçə gün ərzində bu donuzlar basdırılmış meyvələri axtarıb tapmaq üçün torpağı eşib əkin üçün əlverişli bir hala gətirirlər. Eyni zamanda onlar öz peyinlərilə tarlanı gübrələyirlər. Doğrudur, edilən təcrübə torpağın bu üsulla becərilməsinin çox böyük zəhmət və məxaricle başa gəldiyini, məhsulun isə az olduğunu göstərirdi. Ancaq hamı bu fikirdə idi ki, ixtira bir qədər təkmilləşdirildikdən sonra çox böyük faydalar verəcəkdir.

Mən başqa otağa girdim. Buranın divarları və tavanı başdan-başa hörümçək toru ilə örtülü idi. Ortada ixtiraçı üçün yalnız dar bir keçid qalmışdı. Mən qapıda görünər-görünməz, alim bərkdən çığırdı ki, ehtiyatlı olum və onun hörümçək torlarını yırtmayım. O, insanların qədim zamanlardan bəri yanlış bir yola düşdüklərindən şikayət edirdi. Bu vaxta qədər insanlar yalnız ipəkqurdunun ipəyindən istifadə etmişlər. Halbuki bizim ixtiyarımızda öz qabiliyyətlərinə görə bu qurdlardan xeyli üstün olan bir çox başqa həşərat da vardır: ipəkqurdu yalnız barama hörür, o biri həşərat isə həm hörür, həm də toxuyur. O, sözlərinə davam edib dedi ki, ipəyi hörümçək toru ilə əvəz etdikdə, biz parçaları boyamaq üçün sərf etdiyimiz bütün məxaricdən də yaxamızı qurtarmış olarıq. Mən onunla razılaşmalı oldum, çünki o, mənə hörümçəkləri bəsləmək üçün onlara yedirtdiyi bir çox gözəl və rəngbərəng milçəklər göstərdi. Onun sözlərinə görə, bu milçəklərin rəngləri hörümçəyin hazırlayacağı torun rənginə keçməlidir. Alimin hər rəngdə milçəkləri olduğundan, ümid edirdi ki, hər cür istehlakçının arzusunu yerinə yetirə biləcəkdir. O, yalnız milçəklər üçün taxta yapışqanı və sair bu kimi maddələr tapıb onlara yedirtməlidir ki, torun telləri *daha qalın və möhkəm olsun**.

Orada şəhər idarəsinin böyük qülləsi üstünə günəş saatı taxmaq fikrilə məşğul olan astronom da var idi. Bunun üçün o, Yerin

bir gecə-gündüzdə və bir ildəki hərəkəti arasında nə kimi bir tənasüb olduğunu və küləyin istiqamətinin dəyişməsinin buna necə təsir etdiyini dürüst bir surətdə hesablamalı idi.

Mən bir çox başqa otaqları da gəzdim. Ancaq orada gördüyüm bütün qəribə şeyləri təsvir etməklə oxucunu yormaq istəmirəm. Yalnız "universal dahi" ləqəbi qazanmış bir alimin fəaliyyəti üzərində bir qədər duracağam. Onun sözlərinə görə, otuz ildir ki, bütün fikrini insan həyatının yaxşılaşdırılmasına həsr etməkdədir.

Onun ixtiyarında, içərisi ən qəribə şeylərlə dolu olan iki böyük otaq var idi. Onun rəhbərliyi altında əlli köməkçi işləyirdi. Onlardan bəziləri havanı qatılaşdırıb, bərk və möhkəm bir cisim halına salır, ondan selitra istehsal edir və *sulu hissələrini süzürdü**. Bəziləri balışlar və iynə taxılan kiçik yastıqlar üçün mərmər döyüb ovurdu; bəziləri isə diri atın dırnaqlarını əyilib sınmamaq üçün daş kimi möhkəm etməyə çalışırdı. Alimin özünə gəlincə, bu zaman o, iki böyük ixtira üzərində işləyirdi. Bunlardan biri tarlaları kəpək vasitəsilə toxumlamaq layihəsindən ibarət idi. Onun fikrinə görə, bütün bəhrə verən qüvvət kəpəkdə imiş. O, öz fikrinin doğruluğunu mənə saysız təcrübələrlə sübut edirdi; ancaq mən cəhalətim ucbatından bunlardan heç bir şey anlaya bilmədim. Onun həll etməyə çalışdığı ikinci məsələ mürəkkəb bir yağ ixtira etməkdən ibarət idi. Bu yağın köməyilə quzuların tüklərinin artmasını dayandırmaq olardı. Bu alim ümid edirdi ki, o, yaxın gələcəkdə krallıqda dəriləri çıl-çılpaq olan qoyunlar yetirəcəkdir.

Küçənin o biri tərəfində olan evlərdə də akademiyanın başqa şöbələri var idi ki, burada layihəçilər mücərrəd elmlərin tədqiqi ilə məşğul idilər.

Mənim burada rast gəldiyim ilk professor qırx şagirdiylə birlikdə yekə bir otaqda işləyirdi. Bir-birimizlə salamlaşdıq və mən otağı nəzərdən keçirməyə başladım. Otağın içərisində, onun böyük bir hissəsini tutmuş olan nəhəng bir çərçivə həmin saat məni heyran etdi. Professor bunu görüb, məni başa saldı ki, o, mücərrəd həqiqətlərə həsr edilmiş xüsusi mexaniki cihazlar ixtira etmək üzərində işləyir. Ona görə bu fikir əvvəlcə məni heyrətə sala bilər. Ancaq o əsla şübhə etmir ki, yaxın bir zamanda bütün dünya onun layihəsini yüksək qiymətləndirəcəkdir. Hələ heç bir zaman heç kəsin başına belə möhtəşəm və yüksək ideya gəlməmişdir. Elm və incəsənətin ümumi qayda üzrə öyrənilməsinin nə qədər çətin olduğunu hamı bilir. Halbuki onun

ixtirası sayəsində hər bir ən qabiliyyətsiz və cahil adam da azacıq vəsait və fiziki qüvvə sərf etməklə, fəlsəfə, şeir, siyasət, hüquq, riyaziyyat və ilahiyyatdan kitablar yaza bilər. Bu sözləri söyləyib o, məni yanına apardı. Bu çərçivənin yanlarında onun şagirdləri cərgə ilə durmuşdular. İyirmi kvadrat fut olan bu çərçivə otağın ortasında qoyulmuşdu. Onun səthi çoxlu taxta lövhəciklərdən ibarətdir, bunların hər biri bir-birindən azacıq böyük-kiçik olmaqla bərabər, təxminən oyun zəri boyda idi. Bütün bunlar nazik məftillə bir-birinə bənd edilmişdi. Bu lövhəciklərə yapışdırılmış xırda kağızların üstünə Balnibarbi dilində olan bütün sözlər müxtəlif formalarda, zamanlarda və hallarda işlədilən şəkillərdə yazılmış və tamamilə intizamsız bir tərzdə düzülmüşdü. Professor öz maşınını işə salmaq istədiyindən, diqqətli olmağımı xahiş etdi. Onun komandası üzrə şagirdlər çərçivənin kənarlarında olan dəstəklərdən yapışıb, onları sürətlə çöndərdilər. Bütün lövhəciklər çevrildi və sözlərin tərtibi tamamilə dəyişdi. Professor otuz altı şagirdinə əmr etdi ki, əmələ gələn sözləri çərçivədə düzüldükləri qayda üzrə ağır-ağır oxusunlar. Üç və ya dörd söz, mənalı bir cümlə təşkil etdikdə, bu cümlələri katib vəzifəsini ifa edən dörd şagirdə diktə edirdilər. Bu hərəkət üç və ya dörd dəfə təkrar olundu. Maşın elə qurulmuşdu ki, hər dəfə hərləndikdən sonra lövhəciklər çevrilir və yerlərini dəyişirdi. Bu üsulla əmələ gələn sözlər də yeni bir tərtib üzrə düzülürdü.

Şagirdlər bu işlə gündə altı saat məşğul olurdular. Professor bu cür qırıq cümlələrlə yazılmış olan bir çox foliantları mənə göstərdi. O, bu zəngin material əsasında bütün elm və incəsənətin mükəmməl xülasəsini tərtib etmək fikrində idi. Tamamilə aydındır ki, o, Laqado şəhərində beş yüz belə dəzgah qura bilmək üçün kifayət qədər pul yığa bilsəydi və rəhbərləri onun əmələ gətirdiyi cümlə yığınlarını birləşdirməyə məcbur edə bilsəydi, vəzifəsi xeyli yüngülləşmiş olardı. O, mənə söylədi ki, bu ixtira, gənc yaşlarından bəri onun bütün fikrini cəlb etmişdir. İndi onun maşınının lövhəciklərində Balnibarbi dilində olan bütün sözlər cəm edilmişdir. Bundan başqa o, kitablarda işlədilən isim, fel və başqa sözlərin tənasübünü tamamilə dürüst olaraq hesablamışdır.

Mənə bu böyük ixtirasının sirrini bildirən bu möhtərəm zata dərindən təşəkkür edib söz verdim ki, əgər bir zaman öz vətənimə qayıtmış olsam, onu bu qəribə maşının yeganə ixtiraçısı kimi şöh-

rətləndirəcəyəm. Mən maşının şəkilini çəkmək üçün ondan icazə istədim. Ona söylədim ki, Avropada alimlər arasında bir-birinin ixtirasını oğurlamaq adəti varsa da, ancaq mən söz verirəm ki, bu ixtiranın şərəfinin ona aid olub qalması və heç kimdən bu xüsusda ona şərik çıxmaması üçün bütün tədbirləri görəcəyəm.

Bundan sonra biz dilşünaslıq məktəbinə getdik. Orada üç professor ana dilini təkmilləşdirmək üçün cürbəcür layihələri müzakirə edirdi. Birinci layihədə təklif edilirdi ki, bütün çoxhecalı sözlər birhecalı edilsin. Felləri və feli sifətləri atmaqla danışıq dili sadələşdirilsin. Müəllif göstərirdi ki, yalnız cisimlər həqiqətən mövcud cisimlərə uyğundur.

İkinci layihədə tələb olunurdu ki, bütün sözlər tamamilə atılsın. Layihənin müəllifinə görə, bu işin başlıca olaraq sağlamlığa və vaxta qənaət etmək üçün xeyri çoxdur. Axı tamamilə aydındır ki, söz söyləmək insanın boğazını və ciyərlərini yorur və beləliklə, bizim ömrümüzü qısaldır. Sözlər yalnız cisimlərin adlarından ibarət olduğu üçün, öz fikir və arzularımızı ifadə etmək üçün lazım gələn cisimləri yanımızda gəzdirmək xeyli əlverişlidir.

Sağlamlıq üçün çox faydalı bu ixtira, yəqin ki, çox geniş yayıla bilərdi. Ancaq qadınlar, avam qara camaatla birləşmiş, alimləri üsyan qaldıracaqları ilə hədələmişdilər. Onlar dillərinin tamamilə azad qalmasını qəti surətdə tələb etmişdilər. Doğrudan da, qara camaat elmin barışmaz düşmənidir! Bununla bərabər, bir çox alim və ağıllı adamlar öz fikirlərini cisimlər vasitəsilə ifadə etməkdən ibarət olan o yeni üsuldan istifadə edirlər. Onun yeganə nöqsanı bundan ibarətdir ki, bir-birilə danışanlar söhbət zamanı lazım olacaq müxtəlif şeylərlə dolu iri bağlamaları dallarında gəzdirməli olurlar. Ağır yükün altında, bizim hamballar kimi, ikiqat olmuş belə alimlərə tez-tez rast gəlirdim. Bunlar küçədə bir-birini gördükdə, öz kisələrini çiyinlərindən yerə qoyub açır və oradan lazım olan şeyləri çıxarıb, bu surətlə də bir-birilə söhbət edirdilər. Sonra öz şeylərini yenə kisəyə yığıb, yükü çiyinlərinə qaldırmaq üçün bir-birinə kömək edir və xudahafizləşib ayrılırdılar.

Ancaq qısa və sadə söhbətlər üçün lazım gələn şeyləri cibdə və ya qoltuqda gəzdirmək mümkün idi. Ev şəraitində söhbət etdikdə isə, bütün bu çətinliklər asanlıqla aradan qaldırıla bilərdi. Ancaq, bu dilin tərəfdarlarının yığışdıqları otaqlar ən müxtəlif şeylərlə dolu olmalıydı.

Bu dilin ən böyük üstünlüyü onun beynəlxalq mahiyyətdə olmasıdır. Bütün mədəni xalqların mebel və ev şeyləri təxminən bir-birinə

bənzəyir. Bunun sayəsində elçilər xarici krallarla və ya nazirlərlə onların dillərini əsla bilmədikləri halda, şeylər vasitəsilə asanlıqla danışa bilirlər.

Mən həmçinin riyaziyyat məktəbinə də getdim. Burada dərs bizim Avropada əsla tətbiq oluna bilməyəcək bir üsulla aparılır. Hər teorem, sübutu ilə birlikdə nazik bir təbəqəyə yazılır. Mürəkkəb yerinə başağrısı dərmanı işlədilir. Şagird bu həbi acqarına udur və bundan sonra üç gün ərzində çörək və sudan başqa bir şey yeyib-içmir. Hər həzm olunduqdan sonra dərman onun beyninə yeriyir və özü ilə birlikdə teoremi də ora aparır. Ancaq bu vaxta qədər bu üsulun müvəffəqiyyəti cüzi olmuşdur. Bunun bir səbəbi budur ki, dərmanın miqdarı və ya tərtibində səhvə yol verilir; ikinci səbəbi isə uşaqların dəcəlliyidir, çünki onlar bu həbləri xoşlamırlar. Onlar çox vaxt kənara çəkilir və həbi tüpürüb atırlar. Bundan başqa dərmanın təsiri üçün zəruri olan üçgünlük pəhriz saxlamağı bu vaxta qədər onlara qəbul etdirmək mümkün olmamışdır.

ALTINCI FƏSİL

Akademiyanın təsvirinin davamı. Müəllifin bəzi təkmilləşdirmələr təklif etməsi və bunların təşəkkürlə qəbul edilməsi.

Siyasi xəyalpərəstlər məktəbində məni çox da mehribanlıqla qəbul etmədilər. Bir də, bu məktəbdə olan professorlar, mənim fikrimcə, tamamilə dəli idilər. Belə bir mənzərə isə məni həmişə kədərləndirir. Bu bədbəxtlər elə üsullar axtarırlar ki, padşahları öz nədimlərini ağıllı, qabiliyyətli və xeyirxah adamlar arasından seçməyə, nazirləri ümumun mənafeyi qayğısına qalmağa, yalnız cəmiyyətə böyük xidmət göstərən adamları mükafatlandırmağa məcbur etsinlər. Onlar padşahları inandırmaq istəyirdilər ki, onların həqiqi mənafeyi xalqın mənafeyi ilə birdir və mənsəbi yalnız ləyaqətli adamlara vermək lazımdır. *Bu dəlilərin başlarında** düzgün düşünən insanlara tamamilə yad olan bir çox belə qəribə və qeyri-mümkün xəyallar əmələ gəlirdi. Mən onlara baxdıqda bir daha inandım ki, qədim

hikmətli söz olan: – dünyada heç bir elə axmaq fikir olmaz ki, filosoflar arasında onların tərəfdarları tapılmasın, – sözü tamamilə doğrudur.

Ancaq akademiyanın bu şöbəsinə haqq verib etiraf etməliyəm ki, oradakı alimlərin hamısı belə xəyalpərəst deyildirlər. Mən çox hazırcavab bir doktorla tanış oldum. Bu adam, görünür ki, dövlət idarəsi mexanizmini və onun mahiyyətini mükəmməl bir surətdə tədqiq etmişdi. Bu məşhur xadim hökumət adamlarının tutduqları bütün cismani və əxlaqi xəstəliklərin dərmanını tapmaq üzərində tam bir müvəffəqiyyətlə çalışırdı. O, insan orqanizmilə dövlət quruluşu arasında tam bir bənzəyiş olduğu fikrinə əsaslanaraq iddia edirdi ki, dövlət quruluşunun əmələ gətirdiyi xəstəliklər, – hakimlərin nöqsanları və idarə olunanların əxlaqsızlığı, fiziki səbəblərdən əmələ gələn xəstəliklər kimi, eyni vasitələrlə müalicə olunmalıdır. Hamıya məlumdur ki, senatorlar və ya yüksək məclis üzvləri çox tez-tez çərənçilik, əsəbilik və sair pis meyillərə tutulmuş olurlar. Onlar müxtəlif beyin və xüsusən, ürək xəstəliklərinə; əsəblərin, hər iki qolun – *xüsusən sağ qolun əzələlərinin şiddətli ağrılarla qıc olub əsməsi**, ödün bədənə yayılması, başgicəllənmə, sayıqlama, sıraca şişləri, hədsiz iştaha, yeyini həzm etməmək və bir çox başqa xəstəliklərə düçar olurlar ki, bunların hamısını burada saymağa ehtiyac yoxdur. Buna görə də alim doktor təklif edirdi ki, hər dəfə senat toplandıqda birinci üç iclasa bir neçə təcrübəli həkim göndərilməlidir. Müzakirələr qurtardıqdan sonra bu həkimlər bütün senatorların nəbzlərini yoxlayıb, onları müayinə etməlidirlər. Diqqətli müayinədən sonra onların hər birinin xəstəliyini təyin edən həkimlər dördüncü gün iclas salonuna onlardan qabaq gəlib iclas başlamazdan əvvəl hər bir senatora xəstəliyinin növünə görə sakitləşdirici dərman, işlətmə, təmizləyici dərman, yeyici dərman, bağlayıcı dərman, zəiflədici dərman, başağrısı dərmanı, öd saxlayan dərman, qulaq dərmanı verməlidirlər. Bu dərmanların təsirini yoxladıqdan sonra, həkimlər gələn iclasda bu dərmanları ya təkrar verməli, ya dəyişdirməli, ya da kəsməlidirlər.

Bu layihənin həyata keçirilməsi böyük məxaric tələb etmir və mənim acizanə fikrimcə, bu, qanunvericilikdə senatın iştirak etdiyi bütün ölkələrə daha çox xeyir verə bilər: yekdillik əmələ gətirər, müzakirələri qısaldar, indi bağlı olan bir neçə ağzı açar və sayı xeyli artıq olan açıq ağızları yumar, cavanlıq alovunu azaldar, qocalıq sərtliyini yumşaldar, kütlələri hərəkətə gətirər, coşqunları soyudar.

Bu dərin düşüncəli alimin ikinci layihəsi bundan ibarət idi: hamı şikayətlənir ki, padşahların nədimlərinin hafizəsi çox küt və zəifdir. Buna görə həkim birinci nazirlə görüşə gedən hər adama təklif edir ki, öz işinin mahiyyətini ən qısa və aydın sözlə ifadə edib xudahafizləşərkən ya nazirin burnundan tutub çəksin, ya onun qarnına bir təpik vursun, ya ayağındakı döyənəyi tapdalasın, ya da qulaqlarını çəksin, ya ona sancaq batırsın, ya da göyərincəyə qədər çimdikləsin; belə-liklə, nazirin yaddaşını möhkəmləndirsin. Xahiş yerinə yetirilməyincə və ya qəti rədd cavabı alınmayınca, hər dəfə görüşə getdikdə, bu əməliyyat təkrar olunmalıdır. Bir də o təklif edir ki, hər bir senator öz rəyini söylədikdən sonra, səsini tamamilə zidd tərəfə versin. Doktor söz verir ki, bu qaydaya əməl edildikdə, səsvermənin nəticəsi həmişə cəmiyyət üçün xeyirli olar.

Partiya çəkişmələri çox kəskin bir mahiyyət aldıqda, həmin həkim intizamı bərpa etmək üçün aşağıdakı gözəl vasitəni təklif edir: hər partiyadan yüz nəfər başçısını alıb, cüt-cüt elə ayırmaq lazımdır ki, hər cütdə olan adamların başları təxminən bir böyüklükdə olsun. Sonra iki cərrah eyni zamanda hər cütdə olan iki nəfərin peysərlərini mişarlayıb birinin peysərini o birinin başına bitişdirməlidir. Bu əməliyyat son dərəcə diqqətli olmağı tələb edir. Ancaq professor bizi inandırırdı ki, əgər bu əməliyyat məharətlə edilmiş olsa, onlar mütləq sağalacaqlar. Mənsub olduqları partiya cəhətindən bir-birinin qəddar düşməni olan adamların başlarından alınmış beynin yarısı o birinin başına bitişdikdən sonra, onlar bir-birinə uyuşub sağalacaqlar. Bu zaman, üzərlərində bu əməliyyat aparılmış başçıların başlarında həmin mülayim uyğunluq əmələ gələr, bu da, özlərini dünyanı idarə etmək üçün yaranmış hesab edən adamlar üçün tamamilə zəruridir. Doğrudur, burada belə bir qorxu var ki, axmaq adamın beynini ağıllı adamın beyninə caladıqda, biz onu da axmaq etmiş olarıq. Ancaq həkim bizi inandırdı ki, ağıl və qabiliyyətləri cəhətindən partiya başçıları bir-birindən az seçilirlər. Belə ki, bu məsələyə əsla əhəmiyyət vermək lazım deyildir.

Mən bir-birilə qızğın mübahisə edən iki professor gördüm. Bunlar verginin ağırlığını əhalinin həddən artıq hiss etməməsi üçün asan və rahat bir yol tapmaq üstündə mübahisə edirdilər. Birinci professor iddia edirdi ki, ən ədalətli yol ancaq naqis və düşüncəsiz olan adamlardan vergi yığmaqdan ibarətdir. Kimdən nə qədər vergi almaq lazım

gəldiyi məsələsi isə yerli əhalidən ibarət bir komitəyə tapşırılmalıdır. Bu komitə, əlbəttə, öz qonşularının nöqsanlarını qərəzsiz təyin edə bilər. İkinci professor isə buna tamamilə zidd bir fikir söyləyirdi. O deyirdi ki, insanların özlərində ən çox qiymətləndirdikləri mənəvi və cismani sifətlər üçün vergi almaq lazımdır. Bu verginin miqdarı vergiverənin özü haqqında fikrinə uyğun olaraq təyin edilməlidir. Hazırcavablıq, mərdlik və ədəblilik üçün ən yüksək vergi alınmalıdır. Ancaq səadət, ədalət, zəka və bilik üçün vergi alınmamalıdır; çünki bunları qiymətləndirmək o qədər subyektivdir ki, bu sifətlərin öz yaxın adamında olduğunu təsdiq edən və ya bunları özündə düzgün qiymətləndirən adamlara rast gəlmək olduqca çətindir.

Başqa bir professor mənə sui-qəsdlərin üstünü açmaq barəsində böyük bir əsər göstərdi. O, dövlət adamlarına məsləhət görür ki, şübhəli şəxslərin nə etdiklərini, nə zaman süfrəyə oturduqlarını, hansı böyürləri üstündə yatdıqlarını öyrənib, onların adi məişətləri barədə, sair buna bənzər məlumat toplasınlar.

Bütün bu mühakimələr böyük bir diqqətlə yazılmışdı və onların içərisində siyasətçilər üçün maraqlı və faydalı olan bir çox müşahidələr vardı. Ancaq bu müşahidələr mənə kifayət qədər mükəmməl görünmədi. Mən cürət edib, bu barədə fikrimi müəllifə söylədim və əgər arzu edərsə, bəzi əlavələr etməyi təklif etdim. O, mənim təklifimi böyük bir məmnuniyyətlə qəbul etdi ki, buna yazıçılar, xüsusilə layihə tərtib edənlər arasında az rast gəlmək olar. O əlavə etdi ki, mənim mülahizələrimi mütləq nəzərə alacaqdır.

Belə olduqda, mən ona söylədim ki, səyahətlərimizin birində getmiş olduğum Tribnia və ya yerlilərin adlandırdıqları kimi *Lanqden** krallığında əhalinin çoxu məlumat verənlərdən, şahidlərdən, çuğulçulardan, ittihamçılardan, iddiaçılardan, müşahidəçilərdən, vəkillərdən və onların saysız-hesabsız əlaltı və xidmətçilərindən ibarətdi; bu adamlar da nazirlərdən və onların müavinlərindən maaş alırlar. Bu krallıqda sui-qəsdlər adətən dərin bilikli bir siyasətçi kimi irəli çəkilmək, çürümüş hökumət orqanlarına yeni qüvvət vermək, ictimai narazılığı boğmaq və ya yayındırmaq, öz sandıqlarını müsadirə edilmiş mallarla doldurmaq, öz mənfəətlərinə uyğun olaraq, dövlətin gücünə inamı artırmaq və ya inamsızlıq törətmək istəyən adamların törətdikləri bir işdir. Onlar, hər şeydən əvvəl, şübhəli şəxslərdən hansını sui-qəsddə töhmətləndirmək lazım gəldiyi barədə öz aralarında

sözləşirlər. Sonra bu şəxslərin məktublarını və kağızlarını ələ keçirmək, özlərini isə buxovlamaq üçün bütün vəsaiti işə salırlar. Ələ keçirilmiş məktub və kağızlar söz, heca və hərflərin əsrarəngiz mənalarını kəşf etməkdə mahir usta olan mütəxəssislərə verilir. Məsələn, onlar çox asanlıqla təyin edirlər ki, qaz sürüsü – senat; axsaq it – müddəi; sar – birinci nazir; şiş – arxiyepiskop; dar ağacı – dövlət katibi; süpürgə – inqilab; siçan tələsi – dövlət xidməti; dibsiz quyu – xəzinədarlıq; çirkab çuxuru – saray; bir axmağın papağı – nədim; qırıq qamış – məhkəmə palatası; boş çəllək – general; irinli yara – idarə sistemi deməkdir.

Bu məlumatı verdiyim üçün professor mənə hərarətlə təşəkkür etdi və söz verdi ki, öz elmi əsərində mənim adımı hörmətlə qeyd edəcəkdir.

Bu ölkədə mənim diqqətimi daha heç bir şey cəlb etmirdi. Odur ki, İngiltərəyə qayıtmaq üçün tədbirlər axtarmağa başladım.

YEDDİNCİ FƏSİL

Müəllifin Laqadonu tərk etməsi. Maldonadaya gəlməsi. Limanda Laqqneqqə gedən heç bir gəminin olmaması. Müəllifin Qlabbdobdribə kiçik bir səyahəti. Bu ada hakiminin onu qonaqsevərliklə qəbul etməsi.

Bu krallığın yerləşdiyi qitə, mənim fikrimcə, Amerikanın Kaliforniyadan qərbə uzanan, tədqiq olunmuş sahələrindən şərqdədir. Bu krallığın şimalında Sakit okean dalğalanır. Laqadodan yüz əlli mil məsafədə gözəl Maldonada limanı var. Burada yaşayanlar, ondan 29° şimal en dairəsi və 140° qərb uzunluq dairəsində, şimal-qərbdə olan Laqqneqq adası ilə qızğın ticarət edirlər. Laqqneqq adası Yaponiyanın cənub-şərqində olub, təqribən yüz mil uzaqdadır. Yapon imperatoru ilə Laqqneqq kralı öz aralarında ittifaq bağlamışlar və bu adalar arasında daimi əlaqə vardır. Buna görə də, mən Laqqneqqə getməyi qərara aldım ki, Yaponiya vasitəsilə oradan Avropaya qayıdam.

Mən bələdçi ilə Maldonadaya getmək üçün iki qatır kirayə etdim. Oradan isə gəmi ilə Laqqneqqə getməli idim. Sonra havadarım

Myunodi ilə bir dost kimi vidalaşdım. O, mənə yol üçün xeyli hədiyyə verdi və yola düşdüm.

Bu səyahətim zamanı qeyd oluna biləcək heç bir macəra baş vermədi. Mən Maldonadaya çatdıqda, orada Laqqneqqə gedən bir gəmi də tapmadım. Limanda mənə söylədilər ki, adaya gəmi yalnız bir aydan sonra gedəcəkdir. Mən gözləməli oldum. Şəhər mehmanxanasında yerləşdim. Çox çəkmədən bəzi adamlarla tanış oldum. Adlı-sanlı bir cənab mənə söylədi ki, burada bir aya qədər qalacağımdan, bəlkə, beş liq cənub-qərbdə olan Qlabbdobdrib adasına kiçik bir səyahətə gedəm. O, öz dostu ilə bərabər mənə yoldaşlıq etməyi və bu səyahət üçün münasib olan kiçik bir gəmi tapmağı vəd etdi.

"Qlabbdobdrib" sözü, mənim anladığıma görə, "sehrbazlar" və ya "cadugərlər adası" deməkdir. Uayt adasından üç dəfə kiçik olan bu adanın çox məhsuldar torpağı vardır. Oranı başdan-başa sehrbazlardan ibarət olan bir qəbilənin rəisi idarə edir. Bu adanın əhalisi yalnız öz aralarında qız verib-alarlar. Qəbilənin içərisində ən yaşlı adam adanın hakimi və ya padşahı sayılır. Onun möhtəşəm bir sarayı vardır. Bu sarayın üç min akr böyüklükdə yekə bir parkı var, bunun ətrafına iyirmi fut hündürlüyündə daş hasar çəkilmişdir. Parkın gözəl çəpərlənmiş xüsusi sahələri maldarlıq, əkinçilik və bağçılıq üçün ayrılmışdır.

Hökmdarın xidmətçilərinin və onun ailə üzvlərinin qəribə bir görkəmi var. *Nekromantiya** sahəsində dərin bilikləri olduğundan, hökmdar öz arzusuna görə, ölüləri çağırmaq və özünə xidmət etdirmək qüdrətinə malikdir. Ancaq onun dəvət etdiyi ölülər üzərində hakimiyyəti yalnız iyirmi dörd saat davam edir. Bundan başqa, o, bir şəxsi üç ayda bir dəfədən tez çağıra bilməz.

Biz adaya gəldiyimiz zaman səhər saat on bir olardı. Yoldaşlarımdan biri əlahəzrətin hüzurunda olmaq şərəfinə çatmaq ümidilə buraya gəlmiş bir xaricinin hökmdar tərəfindən qəbul edilməsini xahiş etmək üçün onun yanına getdi. Hökmdar həmin saat öz razılığını verdi.

Sarayın darvazası ağzında, hər iki tərəfdə, tamamilə qədim dəbdə geyinmiş silahlı keşikçilər durmuşdular. Onların zahiri görkəmində elə bir şey var idi ki, bu mənim qəlbimə şiddətli qorxu saldı. Biz bir neçə otaqdan keçdik. Bu otaqlarda da həmin o xidmətçilərdən iki cərgə durmuşdu. Nəhayət, görüş salonuna çatdıq. Burada biz mərasimə əməl edərək, üç dəfə ikiqat yerə əyildik. Bizə bir neçə əhəmiyyətsiz sual verdikdən sonra, əlahəzrətin taxtının aşağı pilləsi

önündə üç kürsü təklif etdilər. Hökmdar Balnibarbi dilini bilirdi və məndən xahiş etdi ki, öz səyahətlərim barədə ona danışım. O, mənim özümü sərbəst hiss etməyimi arzuladığından, ətrafdakılara çıxıb getmələrini əmr etdi. Onlar, biz yuxudan birdən-birə ayıldıqda, gördüyümüz röya yox olduğu kimi, bir anda yox oldular. Mən heyrət və qorxudan donub qaldım. Hökmdar bunu görüb, məni inandırmağa çalışdı ki, burada mən tamamilə təhlükəsizəm. Mən bu cür mənzərələrə alışmış olan iki yoldaşımın üzündə tamamilə sakitlik əlaməti görüb bir qədər özümə gəldim və öz macəralarımdan bəzilərini əlahəzrətə təsvir etdim. Ancaq tamamilə sakit ola bilmədiyimdən, tez-tez yox olan xidmətçi xəyalların durduqları yerlərə baxırdım.

Mən hökmdar ilə bir yerdə nahar etmək şərəfinə nail oldum. Süfrədə bizə yeni bir xəyallar dəstəsi xidmət edir və yemək gətirirdi. Ancaq indi bunlar məni səhərki kimi qorxutmurdu. Gün batana qədər sarayda qaldım. Hökmdar məni öz sarayında gecələməyə dəvət etdi. Lakin əlahəzrətdən ehtiramla xahiş etdim ki, məni bağışlasın və söylədim ki, gecəni buradan getmək istərdim. Mən gecəni öz dostlarımla birlikdə, bu adanın paytaxtı olan şəhərdə, xüsusi bir mənzildə keçirdim. Ertəsi günü səhər biz yenidən hökmdarın yanına gedib, ona öz hörmətimizi və onun ixtiyarında olduğumuzu izhar etdik.

Biz adada on gün qaldıq. Gündüzün çox hissəsini sarayda, hökmdarın hüzurunda keçirir, gecələr isə şəhərdəki mənzildə qalırdıq. Mən tezliklə bu xəyallar və ruhlar arasında olmağa o qədər öyrəşdim ki, artıq üçüncü gün onlardan nə qorxurdum, nə heyrət edirdim. Bəlkə də, mən hələ onlardan bir az qorxurdum, ancaq maraq bu qorxuma üstün gəlirdi. Əlahəzrət bunu görüb, mənə təklif etdi ki, keçmişdə və yaxın zamanda ölmüş adamlardan kimi görmək istədiyimi ona söyləyim. O, mənə vəd etdi ki, onları çağırıb, mənə onlarla söhbət etməyə imkan verər. Əlbəttə, onlar yalnız öz həyatları zamanı baş vermiş hadisələrdən danışa bilərdilər. Hökmdar əlavə etdi ki, hər halda, mən yalnız doğru sözlər eşidəcəyəm, çünki yalan o dünyada əsla faydası olmayan bir məharətdir.

Bu yüksək lütfünə görə əlahəzrət hökmdara hörmətlə təşəkkür etdim. Bu zaman bizim olduğumuz otağın pəncərəsindən parkın gözəl mənzərəsi görünürdü. Tamamilə aydındır ki, mən əvvəlcə dəbdəbəli və əzəmətli səhnələri görmək istədim. Xahiş etdim ki, mənə *Böyük*

*İskəndəri** Arbela müharibəsindən azacıq sonra, öz qoşununun başında göstərsin. Budur, hökmdarın barmağının bir işarəsilə, həmin saat İskəndər durduğumuz pəncərənin önündəki böyük meydanda zahir oldu. Hökmdar onu otağa dəvət etdi. Mən onun qədim yunan dilini çox çətinliklə başa düşə bilirdim. O da mənim söylədiklərimi yaxşı anlamırdı. İskəndər and içib mənə söylədi ki, o zəhərlənmişdir, həddindən artıq sərxoşluqdan əmələ gəlmiş isitmədən ölmüşdür.

Sonra mən *Hannibali**, Alplardan keçərkən gördüm. Hannibal mənə söylədi ki, onun düşərgəsində bircə damcı da sirkə yoxmuş.

Mən *Sezarı və Pompeyi** döyüşə hazır olan qoşunlarının başında gördüm. Sezarı son zəfəri vaxtında da gördüm, sonra xahiş etdim ki, saray salonlarından birində Roma senatı, o birində isə indiki parlament toplansın. Birincisi mənə qəhrəman və yarımallahlar yığıncağı, ikincisi isə oğrular, cibgirlər, qarətkarlar və azğınlar yığıncağı kimi göründü.

Mənim xahişimlə hökmdar *Sezar ilə Bruta** bizə yaxınlaşmalarını əmr etdi. Brutu görərkən, mən dərin bir hörmət hissi duydum. Onun üzünün hər bir cizgisində dərin bir xeyirxahlıq, böyük bir soyuqqanlılıq və mənəvi qüvvə, vətənə coşqun məhəbbət və insanlara yaxşılıq etmək əlamətləri görünürdü. Mən böyük bir sevinclə arxayın oldum ki, bu iki adam bir-birinə çox gözəl münasibət bəsləyir. Sezar gizlətməyib, mənə etiraf etdi ki, bütün ömründə göstərdiyi ən böyük şücaətlər həyatına qıyan adamın şərəfilə əsla müqayisə edilə bilməz. Mən Brut ilə xeyli söhbət etmək şərəfinə nail oldum.

Sözarası o, mənə söylədi ki, babası *Yuni, Sokrat, Epaminond, Kiçik Katon, ser Tomas Mor** və o özü heç bir zaman bir-birlərindən ayrılmırlar. Bu elə bir *sekstumviratdır** ki, buna bəşəriyyət tarixi yeddinci üzv əlavə etmək qüdrətinə malik deyildir.

Mən dünyanı, qədim tarixinin bütün dövrlərində görmək barədə sonsuz arzularımı yerinə yetirmək üçün hökmdarın çağırdığı bütün məşhur adamları saysam, oxucunu yormuş olardım. Mən hamıdan artıq zalım padşahları və qəddar hakimləri məhv etmiş və azadlığı, məhkum xalqların tapdanmış haqlarını bərpa etmiş adamların üzünü görməkdən ləzzət alırdım. Ancaq məni coşduran duyğuları oxucunu maraqlandıracaq bir surətdə ifadə etməyə qüdrətim yoxdur.

SƏKKİZİNCİ FƏSİL

Qlabbdobdribin təsvirinin davamı.
Qədim və yeni tarixin düzəlişi.

Mən bütün bir günümü qədim zamanın ən böyük mütəfəkkirləri olan *Homer və Aristotellə** söhbətə sərf etdim. Bu məşhur zatları onların əsərlərinə şərhnamələr yazan bütün adamlarla birlikdə görmək istədim. Bu şərhnamə yazanların sayı o qədər çox idi ki, onlardan bir neçə yüzü həyətdə və sarayın başqa otaqlarında gözləməli oldular. Mən ilk baxışda bu dəstənin içində iki böyük dahini seçdim. Homer Aristoteldən həm gözəl, həm də uca idi, yaşına nisbətən xeyli şax dururdu. Gözləri son dərəcə canlı və nüfuzedici idi. Aristotelin beli bükülmüşdü, o, əl ağacına söykənmişdi. Üzü arıq, saçları düz və seyrək, səsi isə batıq idi. Mən tezliklə bu qənaətə gəldim ki, bu hər iki böyük zat öz əsərlərini şərh edən adamları heç bir zaman görməmiş və onlar barədə heç bir şey eşitməmişlər. Xəyallardan biri qulağıma pıçıldadı ki, şərhnamə yazan adamlar o dünyada bu məşhur mütəfəkkirlərdən daim kənar gəzirlər. Onlar başa düşürlər ki, öz şərhnamələrində bu müəlliflərin dərin fikirlərini eybəcər bir surətdə təhrif etmişlər; buna görə də onlardan utanıb yaxın düşmürlər. Mən istəyirdim ki, *Aristoteli Skott və Ramusla** tanış edim. Ancaq həmin filosoflar bunların nəzəriyyələrini izah etməyə başlayanda, o, özündən çıxdı və məndən soruşdu ki, görəsən, onların əsərlərinə şərhnamə yazan bütün o biri adamlar da bunlar kimi yelbeyindilərmi?

Sonra hökmdardan xahiş etdim ki, *Dekart ilə Qassendini** çağırsın. Bunlara təklif etdim ki, öz sistemlərini Aristotelə bildirsinlər. Bu böyük filosof təbiət haqqındakı nəzəriyyəsində olan səhvlərini açıq surətdə boynuna aldı; çünki bir çox hallarda onun mühakimələri təxminlərə əsaslanırdı. O həmçinin belə bir fikir söylədi ki, öz qüvvəsinə görə *Epikürün** nəzəriyyəsini yeniləşdirmiş olan *Qassendi və Dekart* öz fırtınalı nəzəriyyəsi ilə sonrakı nəsillər tərəfindən eyni dərəcədə rədd ediləcəklər. O, müasir alimlərin belə coşqunluqla müdafiə etdikləri cazibə nəzəriyyəsinin taleyi barəsində də eyni fikri söylədi. Bu zaman o qeyd etdi ki, təbiət fəlsəfəsinə aid yeni sistemlər də, yeni modalar kimi, nəsildən-nəslə dəyişməkdədir. Hətta öz

nəzəriyyələrini riyaziyyat vasitəsilə sübut edib əsaslandırmağa çalışan filosoflar da uzun müddət şöhrət qazanmayıb, taleyin təyin etdiyi müddətlərdə dəbdən düşürlər.

Mən beş gün müddətində qədim dünyanın bir çox başqa alimlərilə də söhbət etdim. Qədim Roma imperatorlarının çoxunu gördüm. Hökmdardan xahiş etdim ki, *Qelioqabalanın** aşpazlarını çağırsın, bizim üçün yemək hazırlasınlar; ancaq cürbəcür ədviyyatlar çatışmadığından, onlar öz məharətlərini layiqincə göstərə bilmədilər. Agesilayın qulu bizə sparta şorbası bişirdi. Mən ondan bir qaşıq alıb dadına baxdım, daha ikincisini uda bilmədim. Mənimlə bərabər adaya gəlmiş o biri iki cənab işləri olduğu üçün üçgünlüyə öz evlərinə getməli oldular. Əlimdə olan bu vaxtı son iki və ya üç əsrdə mənim vətənimdə və ya başqa Avropa ölkələrində şöhrət qazanmış böyük adamların görüşünə sərf etdim. Mən həmişə qədim və məşhur nəsillərə hörmətkar olmuşam. Buna görə də hökmdardan xahiş etdim ki, bir-iki düjün kralı onların bir neçə nəsillik əcdadı ilə birlikdə dəvət etsin. Ancaq gözlənilməz bir surətdə və son dərəcə bərk əzab çəkərək məyus oldum. Mən əzəmətli tacidar zatlar əvəzinə, bir nəsildə iki skripka çalan, üç hiyləgər saray xidmətçisi və bir italyan brellatı, o biri nəsildən isə bir bərbər, bir abbat və iki kardinal gördüm. Ancaq tacidar başlara çox böyük hörmət bəslədiyimdən, bu qıcıqlayıcı məsələ üzərində çox durmuram. Qraflara, markizlərə, hersoqlara və bunlara bənzər adamlara gəlincə, onlarla çox da nəzakətlə rəftar etmədim. Etiraf edirəm ki, bizim məşhur nəsillərin zahirində olan bir çox səciyyəvi xüsusiyyətlərin haradan əmələ gəldiyini aydınlaşdırmaqdan böyük ləzzət alırdım. Mən bir nəsildə uzun çənənin haradan əmələ gəldiyini; digər bir nəsildə birbirinin ardınca iki əvvəl nəsildə nadürüstlər, iki sonrakı nəsildə isə axmaqlar; digər bir nəsildə başdan-başa dəlilər, bir başqasında isə bədzatlar əmələ gəlməsinin səbəbini asanlıqla aydınlaşdırdım. Bir çox nəsillərdə amansızlıq, yalançılıq və qorxaqlıq, öz nökərlərinin paltarlarına və karetalarının qapılarına nəqş etdikləri ailə gerbi kimi səciyyəvi bir əlamət halını almışdır.

Mən yeni tarixə xüsusən böyük bir nifrət duydum. Keçən əsr müddətində kralların saraylarında böyük şöhrət qazanmış adamlarla yaxşı tanış oldum. Satqın cızma-qaraçıların qorxaqlara – ən böyük hərbi şücaət, axmaqlara – ən ağıllı məsləhət, yaltaqlara – səmimiyyət, xainlərə – romalılara məxsus hünər, allahsızlara –

dindarlıq, çuğulçulara – haqpərəstlik istinad edərək, dünyanı necə aldatdıqları məni son dərəcə təəccübləndirdi. Qüdrətli nazirlərin fitnələri sayəsində nə qədər məsum və gözəl insanların ölümə məhkum edildiklərini və ya sürgünə göndərildiklərini öyrəndim. Nə qədər alçaq adamlar yüksək mənsəblərə qaldırılmış, onlara etimad edilmiş, hakimiyyət verilmiş, hörmət qazandırılmış və başlarına maddi nemətlər yağdırılmışdır. Mən hadisələrin və çevrilişlərin səbəbləri ilə onları hərəkətə gətirən qüvvələr, bunların müvəffəqiyyətlərinə imkan yaratmış əhəmiyyətsiz təsadüflər haqqında düzgün məlumat aldıqda, insan zəkası və sədaqəti haqqında çox pis bir rəyə gəldim. Bir general mənə etiraf etdi ki, qalibiyyəti o yalnız öz qorxaqlığı və pis komanda etməsi sayəsində qazanmışdır. Onun yanında duran bir admiral isə bildirdi ki, düşmən onun qüvvələri haqqında pis məlumat aldığı üçün o qalib gəlmişdir. O özü isə donanmanı təslim etməyə hazırlaşırmış. Üç kral mənə bildirdi ki, onlar taxtda olduqları bütün müddətdə dövlət vəzifəsinə bir dəfə də olsun ləyaqətli adam təyin etməmişlər. Əgər təsadüfən ləyaqətli bir adam yüksək vəzifəyə təyin edilmişsə, bu yalnız səhvən, yaxud da hər hansı bir nazirin xəyanəti sayəsində olmuşdur. Ancaq onlar söz verirdilər ki, bir də taxta çıxmış olsalar, əsla belə səhvlərə yol verməzlər. Onlar böyük bir inandırıcılıqla mənə sübut etdirdilər ki, taxtda yalnız əxlaqı son dərəcə pozğun olan adam qala bilər; çünki müsbət cürətli və inadlı xasiyyəti olan adam hökuməti idarə etmək işinə yalnız əngəl törədə bilər.

Mən yüksək rütbələrin və böyük sərvətin necə qazanılması məsələsilə çox maraqlanırdım. Öz tədqiqimdə bu vaxta qədər heç olmasa xaricilərin xətrinə dəyməmək üçün bu məsələyə toxunmamışdım (ümid edirəm ki, bu söylədiklərimin heç birinin zərrə qədər vətənimə aid olmadığını oxucuya söyləməyə ehtiyac yoxdur). Mənim xahişimlə maraqlandığım bir çox adam çağırıldı. Ancaq bu zaman ən səthi suallardan sonra qarşımda elə bir namussuzluq mənzərəsi açıldı ki, bunu sakit xatırlaya bilmirəm. Xəyanət, təzyiq, satqınlıq, yalan və sair bu kimi zəifliklər burada işlədilən vasitələrə nisbətən əfv edilməyə layiq olan şeylərdir. Lakin onlardan biri etiraf etdi ki, o, öz böyüklük və sərvətini vətənə xəyanət sayəsində, bir başqası birini zəhərləmək sayəsində, əksəriyyəti isə günahsız bir adamı məhv etmək məqsədilə qanunları pozmaq sayəsində qazanmışdır (ümid edirəm ki, oxucu bunu mənə bağışlayar). Bütün bunlar mənim kiçik bir

adam ola-ola, böyüklərə bəslədiyim ehtiramı bir dərəcəyə qədər zəifləşdirdi.

Mən tez-tez padşahlara və vətənə böyük xidmətlər göstərmiş adamlar barədə əsərlər oxuduğum üçün onları görməyi çox istəyirdim. Ancaq söylədilər ki, o dünyanın arxivlərində bu adamların adlarını tapmaq mümkün deyildir. Doğrudur, siyahılarda öz vətəninin həqiqi xeyirxahları olmuş bir neçə adamın adı varsa da, ancaq tarix bunları ən qəddar, rəzil və xain adamlar kimi təsvir etmişdir. Mən onları görmək istədim. Onlar hamısı mənim qarşımda çox pis kökdə və cır-cındır içində gəldilər. Onlardan çoxu mənə söylədi ki, həyatlarını dilənçilik içində, gözdən düşmüş bir halda, bəzən isə eşafotda başa vurublar.

O dünyadan çağırılan bütün adamlar, həyatda malik olduqları zahiri görkəmi bütün təfərrüatı ilə mühafizə etmişdilər. Onların zahiri görkəmlərini öz müasirlərimin zahiri görkəmi ilə müqayisə etdikdə, mən insan nəslinin son əsr içərisində cırlaşdığı haqqında son dərəcə acı və kədərli nəticəyə gəldim.

Nəhayət, köhnə qayda ilə yaşayan bir neçə ingilis kəndlisinin çağırılmasını xahiş etdim. Bu adamlar vaxtilə əxlaqlarının sadəliyi, ədalət və həqiqi azadlıq tərəfdarları olmaları, mərdlikləri və vətənə məhəbbətləri ilə şöhrət qazanmışdılar. Mən dirilərlə ölüləri müqayisə etdikdə, babaların yüksək insani sifətlərinin nəvələr tərəfindən nə dərəcədə pozğun bir hala salındığını görüb, bu məsələyə laqeyd qala bilmədim. Bu miskin adamlar parlament seçkilərində öz səslərini cüzi pul sədəqələrinə satmaqla *sarayda öyrədilə bilən bütün pis sifətləri qazanmışdılar*[*].

DOQQUZUNCU FƏSİL

Müəllifin Maldonadaya qayıtması və Laqqneqq krallığına səfər etməsi. Həbs olunması. Saraya çağırılması. Sarayda ona göstərilən qonaqsevərlik. Kralın öz təbəələrinə mehriban münasibəti.

Nəhayət, buradan getmək vaxtı gəlib çatdı. Mən Qlabbdobdribin əlahəzrət hökmdarı ilə vidalaşdım və iki yoldaşım ilə birlikdə

Maldonadaya qayıtdım. Orada bir gəmi, artıq Laqqneqqə yola düşməyə hazır idi. Dostlarım o qədər mehriban idilər ki, lazım olan ərzağı verib, məni gəmiyə qədər yola saldılar. Bir ay yol getdim. Biz şiddətli fırtınaya düşüb, altmış liq qədər bir sahədə əsməkdə olan passat küləkləri zolağına çatmaq üçün qərbə istiqamət almalı olduq. 1708-ci il aprelin 21-də Laqqneqqin cənub-şərq sahillərində olan Klyumeqniq çayına girdik. Bu çayın sahilində böyük bir dəniz limanı vardı. Biz şəhərdən bir liq qədər məsafədə lövbər salıb, bələdçi losman tələb etdik. Yarım saat çəkmədi ki, iki losman bizim gəmiyə gəlib, bizi qayalar, iri daşlarla dolu olan qorxulu bir keçiddən keçirdərək hər tərəfi örtülü olan bir limana gətirdilər. Burada gəmilər şəhər bürclərindən bir kabelt məsafədə lövbər salıb, arxayın dura bilərdi.

Bizim dənizçilərdən kim isə, bəlkə də, pis bir niyyətlə, gəmidə məşhur bir xarici səyyah olduğunu losmanlara söylədi. Losmanlar bunu gömrük məmuruna xəbər verdilər, o da sahilə çıxdığım zaman, məni çox diqqətlə yoxladı. Gömrük məmuru mənimlə Balnibarbi dilində danışırdı. Bu ölkələr arasında qızğın ticarət olduğundan, bu dil burada, xüsusən, dənizçilər və gömrük xidmətçiləri arasında geniş yayılmışdı. Mən öz macəralarımdan bəzisini müxtəsər nəql edib, sözlərimə mümkün qədər həqiqi və rabitəli bir ahəng verməyə çalışdım. Ancaq öz milliyyətimi gizlətməyi lazım bilib, özümü hollandiyalı kimi qələmə verdim. Mən Yaponiyaya getmək niyyətində idim. Ora isə, məlum olduğu kimi, bütün avropalılardan *yalnız hollandiyalıları buraxırlar**. Ona görə də mən gömrük məmuruna söylədim ki, Balnibarbi sahillərində gəmimiz fırtınaya düşüb batdığından, məni Laputaya və ya Uçan adaya qaldırmışdılar (gömrükxana məmuru bu barədə çox tez-tez eşitmişdi), indi Yaponiyaya getməyə çalışıram, oradan isə öz vətənimə qayıtmaq ümidindəyəm. Məmur mənə cavab verdi ki, saraydan binagüzarlıq alıncaya qədər məni nəzarət altında saxlamalıdır. Bu barədə saraya yazacağını vəd edərək, inandırdı ki, cavabın gəlməsi iki həftədən çox çəkməz. Mənə rahat bir bina verdilər, ancaq qapının ağzında keşikçi qoyulmuşdu. Amma mən böyük bir bağçanın içərisində azad surətdə gəzə bilərdim. Mənim yemək-içmək xərcim kralın hesabına idi və özümlə də xeyli yaxşı rəftar edirdilər. Hər gün görüşümə xeyli adam gəlirdi; çünki çox uzaq ölkələrdən bir səyyahın gəlməsi xəbəri tezliklə bütün şəhərə yayılmışdı.

Bu gələn adamlarla danışa bilmək üçün mənimlə gəmidə gəlmiş cavan bir oğlanı tərcüməçi kimi öz yanıma çağırmışdım. O əslində laqqneqqli idi, bir neçə il Maldonadada yaşadığı üçün hər iki dili mükəmməl bilirdi. Lakin mənim yanıma gələn adamlarla etdiyim söhbətlər maraqlı deyildi. Mən yalnız onların suallarına cavab verirdim.

Mənim haqqımda yazılan məlumatın cavabı vaxtında gəldi. Bu əmrnamədə göstərilirdi ki, məni on nəfərdən ibarət beş keşikçi dəstəsilə birlikdə Traldreqdaba və ya Trildroqdribə göndərsinlər (yadımda qaldığına görə bu şəhərin iki adı vardı). Məni yalnız cavan tərcüməçi müşayiət edirdi. Onu yanımda qulluq etməyə razı salmışdım. Mənim hörmətlə etdiyim xahişimə görə, bizim hərəmizə bir qatır vermişdilər. Mənim tezliklə gələcəyimi xəbər vermək üçün qabaqca bir çapar göndərilmişdi ki, kral məni *öz taxtının ayağı altındakı tozu yalamaq** şərəfinə nail edəcəyi günü və saatı lütfən təyin etsin. Buradakı sarayın ədəb-ərkan qaydası belədir və təcrübədə qane oldum ki, bu, mənasız bir cümlə deyildir. Doğrudan da, mən ora çatdıqdan iki gün sonra, padşahla görüşməyə icazə aldıqda, əmr etdilər ki, qarnı üstə taxta sarı sürünüb yeri yalayım*. Ancaq mən xarici olduğum üçün, xüsusi bir hörmət göstərib, döşəməni elə təmiz süpürmüşdülər ki, orda azacıq toz qalmışdı. Bu böyük bir iltifat sayılırdı. Buna yalnız ən yüksək rütbəli əyanlar nail olurdular. Ancaq padşah ilə görüşməyə icazə alan şəxsin sarayda düşmənləri çox olduqda, bəzən döşəməyə qəsdən toz səpirlər. Bir dəfə mən böyük rütbəli bir əyan gördüm; onun ağzı tozla o qədər dolmuşdu ki, nəhayət, sürünə-sürünə taxtın ayağına çatdığı zaman, bircə kəlmə də danışa bilmədi. Bu tozu udmaq lazım gəlirdi; çünki əlahəzrətin hüzurunda tüpürmək və ya ağzını silmək ən ağır bir cinayət sayılır.

Burada başqa bir adət də var ki, bunu əsla bəyənə bilmədim. Kral əyanlardan birini yüngül və lütfkar bir cəzaya məhkum etdikdə, onun əmrilə döşəməyə qəhvəyi rəngdə zəhərli bir toz səpirlər. Məhkum edilmiş şəxs bu tozu yalayıb, iyirmi dörd saatdan sonra ölür.

Ancaq bu padşahın böyük lütfkarlığını və öz təbəələrinə olan qayğısını ayrıca qeyd etmək lazımdır (bu cəhətdən Avropa padşahları ondan çox şey öyrənməlidirlər). Hər dəfə belə bir edamdan sonra qəti surətdə əmr edilir ki, görüş salonunun döşəməsi tərtəmiz yuyulsun. Bu əmr lazımi diqqətlə yerinə yetirilmədikdə, xidmətçilər padşahın qəzəbinə düçar olmaq təhlükəsi qarşısında qalırlar. Mən

özüm eşitdim ki, bir dəfə xidmətçilərdən biri öz növbəsi zamanı edamdan sonra döşəmənin təmizlənməsinə qəsdən layiqincə diqqət yetimədiyindən, əlahəzrət kral onun qamçı ilə döyülməsini əmr etmişdi. Xidmətçinin bu səliqəsizliyi nəticəsində gələcək üçün böyük ümidlər verən cavan bir əyan zəhərlənib ölmüşdü. Halbuki, o zaman kralın əsla onu həyatdan məhrum etmək niyyəti yox imiş. Ancaq ürəyi yumşaq olan padşah o qədər lütfkarlıq göstərmişdi ki, padşah tərəfindən xüsusi əmr verilməyincə, xidmətçinin bir də belə etməyəcəyi barədə söz verməsilə kifayətlənib onu kötək cəzasından azad etmişdi.

Öz rəvayətimizə qayıdaq. Mən sürünə-sürünə taxta dörd yard yaxınlaşdıqda yavaşca diz üstə çöküb, alnımı yeddi dəfə yerə döydüm və əvvəldən mənə öyrədilmiş olan bu sözləri söylədim: "*İkplinq qloffzsrob skvutseromm bliop mlyaşnalt zvin tnodbokefsliofed qardleb aşt!*" Bu təbrik sözləri kralın hüzuruna buraxılan bütün şəxslər üçün ölkənin qanunu ilə müəyyən edilmişdir. Bu sözləri belə tərcümə etmək olar: "*Görüm ki, əlahəzrət, səmavi vücudunuz günəşdən on bir ay yarım artıq ömür eləsin!*" Kral bu təbrikimi dinləyib, mənə bir neçə sual verdi. Mən bunları başa düşə bilmədim. Ancaq mənə əvvəlcədən sual verdi. Mən bunları başa düşə bilmədim. Ancaq mənə əvvəlcədən öyrətdikləri bu sözlərlə ona cavab verdim: "*Floft drin klerik duoldam prastred mirpuş*". Bu sözlərin mənası belədir: "*Mənim dilim dostumun ağzındadır*". Bu sözlərlə mən, – tərcüməçimə müraciət etmənizi xahiş edirəm, – demək istəyirdim. Mən bunları söylədikdən sonra, həmin cavan oğlanı içəri gətirdilər. Onun köməyilə əlahəzrətin məndən soruşmaq lütfündə olduğu bütün suallara cavab verdim. Mən Balnibarbi dilində danışırdım, tərcüməçi mənim söylədiklərimi Laqqneqq dilinə çevirirdi.

Kralın məndən çox xoşu gəlmişdi. O, öz *bliffmarklub*una, yəni öz eşikağasına əmr verdi ki, mənimlə tərcüməçim üçün sarayda bina ayırıb, yemək-içməyimizin qeydinə qalsın. Bundan əlavə, əlahəzrət özü mənə xırda xərclər üçün qızılla dolu bir kisə verdi.

Bu ölkədə üç ay qaldım. Kral mənə yüksək iltifatlar etdi. O, mənə olduqca xoşagələn təkliflər edib dilə tutdu ki, həmişəlik burada qalım. Ancaq mən həyatımın son günlərini öz arvadımın və uşaqlarımın yanında keçirməyi daha düzgün və münasib hesab etdim.

ONUNCU FƏSİL

Laqqneqqlilərin tərifi. Struldbruqların ətraflı təsviri. Müəllifin bəzi görkəmli adamlarla struldbruqlar barədə söhbəti.

Laqqneqqlilər xoşrəftar və alicənab bir xalqdır. Bütün Şərq xalqları kimi bunlar da bir qədər lovğadırlar, ancaq hər halda xaricilərlə, xüsusən, sarayın xoşuna gələn şəxslərlə, çox mehribancasına rəftar edirlər. Mən ən yüksək təbəqədən xeyli adamla tanış oldum və tərcüməçi vasitəsilə onlarla xoş söhbətlər etdim.

Bir dəfə kübarlar məclisində idim. Söhbət arasında kim isə təsadüfən məndən *struldbruq*ları və ya *ölməzləri* görüb-görmədiyimi soruşdu. Bu suala mənfi cavab verib, xahiş etdim ki, bu qəribə sözün nə demək olduğunu mənə izah etsinlər.

Həmsöhbətim indiyə kimi, bu qəribə məxluqlar barədə heç bir şey eşitmədiyimə çox təəccüb etdi və həmin saat onlar barədə danışmağa başladı. Bu qəribə əhvalatın başlıca mahiyyəti bundan ibarətdir. Laqqneqqlilər arasında çox az-az hallarda olsa da, hərdən elə uşaq doğulur ki, bunun alnında, düz sol qaşının üstündə qırmızı bir ləkə olur. Bu ləkə uşağın heç bir zaman ölməyəcəyini göstərən əlamətdir. Bu ləkə əvvəlcə üç penslik gümüş pul boyda olur, ancaq tədricən böyüyüb öz rəngini dəyişir. Uşaq on iki yaşına çatdıqda, bu ləkə yaşıllaşır və iyirmi beş yaşına qədər bu halda qalır. Sonra rəngi dəyişib tünd-göy olur. Struldbruqlar qırx beş yaşa çatdıqda, bu ləkə kömür kimi qaralır və bir ingilis şillinqi boyda olub, həmişəlik bu cür qalır. Belə ləkəli uşaqlar çox az-az doğulduqlarından, bütün krallıqda hər iki cinsdən struldbruqların sayı min yüz nəfərdən artıq olmaz. Bunlardan təxminən əlli nəfəri paytaxtda yaşayır və bunların arasında təxminən üç il bundan əvvəl doğulmuş bir qız vardır. Struldbruq hər bir ailədə doğula bilər. Belə uşaqların doğulması bir təsadüfdür. Struldbruqların uşaqları da bütün başqa insanlar kimi müəyyən müddət ömür edib sonra ölürlər.

Açıqca etiraf etməliyəm ki, bu əhvalat məni təsviredilməz dərəcədə sevindirdi. Bunlar nə xoşbəxt bir millətdirlər. Burada doğulan hər bir uşaq ölməzlik xoşbəxtliyinə nail ola bilər. Öz xeyirxah

babalarının canlı nümunələrini görə bilən bir xalq nə qədər xoşbəxtdir. Bu xalq üçün nə qədər böyük bir nemətdir ki, onların nəhayətsiz, nəsillər boyunca qazanılmış zəkaya malik tərbiyəçiləri vardır. Lakin nəcib struldbruqlar özləri yüz qat daha xoşbəxtdirlər. Təbiət onları hər bir insanın başına gələn müdhiş aqibətdən azad etmişdir. Onlar iztirablı ölüm qorxusunun nə olduğunu bilmirlər. Bu qorxu onların fikirlərini daim məşğul etmir və onlar heç bir əngəl bilmədən, azad bir surətdə inkişaf edirlər.

Mən sarayda bu şərəfli ölməzlərdən bir nəfərinə də rast gəlmədiyim üçün heyrətimi bilmirdim. Alında qara ləkə o qədər gözəçarpan bir əlamətdir ki, belə bir adam görmüş olsaydım, dərhal diqqətimi cəlb edərdi. Ancaq, eyni zamanda buna da inanmaq olmazdı ki, ən ağıllı padşahlardan biri sayılan əlahəzrət, öz ətrafına belə alim və təcrübəli məsləhətçilər yığmasın. Amma ola bilər ki, bu mütəfəkkirlərin xeyirxahlığı həddindən artıq sərtdir və sarayda hakim olan əxlaq pozğunluğuna o qədər də uyğun gəlmir. Axı biz təcrübədən bilirik ki, cavanlar böyük bir tərslik və yüngüllüklə böyüklərin ağıllı məsləhətlərinə qulaq asmaq istəmirlər. Ancaq əlahəzrət kral mənim sərbəst bir surətdə onun yanına gəlib-getməyimə icazə vermişdi və mən ilk fürsətdən istifadə edərək, bu barədə öz fikrimi ətraflı surətdə ona söyləyəcəyəm.

Hər halda, əgər struldbruqlar məni öz aralarına qəbul etmək lütfündə olsalar, əlahəzrətin mehribanlıqla etdiyi təklifi qəbul edib, həmişəlik onun ölkəsində qalmağa və bütün ömrümü bu yüksək məxluqlarla söhbətdə keçirməyə razı olaram.

Mən bu sözləri coşqun bir surətdə söyləyərkən (bizim söhbətimiz yaxşı bildiyim Balnibarbi dilində gedirdi), müsahibim gülümsəyə-gülümsəyə mənə baxırdı. Onun bu gülümsəməsindən sadədil bir adama rəhmi gəldiyi hiss olunurdu. Sözlərimi qurtardıqda o, mehribanlıqla söylədi ki, məni öz ölkəsində saxlamağa çox məmnun olar və xahiş etdi ki, sözlərimi orada olanlara tərcümə etməyə razılıq verim. Mən cavab verdim ki, bunun üçün ona çox minnətdar olaram. Onun sözləri hamının diqqətini cəlb etdi, sonra qızğın bir danışıq başlandı. Təəssüf ki, mən yerli dili bilmirdim. Üzlərinin ifadəsindən də mənim sözlərimin onlara necə təsir etdiyini başa düşmürdüm. Nəhayət, müsahibim yenidən mənə müraciət etdi. O dedi ki, mənim və onun dostları ölməzliyin böyük bir xoşbəxtlik və üstünlük olduğu

barədəki incə mülahizələrimə heyran olublar. Ancaq bilmək istəyirlər ki, əgər taleyin iradəsilə mən özüm struldburq doğulmuş olsaydım, nə edərdim?

Mən cavab verdim ki, onların bu marağını təmin etmək çox asandır. Mən ölməzlik barədə tez-tez xəyallara dalaraq, həmişəlik yaşayacağımı yəqin bilsəm, özümü necə idarə edəcəyim haqqında çox düşünərəm.

Beləliklə, ölməzliyə nail olduğumu yəqin etsəydim, hər şeydən əvvəl varlanmağa çalışardım. Bir dərəcəyə qədər qənaət edib, az xərcləsəydim, iki yüz il sonra bütün krallıqda birinci varlı adam olacağıma möhkəm inana bilərdim. Eyni zamanda lap cavan yaşlarımdan elm və incəsənəti öyrənməyə başlar və nəhayət, alimliyim ilə hamını kölgədə qoyardım. Nəhayət, bütün baş verən görkəmli ictimai hadisələrin müfəssəl tarixini yazardım. Adətlərdə, dildə, geyimdə, yeməkdə və əyləncələrdə baş verən bütün dəyişiklikləri səliqə ilə öz dəftərimə yazardım. Öz bilik və müşahidələrim sayəsində tədricən həqiqi bir alim və öz xalqım üçün bütün biliklərin qaynağı olardım.

Altmış yaşından sonra mən evlənmək xəyalından əl çəkərdim. Qənaətkar olmaqla bərabər, əliaçıq və qonaqsevər bir adam olardım. Ümidverən bütün gəncləri ətrafıma toplayıb, öz təcrübəmə, müşahidələrimə və xatirələrimə əsaslanaraq, ictimai və şəxsi həyatda xeyirxahlığın nə qədər faydalı bir şey olduğunu onlara inandırardım.

Lakin mənim ən yaxşı, daimi dostlarım və həmsöhbətlərim də ölməzlərdən ibarət olardı. Onların arasında özüm üçün ən yaşlı qocalardan tutub, öz yaşıdlarımadək on iki dost seçərdim. Əgər onların içərisində ehtiyacı olan tapılardısa, öz mülkümün ətrafında onlara rahat ev verərdim. Mənim süfrəmə həmişə dostlarım olan struldbruqlar və seçilmiş ölməzlər yığışardılar. Zaman keçdikcə öz dostlarımın ölümünə alışar və onların nəsillərinə sevə-sevə baxardım. Biz keçən payızda solmuş çiçəklərin əsla həsrətini çəkmədən bağçamızda açılan mixək və zanbaq çiçəklərinə bu sayaq baxıb ləzzət alardıq.

Bizim söhbətlərimiz nə qədər mənalı və maraqlı olardı. Biz, struldbruqlar bir-birimizə uzun əsrlər boyu topladığımız xatirələr və müşahidələrimizdən danışardıq. Biz, insanlar arasında artmaqda

olan nöqsanlarla mübarizə üçün tədbirlər görərdik. Özümüz nümunə göstərməklə bəşəriyyətin getdikcə pozulub xarab olmasına yol verməzdik.

Hələ bundan başqa dövlət və imperatorluqlardan əmələ gələn böyük çevrilişləri, cəmiyyətin yuxarı təbəqələrindən tutmuş aşağı təbəqələrinə qədər, bütün təbəqələrdə baş verən dərin dəyişiklikləri görmək ləzzətini də bura əlavə edin. Sizin gözünüzün qabağında qədim şəhərlər xarabazara, adsız-sansız kiçik kəndlər isə izdihamlı paytaxtlara çevrilir. Siz suyu bol olan çayların xırda çaylara çevrildiyini, okeanın tədricən bir sahildən çəkilib, o biri sahili basdığını öz gözlərinizlə görürsünüz. Siz dünən əsla məlum olmayan ölkələrin xəritələrə daxil edildiyinə şahid olursunuz. Siz ən mədəni xalqların vəhşiləşdiyini, vəhşi xalqların isə tədricən mədəniyyətin yüksək pilləsinə qalxdığını müşahidə edirsiniz. Siz, yəqin ki, bir çox böyük ixtiraların; *perpetuum mobile**-in, bütün xəstəliklərin dərmanının və ya ömrü uzatmaq dərmanının kəşf edildiyini görürsünüz.

Mən ölməzliyin insana bəxş edə biləcəyi səadət və ləzzətləri təsvir edərkən, çox gözəl sözlər tapıb söyləyirdim. Sözlərimi qurtardıqda və nitqimin məzmunu orada olanlara tərcümə edildikdə, laqneqqlilər arabir istehza ilə mənə sarı baxaraq öz aralarında qızğınlıqla söhbət etməyə başladılar.

Nəhayət, aramızda tərcüməçi rolunu oynayan cənab söylədi:

– Hamı ondan xahiş edir məni başa salsın ki, görüşlərim tamamilə yanlışdır.

Mənim səhvimin səbəbləri qismən, ümumiyyətlə, bütün bəşər nəslinə aid olan axmaqlıqdan, qismən isə struldbruq nəslinin yalnız bu ölkəyə aid olmasından irəli gəlirdi. Bu cür qəribə məxluqlara nə Balnibarbidə, nə də Yaponiyada rast gəlmək olmazdı. Bu, tərcüməçiyə yaxşı məlum idi; çünki o, Yaponiyada əlahəzrət kralın elçisi vəzifəsini ifa etmək şərəfinə nail olmuşdu və onun struldbruqlar barədəki söhbətlərinə orada əsla inanmaq istəməmişdilər. Elə özümün də ölməzlər barədəki ilk sözü eşidərkən, heyrətə düşməyim bu cür insanların varlığının mənim üçün nə qədər inanılmaz bir şey olduğunu göstərirdi.

Həmin adam adları çəkilən krallıqlarda olarkən yerlilərlə xeyli söhbət edib görmüşdü ki, uzun ömür etmək arzusu bütün insanların ən böyük ümumi bir arzusudur. Bir ayağı qəbirdə olan hər bir insan

o biri ayağını yerdə mümkün qədər möhkəmləndirməyə çalışır. Tamamilə taqətdən düşmüş qocalar da ömürlərinin hər günü üçün əsir və ölümə ən böyük bir fəlakət kimi baxırlar. Yalnız burada, Laqqneqq adasında həyata belə bir coşqun həvəs yoxdur; çünki onların gözü qabağında uzun ömrün nümunəsi olan struldbruqlar var.

Ölməzlər üçün mənim təsəvvür etdiyim həyat əsla mümkün deyildir. Belə bir həyat daim cavan, sağlam və qüvvətli olmağı tələb edir. Ancaq arzuları sonsuz olan heç bir insan belə bir həyata malik olmaq ümidinə düşə bilməz. Deməli, burada iş əsla əbədi gənc qalmaq və onun nemətlərindən istifadə etməkdən ibarət olmayıb, qocalıqla əlaqədar olan bütün iztirablarla dolu, sonsuz bir həyatı necə keçirmək məsələsindədir. Əlbəttə, belə ağır şərtlər altında ölməzliyi arzulayanlar o qədər də çox olmaz. Lakin müsahibim əlavə etdi ki, Balnibarbidə və Yaponiyada hətta qocalığın bütün iztirablarını çəkən qocalar da ölümü özlərindən uzaqlaşdırmağa çalışırlar. O belə bir halın mənim öz vətənimdə və səyahətlərim zamanı gördüyüm ölkələrdə olub-olmadığını soruşdu.

Bu müqəddimədən sonra o, öz aralarında yaşayan struldbruqların həyatını mənə ətraflı surətdə təsvir etdi. O söylədi ki, onlar otuz yaşına qədər adi insanlardan əsla fərqlənmirlər. Sonra isə yavaş-yavaş qaraqabaq və qaradinməz olurlar.

Onlar burada insan ömrünün son həddi hesab olunan, səksən yaşına çatdıqda adi insanlar kimi taqətdən düşmüş qocalara çevrilirlər. Ancaq, ümumiyyətlə, qocalığa məxsus olan bütün əziyyət və zəifliklərdən başqa, onların daha böyük bir dərdi olur ki, bu da belə miskin bir həyatı əbədi sürmək məcburiyyətini dərk etmələrindən ibarətdir.

Struldbruqlar yalnız tərs, deyingən, xəsis, qaraqabaq, şöhrətpərəst və naqqal olmaqla qalmayıb, həm də dostluq və məhəbbət duyğularından məhrumdurlar. İnsanın öz əqrəbasına olan təbii bağlılıq duyğusu, onlarda nəvələrdən o yana keçmir. Paxıllıq və arzularının yerinə yetməməsindən əmələ gələn iztirab onlara daim əzab verir. Onlar, hər şeydən əvvəl, gənclərin dəcəlliklərinə və qocaların ölümünə həsrət çəkirlər. Onlar gənclərin şadlığına baxarkən, böyük bir kədərlə başa düşürlər ki, onlar üçün həyatdan zövq almaq tamamilə qeyri-mümkündür. Qocaların dəfn edildiyini gördükdə deyinir və şikayətlənirlər ki, başqaları kimi sakit bir guşəyə basdırılıb dincəlmək

ümidi onlar üçün yoxdur. O bədbəxtlərin arasında huşunu itirib körpə vəziyyətinə düşənlər xoşbəxt sayılırlar. Onlara qarşı hamı mərhəmət və şəfqət hissi duyur; çünki onlar başqa ölməzlərə aid olan bir çox nöqsan və kəsirlərdən məhrumdurlar.

Bir struldbruq özü kimi ölməzliyə məhkum bir qadınla evləndikdə, onlardan kiçik olanı səksən yaşına çatanda bu evlilik pozulur.

Struldbruqların yaşı səksənə çatar-çatmaz, onlar vətəndaşlıq baxımından ölmüş hesab edilirlər. Onların əmlakı həmin saat varislərinə çatır. Bu əmlakdan yalnız bir məbləğ onların güzəranı üçün ayrılır. Kasıblar isə cəmiyyətin hesabına saxlanılırlar. Struldbruqlar bu yaşa çatdıqda heç bir vəzifə sahibi olmağa layiq görülmürlər. Onlar nə torpaq ala bilər, nə də icarə edə bilərlər. Onlara məhkəmədə şahidlik etməyə də icazə verilmir.

Doxsan yaşında struldbruqların dişləri və saçları tökülür. Bu yaşda onlar yedikləri xörəyin dadını bilmir və qabaqlarına nə gəlirsə, ağız ləzzəti bilmədən iştahasız yeyib-içirlər. Qocalıq iztirabları nə artmadan, nə də azalmadan onları incitməkdə davam edir, get-gedə yaddaşlarını itirirlər. Söhbət zamanı ən adi şeylərin, ən yaxın dost və əqrəbalarının adlarını yaddan çıxarırlar. Oxumaqdan da ləzzət ala bilmirlər. Cümlənin axırına çatmamış, əvvəlini yaddan çıxarırlar. Beləliklə, özləri üçün mümkün olan bu yeganə əyləncədən də məhrum olurlar.

Bu ölkənin dili tədricən dəyişir. Bir əsrdə doğulmuş olan struldbruqlar sonrakı əsrdə doğulmuş adamların dilini çətinliklə başa düşürlər. Onlar iki yüz il yaşadıqdan sonra böyük bir çətinliklə yalnız bir neçə ən sadə cümlə söyləyə bilirlər. Bu vaxtdan sonra onlar özlərini öz vətənlərində xaricilər kimi hiss etmək məcburiyyətində qalırlar.

Söhbət etdiyim adamdan struldbruqların təsvirinə aid eşitdiyim şeylər bundan ibarətdir. Sonralar öz gözümlə müxtəlif yaşlarda olan beş-altı struldbruq gördüm. Onlardan ən cavanının yaşı iki yüzə yaxın idi. Onları mənim yanıma gətirmiş olan dostlar onları başa salmağa çalışdılar ki, mən böyük səyyaham və bütün dünyanı görmüşəm. Ancaq bu sözlər struldbruqlara əsla təsir etmədi. Onlar gördüklərim və başıma gələnlər barədə mənə bircə sual da vermədilər. Yalnız bircə şeylə maraqlanırdılar. Mən onlara *Slomskudask,* yəni yadigar olmaq üçün bir hədiyyə verəcəyəm, ya yox. Bu, sədəqə istəmək üçün bir növ ədəbli üsul idi; çünki struldbruqlar cəmiyyətin

hesabına saxlandıqlarından, onlara dilənçilik qəti surətdə qadağan edilmişdi. Ancaq etiraf etmək lazımdır ki, onlara verilən pay çox azdır və onlar hər vasitə ilə qanundan kənara çıxmağa çalışırlar.

Camaatın struldbruqlardan zəhləsi gedir və onlara həqarətlə baxırlar. Onlardan hər birinin anadan doğulması pis bir əlamət sayılır və anadan olduqları gün, səliqə ilə xüsusi bir kitaba qeyd olunur, belə ki, hər bir struldburqun yaşını dövlət arxivlərindən soruşub öyrənmək olar. Lakin arxivlərdəki yazılar min ildən çox qalmır. Bundan başqa, bir çox kitablar zaman keçdikcə çürüyüb tələf olmuş və xalq üsyanları zamanı itib-batmışdır.

Struldbruqların yaşını təyin etmək üçün ən yaxşı üsul, hansı kralın və məşhur adamların yadlarında qaldığını soruşmaqdır.

Struldbruqların yadlarında yalnız onlar səksən yaşa çatmazdan əvvəl taxta çıxmış kralların adları qalır. Sonra salnamələri yoxlayaraq struldburqun yaşını təxmini surətdə təyin etmək çox çətin deyildir.

Mən ömrümdə bunlar qədər iyrənc insanlar görməmişdim. Qadınlar kişilərdən daha da iyrəncdirlər. Hədsiz qocalığa məxsus olan adi kifirlikdən başqa, onlar il keçdikcə, bir kölgə şəklini alırlar. Onları görərkən, insanın duyduğu dəhşəti təsvir etmək əsla mümkün deyildir.

Oxucu asanlıqla inanır ki, struldbruqlarla yaxından tanış olduqdan sonra, mənim ölməzliyə olan coşqun həvəsim xeyli zəiflədi. İndi mən bir az əvvəl xəyalımda canlandırdığım cazibəli mənzərələrdən utanırdım. Düşünürdüm ki, struldbruq kimi olmaqdansa, ən dəhşətli edamı üstün tutardım.

Kral dostlarımla etdiyim söhbəti eşidib şən-şən güldü. O, mənə təklif etdi ki, öz həmvətənlərimi ölüm qorxusundan müalicə etmək üçün struldbruqlardan bir-ikisini özümlə aparım. Əgər krallığın əsas qanunu struldbruqlara vətənlərini tərk etməyi qadağan etməsəydi, mən onları aparmaq xərcini və zəhmətini həvəslə öz öhdəmə götürərdim.

Etiraf etmək lazımdır ki, struldbruqlar haqqındakı yerli qanunlar çox ağıllı qurulmuşdur. Əgər bu qanunlar olmasaydı, struldbruqlar qocalara xas olan acgözlüklə bütün ölkəni tədricən özlərinə mal edib bütün mülki hakimiyyəti əllərinə alardılar. Onlar hökuməti idarə etməyə əsla qabil olmadıqlarından bu hal, yəqin ki, bütün ölkənin fəlakətinə səbəb olardı.

ON BİRİNCİ FƏSİL

*Müəllifin Laqqneqqi tərk edib Yaponiyaya getməsi.
Buradan bir Hollandiya gəmisində Amsterdama,
oradan da İngiltərəyə qayıtması.*

Ümid edirəm ki, struldbruqlar barədə hekayətim yeniliyinə görə, oxucunu bir qədər əyləndirmiş olar. Hər halda, səyahətə aid əlimə keçmiş bütün kitablarda belə şeyə rast gəldiyimi xatırlamıram.

Laqqneqq krallığı ilə böyük Yaponiya imperatorluğu arasında daimi ticarət əlaqələri vardır. Yapon yazıçıları, yəqin ki, struldbruqlar barədə bir şey yazmış olarlar. Ancaq mən Yaponiyada çox az qaldım. Yapon dilində danışmağı əsla bacarmadığım üçün bu məsələ barədə heç bir şey öyrənə bilmədim. Ancaq ümid edirəm ki, hollandiyalılar danışdığım əhvalatı oxuyub, bu ölməzlərlə maraqlanar və verdiyim məlumatı tamamlayarlar.

Əlahəzrət kral təkid edirdi ki, mən sarayda bir vəzifə tutub, orada qalım. Ancaq vətənimə qayıtmaq qərarımın qəti olduğunu gördükdə, o, məni buraxmağa razı oldu, hətta Yapon imperatoruna bir tövsiyə məktubu yazmaq iltifatını da göstərdi. O, mənə dörd yüz qırx dörd iri qızıl pul və qırmızı bir almaz bağışladı ki, mən bunu İngiltərədə min yüz funta satdım.

1709-cu il mayın 6-da mən əlahəzrət kral və bütün dostlarımla təntənəli surətdə vidalaşdım. Kral o qədər mərhəmətli idi ki, öz qvardiyasından olan bir dəstəyə, məni adanın cənub-qərb sahilindəki Qlanqvenstald adlı padşahlıq limanına qədər ötürməyi əmr etdi.

Altı gündən sonra Yaponiyaya gedən bir gəmiyə minib on beş gün yol getdim.

Biz Yaponiyanın cənub-şərq hissəsində olan kiçik Ksamoşi limanında lövbər saldıq. Bu şəhər uzun bir burun üzərində yerləşmişdir. Buradan dar bir boğaz şimala doğru gedib, uzun bir körfəzlə birləşir. Bunun şimal-qərb tərəfində imperatorluğun paytaxtı olan İedo şəhəri yerləşmişdir. Mən sahilə çıxıb, Laqqneqq kralının əlahəzrət imperatora yazdığı məktubu gömrük məmurlarına göstərdim. Gömrükdə kralın ovcumun içi boyda olan möhürünü çox yaxşı tanıyırdılar. Bu möhürün üzərində axsaq bir dilənçiyə ayağa qalxmağa

kömək edən kralın şəkli çəkilmişdir. Şəhər idarəsi bu məktub barədə eşidib məni dost bir ölkənin elçisi kimi qəbul etdi. Şəhər idarəsi mənə minik və xidmətçilər verib İedoya getmək üçün bütün yol məxaricimi öz öhdəsinə götürdü.

Mən ora çatdıqda, imperatorla görüşüb məktubu ona verdim. Bu məktub böyük bir təntənə ilə açılıb tərcüməçi tərəfindən imperatora oxundu. Əlahəzrət imperatorun əmrilə onlardan bir şey xahiş edib istəməyi mənə təklif etdilər. Bu xahiş imperatorun öz hökmdar qardaşı Laqqneqq kralına bəslədiyi hörmət xatirinə həmin saat yerinə yetiriləcəkdi. Tərcüməçiyə hollandiyalılarla iş aparmaq vəzifəsi də tapşırılmışdı. Buna görə o, zahiri görkəmimdən mənim avropalı olduğumu tezliklə bildi və əlahəzrətin sözlərini çox mükəmməl bildiyi Hollandiya dilində mənə təkrar etdi. Mən əvvəlcədən qəbul etdiyim qərara görə, hollandiyalı tacir olduğumu və gəmimizin uzaq bir ölkənin sahillərində fəlakətə düçar olduğunu söylədim. Oradan mən Laqqneqqə, oradan da gəmi ilə Yaponiyaya gəlib çıxmışam, mənə məlum olduğuna görə, həmvətənlərim bu ölkə ilə ticarət edirlər. Ümid edirəm ki, onlardan biri ilə öz vətənimə qayıtmağa imkan tapa bilərəm. Mən, əlahəzrət imperatordan hörmətlə xahiş edirəm ki, Avropa gəmilərinin daxil olmasına icazə verilən yeganə liman olan Naqasakiyə keşikçilərin nəzarəti altında getməyimə icazə versin. Orada Avropaya getmək üçün münasib bir fürsət gözləyəcəyəm. Axırda əlahəzrət imperatordan xahiş etdim ki, himayəçim olan Laqqneqq kralının xatirinə məni həmvətənlərim üçün məcburi olan *xaçı tapdalamaq mərasimindən azad etsin**, çünki mən bu ölkəyə bir fəlakət nəticəsində gəlib çıxmışam və ticarət etmək niyyətim yoxdur.

Tərcüməçi mənim bu xahişimi imperatora söylədikdə, əlahəzrət bir qədər heyrət etdi. O söylədi ki, öz həmvətənlərim içərisində belə vasvasılıq göstərən birinci adamam. O, istər-istəməz mənim, doğrudan da, hollandiyalı olub-olmadığımdan şübhələnir. Mənim sözlərimdən yalnız bu məlum olur ki, əsl xristianam. Bununla bərabər o, Laqqneqq kralına xüsusi bir hörmət əlaməti olaraq, mənim bu qəribə arzumu yerinə yetirməyə razı olur. Ancaq məni xəbərdar edir ki, bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır. O, öz məmurlarına əmr edəcəkdir ki, onlar, guya, məni bu mərasimdən təsadüfən, yadlarından çıxartdıqları üçün azad etmişlər. Çünki

həmvətənlərim olan hollandiyalılar mənim bu mərasimi yerinə yetirməkdən azad edildiyimi bilmiş olsalar, imperatorun sözlərinə görə yolda mənim başımı kəsərlər. Tərcüməçinin vasitəsilə mən belə bir müstəsna mehribanlıq üçün öz dərin təşəkkürümü izhar etdim. Elə bu zaman Naqasakiyə bir dəstə əsgər göndərilməli idi. Mənə bu dəstəyə qoşulmağı təklif etdilər və dəstənin başçısına məni yolda qorumaq əmr edilib, xaç barədə xüsusi tapşırıq verildi.

Xeyli uzun və əziyyətli bir səyahətdən sonra, 1709-cu il iyunun 9-da, Naqasakiyə çatdım. Burada Amsterdama gedən dörd yüz əlli tonluq "Amboina" adlı gəmidə xidmət edən bir dəstə Hollandiya dənizçisi ilə tanış oldum. Mən Hollandiyada xeyli yaşayıb, Leydendə təhsil almış olduğumdan, hollandca yaxşı danışırdım. Dənizçilər tezliklə mənim haradan gəldiyimi bilib, böyük bir maraqla səyahətlərim və həyatım barədə məni sorğu-suala tutdular. Mən başıma gələn hadisələrin çox hissəsini gizlədərək, qısa, amma həqiqətə bənzər bir əhvalat uydurdum. Mənim Hollandiyada xeyli tanışlarım vardı. Buna görə də çətinlik çəkmədən, ata-anam üçün familiyalar uydurdum və onların Qelderland qəzasında yaşayan təvazökar kəndlilər olduqlarını söylədim. Gəminin kapitanına (Teodor Vanqrult adlı birisinə) təklif etdim ki, məni Hollandiyaya aparmaq üçün nə qədər istəyirsə pul verim. Lakin o, cərrah olduğumu bilib, yol xərcinin yarısını almaqla kifayətləndi, bu şərtlə ki, onun gəmisində həkim vəzifəsində işləyim. Yola çıxmazdan əvvəl, dənizçilər yuxarıda söylədiyim xaç mərasimini yerinə yetirib-yetirmədiyimi bir neçə dəfə soruşdular. Ancaq mən onlara qeyri-müəyyən bir cavab verdim. Buna baxmayaraq, qəzəbli bir cavan olan sükançı məni yapon zabitinə göstərib söylədi ki, hələ xaçı tapdalamamışam. Lakin mənim barəmdə xüsusi göstəriş almış olan zabit, həmin bu yaramazın çiyinlərinə bambuk ilə iyirmi zərbə vurdu. Bundan sonra daha heç bir kəs mənə bu barədə sual vermədi.

Səyahət zamanı qeyd olunmağa layiq heç bir hadisə baş vermədi. Ümid burnuna qədər səmt küləyi əsirdi. Biz, içməli su götürmək üçün bir neçə gün orada qaldıq. 1710-cu il aprelin 10-da sağ-salamat gəlib Amsterdama çatdıq. Yalnız yolda dörd adamımız – üçü xəstəlikdən, biri isə Qvineya sahillərində dorun başından dənizə yıxılıb öldü. Amsterdamdan mən bu şəhərə məxsus kiçik bir gəmi ilə İngiltərəyə yola düşdüm.

Aprelin 16-da Daunsda lövbər saldıq. Ertəsi gün səhər sahilə çıxıb beş il yarımlıq ayrılıqdan sonra yenidən öz vətənimi gördüm. Mən birbaş Redrifə yola düşüb, həmin gün günortaüstü saat ikidə ora çatdım və arvad-uşağımı sağ-salamat gördüm.

DÖRDÜNCÜ HİSSƏ

Quiqnqnmlar ölkəsinə səyahət

BİRİNCİ FƏSİL

Müəllifin gəmi kapitanı vəzifəsində səyahətə çıxması. Gəmi komandasının müəllifə qarşı sui-qəsd hazırlaması. Onun uzun müddət nəzarət altında kayutda saxlanması. Sonra naməlum bir ölkədə sahilə çıxarılması. Müəllifin ölkənin içərilərinə getməsi. Yexu adlanan xüsusi heyvanlar növünün təsviri. Müəllifin iki quiqnqnma rast gəlməsi.

Mən beş aya qədər arvad-uşağımla bərabər evdə qaldım və nəhayət, sakit, dinc həyatın qədrini bilib ona öyrəşmiş olsaydım, özümü çox xoşbəxt adlandıra bilərdim. Ancaq səyahətlərə olan coşqun həvəsim məni rahat qoymurdu. Mənə çox əlverişli şərtlərlə üç yüz əlli tonluq "Advençyurer" adlı yaxşı bir ticarət gəmisində kapitan vəzifəsində işləməyi təklif etdilər və çox da tərəddüd etmədən bu təklifi qəbul etdim. Gəmiçilik işini mən çox yaxşı bilirdim, cərrahlıq isə lap zəhləmi tökmüşdü. Buna görə də yeri gəldikdə, bu işlə məşğul olmaqdan əl çəkməklə bərabər, bilikli bir cavan olan Robert Pyurefoy adlı bir adamı gəmi həkimi vəzifəsinə dəvət etdim. Biz 1710-cu il sentyabrın 7-də Portsmutdan yola düşdük. Ayın 14-də Tenerif yaxınlığında bristollu kapitan Pokokka rast gəldik ki, o, səndəl ağacı gətirmək üçün Kampeşiyə gedirdi. Ancaq, ayın 16-da başlanan fırtına bizi bir-birimizdən ayrı saldı. Mən İngiltərəyə qayıtdıqdan sonra xəbər tutdum ki, onun gəmisi batmışdır. Bütün gəmi xidmətçilərindən yalnız bir gənc dənizçi xilas olmuşdur. O kapitan çox yaxşı bir adam və gözəl dənizçi idi. Ancaq çox tərsdi. Mən heç şübhə etmirəm ki, həmin bu nöqsan onun fəlakətinə bais olmuşdur.

Dənizdə səyahət zamanı mənim gəmimdə tropik qızdırmadan bir neçə dənizçi öldü. Gəminin xidmətçilərini tamamlamaq üçün Barbadosda və başqa Antil adalarında bir neçə adam işə götürdüm. Bu adalara gəmilərin sahiblərinin tapşırığı ilə getmişdim. Lakin tezliklə bu adamları işə götürməyin acı peşmançılığını çəkməli oldum. İşə götürdüyüm əmələlərin çoxu tamamilə şübhəli adamlar və sonradan məlum olduğuna görə, dəniz quldurları imiş. Gəmimdə əlli adam var idi. Mənə tapşırılmışdı ki, Cənub okean hindlilərilə ticarət münasibətinə girişim və bu en dairələrində az tanınmış olan sahələri tədqiq edim.

İşə götürdüyüm bu yaramazlar tezliklə qalan dənizçiləri də öz tərəflərinə çəkməyə müvəffəq oldular. Onlar məni həbs edib, gəmiyə yiyələnməyi qərara almışdılar. Bu sui-qəsdi təcili olaraq yerinə yetirməli idilər. Bir dəfə səhər sui-qəsdçilər mənim kayutuma girib əlqolumu bağladılar və müqavimət göstərsəm, məni dənizə atacaqları ilə hədələdilər. Mənim yalnız öz taleyimə tabe olmaq və özümü əsir bilməkdən başqa çarəm yox idi. Quldurlar məni and içməyə məcbur etdilər ki, daha onlara müqavimət göstərməyəcəyəm. Mən onların tələblərini yerinə yetirdikdən sonra əllərimi açdılar, ancaq ayağımı zəncirlə çarpayıya bənd edərək, kayutumun ağzında əlisilahlı keşikçi qoyaraq ona əmr etdilər ki, xilas olmağa kiçik bir təşəbbüs etsəm, məni güllə ilə vursun. Kayuta mənim üçün yemək-içmək göndərirdilər, gəminin idarəsini isə öz əllərinə almışdılar.

Quldurlar dənizdə İspaniya gəmilərini güdüb, qarət etmək qərarına gəlmişdilər. Ancaq belə bir iş görmək üçün onların sayı az idi. Buna görə də bu qərara gəlmişdilər ki, gəmidə olan malları satdıqdan sonra adamlarının sayını tamamlamaq üçün Madaqaskar adasına getsinlər. Quldurlar bir neçə həftə okeanda üzərək hindlilərlə alış-veriş edirdilər. Ancaq gəminin istiqamətindən xəbərim yox idi; çünki həmişə ciddi həbs şəraitində, öz kayutumda qalmışdım və onların məni tez-tez hədələyib qorxutduqları amansız edamı hər dəqiqə gözləyirdim.

1711-ci il mayın 9-da Ceyms Uels adlı birisi mənim kayutuma gəlib söylədi ki, kapitan məni sahilə çıxarmağı əmr etmişdir. Mən onu rəhmə gətirməyə çalışdımsa da, heç bir şey çıxmadı. O, hətta yeni kapitanın kim olduğunu da mənə söyləməkdən boyun qaçırdı. Quldurlar mənə ən yaxşı, demək olar ki, təzə paltarımı geyməyə və özümlə

kiçik bir bağlama alt paltarı götürməyə icazə verdilər. Silahlarımdan mənə yalnız kiçik bir xəncər verdilər. Onların mehribanlıqları o qədər artıq idi ki, ciblərimi axtarmadılar. Ciblərimdə isə pul və bəzi xırım-xırda şeylər var idi. Sonra məni bir qayığa oturdub, təxminən gəmidən bir liq məsafədə görünən sahilə yönəldilər. Burada quldurlar məni dənizin dayaz yerinə çıxarıb, özləri gəmiyə qayıtdılar, xahiş etdim ki, heç olmazsa, buranın hansı ölkə olduğunu mənə söyləsinlər, ancaq and içdilər ki, onlar bu barədə məndən artıq bilmirlər və söylədilər ki, kapitan adlandırdıqları adam çoxdan yaxasını məndən qurtarmaq istəyirdi. Gəmidəki yüklər satılıb qurtaran kimi, onlar Madaqaskara gedəcəklər. Bu sözləri söylədikdən sonra qayıq məndən ayrıldı. Vidalaşarkən onlar mənə müvəffəqiyyət dilədilər və məsləhət gördülər ki, hələ qabarma başlamamış sahilə çıxmağa tələsim.

Bu ağıllı məsləhət idi və mən dənizin dayaz yerindən sahilə doğru yönəldim. Sahilə çatdıqda, bir qədər dincəlmək və nə edəcəyimi fikirləşmək üçün bir təpənin üstündə oturdum. Mənim heç bir azuqə ehtiyatım və azuqə əldə etmək üçün heç bir vasitəm yox idi. Tək və silahsız idim. Mənim edə biləcəyim yeganə şey bundan ibarət idi ki, özümü rast gəldiyim ilk vəhşi adamın ixtiyarına verim və bir neçə qolbaq, muncuq və sair xırım-xırda şeylər bağışlamaqla, onların rəğbətini qazanım. Dənizçilər vəhşi ölkələrə getdikdə, həmişə belə şeylər götürürdülər. Mən öz kayutumu tərk edərkən, belə şeylərdən bir neçəsini ciblərimə doldurmuşdum. Bu qərara gəldikdən sonra ayağa qalxıb, ölkənin içərilərinə yönəldim.

Qarşımda geniş bir düzən var idi. Onun ortasında cərgə ilə düzülmüş uzun ağaclar görünürdü, lakin bu ağaclar insan əliylə əkilməmişdi. Ağacların arasında yaşıl çəmənlər və çovdar əkilmiş tarlalar görünürdü. Mən ətrafıma göz gəzdirə-gəzdirə, ehtiyatla irəliləyirdim. Kiminsə mənə gözlənilmədən hücum edəcəyindən və ya arxadan, ya da yandan məni oxla vuracağından qorxurdum.

Bir qədərdən sonra işlək bir yola çıxdım. Yolda xeyli adam, bir neçə inək və hər şeydən çox at ləpiri görünürdü. Nəhayət, çöldə bir növ heyvanlar gördüm. Belə heyvanlardan bir neçəsi də ağaclarda oturmuşdu. Onların qəribə və əcaib görkəmi məni çaşdırdı. Onları yaxşı görə bilmək üçün bir kolun dalında yerə uzandım. Onlardan bir neçəsi uzandığım yerə yaxınlaşdı və mən onları çox yaxşı görə bildim. Onların başları və sinələri qalın tüklərlə örtülü idi. Bəzilərinin

tükləri qıvırcıq, bəzilərinkisə hamar idi. Bir çoxunun keçi saqqalına bənzər saqqalları da var idi. Bellərinin və pəncələrinin qabaq hissələri boyunca zolaq-zolaq tük uzanmışdı. Ancaq bədənləri tüksüz idi. Belə ki, onların tünd-qəhvəyi rəngdə olan dərilərini görə bilirdim. Quyruqları yox idi. Dişiləri erkəklərindən bir qədər kiçik idi. Dişilərin başlarında uzun hamar tükləri var idi; üzləri isə tüksüz idi, bütün bədənləri yalnız nazik və yumşaq tüklərlə örtülü idi. Erkəklərin və dişilərin tükləri cürbəcür rənglərdə – xurmayı, qara, kürən rəngdə idi. Onlar çox az-az sakit dururdular. Qalan bütün vaxtı yüyürür, atılır, heyrətli bir çevikliklə hoppanırdılar. Qabaq və dal pəncələrində olan möhkəm və iti dırnaqları sayəsində onlar dələ çevikliyilə ən hündür ağaclara dırmaşa bilirdilər. Ümumiyyətlə, mən bütün səyahətlərim zamanı heç bir yerdə bunlar kimi kifir və murdar heyvanlara rast gəlməmişdim. Buna görə də onlara çox baxmadım, onlara qarşı dərin nifrət hiss edib iynəyərək, gizləndiyim yerdən çıxdım və yoluma davam etdim. Ümid edirdim ki, bu yol məni aparıb bir hindlinin daxmasına çıxaracaqdır.

Ancaq bir neçə addım atmamışdım ki, bu iyrənc heyvanlardan birinə rast gəldim. Bu heyvan mənə sarı yüyürürdü. O, məni görən kimi durdu və gözlərini bərəldərək, dəhşətlə ağız-burnunu əyməyə başladı. Sonra mənə yaxınlaşıb maraqdanmı, yoxsa pis bir niyyətləmi qabaq pəncəsini qaldırdı. Bunu nə üçün etdiyini başa düşmədim. Xəncərimi çəkib, yastısına onun pəncəsinə şiddətli bir zərbə vurdum. Xəncərin tiyəsini ona görə işə salmadım ki, yerlilərin heyvanlarından birini öldürmək və ya zədələməklə, onları özümdən incitmək istəmirdim. Bu heyvan zərbənin ağrısını duyub qaçmağa başladı. Ancaq elə bərkdən çığırdı ki, buna bənzər qırxa qədər heyvan qonşu tarladan ulaşa-ulaşa və dəhşətli surətdə üz-gözlərini oynada-oynada, məni dövrəyə aldı. Mən bir ağacın yanına qaçıb arxamı onun gövdəsinə söykəyərək, xəncərimi oynada-oynada onları yaxın buraxmamağa çalışdım. Ancaq vəziyyətim çox da yaxşı deyildi. Bir neçə heyvan ağaca çıxıb, yuxarıdan mənə hücum etməyə hazırlaşırdı. Qalanları isə məni daha sıx dövrəyə alırdılar.

Mən daha xilas olmaqdan ümidimi kəsib, həyatımı mümkün qədər baha satmağa hazırlaşırdım ki, birdən düşmənlərimin arasına çaxnaşma düşdüyünü gördüm. Bir dəqiqə də keçəndən sonra onlar tələsik qaçışmağa başladılar. Mən bir qədər gözləyib, ağacdan ayrılmağa və yoluma davam etməyə cürət etdim. Onlarda bu qorxunun nədən əmələ gəldiyini əsla bilmirdim. Sola baxdıqda, çöldən bir atın sakit-sakit keçməkdə olduğunu gördüm. Yəqin ki, mənim düşmənlərim bu atı məndən əvvəl görmüş və qaçmalarına da bu səbəb olmuşdu. At mənə yaxınlaşdıqda, azacıq diksinən kimi oldu. Lakin tezliklə özünə gəlib, son dərəcə heyrətlə düz üzümə baxmağa başladı. O mənim əllərimə, ayaqlarıma baxa-baxa, bir neçə dəfə dövrəmə fırlandı. Mən yoluma davam etmək istəyirdim ki, at yolumu kəsdi və çəkinə-çəkinə mənə baxmaqda davam edib, məni incitmək qəsdində olduğunu bildirən heç bir əlamət göstərmədi. Biz bir müddət beləcə bir-birimizə baxa-baxa durduq.

Nəhayət, mən cürətlənib, atı tumarlamaq məqsədilə əlimi onun boynuna uzatdım. Ancaq heyvan mənim bu hərəkətimə həqarətli bir münasibət göstərib, başını buladı, qaşlarını çatdı və sağ ayağını qaldırıb, yavaşca əlimi kənara itələdi. Sonra at elə bir ifadə ilə kişnədi ki, onun öz dilində mənimlə danışmaq istədiyini zənn etdim.

Bir az sonra bizə başqa bir at da yaxınlaşdı, hər iki at bir-birilə təmtəraqla salamlaşdı. Onlar sağ qabaq dırnaqlarını yavaşca bir-birinə vurub taqqıldatdılar və növbə ilə səslərini ən müxtəlif ahənglərlə dəyişərək kişnədilər. Sanki onlar aydın anlaşılan sözlərlə bir-birilə danışırdılar. Sonra onlar məndən bir neçə addım aralanıb, mühüm bir məsələ həll edən adamlar kimi yan-yana gəzişməyə başladılar. Bu zaman onlar qaçacağıma göz yetirirlərmiş kimi arabir mənə baxırdılar. Mən bu düşüncəsiz heyvanların belə rəftarına baxdıqda, qeyri-ixtiyari düşündüm ki, dördayaqlı heyvanları belə olan bir ölkənin, görəsən, ikiayaqlı sakinləri necə olar? Onlar, yəqin ki, dünyanın ən ağıllı insanlarıdır. Bu fikir məni xeyli cürətləndirdi və mən bir evə və ya yerlilərdən birinə rast gəlincəyə qədər yoluma davam etməyi qərara aldım. Lakin xallı və boz rəngdə olan birinci at getməkdə olduğumu görüb ardımca elə ifadəli bir tərzdə kişnədi ki, mən onun nə demək istədiyini anlayan kimi oldum. Mən həmin saat geri dönüb, sonrakı əmrlərini dinləmək üçün onun yanına getdim. Açıqca etiraf etməliyəm ki, artıq bu macəranın nəticəsindən qorxmağa başlamışdım. Ancaq qorxumu bacardıqca gizlətməyə çalışırdım. Oxucu asanlıqla təsəvvür edər ki, vəziyyətim çox da xoşa gələn deyildi.

Hər iki at mənə yaxınlaşıb böyük bir diqqətlə üzümü və əllərimi nəzərdən keçirməyə başladı. Boz at qabaq ayağının sağ dırnağı ilə

mənim şlyapamı hər tərəfdən əlləşdirdi. Bunun nəticəsində şlyapam o qədər əzildi ki, mən onu başımdan çıxartmalı oldum. Onu səliqəyə salıb, yenə başıma qoydum. Mənim hərəkətlərim, görünür ki, boz atı və onun yoldaşı olan kəhəri çox heyrətə salmışdı. İkinci at mənim kaftanımın ətəklərinə toxundu və ətəklərimin yellənməsi hər iki atı son dərəcə heyrətləndirdi. Kəhər at görünür ki, əlimin yumşaqlığına və rənginə heyrət edib, sağ əlimi tumarladı. Ancaq o, mənim əlimi dırnağı ilə buxovluq oynağı arasında elə bərk sıxdı ki, ağrının şiddətindən çığırdım. At həmin saat əlimi buraxdı və bundan sonra ikisi də mənə böyük bir ehtiyatla toxunmağa başladı. Mənim çəkmələrim və corablarım onları tamamilə çaşdırmışdı. Onlar xeyli müddət bunları nəzərdən keçirib, dırnaqları ilə yoxlayır və kişnəyərək işarələrlə son dərəcə heyrətə düşdüklərini bildirirdilər. Ümumiyyətlə, bu heyvanların bütün rəftarında ardıcıllıq və düşüncə əlamətləri var idi. Nəhayət, başıma belə bir fikir gəldi ki, bəlkə, bunlar hər hansı bir səbəbə görə müvəqqəti olaraq at şəklini almış sehrbazlardır. Onlar yolda bir xariciyə rast gəldiklərindən, bəlkə, onunla əylənmək və onu qorxutmaq fikrinə düşmüşlər. Bəlkə, onlar, doğrudan da, öz paltarı, üzünün cizgiləri və bədəninin quruluşuna görə bu uzaq ölkədə yaşayan insanlara əsla bənzəməyən bir adamın görkəmindən həqiqətən heyrətə düşmüşdülər. Mən belə bir nəticəyə gəldikdən sonra, cürətlənib aşağıdakı sözlərlə onlara müraciət etdim: "Cənablar, əgər siz, doğrudan da, mənim zənn etdiyim kimi, sehrbazsınızsa, onda, yəqin ki, bütün dilləri bilirsiniz. Buna görə, mən siz cənablara bildirməyə cürət edirəm ki, mən fağır bir ingilisəm. Məşum tale məni sizin ölkənin sahilinə atmışdır. Xahiş edirəm, icazə verəsiniz sizdən birinizin əsl bir at kimi belinizə minim, yaxın bir obaya və ya kəndə qədər gedib, orada azca dincəlim və özümə bir sığınacaq tapım. Bu xidmətinizin müqabilində mən sizə bu bıçağı və ya bu qolbağı bağışlayaram". Bunu deyib, mən hər iki şeyi cibimdən çıxartdım.

Mən danışdıqca, hər iki at elə bir vəziyyətdə durmuşdu ki, sanki, mənim nitqimi böyük bir diqqətlə dinləyirdilər. Mən sözlərimi qurtardıqda, onlar bir-birinə müraciətlə bir neçə dəfə kişnədilər. Sanki, öz aralarında ciddi söhbət edirdilər. Bu vaxt mən başa düşdüm ki, onların dili duyğularını çox gözəl ifadə edir və ehtimal ki, Çin dilinə nisbətən daha asan bir surətdə hecalara və ayrı-ayrı səslərə bölünə bilər.

Mən hər iki atın bir neçə dəfə təkrar etdikləri "yexu" sözünü aydın eşitdim. Mən bu sözün mənasını başa düşə bilmədimsə də, hər halda, onların danışdıqları müddətdə bu sözü mənimsəməyə çalışdım. Atlar susan kimi, mən ucadan "yexu", "yexu" – deyə at kişnəməsini təqlid etməyə çalışaraq, ucadan çağırdım. Bu, yəqin ki, onları çox heyrətləndirdi və boz at bu sözü iki dəfə təkrar etdi. Sanki, beləliklə, o mənə sözü düzgün söyləməyi öyrətmək istəyirdi. Mən onun ardınca həmin bu sözü mümkün qədər eynən təkrar etməyə çalışdım və gördüm ki, bu sözü tamam-kamal deməkdən çox uzaq olsam da, hər dəfə xeyli müvəffəqiyyət qazanıram. Bundan sonra, kəhər at mənə daha çətin olan başqa bir sözü – "*quiqnqnm*" sözünü öyrətməyi sınadı. Bu sözü ifadə etmək əvvəlkinə nisbətən son dərəcə çətin idi, ancaq iki-üç dəfə sınadıqdan sonra bu sözü xeyli aydın bir surətdə söyləyə bildim. Hər iki at, görünür ki, mənim fərasətimə heyran qalmışdı.

Dostlar bir qədər də söhbət etdikdən sonra görüşdükləri zaman etdikləri kimi yenə də dırnaqlarını bir-birinə toxundurub ayrıldılar. Sonra boz at mənə irəlidə getməyi işarə etdi. Mən daha yaxşı bir bələdçi tapıncaya qədər onun dəvətinə tabe olmağı ağlabatan bir hərəkət hesab etdim. Mən yerişimi yavaşıtdıqda at: "*qquun, qquun*" – edib kişnəməyə başlayırdı. Mən bu kişnəmənin nə demək olduğunu başa düşüb, var qüvvəmlə ona başa salmağa çalışdım ki, yorulmuşam və iti gedə bilmirəm. At dincəlmək üçün mənə imkan vermək məqsədilə bir qədər dayandı.

İKİNCİ FƏSİL

Quiqnqnmın müəllifi öz evinə gətirməsi. Bu evin təsviri. Müəllifə göstərilən qonaqsevərlik. Quiqnqnmların yeməyi. Müəllifin bu ölkədə nə yeyəcəyi barədə narahat olması. Çətin vəziyyətdən çıxış yolu. Müəllif bu ölkədə nə yeyib dolanır.

Üç mil qədər yol getdikdən sonra yastı və uzun bir binaya çatdıq. Bu evin divarları yerə basdırılıb araları çubuqlarla hörülmüş dirəklərdən, damı isə küləşdən idi. Mən bu evi gördükdə azad nəfəs

aldım və cibimdən bəzək-düzək şeyləri çıxartdım. Ümid edirdim ki, ev sahibləri bunların sayəsində məni daha mehribanlıqla qəbul edərlər. At, işarə ilə mənə əvvəlcə içəri girməyi təklif etdi və mən yeri palçıqdan olan geniş bir otağa girdim. Evin bir divarı boyunca quru ot üçün şəbəkəli axurlar vurulmuşdu. Orada üç yabı və iki madyan var idi. Bunlar nə axurların qabağında durmuş, nə də ot yeyirdilər. İtsayağı yerdə oturmuşdular. Bu, məni son dərəcə heyrətləndirdi. Ancaq o biri atların ev işlərilə məşğul olduqlarını gördükdə, heyrətim daha da artdı. Bütün bunlar mənim bu fikrimi daha da möhkəmləndirirdi: şüursuz heyvanları bu dərəcədə tərbiyə etməyi bacaran bir xalq, şübhəsiz ki, ağılca dünyanın bütün başqa xalqlarından üstün olmalıdır. Boz at mənim ardımca içəri girib, o biri atlar tərəfindən mənim pis qəbul edilməmin qabağını aldı. O, ev sahibi kimi bir neçə dəfə elə amiranə kişnədi ki, başqa atlar dərhal itaətlə ona səs verdi.

Evdə bu otaqdan başqa, binanın uzununa bir-birinin ardınca düzülmüş üç otaq da vardı. Hər otağa geniş bir qapı açılırdı. Qapılar divarlarda bir-birilə üz-üzə olduğundan, birinci otaqdan axırıncısına düz bir yol var idi. Biz ikinci otağa keçdik. Burada boz at mənə gözləməyimi işarə etdi, özü isə üçüncü otağa keçdi. Mən ikinci otaqda qalıb, ev sahibinə və onun arvadına verəcəyim hədiyyələri hazırladım. Bunlar: iki bıçaqdan, saxta mirvaridən düzəldilmiş üç qolbaqdan, kiçik bir güzgü və muncuq boyunbağıdan ibarətdi. At üç-dörd dəfə kişnədi və mən onun cavabında insan səsi eşidəcəyimi gözləyib hazır durdum. Ancaq mən yenə də kişnəmə səsi eşitdim, fərqi bu idi ki, bu səs daha zərif və nazik idi. Qeyri-ixtiyari güman etdim ki, məni ev sahibinin yanına buraxmaq üçün bu qədər mərasim lazım gəlirsə, demək, bu yəqin çox böyük bir adamın evidir. Ancaq, görəsən, bu böyük adamın atlardan başqa digər qulluqçuları yoxdurmu? Bunu mən heç cür anlaya bilmirdim. Mən qorxuya düşdüm və elə güman etdim ki, başıma gələn fəlakətlərdən ağlım çaşmışdır. Özümü zorlayıb, diqqətlə ətrafıma göz gəzdirdim. İçərisində olduğum otaq da birinci kimi idi; ancaq bura daha səliqəli idi. Mən gözlərimi bir neçə dəfə sildim, çünki qarşımda yenə də eyni şeyləri görürdüm. Özümə gəlmək üçün bir neçə dəfə əllərimi və böyürlərimi çimdiklədim; çünki bəzən mənə elə gəlirdi ki, bunların hamısını yuxuda görürəm. Ancaq özümü çimdikləməkdən də heç bir şey çıxmadı. Mən yenə də həmin otağı, həmin torpaq döşəməni və həmin axurları görürdüm. Mən qəti

olaraq bu fikrə gəldim ki, yəqin bütün bunlar cadu və sehrbazlıqdır. Elə bu dəqiqədə qapıda boz at görünüb işarə ilə məni öz ardınca üçüncü otağa çağırdı. Burada mən, yanında iki dayça olan çox gözəl bir madyan gördüm. Onlar dal ayaqlarını altlarına yığıb gözəl toxunmuş, çox səliqəli və təmiz həsirlər üstündə oturmuşdular.

Mən içəri girdikdə madyan həmin saat həsirin üstündən durub mənə yaxınlaşdı. O, diqqətlə üzümə və əllərimə baxıb, böyük bir həqarət ifadəsilə üzünü yana çevirdi. Sonra boz ata müraciət etdi və mən onların danışıqlarından "yexu" sözünün tez-tez təkrar olunduğunu eşitdim. Bu sözün mənasını isə mən hələ bilmirdim. Heyhat! Mən tezliklə bu sözün nə demək olduğunu bilib, özümü çox təhqir olunmuş hiss etdim.

Boz at başı ilə mənə işarə edib, "qquun", "qquun" – sözlərini təkrar etdi. Bu sözləri yolda mən ondan tez-tez eşidib, mənasının – ardımca gəl, – demək olduğunu bildiyimdən, onun ardınca getdim və o, məni içəri həyətə apardı. Burada, evdən bir qədər aralı, çox iri bir anbar vardı. Biz anbara girdikdə, orada üç iyrənc heyvan gördüm. Bunlar ağac altında durub özümü onlardan qoruduğum həmin heyvanlardan idi. Onlar acgözlüklə bitki kökləri və zahirən çox pis görünən çiy ət yeyirdilər. Sonralar mən öyrəndim ki, bunların yediyi ölmüş itlərin, eşşəklərin və inəklərin əti imiş. Hər üç heyvan möhkəm söyüd qabığından hörülmüş kəndirlə boyunlarından yoğun bir dirəyə bağlanmışdı. Onlar yedikləri şeyləri qabaq pəncələrinin dırnaqları arasında tutub dişləri ilə gəmirirdilər.

Ev sahibi, öz qulluqçusu olan, səmənd bir yabıya əmr etdi ki, bu heyvanlardan ən irisini açıb həyətə gətirsin. Ev sahibi və onun nökəri bizi yan-yana qoyub, diqqətlə müqayisə etməyə başladılar və sonra bir neçə dəfə "yexu" sözünü təkrar etdilər. Mən bu iyrənc heyvanın zahirən eynən insana bənzədiyini gördükdə, duyduğum dəhşət və nifrəti ifadə etmək mümkün deyildir. Doğrudur, onun üzü yastı və enli, burnu batıq, dodaqları qalın və ağzı yekə idi, ancaq bu xüsusiyyətlərə vəhşi insanlarda da çox tez-tez rast gəlmək mümkündür; çünki anaları uşaqlarını üzü üstə yerə qoyur və dallarında gəzdirirlər, buna görə uşağın üzü daim anasının çiyninə sürtünür. Yexuların qabaq pəncələri mənim əllərimdən yalnız bu cəhətdən fərqlənirdi ki, onların dırnaqları daha uzun, dəriləri qaba və qəhvəyi rəngdəydi; bir də pəncələrinin arxa tərəfi tüklü idi. Eynən bunun kimi yexuların dal

pəncələri də mənim ayaqlarımdan o qədər fərqli deyildi. Ayaqlarımda çəkmə və corab olduğundan atlar bunu başa düşə bilmədilərsə də, mən bunun belə olduğunu həmin saat anladım.

Görünür, atların ikisini də, hər şeydən artıq, mənim paltarım heyrətə salmışdı. Bunun nə olduğunu onlar əsla anlaya bilmirdilər və bunun sayəsində mənim bədənim yexuların bədənindən kəskin surətdə fərqlənirdi.

Səmənd yabı dırnağı ilə oynağının arasında tutduğu bitki kökünü mənə uzatdı. Mən kökü alıb iylədim və ən nəzakətli bir surətdə ona qaytardım. Onda o, mənə yexuların anbarından bir parça eşşək əti gətirdi. Ancaq o ətdən elə pis qoxu gəlirdi ki, mən iyrənib üzümü yana çevirdim. At həmin əti yexuya tulladı, heyvan əti dərhal yedi. Sonra at mənə bir qucaq ot və bir çanaq çovdar göstərdi. Ancaq mən başımı yırğalayıb, ona bildirdim ki, bunların heç birini yeyə bilmərəm. Bu zaman mən, doğrudan da, qorxuya düşdüm. Birinci dəfə olaraq başıma belə bir fikir gəldi ki, əgər burada özümə bənzər insanlar tapmasam, yəqin ki, acından öləcəyəm. Aydın məsələ idi ki, bu cəhətdən yexuları əsla hesaba qatmaq olmazdı. Bu murdar heyvanların insanla müqayisə olunması fikri o zaman məni şiddətlə qəzəbləndirir və həyəcanlandırırdı. Ömrümdə onlar qədər murdar və iyrənc heyvanlar görməmişəm. Mən, bu ölkədə olduğum müddətdə bu heyvanları daha yaxından tanıdıqca, onlara olan nifrətim daha da artırdı. Sonra yexu mənə müraciətlə qabaq dırnağını ağzına apardı və bir neçə başqa işarələr edərək, mənim nə yeyəcəyimi öyrənmək istədi. Ancaq mən onun anlaya biləcəyi bir cavab verə bilmədim. Onu da söyləyim ki, fikrimi başa düşmüş olsaydı da, yəqin ki, mənə əsla kömək edə bilməyəcəkdi. Doğrudan da, o, mənim üçün yararlı yeməyi haradan tapacaqdı?!

Bu zaman bizim yanımızdan bir inək keçdi. Mən barmağımla inəyi göstərib, ona yanaşmaq və sağmaq istədiyimi bildirdim. Atlar fikrimi başa düşdülər, çünki boz at məni qaytarıb evə apardı və qulluqçu madyana bir otağın qapısını açmağı əmr etdi. Bu otaqda içi südlə dolu xeyli saxsı və taxta qab vardı. Madyan mənə südlə dolu böyük bir sərnic verdi və mən südü ləzzətlə içdim. Bundan sonra özümü xeyli çevik və qüvvətli hiss etdim.

Günortaya yaxın, evin yanında kirşəyə bənzər bir araba dayandı; onu dörd yexu çəkirdi. Kirşənin içində, – görünür, adlı-sanlı bir zat idi, – qoca at oturmuşdu. At dal ayaqları üstündə yeriyə-yeriyə oradan

çıxdı; çünki onun qabaq sol ayağı şikəst idi. Bu at mənim ev sahibimin yanına nahar etməyə gəlmişdi. Ev sahibi onu son dərəcə mehribanlıqla qarşıladı. Onlar ən yaxşı otaqda nahar etdilər. Ət əvəzinə onlara südlə bişmiş çovdar gətirdilər. Qonaq bu xörəyi isti-isti, qalan atlar isə soyuq halda yedilər. Axur otağın ortasında bir dairə halında qoyulmuşdu və orada yemək yeyənlərin sayına görə gözlər ayrılmışdı. Atlar isə, yerə döşənmiş küləşin üstündə ədəb və nəzakətlə oturmuşdular. Axurun üstündə otla dolu və gözlərə ayrılmış böyük bir barmaqlıq vardı. Hər erkək at və hər madyan öz at payını və südlü çovdar aşını ayrıca yeyirdi. Hər şey çox ədəbli və səliqəli keçirdi. Dayçalar özlərini çox ədəbli aparırdılar. Ev sahibləri isə qonaqlarına çox hörmətkar olub, onunla mehriban rəftar edirdilər. Boz at məni yanına çağırıb, öz dostu ilə mənim barəmdə uzun-uzadı söhbət etdi. Bunu ondan başa düşdüm ki, onlar söhbət edərkən tez-tez mənə baxır və danışıqlarında dəfələrlə "yexu" sözü eşidilirdi. Mən əlimi cibimə salıb əlcəklərimi yoxladım. Ağlıma gəldi ki, onları əllərimə geyim. Ev sahibi boz at bunu görüb çox heyrətə düşdü və işarə ilə məndən soruşdu ki, qabaq ayaqlarıma nə olmuşdur. At öz dırnaqlarını bir neçə dəfə mənim əllərimə toxundurub, məni başa salmağa çalışdı ki, əllərimi əvvəlki halına gətirim. Mən itaət edib əlcəklərimi çıxartdım və cibimə qoydum.

Bu hadisə qızğın söhbətə səbəb oldu və mən hiss etdim ki, bu rəftarım onların hamısının xoşuna gəlmişdir. Mənə əmr etdilər ki, öyrəndiyim sözləri söyləyim. Yemək zamanı ev sahibi mənə çovdar, süd, ot və bəzi başqa şeylərin adını öyrətmişdi. Bu sözləri öyrənmək mənim üçün çox da çətin deyildi; çünki cavanlıqdan dil öyrənməyə çox qabiliyyətli idim.

Yeməkdən sonra ev sahibi at, məni bir kənara çəkib, işarələr və sözlərlə mənim üçün yeməyə bir şey tapılmadığından narahat olduğunu bilirdi. Bu vaxta qədər mən çovdar yeməkdən imtina edirdim, ancaq indi ağlıma gəldi ki, ondan çörəyə bənzər bir şey bişirmək olar. Çörək ilə süd isə mənə, özüm kimi insanların yaşadığı başqa bir ölkəyə gedib çıxmaq imkanı tapıncaya qədər, birsayaq dolanmağa imkan verərdi. Quiqnqnmların dilində çovdara *qlunq* deyilir. Mən bu sözü bir neçə dəfə təkrar etdim. Ev sahibi həmin saat qulluqçu ağ madyana əmr etdi ki, taxta boşqabın içində çovdar gətirsin. Mən bu çovdarı odda birtəhər qovurduqdan sonra qabıqları tökülüncəyə qədər

ovuşdurdum. Sonra sovurub dəni ayırdım və onu iki daşın arasında üyütdüm. Bir qədər su götürüb xəmir yoğurdum. Onu odda bişirdim və isti-isti yeyib, üstündən su içdim.

Bir çox Avropa ölkələrində çox yayılmış olan bu yemək, əvvəlcə mənə son dərəcə dadsız gəldi. Ancaq zaman keçdikcə, buna öyrəşdim. Bundan başqa, səyahətlərim zamanı dəfələrlə ən qaba yeməklərlə kifayətlənməli olmuşdum. Burada mən bir daha inandım ki, doğrudan da, insana yaşamaq üçün nə qədər az şey lazım imiş.

Doğrudur, mən arabir yexu tüklərindən qurduğum cələ ilə dovşan və ya quş tuta bilirdim, bəzi yeməli otlar tapıb suda bişirir və öz qoğalıma qatıb yeyirdim. Arabir südü çalxalayıb yağ hazırlayır və ayranını içirdim. Əvvəllər duzun olmamasını çox şiddətlə hiss edirdim, ancaq tədriclə onsuz keçinməyə öyrəşdim.

Qədimlərdə duzu yalnız qonaqlıqda, susuzluq törətmək üçün işlədərmişlər, sonralar isə bütün insanlar buna öyrəşmişlər. Axı biz duzu xoşlayan heç bir heyvan tanımırıq. Hər halda, söyləməliyəm ki, duzun əsla olmadığına, yeməyimin az və qaba olmasına baxmayaraq, bu adada qaldığım bütün müddətdə mən bircə dəfə də xəstələnmədim.

Axşam olduqda, ev sahibinin əmrilə məni evdən altı yard məsafədə və yexuların tövləsindən ayrı olan bir binaya apardılar. Mən orada bir qədər küləş tapdım və paltarlarımı üstümə çəkərək şirin yuxuya getdim. Ancaq, tezliklə özüm üçün daha rahat bir güzəran qurdum ki, bunu oxucu bu adadakı həyatımın ətraflı təsvirini verəcəyim sonrakı hekayələrimdən biləcəkdir.

ÜÇÜNCÜ FƏSİL

Müəllifin cidd-cəhdlə yerli dili öyrənməsi. Ev sahibi olan bu quiqnqnmın öz məşğələlərində ona kömək etməsi. Quiqnqnmların dili. Bir çox məşhur quiqnqnmların müəllifə tamaşaya gəlməsi. Onun ev sahibinə öz səyahətləri barədə qısa məlumat verməsi.

Mənim başlıca məşğələm dil öyrənməkdən ibarət idi. Ev sahibindən (bundan sonra mən boz atı belə adlandıracağam) və onun uşaqlarından tutmuş ta xidmətçiyə qədər evdə olanların hamısı bu

cəhətdən mənə ürəklə kömək edirdilər. Qaba bir heyvanın şüur əlamətləri göstərməsi onlara möcüzə kimi bir şey görünürdü. Mən barmağımla bu və ya başqa şeyləri göstərib, onların adlarını soruşurdum. Bu adı mən əzbərləməyə çalışır, sonra ilk fürsət düşən kimi bunu öz gündəliyimə yazırdım. Mən tələffüzümü yaxşılaşdırmaq üçün ailə üzvlərindən xahiş edirdim ki, bu sözləri tez-tez təkrar etsinlər. Bu məşğələlərimdə hamıdan artıq mənə kömək edən ev sahibinin qulluqçusu səmənd yabı idi.

Quiqnqnmlar sözü burunlarında və boğazlarında tələffüz edirdilər. Mənə məlum olan bütün Avropa dillərində quiqnqnmların dilinə ən çox bənzəyən yuxarı Hollandiya və ya alman dilidir. Amma quiqnqnmların dili bunlardan daha zərif, daha ifadəlidir.

Onların dilini tezliklə öyrənib öz macəramı nağıl edə bilməmi ev sahibi çox arzu edirdi. O, hər gün bir neçə saatını mənə dil öyrətməyə sərf edirdi. O yəqin etmişdi ki, mən yexuyam (o, bunu mənə sonralar söyləmişdi). Ancaq mənim qanacaqlı, ədəbli və təmizkar olmağım onu heyrətə salmışdır. Çünki bu sifətlərin biri də həmin heyvanlarda yox idi.

Ev sahibi mənim haradan gəldiyimi və öz rəftarımda göstərdiyim bəzi şüur əlamətlərini haradan qazandığımı öyrənməyi səbirsizliklə gözləyirdi. O, başıma gələn macəraları, mənim ağzımdan mümkün qədər tez eşitmək istəyirdi. Ümid edirdi ki, bunu çox gözləməli olmayacaqdır; çünki mən quiqnqnmların dilini öyrənməkdə xeyli müvəffəqiyyət qazanırdım. Sözləri yaxşı yadda saxlamaq üçün mən onların ingilis əlifbası tərtibi ilə yazır və qabaqlarında mənasını qeyd edirdim. Bir müddət keçdikdən sonra mən ev sahibinin yanında yazı yazmağa başladım. Mən nə etdiyimi ona böyük bir çətinliklə anlada bildim; çünki quiqnqnmlara kitab, ədəbiyyat barəsində heç bir şey məlum deyildir.

Təxminən on həftədən sonra mən ev sahibinin suallarının çoxunu başa düşürdüm. Üç aydan sonra isə xeyli sərbəst onlara cavab verə bilirdim. Ev sahibi mənim hansı ölkədən bura gəldiyimlə və bu düşüncəli məxluqları təqlid etməyi nə cür öyrəndiyimlə çox maraqlanırdı; çünki yexular (ev sahibinin fikrincə, mən bu heyvanlara çox bənzəyirdim) nə qədər hiyləgər olsalar da, təlimi bütün başqa heyvanlardan pis qəbul edirlər.

Mən cavab verdim ki, çox uzaq bir ölkədən və özümə bənzər bir çox başqa məxluqlarla bir yerdə gəlmişəm. Biz ağac gövdələrindən

düzəldilmiş böyük bir yastı qabın içində, uzun müddət dənizlə yol getməli olmuşuq. Nəhayət, yoldaşlarım məni bu sahildə çıxarıb taleyin ixtiyarına buraxıblar. Mən sözlərimin ev sahibi tərəfindən anlaşılması üçün bir çox ən müxtəlif işarə və hərəkətlər etməyə məcbur olurdum.

Ev sahibi bir qədər fikirləşdikdən sonra, cavab verdi ki, mən yəqin səhv edirəm və ya olmayan bir şeyi söyləyirəm (quiqnqnmların dilində yalan və aldatmaq anlayışlarını ifadə edən sözlər əsla yoxdur). O, əsla inana bilmirdi ki, dənizin o tayından başqa yerlər vardır və bir yığın vəhşi heyvan taxta bir gəmini suyun üzərində istədiyi tərəfə sürə bilər. O, arxayın idi ki, quiqnqnmlar arasında heç bir kəs belə bir gəmi düzəldib, xüsusən, bunun idarə edilməsini yexulara tapşıra bilməz. Yerli dildə "quiqnqnm" sözü "yaranışın tacı" deməkdir. Bu ölkədə ən şüurlu bir məxluqat olan atlar, özlərini belə adlandırırlar.

Mən ev sahibinə söylədim ki, hələ onların dilini çox yaxşı bilmirəm. Odur ki, onun suallarına cavab vermək mənim üçün çətindir. Ümid edirəm ki, tezliklə ona çox maraqlı şeylər danışa biləcəyəm.

Quiqnqnmlar kimi danışan, öz sözləri və hərəkətlərində şüur əlamətləri göstərən qəribə bir yexunun peyda olması xəbəri tezliklə bütün ətrafa yayıldı. Adlı-sanlı atlar və madyanlar mənə tamaşa etmək üçün tez-tez ev sahibinin yanına gəlirdilər. Mənimlə danışmaq onlara böyük ləzzət verirdi. Onlar mənə suallar verir, mən də bacardığım kimi cavab verirdim. Bunun sayəsində mən yerli dili öyrənməkdə elə böyük müvəffəqiyyətlər göstərdim ki, ora gəldikdən beş ay sonra mən söylənən hər bir şeyi anlayır və onlarla xeyli sərbəst danışa bilirdim. Məni görmək və mənimlə danışmaq üçün ev sahibinin yanına qonaq gələn quiqnqnmlar mənim əsl yexu olmağıma çox çətinliklə inanırdılar. Onları hər şeydən artıq mənim paltarım çaşdırırdı. Heç cürə başa düşə bilmirdilər ki, bu paltar mənim bədənimin hissəsidir, ya yox. Mən isə onların bu heyrətini aradan qaldırmağa heç də tələsmirdim; çünki onlar məni paltarsız görsəydilər, yəqin ki, əsl yexu hesab edəcəkdilər. Bunu isə mən əsla istəmirdim. Ancaq mən öz sirrimi çox uzun zaman gizli saxlaya bilmədim. Adət üzrə, mən paltarımı yalnız evdə, hamı yatdıqdan sonra, yatanda çıxardır və səhər sübhdən, hələ onlar yuxudan qalxmamış geyinərdim.

Ancaq bir dəfə səhər tezdən ev sahibi, öz nökəri olan səmənd yabını məni çağırmağa göndərmişdi. O, mənim yatdığım binaya girdikdə, mən paltarımı çıxarıb yatmışdım. O, içəri girəndə mən ayıldım

və yabının çaşıb qalmış olduğunu gördüm. O, verilən tapşırığı birtəhər yerinə yetirib, tələsik öz ağasının yanına qaçdı. Ev sahibi mənimlə salamlaşdıqdan sonra həmin saat soruşdu ki, bu nökər nə danışır; guya mən yatdığım zaman əsla həmişə olduğum kimi deyilmişəm.

Mən başa düşdüm ki, sirrimi bundan sonra gizlətməyin heç bir mənası yoxdur; çünki paltarım və ayaqqabılarım tamamilə köhnəlmişdir və yaxın bir zamanda onları yexu və ya digər heyvan dərilərindən tikilən başqa bir şeylə əvəz etməli olacağam. Buna görə də ev sahibinə söylədim ki, mənim gəldiyim ölkədə bədəni, bəzi heyvanların yunlarından toxunmuş parça ilə örtmək adətdir. Bu, başlıca bədəni isti və soyuqdan qorumaq, qismən də ədəb üçün edilir. Öz sözlərimi təsdiq məqsədilə, mən ev sahibinin gözü qabağında soyundum. Əynimdə yalnız köynəyim qaldı.

Ev sahibi mənim bütün hərəkətlərimə böyük bir maraq və heyrətlə tamaşa edirdi. O, mənim bütün paltarımı dırnağı ilə oynağının arasında tutub qaldırır və böyük bir diqqətlə gözdən keçirirdi. Sonra mənə hər tərəfdən nəzər salıb, söylədi ki, şübhəsiz, mən əsl yexuyam və öz cinsimdən olanlardan yalnız dərimin yumşaqlığı, ağlığı və hamarlığı, dal və qabaq ayaqlarımdakı dırnaqlarımın şəkli və uzunluğu cəhətindən seçilirəm. Bir də mən özümü elə göstərirəm ki, guya həmişə dal ayaqlarımın üstündə gəzirəm. Ev sahibi, mənim soyuqdan titrədiyimi görüb, yenidən geyinməyimi təklif etdi.

Mən geyinə-geyinə ev sahibinə söylədim ki, onun məni belə tez-tez "yexu" adlandırması əsla xoşuma gəlmir; çünki mən bu murdar heyvanlara nifrət edir və onlardan iyrənirəm. Yalvarıb xahiş etdim ki, məni belə adlandırmasın və bunu öz ailə üzvlərinə də qadağan etsin. Bundan başqa, ondan xahiş etdim ki, bədənimin süni üst qabığına aid bu sirri gizli saxlasın və öz nökəri yabıya əmr etsin ki, gördüklərini heç kəsə danışmasın.

Ev sahibi mənim xahişimi yerinə yetirməyi vəd etdi və özü də məndən xahiş etdi ki, onların dillərini mümkün qədər tez öyrənməyə çalışım.

Onun sözlərinə görə, mənim zahiri görkəmimdən qat-qat artıq ağlıma və anlaşılan bir dildə danışa bilməyimə heyran olmuşdu. O, böyük bir səbirsizliklə mənim vəd etdiyim qəribə şeylər barədə mümkün qədər tez danışmağımı gözləyirdi.

Bu gündən ev sahibi mənim təlimimlə ikiqat artıq cidd-cəhdlə məşğul olmağa başladı. O, tez-tez məni qonaq aparırdı. Bütün

qonşularından xahiş etmişdi ki, mənimlə mümkün qədər nəzakətlə rəftar etsinlər; çünki bu mənimlə çox xoşuma gəlir və danışmaq üçün məni daha çox həvəsləndirir.

Mənim quiqnqnmların dilini öyrənməkdə qazandığım müvəffəqiyyətləri bir-bir təsvir etmək darıxdırıcı bir şey olardı. Yalnız bunu söyləməliyəm ki, ev sahibinin qayğısı və özümün yaxşı istedada malik olmağım sayəsində, ev sahibinin şiddətli marağını qismən təmin etməyə və kim olduğumu, bura necə gəlib çıxdığımı, vətənimin necə bir ölkə olduğunu az-çox ətraflı surətdə danışmağa müvəffəq oldum. Hər şeydən əvvəl mən əvvəllər ona izah etməyə çalışdığım bütün şeyləri təkrar etdim.

Mən öz hekayəmi belə başladım ki, bura çox uzaq bir ölkədən və özüm kimi əlli nəfər məxluqla birlikdə gəlmişəm. Biz ev sahibinin mənzilindən xeyli böyük olan, iri taxta bir qabın içində dənizlərdə üzürdük. Burada mən ev sahibinə gəmini təsvir etdim. Mən cib yaylığımı çıxarıb yelkənin nə olduğunu və onun gəmini necə hərəkətə gətirdiyini ev sahibinə anlatmağa çalışdım. Sözlərimə davam edib dedim ki, mənimlə yoldaşlarım arasındakı mübahisədən sonra onlar məni bu sahilə çıxartdılar. Mən nə edəcəyimi bilmədiyimdən, ölkənin içərisinə yönəldim və tezliklə, bu murdar yexuların hücumuna düçar oldum. Burada ev sahibi sözümü kəsib soruşdu ki, bu gəmini kim düzəltmişdir və necə olmuşdur ki, mənim ölkəmdə yaşayan quiqnqnmlar bu gəmini vəhşi heyvanların ixtiyarına vermişlər. Cavab verdim ki, əgər məndən eşidəcəyi sözlərdən inciməyəcəyinə sədaqətlə söz verərsə, hekayəmin ardını danışaram. O razı oldu. Onda mən ona söylədim ki, həmin gəmini mənim kimi məxluqlar düzəltmişlər. Bu məxluqlar həm mənim vətənimdə, həm də gördüyüm bütün ölkələrdə ən şüurlu məxluqlardır və buna görə də bütün başqa heyvanlara hakimdirlər. Həmsöhbətimlə etiraf etdim ki, onun və dostlarının yexu adlandırdıqları məxluqlarda şüur əlamətləri gördükdə heyrətə gəldikləri kimi, mən də quiqnqnmların şüurlu hərəkət etdiklərinə təəccüblənirdim. Ona söylədim ki, öz bədənimin həmin bu heyvanların bədənlərinə tamamilə bənzədiyini etiraf edirəm. Ancaq mən bu heyvanların bu qədər vəhşiləşib kifirləşmələrinin səbəbini anlaya bilmirəm. Sonra əlavə etdim ki, tale mənə bir zaman öz vətənimə qayıtmağı qismət edərsə, orada mən bu səyahətimi danışsam, heç kəs mənə inanmaz, hamı elə güman edər ki,

olmayan şeyləri danışıram və öz macəralarımı əvvəldən axıra qədər uydurmuşam. Ondan xahiş edirəm ki, verdiyi vədi yadına salsın və məndən inciməsin. Ancaq ev sahibinə, onun ailəsinə və dostlarına olan bütün hörmətimə baxmayaraq, söyləməliyəm ki, mənim həmvətənlərim əsla inanmazlar ki, dünyanın hər hansı bir yerində quiqnqnmlar ağa, yexular isə qaba heyvan vəziyyətindədirlər.

DÖRDÜNCÜ FƏSİL

Quiqnqnmların həqiqət və yalan haqqında anlayışları.
Müəllifin sözlərinin ev sahibini qəzəbləndirməsi.
Müəllifin özü və səyahətləri barədə daha
ətraflı məlumat verməsi.

Ev sahibi sözlərimi, üzündə böyük bir narazılıq əlaməti olduğu halda dinləyirdi. Bu ölkəyə şübhə və inamsızlıq o dərəcədə yaddır ki, quiqnqnmlar belə hallarda özlərini necə aparmağı bilmirlər. Yadımdadır ki, mən ev sahibilə insanların özləri, onların əxlaq və adətləri barədə söhbət edərkən, yalan və aldatmaqdan danışanda o, çox ağıllı olmasına baxmayaraq, mənim nə demək istədiyimi böyük bir çətinliklə başa düşə bilirdi. O belə düşünürdü: danışmaq qabiliyyəti bizə bir-birimizin fikrini anlamaq, bir-birimizə cürbəcür şeylər barədə faydalı məlumat vermək üçün lütf edilmişdir. Buna görə də, olmayan bir şeyi təsdiq etməyə çalışan bir kəs, bizim nitqimizin vəzifəsini tamamilə təhrif etmiş olur. Belə olduqda, bunları dinləyən tərəf öz həmsöhbətinin dediklərindən heç bir şey anlamaz. O nəinki heç bir yeni məlumat əldə etməz, həm də daha pis bir vəziyyətə düşmüş olar; çünki onu inandırmağa çalışırlar ki, ağ qaradır, uzun isə qısa. Ev sahibinin insanlar arasında geniş yayılmış olan aldatmaq qabiliyyəti barədəki anlayışı yalnız bundan ibarət idi.

Ancaq öz hekayəmizə qayıdaq. Ev sahibi mənim vətənimdə yexuların hakim vəziyyətdə olduqlarını eşitdikdə, bizdə quiqnqnmların olub-olmadığını və bunların nə iş gördüklərini bilmək istədi. Cavab verdim ki, bizim ölkədə quiqnqnmlar çox-çoxdur. Yayda onlar çəmənlərdə otlayırlar, qışda isə onları xüsusi binalarda saxlayır, quru

ot və çovdarla bəsləyirlər. Onları qaşovlayır, yallarını darayır, ayaqlarını yuyur, onlara yemək verir və onlar üçün yataq hazırlayırlar.

Ev sahibi mənə dedi: "İndi sizin dediklərinizi başa düşdüm. Sizin sözlərinizdən bizə məlum olur ki, sizin yexular özlərini ən ağıllı məxluq hesab edirlərsə də, hər halda, sizin ölkədə hakim olanlar quiqnqnmlardır".

Söz bura çatanda, hekayəmi davam etdirməyə icazə istədim və onu xəbərdar etdim ki, bilmək istədiyi təfərrüat əsla xoşuna gəlməyəcəkdir. Lakin o təkid edib söylədi ki, yaxşı-yaman nə varsa, hamısını öyrənmək istəyir. Mənim itaət etməkdən başqa bir çarəm qalmadı.

Hər şeydən əvvəl bu barədə danışdım ki, bizim at adlandırdığımız quiqnqnmlar ən gözəl, ən nəcib və bütün heyvanlardan ağıllıdır. Onlar çox qüvvətli olmaları və qaçağanlıqları ilə fərqlənirlər. Sahibləri əyanlar və varlı adamlar olduqda, atlarla çox mehriban və qayğılı rəftar edir, onları qoruyurlar. Az işlədirlər. Cıdıra buraxır, minik arabalarına qoşur və səyahət zamanı onlardan istifadə edirlər. Ancaq, atlar qocalıb zəiflədikdə, onları başqa adamlara satırlar. Orada bu atlara hər cür ağır və çətin işlər gördürürlər; yalnız tamam taqətdən düşdükdən sonra onlardan əl çəkirlər. Atlar öldükdə, onların dərisini soyub, heçə-puça satır, leşlərini isə tullayırlar ki, onları da köpəklər və yırtıcı quşlar parçalayıb yeyir. Adi cinsdən olan atların taleyi daha pisdir. Bu atların çoxu fermerlərin, arabaçıların və sairlərin əlində olur. Onları ağır işlərdə işlədib, daha pis yeməklər verirlər. Bizim at minməmizi, yüyən, yəhər, mahmız, qamçı, qoşqu vasitələri və təkərlər işlətməyimizin üsullarını ətraflı təsvir etdim.

Əlavə etdim ki, bizim atlarımızın dırnaqlarına dəmir adlanan bərk bir maddədən təbəqə vururuq ki, daşlı yollarda gedəndə dırnaqları əzilməsin.

Ev sahibi qəzəbli nidalarla bir-iki dəfə mənim sözümü kəsdi. Hamıdan artıq onu heyrətləndirən bu idi ki, biz quiqnqnmların dalına minməyə cürət edirik. O, şübhə etmirdi ki, onun nökərlərinin ən zəif olanı ən qüvvətli yexunu yerə çırpa bilər və ya onunla birlikdə yerə yıxılıb arxası üstündə ağnayaraq, onu əzişdirər. Bunun cavabında mən bizim atların üç yaşından başlayaraq necə öyrədildiklərini, onları ram etmək üçün necə qamçı ilə döyüb əziyyət verildiyini ətraflı təsvir etdim. Onları mükafata şirnikdirib, cəzadan qorxmağa öyrətdiyimizi də söylədim. Siz cənabları nəzərə almalıdır

ki, – deyə mən əlavə etdim, – buradakı yexular kimi bizim quiqnqnmlarda da zərrə qədər şüur əlaməti yoxdur.

Mənim vətənimdə quiqnqnmlara edilən vəhşi rəftar barədəki sözlərimin ev sahibinə necə təsir etdiyini və onun nəcib qəzəbinə bais olduğunu təsvir etmək mümkün deyildir. O, bu fikirlə razılaşdı ki, bizim ölkədə yalnız yexular şüura malikdirlərsə, yəqin ki, tamamilə haqlı olaraq, başqa heyvanlar üzərində də onlar hakim olmalıdır; çünki şüur qaba qüvvəyə hər zaman qalib gəlir. Yalnız bu cəhət qəribədir ki, heç bir heyvan öz bədəninin quruluşuna görə, öz şüurundan istifadə etmək və gündəlik yaşayış ehtiyacını ödəmək üçün mənim kimi zəif yaranmamışdır. Bu cəhətdən buradakı yexular məndən qat-qat üstündürlər.

Doğrudan da, mənim dırnaqlarımın mənə heç bir faydası yoxdu. Qabaq ayaqlarımı, sözün əsl mənasında, ayaq adlandırmaq olmaz; çünki yeriyərkən əsla bunları işlətmirəm. Gözlərim elə qurulmuşdur ki, başımı döndərmədən, yan tərəfləri görə bilmirəm. Dərim həddən artıq zərifdir, isti və soyuqdan tamamilə müdafiəsizdir və mən hər gün geyinib-soyunmaq kimi yorucu və darıxdırıcı bir işi görməyə məcburam. Lakin o, bu saat bu məsələni dərindən müzakirə etmək niyyətində deyildir. Onun üçün mənim həyatımın tarixini, harada doğulduğumu və bura gəlməzdən əvvəl nə iş gördüyümü eşidib bilmək daha çox maraqlıdır.

Mən onu inandırdım ki, marağını böyük bir həvəslə təmin edərəm. Ancaq söyləyəcəyim sözləri ev sahibinin tamamilə başa düşə biləcəyinə çox şübhə edirdim; çünki danışmalı olduğum şeylər haqqında onun heç bir təsəvvürü yox idi. Buna görə, ev sahibindən xahiş etdim ki, məndən inciməsin və hər dəfə söylədiyim şeyi başa düşmədikdə soruşsun.

Mən ona söylədim ki, İngiltərə adlanan bir adada hörmətli bir ailədə doğulmuşam. Həmin ada buradan o qədər uzaqdır ki, ev sahibinin ən qüvvətli nökəri Günəşin birillik dövrü müddətində çapsa da, ora çətin yetişə bilər. Həmin bu adanı mənim cinsimdən olan bir dişi idarə edir. Biz onu kraliça adlandırırıq. Cavan yaşlarımda mən cərrahlıq, yəni yaraları və təsadüfi, yaxud kənar bir adamın yetirdiyi zədələri müalicə etmək fənnini öyrənmişəm. Lakin bu işdə mənim qazancım az olduğundan, varlanmaq və qayıdıb öz ailəmlə birlikdə firavan yaşamaq məqsədilə, yad ölkələrə getdim. Axırıncı səyahət

zamanı gəmi kapitanı idim və ixtiyarımda əlliyə qədər yexu var idi. Onlardan bir çoxu yolda ölmüşdü və mən onları müxtəlif xalqlar arasından yığılmış başqaları ilə əvəz etməyə məcbur oldum. Səyahət zamanı bizim gəmimiz iki dəfə az qaldı ki, batsın. Birinci dəfə qüvvətli bir fırtınaya düşdük, ikinci dəfə isə gəmimiz qayaya toxundu.

Bu zaman ev sahibi sözümü kəsib soruşdu ki, başıma gələn bu qədər fəlakətlərdən və çəkdiyim əzablardan sonra, mən necə cürət edib, yad adamları özümlə bərabər götürərək, dənizə çıxmışam? Ona izah etdim ki, onlar hər cür iş görməyə hazır olan, qorxmaz adamlar idi. Yoxsulluq və etdikləri cinayətlər onları öz vətənlərindən qaçmağa məcbur etmişdi. Onların bəziləri ardı-arası kəsilməyən çəkişmələrdən müflisləşmiş, bəziləri içki, əyyaşlıq və qumarbazlıq nəticəsində var-yoxdan çıxmışdılar. Bir çoxları xəyanət, adam öldürmək, oğurluq, adam zəhərləmək, soyğunçuluq, andı pozmaq, qəlp pul kəsmək, ordudan qaçmaq kimi cinayətlərdə təqsirləndirilirdilər. Onların çoxu həbsxanalardan qaçmış canilərdi. Heç biri asılmaq və ya həbsxanada çürümək qorxusundan öz vətənlərinə qayıtmağa cürət etmirdi. Buna görə də onlar güzəranlarını yad ölkələrdə keçirməyə məcburdurlar.

Bu söhbət zamanı ev sahibi bir neçə dəfə sualları ilə mənim sözümü kəsdi. Mən dənizçilərimin nə iş gördüklərini, nə üçün öz vətənlərini tərk etməli olduqlarını ona başa salmaq üçün cürbəcür müqayisələr və misallar gətirməli oldum. Bunların nə olduğunu ona yalnız bir neçə gün müddətində başa sala bildim. Ancaq bununla bərabər o, bu insanları belə pis işlər görməyə nəyin məcbur etdiyini heç cür təsəvvür edə bilmirdi. Mən bizim hamımıza xas olan hakimiyyətlə varlanmaq ehtirası, acgözlük, kin və paxıllığın dəhşətli nəticələri barədə onda bəzi təsəvvürlər yaratmağa çalışdım. Bütün bunları misallar və müqayisələrlə ona təsvir edib başa salmalı olurdum. Quiqnqnmların dilində hakimiyyət, dövlət, müharibə, qanun, cəza və minlərlə bu kimi anlayışları ifadə edən söz yoxdur. Buna görə də mən danışdıqlarımı ev sahibinə başa salmaq üçün xeyli zəhmət və əziyyət çəkməli olurdum. Ancaq əslində böyük bir zəka və iradəyə malik olduğundan, o, nəhayət, bizim ölkələrdə insan təbiətinin nələrə qadir olduğu barədə az-çox aydın bir təsəvvür əldə edə bildi və arzu etdi ki, bizim Avropa adlandırdığımız yer barədə, xüsusən, mənim öz vətənim haqqında ona mümkün qədər ətraflı məlumat verim.

BEŞİNCİ FƏSİL

Ev sahibinin əmrinə görə müəllifin onu İngiltərənin vəziyyəti ilə tanış etməsi. Avropa dövlətləri arasında müharibələrin səbəbləri. Müəllifin ingilis konstitusiyasını izah etməyə başlaması.

Möhtərəm oxucular lütf edib, nəzərə alsınlar ki, bundan sonrakı hissədə mən ev sahibi ilə aramızda gedən uzun söhbətlər zamanı müzakirə olunan məsələlərin ən əhəmiyyətlilərini lap qısa şəkildə nəql edirəm. Bundan başqa, onu da qeyd etməliyəm ki, ev sahibinin şəkilcə sadə, məzmunca çox dərin olan mülahizə və qeydlərini öz qaba dilimizdə kifayət qədər dürüst və qüvvətli ifadələrlə nəql edə biləcəyimə özüm də şübhələnirdim. Mən nəcib quiqnqnmlar xalqının nümayəndəsi ilə olan söhbətlərimi yalnız bir qeydlə izaha cürət edirəm.

Beləliklə, mən ev sahibinin arzusunu yerinə yetirərək, ona şahzadə Oranskinin hakimiyyəti zamanı baş verən axırıncı ingilis inqilabı haqqında həmin şahzadə tərəfindən başlanıb, uzun illər boyu davam edən və ondan sonra taxta çıxıb, indi hakimiyyət başında olan kraliçanın davam etdirdiyi Fransa müharibəsi haqqında məlumat verdim və dedim ki, ən gözəl xristian dövlətlərin qoşulduğu bu müharibə indi də davam edir. Ev sahibinin xahişilə mən bu müharibə zamanı ən azı bir milyondan artıq yexunun öldüyünü, yüzə qədər şəhərin alındığını və üç yüzdən artıq gəminin yandırılıb və ya batırıldığını bildirdim.

Ev sahibi soruşdu ki, bir dövlət ilə başqa bir dövlətin müharibə etməsinin səbəbi nədir? Cavab verdim ki, belə səbəblərin sayı-hesabı yoxdur, ancaq bunlarda yalnız ən əhəmiyyətli olan az bir qismini saymaqla kifayətlənəcəyəm. Bu müharibələrin səbəblərindən biri, padşahların şöhrətpərəstliyi və acgözlüyüdür. Heç bir zaman gözləri doymayan bu padşahlar həmişə öz torpaqlarını genişləndirməyə və öz təbəələrinin sayını artırmağa çalışırlar. Bəzən müharibələrə nazirlərin azğınlıqları səbəb olur, onlar əhalinin dövlətin pis idarə olunmasından şikayətlərini ört-basdır edir və diqqəti başqa tərəfə çəkmək üçün padşahlarını müharibə etməyə qızışdırırlar. Görüşlərində fərqlərə görə də çox qanlar tökülmüşdür. Məsələn,

cisim çörək və ya çörək cisimdirmi; bir parça ağacı öpməkmi, yoxsa oda atmaqmı yaxşıdır; üst paltar nə rəngdə – qaramı, ağmı, qırmızımı və ya bozmu olmalıdır? Başqa bu kimi mübahisələr *milyonlarla insan həyatının tələfinə səbəb olmuşdur**.

Bəzən iki hökmdar arasındakı mübahisə heç bir əsas olmadan, üçüncü bir hökmdarı hansının yıxmalı olduğu məsələsindən meydana çıxır. Bəzən bir padşah o birinə qorxudan hücum edir ki, əvvəlcə o, buna hücum etməsin. Bəzən müharibə ona görə başlanır ki, düşmən tərəf həddindən artıq qüvvətlidir, bəzən isə əksinə, ona görə başlanır ki, düşmən tərəf çox zəifdir. Çox zaman elə olur ki, bizdə olan şey qonşumuzda olmur və ya bizdə olmayan şey qonşumuzda olur. O zaman müharibə başlanıb, bizimkini əlimizdən alana qədər və ya özlərininkini bizə verənə qədər davam edir. Bir ölkənin əhalisi acından, taqətdən düşdükdə, taundan qırıldıqda və ya daxili çəkişmələrə düçar olduqda, ona hücum etmək tamamilə üzrlü hesab edilir. Eynilə bunun kimi, ən yaxın müttəfiqlərimizdən birinin bir şəhəri, bizim üçün münasib bir vəziyyətdə yerləşdikdə və ya onun torpaqlarının bir qismi ölkəmizi genişləndirmək üçün bizə əlverişli olduqda, onun üzərinə hücum etmək ədalətli müharibə sayılır. Əgər padşah öz qoşunlarını əhalisi yoxsul və cahil olan bir ölkəyə göndərirsə, onun əhalisinin yarısını qanuni bir surətdə qırıb, qalan yarısını özünə qul edə bilər. Bu həmin xalqı vəhşilikdən qurtarıb, mədəniyyətin nemətlərinə qovuşdurmaq deməkdir. Həmçinin aşağıdakı şahanə və nəcib hərəkət tərzi də geniş yayılmışdır: öz torpaqlarına soxulmuş düşməni qovmaq üçün bir padşah başqa bir padşahı köməyə çağırdıqda, köməyə gələn padşah düşməni oradan qovduqdan sonra öz müttəfiqinin torpaqlarını qəsb edir, onun özünü isə ya öldürür, ya zindana salır, ya da öz yurdundan qovur. Qan qohumluğu və ya evlənmək vasitəsilə müttəfiq olmaq da çox zaman padşahlar arasında müharibələrə səbəb olur və bu qohumluq nə qədər yaxın olursa, padşahlar da bir-birlərinə o qədər çox nifrət edirlər. Yoxsul millətlər acgöz, varlılar isə lovğa olurlar. Lovğalıq, acgözlük isə həmişə bir-birinə düşməndir, buna görə də bizdə müharibələrin arası əsla kəsilmir və əsgərlik peşəsi ən hörmətli bir peşə hesab olunur. Eynilə özləri kimi olub, ona heç bir pislik etməyən başqa məxluqları soyuqqanlılıqla mümkün qədər çox qırmaq üçün muzdla tutulan yexulara biz əsgər deyirik.

Bundan başqa, Avropada bir çox xırda hökmdarlar da var: onlar yoxsul olduqlarından, müstəqil müharibə edə bilmirlər. Bu yoxsul padşahlar öz qoşunlarını varlı qoşunlarına müəyyən muzdla kirayə verirlər. Bu surətlə də alınan pulun dörddə üçünü onlar özləri üçün götürüb, *həmin mədaxil hesabına yaşayırlar**.

Ev sahibi fikirli-fikirli dilləndi: "Sizin müharibələr barədə söylədiklərıniz aydın göstərir ki, sizin fəxr etdiyiniz bu şüur necə bir şüurdur, ancaq xoşbəxtlikdən siz bir-birinizə çox da böyük zərər yetirə bilməzsiniz. Təbiət sizi bütün başqa heyvanlardan zəif yaratmaqla, özü qeydinizə qalmışdır.

Doğrudan da, sizin üzünüz çox yastıdır və çənəniz əsla irəli çıxmamışdır. Buna görə də siz, çətin ki, bir-birinizi dişləyib, gəmirə biləsiniz. Sizin qabaq və dal ayaqlarınızdakı dırnaqlarınız qısa və zəifdir. Bizim yexulardan hər biri sizin bir düjününüzün öhdəsindən gələr. Məndən inciməyin, – deyib axırda ev sahibi əlavə etdi, – ancaq mənə elə gəlir ki, siz döyüşlərdə ölənlərin sayını söyləyərkən, olmayan şeylər danışırdınız".

O, bu sözləri söyləyərkən mən özümü gülümsəməkdən saxlaya bilmədim. Mən müharibə işlərini yaxşı bilirdim, ona görə də top, mortir, mina, muşket, karabin, tapança, güllə, barıt, qılınc və süngünün nə demək olduğunu ona anlada bildim. Mən döyüşün, mühasirənin, geriçəkilmənin, hücumun, bombardmanın, dəniz vuruşmalarının, gəmilərin bütün miniklərilə bərabər batırılmasının nə demək olduğunu ona ətraflı təsvir etdim. Mən onun qarşısında döyüş mənzərəsini təsvir etməyə çalışdım: tüstü, hay-küy, çaxnaşma, ölənlərin fəryadı, atların ayaqları altında tapdalanıb ölmək, qaçanların təqib olunması. Cəsədlərlə dolu olan meydanları, köpəklər, qurdlar və yırtıcı quşlar tərəfindən cəsədlərin yeyilməsini, dinc əhalinin qırılıb talan edilməsini, zorlanmasını, zəmilərin məhv edilib, şəhərlərin yandırılmasını ona danışdım. Onun qarşısında o öz əziz həmvətənlərimin şücaətlərini təsvir edib, öyünmək məqsədilə mühasirə zamanı partlayış vasitəsilə yüzlərlə düşmən əsgərinin göyə sovrulduğunu və tamaşa edənlərin göydən yağan insan bədəni parçalarına baxıb zövq aldıqlarını öz gözümlə gördüyümü söylədim.

Mən təfsilatı davam etdirmək istəyirdim ki, ev sahibi susmağı əmr etdi və söylədi: "Yexuları tanıyanlar asanlıqla inanırlar ki, bu murdar heyvanlar gücləri çatarsa, mənim nəql etdiyim bütün bu şeyləri

etməyə qadirdirlər". Ancaq mənim sözlərim onu bu vaxta qədər əsla duymadığı bir təşvişə salmışdı. O, öz ölkəsində olan yexulardan həmişə iyrənmişsə də, ancaq yexuları nöqsanlarına görə heç vaxt qnneyxi (yırtıcı quşu) amansızlığına görə və ya iti bir daşı dırnağını zədələdiyinə görə müqəssir tutduğundan artıq təqsirləndirməmişdir. Amma mənim söylədiyim ən dəhşətli cinayətləri, görünür ki, böyük zəkaya malik məxluqlar edirlər. Bunlardan o, belə nəticə çıxarır ki, pozulmuş şüur yırtıcı heyvan kütlüyündən daha pisdir. Onun fikrinə görə, bu, artıq şüur olmayıb, bizim təbii nöqsanlarımızın inkişafına kömək edən xüsusi bir qüvvədir.

Nəhayət, o, mənə söylədi ki, müharibələr barədə eşitmək onu kifayət qədər yormuşdur. İndi onu başqa bir şey maraqlandırır, mən öz söhbətimdə demişdim ki, gəmidəki dənizçilərimdən bəziləri qanun üzündən müflis düşdükləri üçün vətənlərini tərk etmişdilər. Bu söz ev sahibini çox təəccübləndirmişdir. O başa düşə bilmirdi ki, qanun nəyə əsasən bir adamı mənim söylədiyim kimi müflis sala bilər. Axı qanunun bütün mənası hər bir vətəndaşın mənafeyini qorumaqdan ibarətdir. Buna görə də xahiş edirdi ki, bu qanunun nə demək olduğunu və ona xidmət edənlərin kimlər olduğunu izah edim. Onun fikrincə, bizim kimi qanacaqlı məxluqlar üçün ki, biz özümüzü belə hesab edirik, – təbiət və şüurun rəhbərliyi kifayət edər.

Cavab verdim ki, qanun və hüquq mənim çox az bildiyim şeylər olsa da, onun arzusunu bacardığım qədər yerinə yetirməyə çalışacağam.

Onu başa saldım ki, bizim ölkəmizdə sayı çox olan elə bir insan təbəqəsi var ki, onlar gənc yaşlarından ağın qara, qaranın isə ağ olduğunu sübut etməyi öyrənir və hansı tərəf çox pul verərsə, işi onun xeyrinə həll edirlər. Bu təbəqə bütün xalqı öz əsarəti altında saxlayır.

Məsələn, mənim inəyim qonşunun xoşuna gəlirsə, inəyimi əlimdən almağa haqqı olduğunu qanuni olaraq sübut etmək üçün pul ilə bir vəkil tutur. Onda mən də inəyin mənim olduğunu sübut etmək üçün ikinci bir vəkil tutmalı oluram; çünki qanun heç bir kəsə məhkəmədə özünü müdafiə etməyə icazə vermir. Hələ bundan başqa, mən inəyin qanuni və həqiqi sahibi olduğumdan, məhkəmədə xüsusilə çətin bir vəziyyətə düşürəm. İş burasındadır ki, hər bir vəkil, demək olar ki, hələ beşikdə ikən, haqsızlığı müdafiə etməyi öyrənmişdir. Buna görə də o, haqq işi müdafiəyə girişdikdə, özünü

çox pis bir vəziyyətdə hiss edərək, lazımi qədər qüvvə və məharət göstərə bilmir. Bundan başqa, o, son dərəcə ehtiyatlı olmalıdır ki, haqq işi müdafiə etdikdə, həddindən artıq coşqunluq göstərməsin. Belə olarsa, o, məhkəmə hakimləri tərəfindən töhmət alar və öz təbəqəsinin ləyaqətini alçaltmış olar.

Ciddi desək, öz inəyimi saxlamaq üçün mənim yalnız iki yolum var. Bunlardan biri müqabil tərəfin vəkilini pul ilə tovlamaqdır ki, o, məhkəmədə özünü, guya haqq müdafiə edən kimi göstərsin; ikincisi isə mənim müdafiəçimi inandırmaq lazımdır ki, inəyə olan sahiblik haqqımı tamamilə haqsız bir iş kimi göstərməyə çalışıb, inəyin əslində mənim düşmənimin olduğunu desin. Hər iki halda, istər məhkəmə haqqın düşmən tərəfində olduğunu təsdiq etsin, istərsə də mənim tələblərimin qeyri-qanuni olduğunu qərara alsın, hər halda, mənim üçün işi udmaq ehtimalı vardır.

– Siz cənabları, bilməlisiniz ki, – mən davam etdim, – bizdə məhkəmə hakimi, mülkiyyət barədə olan mübahisələri həll edən, cinayətlərə cəza verən adamlara deyirlər. Onları qocalmış və tənbəlləşmiş olan ən mahir vəkillərdən seçirlər. Bunlar hələ hakim təyin olunmazdan əvvəl, vəkil sifəti ilə çıxış etdiklərindən, yalana, əhdi pozmağa və zorakılığa, göz yummağa öyrəşmiş adamlardır. Mən bir çox hörmətli məhkəmə hakimləri tanıyıram ki, onlar haqqın qələbəsinə kömək etməmək və beləliklə, öz təbəqələrinin ləyaqətlərini alçaltmamaq üçün haqlı tərəfin təklif etdiyi böyük rüşvətlərdən imtina etmişlər.

Onlar cürbəcür şikayətləri müzakirə etdikdə işin mahiyyətini bilməkdən diqqətlə çəkinirlər. Bunun əvəzində isə əslində işə dəxli olmayan məsələlər barədə çığır-bağır salır, coşur və taqətdən düşüncəyə qədər naqqallıq edirlər. Məsələn, yuxarıda gətirdiyim misalda onlar mənim düşmənimin inəyə nə qədər haqqı olduğu barədə heç soruşmayıb, inəyin sarımı, yoxsa qaramı, buynuzunun uzunmu, yoxsa qısamı olduğu barədə, evdəmi və ya otlaqdamı sağıldığı barədə, nə kimi xəstəliklərə tutulması və sair bu kimi məsələlər barədə ardı-arası kəsilməyən izahlara girişirlər.

Bunu da nəzərə almaq lazımdır ki, bu adamlar danışarkən, o qədər xüsusi sözlər və ifadələr işlədirlər ki, onların nitqini adi insanlar, demək olar ki, heç başa düşə bilmirlər. Bütün qanunlar da eynilə bu cür tərtib edilmişdir. Bu qanunlar o qədər çox, o qədər anlaşılmaz və o qədər ziddiyyətlidir ki, onlara əsasən hansı hərəkətin

qanuni, hansının qeyri-qanuni, kimin haqlı, kimin haqsız, nəyin doğru, nəyin yalan olduğunu təyin etmək tamamilə qeyri-mümkündür. Buna görə də təəccüblü deyildir ki, bu cür qanunlar və bu cür hakimlər üçün altı nəsil dədə-babadan qalmış torpağın mənimmi və ya üç yüz mil məndən uzaqda yaşayan yad bir adamınmı olduğunu aydınlaşdırmaq üçün otuz-qırx il vaxt lazımdır.

Dövlət cinayətlərində təqsirləndirilən şəxslərin işinə isə xeyli sürətlə baxılır. Hakimlər, sadəcə olaraq, hökumət başında onlardan soruşub müqəssirin məhkum edilməli və ya bəraət qazandırılmalı olduğunu öyrənirlər.

Sonra isə aldıqları göstərişə görə, onu ya asılmağa məhkum edir, ya da bəraət qazandırırlar. Ancaq aydındır ki, hər iki halda onlar *qanunu ciddi surətdə rəhbər tuturlar**.

– İndi isə, siz cənablar, əlbəttə, "qanun üzündən müflis olmaq" sözünün nə demək olduğunu başa düşdünüz, – deyib mən öz hekayəmi bitirdim.

ALTINCI FƏSİL

İngiltərənin təsvirinin davamı. Avropa saraylarında birinci və ya baş nazirin rolu.

Ancaq bu zaman yeni bir çətinlik meydana çıxdı. Ev sahibi bütün bu hakimlərin nə səbəbə görə öz yaxın adamlarına pislik göstərmək üçün bu qədər zəhmət sərf etdiklərini başa düşə bilmirdi. Başlıcası isə, o, "pul ilə satın alma" ifadəsinin nə demək olduğunu anlaya bilmirdi.

Onun heyrətlə dolu suallarına cavab olaraq, mən pulun nə olduğunu, onun necə hazırlandığını və nəcib metalların qiymətini izah etdim. Söylədim ki, bu qiymətli maddələrdən daha çoxuna malik olan yexu, arzu etdiyi hər bir şeyi – gözəl paltarları, möhtəşəm evləri, geniş torpaqları, qəşəng avadanlığı, ən qiymətli yemək və içkiləri ala bilər. Bütün bunları yalnız pul sayəsində əldə etmək mümkün olduğundan, bizim yexular pulu dünyada hər şeydən yüksək tutur və mümkün qədər çox pul sahibi olmağa çalışırlar. Pul, böyük bir əhəmiyyətə malik olduğu üçün varlılar yoxsulları özlərinə tabe edir və onla-

rın zəhmətlərinin səmərəsindən istifadə edirlər. Hər varlıya mindən artıq yoxsul düşür. Açıqca söyləmək olar ki, bizim xalqın çox hissəsi yoxsul yaşayıb, ən ağır işlərdə çalışdıqlarından taqətdən düşür və bunun müqabilində cüzi miqdarda pul qazanırlar ki, azlıqda qalan hissə gen-bol yaşaya bilsin. Ev sahibi bütün bu şeyləri başa düşə bilir və belə güman edirdi ki, bütün heyvanlar, xüsusən başqalarına hakim olan heyvanlar dünyanın nemətlərinə malik olmaq cəhətindən eyni hüquqdadırlar.

O, məndən bizdəki varlı yexuların nə cür yaşadıqlarını soruşaraq, bizim yeməklərimizlə maraqlandı və bu qədər məxaric tələb edən bol yeməklərin necə olduğunu bilmək istədi. Mən yada sala bildiyim ən gözəl yeməkləri bir-bir ona saydım və onları hazırlamağın cürbəcür üsullarını təsvir etdim. Söylədim ki, bu yeməkləri dadlı etmək və cürbəcür içkilər, cürbəcür şirniyyat gətirmək üçün dənizin o tayında olan bütün ölkələrə gəmilər göndərmək lazım gəlir. Məsələn, bizim yexuların adlı-sanlı bir ailəsinin qəlyanaltısı üçün lazım olan ərzağı və qab-qacağı gətirmək üçün dünyanın dövrəsinə ən azı üç dəfə hərlənmək lazımdır.

Həmsöhbətim dedi:

"Öz əhalisini doydura bilməyən bir ölkə, əlbəttə, yoxsul bir ölkədir!"

Onu ən çox bu təəccübləndirdi ki, bizim ölkələrdə içməli su yoxdur və əhali içki gətirmək üçün dənizin o tayında olan ölkələrə gəmilər göndərməyə məcburdur.

Mən onu başa saldım ki, biz yad ölkələrdən içkini suyumuz çatışmadığına görə gətirmirik, xüsusi meyvələrin şirəsindən hazırlanmış olan bu içkiləri biz şənlənmək, məst olmaq, dərdimizi dağıtmaq, həyatımızın dolu olduğu bütün qayğı və iztirabları unutmaq üçün içirik. Doğrudur, bu içkilərdən bizim iradəmiz zəifləyir, özümüz süst və xəstə kimi oluruq, ancaq bunlar bizə mane olmur. Biz qısa bir müddətdə özümüzü şən və qayğısız hiss etmək üçün hər şeyə razıyıq.

Mən söylədim ki, ən adi hesablamaya görə mənim əziz vətənim olan İngiltərə, əhalisini işlədə biləcəyindən üç dəfə artıq, cürbəcür qiymətli meyvələri, tərəvəzi, cürbəcür ədviyyatları və sair şeyləri dənizin o tayında olan ölkələrə gətirirlər ki, öz tələbkar zövqlərini təmin etsinlər. Bunların əvəzində isə biz dənizin o tayında olan ölkələrə oradakıların həyatı üçün zəruri olan azuqə və məmulat göndəririk. Buna görə

təəccüblü deyildir ki, mənim həmvətənlərimin çoxu özü üçün yeməyi dilənçilik, soyğunçuluq, oğurluq, fırıldaqçılıq, əhdi pozmaq, yaltaqlıq etmək, satın almaq, saxtakarlıq, qumarbazlıq, yalançılıq, nökərçilik, lovğalıq, seçki səslərini satmaq, cızma-qaraçılıq, münəccimlik, falçılıq, ifratçılıq və sair bu kimi vasitələrlə qazanmağa məcburdurlar.

Bu sözlərdən hər birinin quiqnqnma anlatmaq üçün nə qədər zəhmət çəkməli olduğumu oxucu təsəvvür edə bilər.

Ev sahibi dedi:

– Vəziyyət belə olduqda, sizin ölkədə yaşayan adamlar varlıları təmin etmək üçün gərək səhərdən gecə yarısına qədər zəhmət çəksinlər.

– Siz tamamilə haqlısınız, – deyə cavab verdim, – məsələn, mən öz evimdə olub lazımi səliqə ilə geyindiyim zaman öz üzərimdə yüzlərlə xırda sənətkarın zəhmətinin məhsulunu gəzdirirəm. Evimin tikilməsi və avadanlığı daha çox fəhlənin zəhmətini tələb edir. Arvadımı geyindirmək üçün isə bu rəqəmi beş dəfə artırmaq lazımdır.

Mən ona maaşlarını xəstəlikləri müalicə etməklə qazanan adamlar barədə danışmaq istədim. Ancaq məlum oldu ki, bu sözləri ev sahibi, demək olar ki, başa düşə bilmir. O cənab belə güman edirdi ki, hər bir quiqnqnmın, ölməmişdən bir neçə gün qabaq, zəifləməsi və yaxud təsadüfən bir yerinin yaralanması tamamilə təbiidir. Ancaq əsla başa düşə bilmirdi ki, bütün işləri şüurlu olan təbiət, bizim bədənimizə xəstəliklər daxil edə bilər. O, məndən bu fəlakətin səbəblərini soruşmağa başladı. Cavab verdim ki, bizim xəstəliklər çoxu qarınquluqdan və sərxoşluqdan əmələ gəlir. Biz ac olmadığımız halda, yeyir və əsla susamadığımız halda içirik. Bəzən bütün gecəni məstedici içkilərlə keçiririk. Bu, bizi tənbəlləşdirir, daxili orqanlarımızı iltihablaşdırır, mədəmizi pozur. Bir çox başqa xəstəliklər ölkəmizdə yayılmış olan saysız-hesabsız pis işlərdən əmələ gəlir. İnsanların düçar olduqları bütün xəstəlikləri saymaq üçün çox uzun bir vaxt lazımdır. Bunu söyləmək kifayət edər ki, böyük bir təbəqə, yalnız öz həmvətənlərimi müalicə etməklə məşğuldur. Mən öz həkimlərimiz barədə, xəstəlikləri müalicə etmək üçün, mövcud cürbəcür üsullar barədə, onların fırıldaqları və mənfəətpərəstlikləri barədə xeyli danışdım.

Həkim tayfası xüsusən xəstəliyin nəticəsini söyləməkdə çox mahirdir. Bu məsələdə onlar çox az-az səhv edirlər. Onlar insanın ciddi surətdə xəstələndiyini gördükdə adətən əvvəlcədən xəbər

verirlər ki, o öləcəkdir. Axı xəstəni sağaltmaq onlardan asılı olmadığı üçün, hər zaman xəstəni taqətdən salıb öldürməyi bacararlar. Ancaq onların müalicəsinə baxmayaraq, işdir, xəstədə yaxşılaşma əlaməti görünürsə, onlar xəstənin əqrəbasını asanlıqla inandırırlar ki, bu onların ağıllı himayədarlıqları sayəsində olmuşdur.

Buna əlavə etmək lazımdır ki, onlar bir-birinin zəhləsini tökmüş olan ər-arvad üçün, irs gözləyən böyük oğullar üçün, təhlükəli rəqibləri olan nazirlər üçün və çox zaman yaxalarını *öz nazirlərinin əlindən qurtarmaq istəyən padşah üçün çox faydalı olurlar**. Mən bu sözləri söylədikdə, görünür ki, həkimlər təbəqəsi barədə danışdıqlarımdan zəhləsi getmiş olan ev sahibi sözümü kəsərək soruşdu: "Siz nazirlərdən bir neçə dəfə danışmısınız. Mən çox bilmək istərdim ki, siz yexuların hansı növünü nazir adlandırırsınız?"

Cavabında söylədim ki, baş və ya birinci nazir şadlıq və kədər, məhəbbət və nifrət, rəhm və qəzəb hisslərindən tamamilə məhrum olan bir məxluqdur. Hər halda onun dəlicəsinə varlanmaq, hakimiyyət və rütbələr qazanmaq ehtirasından başqa, heç bir ehtirası yoxdur. O, sözlərdən öz fikirlərini ifadə etmək üçün deyil, cürbəcür başqa məqsədlər üçün istifadə edir. Nazir yalnız o zaman doğru danışır ki, bunu başqalarına yalan kimi qəbul etdirmək istəyir və yalnız o zaman söyləyir ki, bu yalanı doğru yerinə işə vermək istəyir. Onun, dallarınca pisliklərindən danışdığı adamlar arxayın ola bilər ki, hörmət-izzət qazanacaqlar. Onun tərifləməyə başladığı adamlar isə özlərini məhv olmuş hesab edə bilərlər. Əgər o, xahişinizi yerinə yetirməyə söz vermiş və and içmişdirsə, özünüzü gözləyin. Bundan sonra arzunuza çatmaq üçün artıq heç bir ümidimiz yoxdur və yaxşı olar ki, gözə görünməyəsiniz.

Davam edib dedim: "Baş nazir olmaq üçün cürbəcür üsullar vardır. Bunlardan ən sadəsi məharətlə böhtan atmaq, bacarıqla çuğulçuluq etmək və xəyanətdir. Bunlar bəzən sarayın açıqdan-açığa pozğunluqda və sair nöqsanlarda coşqun tənqid etmək şəklində zühura çıxır. Ağıllı bir padşah adətən bu üsulla hərəkət edənləri üstün tutur; çünki belə tənqidçilər həmişə öz ağalarının arzularına qul kimi əməl edib, onların ehtiraslarını yaltaqlıqla təmin edəcəklər.

Nazir hakimiyyət başına keçdikdən sonra, senatorların və ya şura üzvlərinin çoxunu pul ilə öz tərəfinə çəkməklə vəziyyətini möhkəmləndirir. Nəticədə rüşvət, dövlət vəsaiti ilə mahiranə, hoqqabazlıq

və doğrudan-doğruya oğurluq yolu ilə hədsiz-hesabsız var-dövlət qazandıqdan sonra, onlar ictimai fəaliyyətdən kənara çəkilirlər.

Birinci nazirin sarayı özü kimi insanlar yetişdirmək üçün bir məktəbdir. Xidmətçilər, nökərlər, qapıçılar öz ağalarını təqlid edib, onun kimi öz sahələrində nazir olur və bu sənətin üç başlıca bünövrəsi olan həyasızlıq, yalançılıq, satınalma məharətini öyrənirlər. Bunun nəticəsində onlardan hər birinin yüksək cəmiyyətə mənsub adamlardan ibarət kiçik bir sarayı vardır. Çox zaman onlar öz məharətləri və həyasızlıqları sayəsində pillə-pillə qalxıb, ağalarının yerini tutmağa müvəffəq olurlar".

Bir dəfə ev sahibi bizim ölkənin əyanları haqqındakı sözlərimi dinləyir, məni layiq olmadığım dərəcədə tərifləyirdi. O söylədi ki, mən yəqin nəcib bir ailədə doğulmuşam; çünki bədənimin quruluşu, dərimin rəngi və təmizlik cəhətindən mən onun vətənində olan yexulardan xeyli üstünəm. Bundan başqa, məndə nəinki yalnız danışıq qabiliyyəti, həm də şüur əlamətləri vardır ki, bunu onun bütün tanışları bir möcüzə hesab edirlər.

Mən haqqımda belə xoş rəydə olduğu üçün o cənaba hörmət və təşəkkürümü bildirdim. Ancaq eyni zamanda onu inandırdım ki, mən heç də yüksək bir ailəyə mənsub deyiləm, çünki ata-anam mənə az-çox təhsil verməyə zorla gücləri çatan təvazökar və namuslu adamlardır. Söylədim ki, bizim əyanlar əsla onun təsəvvür etdiyi kimi deyil. Bizim adlı-sanlı cavanlar hələ uşaqlıqdan işsizliyə alışdırılır, naz-nemət içində bəslənirlər. Bu cavanlar məktəbi birtəhər qurtardıqdan sonra həyatlarını kef məclislərində, qumarbazlıq və sair əyləncələrlə keçirirlər. Onlar var-yoxlarının böyük bir hissəsini israf etdikdən sonra, yalnız pul xatirinə, aşağı təbəqələrdən gözəllik və sağlamlıqları ilə heç də seçilməyən qadınlarla evlənir və onlara nifrət edir, həqir baxırlar. Belə evlənmələr nəticəsində xəstə, zəif və cılız uşaqların doğulması heç də təəccüblü deyildir. Hər halda bizim ölkədə bədənin zəif və xəstə olması, arıqlıq və üzün torpaq rəngində olması nəcabətli nəslə mənsub olmağın ən doğru əlamətləridir. İnsanın sağlam və bədənin möhkəm olması əyanlar üçün bir növ ədəbsizlik sayılır. Bu adamların mənəvi nöqsanları da bədən nöqsanlarına tamamilə uyğun olub, qaraqabaqlıq, kütlük, nadanlıq, yekəbaşlıq və lovğalığın xoşagəlməz qarışığından ibarətdir.

YEDDİNCİ FƏSİL

Müəllifin öz vətəninə məhəbbəti. Ev sahibinin ingilis üsuli-idarəsi haqqında mülahizələri. İnsan təbiəti üzərində ev sahibinin müşahidələri.

Ola bilər ki, oxucu məni yexulara bənzədən bir məxluqun qarşısında öz cinsimizin nöqsanlarını belə açıq-aşkar göstərməyimə təəccüb edər; çünki o, bunsuz da, ümumiyyətlə, insan nəsli barədə çox pis bir təsəvvürə malik idi. Ancaq səmimi olaraq boynuma almalıyam ki, bu nəcib dördayaqlı heyvanların saysız-hesabsız yaxşılıqlarını insanların pozğunluğu ilə müqayisə etdikdə, insan təbiətinə olan baxışım kökündən dəyişdi. Mən bu nəticəyə gəldim ki, öz cinsimin şərəfini müdafiə etməyə əsla ehtiyac yoxdur, bundan başqa, ev sahibinə və onun yaxın dostlarına baxdıqda, yalan və aldatmağa qarşı böyük bir nifrət hiss etdim. İndi də həmvətənlərim haqqında söylədiyim bütün sözləri xatırladıqda, böyük məmnuniyyətlə görürəm ki, onların həyat və əxlaqlarının ən gözəl bir surətdə təkidlə təsvir etməyə çalışarkən, həmvətənlərimin nöqsanlarını nə qədər müdafiə etmişəm. Ancaq bunu özüm üçün fəxr hesab etmirəm. Çünki öz doğulduğu yerə məhəbbət bəsləməyən, ona laqeyd olan heç bir məxluq tapılmaz.

Mən burada ev sahibi ilə olan saysız-hesabsız söhbətlərimin yalnız ən mühümlərini qeyd edirəm. Nəhayət, həmin cənabın marağı müəyyən dərəcədə təmin edilmiş oldu. Bir gün səhər o, məni yanına çağırıb, oturmağa yer göstərdi (mən heç bir zaman bu şərəfə nail olmamışdım) və mənə uzun bir nitq söylədi. O dedi ki, mənim öz barəmdə və vətənim haqqında bütün söylədiklərimi çox götür-qoy etdikdən sonra, pis bir nəticəyə gəlmişdir.

"Siz azacıq şüur sahibi olan bir heyvan növüsünüz, – deyə ev sahibi davam etdi. – Ancaq siz bu şüurdan öz təbii nöqsanlarınızı artırmaq və yeni nöqsanlar qazanmaq üçün istifadə edirsiniz. Siz öz daxilinizdə təbiətin bəxş etdiyi qabiliyyətləri boğaraq, həyatınızın yeganə qayəsini ehtiyaclarınızı artırmaqda və onları təmin etmək üçün ən qəribə üsullar uydurmaqda görürsünüz. Lakin şəxsən sizə baxdıqda, bədən cəhətinizdən sizin xalqın bizim yexulardan çox-çox geridə qaldığı görünür. Siz dal ayaqlarınız üzərində çox möhkəm durmusunuz. Sizin

dırnaqlarınız tamamilə faydasız olub nə müdafiə, nə də hücum etməyə yaramaz. Siz sürətlə qaça bilmir və qardaşlarınız olan (o, yexuları həmişə belə adlandırırdı) buradakı yexular kimi ağaca dırmaşa bilmirsiniz.

Sizin hökumət və qanunlarınızın olması şüurunuzun və nəticə etibarilə xeyirxahlığınızın mükəmməl olmadığını sübut edir. Doğrudan da, qanacaqlı olanları idarə etmək üçün yalnız şüur kifayətdir. Bir də ki, aranızda olan bütün işlər aydın göstərir ki, siz özünüz şüura heç də malik olmaq iddiasında deyilsiniz".

Ev sahibi sözlərinə davam edib dedi: "Bu nəticələri yoxlamaq üçün mən sizin həyat tərzinizi, adət və ənənənizi bizim yexuların həyat tərzilə müqayisə etdim. Bu məni qəti surətdə inandırdı ki, sizin xalq ilə yexular arasında ağıl cəhətindən də heyrətli bir bənzəyiş vardır.

Yexular başqa heyvanlara nisbətən bir-birinə daha çox nifrət edirlər. Adətən bunun səbəbini onların kifirliyində görürlər; hər bir yexu digər bir yexunun kifirliyini görür, öz kifirliyini isə hiss etmir. Ancaq indi mənə elə gəlir ki, bu cür izah yanlışdır. Bu heyvanların arasındakı nifaqın səbəbləri sizin qəbilə arasındakı nifaqın səbəblərinin eynidir. Doğrudan da, siz beş yexuya əlli nəfərlik yemək vermiş olsanız, onlar bunu rahatca yemək əvəzinə, vuruşmağa başlayacaqlar. Onların hər biri bunun hamısını özü mənimsəməyə çalışacaq. Buna görə çöldə yexulara yemək verərkən, adətən onların yanına bir xidmətçi qoyurlar. Tövlədə isə, onları bir-birindən xeyli aralı – bağlı saxlayırlar. Bəzən biz çöllərdə bir inək leşini öz yexularımız üçün gətirməyə vaxt tapmırıq. O zaman ətrafda olan vəhşi yexular sürü-sürü axışıb gəlir və bu leşin üstünə tökülüşürlər. Burada onların arasında sizin təsvir etdiyiniz döyüşlərə bənzəyən böyük vuruşmalar başlayır. Onlar dırnaqları ilə bir-birinə dəhşətli yaralar vururlar. Ancaq ölüm hadisəsi az-az baş verir. Axı onların, sizin ixtira etdiyiniz kimi, ölümsaçan silahları yoxdur. Bu vəhşi heyvanlar arasında bu cür vuruşmalar bəzən heç bir zahiri səbəb olmadan baş verir. Bir meşədə və ya cəngəllikdə yaşayan yexular öz qonşularının üstünə hücum edib, nə qədər mümkünsə qəfildən onların başlarının üstünü almağa çalışırlar. Buna müvəffəq olmadıqda, evlərinə qayıdır və acıqlarını tökmək üçün bir-birilə vuruşmağa başlayırlar ki, siz bunu daxili müharibə adlandırırsınız.

Bizim ölkəmizdə, bəzən orada-burada parıldayan rəngbərəng daşlara rast gəlmək olur. Yexular bu daşları çox sevirlər. Daş yerə dərin

batmışsa, bu daşı qazıb çıxartmaq üçün bütün günü işləməyə hazırdırlar. Onlar tapdıqları bu daşı öz yuvalarına aparıb, torpağa basdırırlar. Bu zaman onlar böyük bir ehtiyat göstərir, daim ətraflarına şübhə ilə göz gəzdirir və gizlənirlər. Sözün qısası, onların öz xəzinələri gizlətdikləri yeri qonşuların görməsindən çox qorxurlar.

Ev sahibi əlavə etdi: "Mən bu parıldayan daşlara olan ehtirasın səbəbini əsla başa düşə bilmirdim. Ancaq indi belə güman edirəm ki, bunun səbəbi sizin insan nəslinə isnad etdiyiniz o sonsuz acgözlükdən irəli gəlir.

Bir dəfə mən təcrübə üçün bir yexunun qazıb basdırdığı daşlardan bir yığınını gizlincə çıxarıb apardım. Acgöz heyvan öz xəzinəsinin yox olduğunu görcək, elə bir fəryad qopardı ki, bütün bir sürü yexu onun başına yığışdı. Xəzinəsi oğurlanmış yexu, qəzəblə, öz yoldaşlarının üstünə düşüb onları dişləməyə və cırmaqlamağa başladı. Əhvalatdan bir neçə gün keçdi, ancaq o, öz itkisini yaddan çıxarmayıb, nə yemək, nə yatmaq, nə də işləmək istəmirdi. Nəhayət, xidmətçimə əmr etdim ki, daşları gizlincə aparıb əvvəlki yerinə qoysun. Yexu öz xəzinəsini tapdıqdan sonra yenə də canlanıb şənləndi. O, həmin daşları qayğı ilə yeni və daha da möhkəm bir yerdə basdırdı və o vaxtdan bəri itaətkar və işlək bir heyvan oldu".

Ev sahibi söyləyirdi ki, yexular arasında ən qızğın vuruşmalar bu parlaq daşların olduğu çöllərdə baş verir. Mən özüm də bunu müşahidə etmişdim.

Ev sahibi sözlərinə davam edib dedi: "İki yexu çöldə belə bir daş tapıb onun üstündə vuruşmağa başlayanda, çox zaman həmin daş üçüncü bir yexuya qismət olur. Həmin yexu onların başlarının vuruşmaya qarışdığını görərək, daşı götürüb qaçır".

Ev sahibi bu vəziyyətin bir dərəcəyə qədər bizim çəkişmələrə bənzədiyini söylədi. Mən onu bu fikrindən daşındırmaq istəmədim. Bu bizim yaxşı adımızı batırardı. Axı belə olsaydı, mən gərək etiraf edəydim ki, mübahisənin dava-dalaşla həll edilməsi bizim bir çox məhkəmə qərarlarından daha ədalətlidir. Doğrudan da, burada çəkişən tərəflər, onların vuruşmasına səbəb olan daşdan başqa bir şey itirmirlər. Halbuki bizim məhkəmələrdə hər iki çəkişən tərəf müflis olmayınca, məhkəmədə iş qurtarmır.

Sonra ev sahibi qeyd etdi ki, yexularda onların qarınqululuqlarından daha iyrənc bir şey yoxdur. Onlar gözlərinə görünən hər bir

şeyin üstünə böyük bir acgözlüklə düşüb, yaxşı-yamanına baxmadan, ot, kök, meyvə, iylənmiş ət, nə rast gəlsə yeyirlər. Onlar oğurladıqları və ya qarət etdikləri yeməyi evdə hazırlanmış ən yaxşı yeməkdən üstün tuturlar.

Burada, doğrudur, az-az olsa da, şirəli bir kökə rast gəlmək olur. Yexular bu kökü böyük bir cidd-cəhdlə axtarıb tapır və böyük ləzzətlə sormağa başlayırlar. Bu şirə onlara şərabın bizə təsir etdiyi kimi, təsir edir. Bunun təsiri altında onlar gah öpüşür, gah vuruşur, ağız-burunlarını əyib nə isə mırıldanır, büdrəyir, palçığın içinə yıxılıb yatırlar.

Elm, idarə üsulu, incəsənət və sənayeyə gəldikdə, ev sahibi etiraf etdi ki, bu cəhətdən bizimlə onların ölkəsində olan yexular arasında heç bir bənzəyiş görmür. Doğrudur, o, hər şeylə maraqlanan bəzi quiqnqnmlardan eşitmişdir ki, yexu sürülərinin çoxunda bir növ başçı olur və bu başçı sürüdə olan yexulardan ən kifiri və ən qəddarıdır. Hər bir başçının adətən bir nədimi olur. Bu nədim həmişə öz ağasına çox bənzəyir. Onun vəzifəsi öz ağasının ayaqlarını yalamaqdan və onun rahatlığı üçün can yandırmaqdan ibarətdir. Bunun əvəzində mükafat olaraq, ona arabir bir parça eşşək əti verirlər. Bütün sürünün bu nədimi görməyə gözü yoxdur. Buna görə də o, özünü qorumaq üçün həmişə öz ağasının yanında gəzir. Adətən, ağası onu daha pis olan bir başqasını tapıncaya qədər saxlayır. Həmin yexu vəzifəsindən kənar edilən kimi, bütün ətrafda olan cavan və qoca yexular, başda yeni nədim olmaqla, onun üstünə tökülüşür, yaxşıca əzişdirirlər. Bütün bunları bizim saraylar, nədimlər və nazirlərlə nə qədər müqayisə edilə biləcəyini ev sahibi mənim öz öhdəmə buraxdı.

Ev sahibi mənə söylədi ki, daha bir çox başqa xüsusiyyətləri var ki, bunları mən, insan qəbiləsi haqqında danışarkən ya heç söyləməmişəm, ya da bunların üstündən ötəri keçmişəm. Hər şeydən əvvəl, yexuların çirkinlik və natəmizliyə olan düşkünlükləri gözə çarpır. Halbuki bütün başqa heyvanlar öz təbiətlərinə görə təmizkardır.

Əgər quiqnqnmlar ölkəsində donuz olsaydı, yalnız mənim həmqəbilələrimin natəmiz olmaqları haqqındakı ittihamı rədd etmək mənim üçün çətin olmazdı. Ancaq mənim bədbəxtliyimdən bu ölkədə donuz yox idi. Hər nə qədər bu dördayaqlı heyvanlar yexulara nisbətən gözəl idilərsə də, lakin təmizkarlıqları ilə çox da öyünə bilməzdilər. Əgər

ev sahibi donuzların necə iyrənc bir surətdə yemək yediklərini və palçığın içində eşələnib yatmağı nə qədər sevdiklərini görmüş olsaydı, yəqin ki, mənim fikrimlə razılaşardı.

Ev sahibinin xidmətçilərinin bəzi yexularda gördükləri başqa bir xüsusiyyəti izah etmək daha çətindir. Bəzən bir yexunun başına belə bir fikir, – bir bucağa yerə uzanmaq, zarımağa və ufuldamağa başlayaraq, bütün yanına gələnləri qovlamaq fikri gəlir. Adətən cavan, sağlam və bədənləri möhkəm olan heyvanlar belə edirlər. Onlar yemək-içmək istəmir və deyəsən, heç bir ağrı da hiss etmirlər. Onların başına nə gəldiyini anlamaq mümkün deyildir. Bu xəstəliyin yeganə dərmanı ağır işlərdə işləməkdən ibarətdir ki, bu, həmin xəstəliyə tutulmuş yexunu yenə də adi vəziyyətinə gətirir.

Mən ev sahibinə bu mülahizələrin cavabında bir şey söyləmədim. Öz həmvətənlərimə hörmət bəslədiyimdən ev sahibini başa salmaq istəmədim ki, yexuların bir xəstəliyi bizim ölkəmizdə varlı və işi-gücü olmayan adamların arasında tez-tez təsadüf edilən qəmginlik və darıxma hallarına çox bənzəyir. Ancaq bu xəstəliyin müalicə üsulları barədə mən ev sahibinin fikrinə tamamilə şərik idim.

SƏKKİZİNCİ FƏSİL

Yexuların bəzi xüsusiyyətlərini müəllifin təsvir etməsi. Quiqnqnmların böyük xeyirxahlıqları. Yeni nəslin tərbiyəsi. Quiqnqnmların baş şurası.

Mən, əlbəttə, insan təbiətini ev sahibindən daha yaxşı bilirdim. Buna görə də onun, yexuların xasiyyətləri haqqında dediklərini özümə və öz həmvətənlərimə tətbiq etmək mənim üçün çətin deyildir. Ancaq inanırdım ki, öz müşahidələrim məni daha müstəqil və maraqlı nəticələrə gətirib çıxara bilər. Buna görə, cənab ev sahibindən xahiş etdim ki, gedib qonşuluqda olan yexu sürülərinə tamaşa etməyə mənə icazə versin. O, mehribanlıqla razılıq verdi; çünki bu heyvanlara qarşı olan hədsiz nifrətimin məni onların pis təsirindən qoruyacağına arxayın idi. O cənab öz xidmətçisi güclü və çox mehriban olan səmənd yabıya

əmr etdi ki, mənimlə bərabər getsin. Onun köməyi olmadan, mən belə bir səyahətə çıxmağa cürət edə bilməzdim. Bu ölkəyə gəldiyim zaman, bu murdar heyvanların məni necə pis qarşıladıqlarını oxucu-lara artıq nəql etmişəm. Hələ sonralar da bir neçə dəfə az qalmışdı ki, onların pəncələrinə keçəm.

Mən heç təxmin edə bilmirdim ki, bu heyvanlar məni özlərinə bənzər bir heyvan güman edirdilər. Onlar tez-tez mənə mümkün qədər yaxın gəlməyə çalışıb, hərəkətlərimi meymun kimi təqlid edirdilər. Ancaq həmişə mənə çox şiddətli nifrət edirdilər. Əldə böyümüş, başına kiçik papaq qoyularaq, ayaqlarına xırdaca corablar geyindirilmiş bir dolaşa da, təsadüfən vəhşi dolaşalara rast gəldikdə, onunla belə rəftar edirlər.

Yexular uşaqdan heyrətli dərəcədə çevik olurlar, ancaq bununla belə bir dəfə üçyaşar bir erkək yexu tuta bilmişdim. Onu tumarlaya-tumarlaya sakit etməyə çalışdımsa da, ancaq şeytan balası elə bərkdən çığırıb, məni cırmaqladı və dişlədi ki, buraxmağa məcbur oldum. Həm də yaxşı ki, belə etdim; çünki onun səsinə bütün sürü qaçıb gəlmişdi. Onlar hamısı yaman qəzəblənmişdi. Ancaq uşağın sağ-salamat və səmənd atın yanında durduğunu görüb mənə yaxınlaşmağa cürət etmədilər.

Müşahidə etdiyimə görə, yexular təlim və tərbiyəni bütün başqa heyvanlardan daha çətin qəbul edirlər. Onların öyrənə bildikləri yeganə şey ağır yükləri daşımaqdan ibarətdir. Fikrimcə, bunun başlıca səbəbi bu heyvanların tərsliyi və şübhəli olmalarıdır; çünki onların anlaqlı və hiyləgər olduqlarını danmaq olmaz. Ancaq kinli, xain və intiqam alandırlar. Güclü və cürətlidirlər. Ancaq bununla bərabər qorxaqdırlar. Bu isə onları daha həyasız, alçaq və amansız edir.

Quiqnqnmlar yexuları öz evlərindən azacıq aralı olan tövlələrdə saxlayıb, ev işlərində işlədirlər. Qalan yexuları isə çölə qovurlar ki, orada bunlar kökləri qazıyıb çıxarır, müxtəlif otlar yeyir, heyvan leşləri axtarıb tapır, bəzən isə porsuq və çöl siçovulları tuturlar. Hər yexu bir təpənin döşündə özü üçün dərin yuva qazıb orada tək yaşayır. Dişilərin yuvası bir az böyük olur. Çünki orada heyvanın özündən başqa iki-üç balası da yaşayır.

Yexular çox yaxşı üzgüçüdürlər. Uzun müddət suyun altında qala bilirlər. Balıq tutmağı çox xoşlayırlar. Bu balıqları dişilər öz balaları üçün aparırlar.

Mən bu ölkədə tam üç il yaşadığımdan yəqin oxucu gözləyir ki, mən də başqa səyyahlar kimi yerlilərin əxlaq və adətlərini ətraflı surətdə təsvir edəcəyəm.

Nəcib quiqnqnmlar təbiətlərinə görə bütün xeyir işlərə meyil edib, şərin nə olduğunu əsla bilmirdilər. Onlar üçün həyatın əsas qanunu öz rəftarını şüurun rəhbərliyinə tam mənası ilə tabe etməkdən ibarətdir. Onlar öz ağılları və hissləri ilə nəyin ağlabatan olub-olmadığını heyrətli bir surətdə bilməklə fərqlənirlər. Bunu bildikdən sonra isə, onlar əsla tərəddüd etmədən ağlauyğun olan şeyi qəbul, ağlauyğun olmayanı rədd edirlər. Buna görə də quiqnqnmlar uzun mübahisələr, amansız çəkişmələr, yalan və ya şübhəli fikirləri inadla müdafiə etmək kimi nöqsanların nə olduğunu bilmirlər.

Dostluqda sədaqət və xeyirxahlıq quiqnqnmların iki başlıca yaxşı cəhətləridir. Onlar yalnız öz əqrəba və tanışlarına deyil, ümumiyyətlə, öz qəbilələrindən olanların hamısına belə duyğu bəsləyirlər. Uzaq yerlərdən gəlmiş qərib bir quiqnqnm burada ən yaxşı qonşu kimi xoş sifətlə qəbul olunur. Hara getmiş olsa, özünü öz evindəki kimi hiss edir. Quiqnqnmlar ədəb və nəzakətə çox ciddiyyətlə əməl edirlərsə də, bizim ədəb-ərkan dediyimiz şeyin nə olduğunu əsla bilmirlər. Onlar öz dayçalarını ərköyün öyrətmirlər, ancaq onların qayğısına qalır və şüurlu tərbiyə nöqteyi-nəzərindən lazım gələn hər bir şeylə onları təmin edirlər. Mən gördüm ki, bizim ev sahibi qonşuların balaları ilə də öz balaları kimi mehriban rəftar edir. Quiqnqnmlar elə hesab edirlər ki, ağıl və təbiət bütün özlərinə bənzəyənləri eyni dərəcədə sevməyi onlara öyrədir.

Onların gəncləri tərbiyə etmək sistemi, doğrudan da, heyrətedicidir və tamamilə təqlid olunmağa layiqdir. On səkkiz yaşına çatmamış cavan quiqnqnmlara yalnız az miqdarda çovdar verilir, ancaq bunu da hər gün vermirlər. Onlara yalnız tək-tək hallarda süd içməyə icazə verilir. Yay zamanı onlar öz ata-anaları kimi iki saat səhər, iki saat da axşam otlayırlar. Xidmətçilərə bir saat otlamağa icazə verilir. Onların yemi evə gətirilir və yeməklərini işdən azad olduqları zaman yeyirlər.

Hər iki cinsdən olan cavan heyvanlar üçün mülayimlik, zəhmətə qatlaşmaq, bədən tərbiyəsi və təmizkarlıq məcburidir. Quiqnqnmlar cavanlarda qüvvət, sürətlə qaçmaq və şücaət tərbiyə edirlər. Dayçaları uzun müddət dik, təpələrə dırmaşmağa və daşlı çöllərdə

qaçmağa, onlar yorulub qan-tərə batdıqda isə gölə və ya çaya baş vurmağa məcbur edirlər. İldə dörd dəfə hər mahalda cavanların cıdırı olur. Cavanlar qaçmaqda, hoppanmaqda, qüvvət və zirəklik tələb edən başqa yarışlarda öz məharətlərini göstərirlər. Qalib gələn cavan at üçün mükafat olaraq onun şərəfinə təntənəli nəğmə oxunur. Belə bayram günlərində xidmətçilər bir sürü yexunu qova-qova meydana gətirirlər. Yexular quiqnqnmların qonaqlığı üçün öz dallarında quru ot, çovdar və süd daşıyırlar. Ancaq bundan sonra öz görkəmlərilə meydana yığışanları iyrəndirməmək üçün bu heyvanları qovub uzaqlaşdırırlar.

Hər dörd ildə bir dəfə, yaz girəndə burada millətin nümayəndələrinin şurası çağırılır. Yığıncaq mənim ev sahibimin evindən iyirmi mil məsafədə yerləşən bir düzənlikdə olur. Şura beş-altı gün davam edir. Bu şurada müxtəlif mahalların vəziyyəti – bu yerlərdə quru ot, çovdar, inək və yexuların kifayət qədər olub-olmadığı müzakirə olunur. Bir mahalda bir şey çatışmırsa, şura başqa mahallardan ora lazım olan şey verir. Bu barədə olan qərarlar həmişə bir səslə qəbul olunur.

DOQQUZUNCU FƏSİL

Quiqnqnmlar şurasında böyük mübahisələr. Quiqnqnmların məşğələsi, onların tikintiləri, dəfn mərasimi, onların dillərinin nöqsanları.

Bu böyük şuralardan biri mənim həmin ölkəni tərk etdiyimdən üç ay əvvəl toplanmışdı. Olduğum evin sahibi bu şurada bizim mahalın nümayəndəsi kimi iştirak edirdi. Bu şurada çox mühüm bir məsələ müzakirə olunurdu. Bu məsələ ümumi iclaslarda bir neçə dəfə müzakirə olunmuşdu və quiqnqnmlar arasında mübahisələrə səbəb olan yeganə məsələ idi. Olduğum evin sahibi evə qayıtdıqda, orada baş verən hadisələri mənə ətraflı danışdı. Məsələ yexuları tamamilə yer üzündən yox edib-etməməkdən ibarət idi.

İclasda iştirak edənlərdən biri yexuların yox edilməsini zəruri bilib, öz fikrini müdafiə üçün bir çox əsaslı dəlillər gətirmişdi. O iddia edirmiş ki, yexular yer üzündə ən murdar, ən çirkin və ən kifir heyvanlar

olmaqla bərabər, eyni zamanda son dərəcə tərs, sözə baxmayan, kinli və intiqam alandırlar. Hamı bilir ki, yexuları möhkəm nəzarət altında saxlamaq lazımdır. Belə olmasa, onlar quiqnqnmların inəklərini əmər, pişiklərini tutub yeyər, çovdarlarını və otlarını tapdalayar, minlərlə başqa rəzalətlər törədərlər.

O, yexuların mənşəyi barədə qədim bir rəvayəti iclasdakıların yadına salmışdı. Bu rəvayətə görə, qədim zamanlarda bu ölkədə yexular əsla yoxmuş. Ancaq bir çox illər bundan əvvəl bu heyvanlardan bir cütü bir dağın başında görünmüşdür.

Onların haradan gəldiyini heç kəs bilmir. Günəş şüalarının təsirilə çürüyən mamırla palçıqdanmı əmələ gəlmişdilər, yoxsa gil ilə dəniz köpüyünün qarışmasındanmı törəmişdilər, *bu vaxta qədər bu məlum deyildir**. Bu bir cüt heyvan artmağa başlamış və onların nəsli tezliklə o qədər çoxalmışdır ki, bütün ölkəni basıb murdarlamışdır. Bu fəlakətdən qurtarmaq üçün quiqnqnmlar böyük bir cəhdlə onları araya alıb tutmaq istəmişlər. Onlar buna nail olmuşlar. Quiqnqnmlar bu heyvanların böyüklərini tələf edib, balalarından hərəsi ikisini götürərək, öz tövlələrində saxlamış, ağır yüklər daşımağı öyrətmişlər.

Görünür, bu rəvayətdə xeyli həqiqət vardır.

Yalnız quiqnqnmların deyil, ümumiyyətlə, bütün başqa heyvanların da yexulara qarşı nifrətləri o qədər böyükdür ki, onların *ilnqiamşi* (bu ölkənin yerliləri) olduğunu güman etmək çətindir. Əlbəttə, yexular bu nifrətə tamamilə layiqdirlər. Lakin onlar həmişə burada yaşamış olsaydılar, onlara qarşı olan düşmənçilik heç bir zaman bu dərəcədə şiddətli olmazdı. Yoxsa onları çoxdan tələf edib qurtarardılar.

Həmin natiq axırda söyləmişdi ki, quiqnqnmlar yexuları ələ öyrədib eşşəkləri gözdən salmaqla, son dərəcə böyük bir səhv etmişlər; gözəl və daha az tələbkar olan eşşəklər daha itaətli və yexulara nisbətən daha xoşrəftar heyvanlardır. Doğrudur, yexular eşşəklərdən zirəkdir, ancaq, hər halda, eşşəklər yük daşımaq üçün kifayət qədər qüvvətli və dözümlüdürlər. Onların səsi xoş deyilsə də, yexuların dəhşətli ulamasından xeyli yaxşıdır.

Mənim ev sahibim bu natiqdən sonra çıxış edərək, onun verdiyi məlumatı tamamlamağı lazım bilmişdi. O, burada çıxış edən hörmətli şura üzvünün söylədiyi rəvayətin doğru olduğuna şübhə etməmişsə də, ancaq iddia etmişdi ki, ilk dəfə onların ölkəsində zahir olan iki yexu bura dənizin o tayından gəlibmiş.

Yəqin ki, onları bura yoldaşları atıbmış və onlar sahilə çıxıb, dağlarda gizlənmişlər. Onların nəsilləri get-gedə əsillərini itirib vəhşiləşmişlər.

Nəhayət, onlar tamamilə vəhşiləşib, öz ulu babalarına və onların gəldikləri ölkədə yaşayan bütün başqa bu növ heyvanlara məxsus olan azacıq şüur əlamətlərini də itirmişlər. Ev sahibi öz fikrini sübut etmək üçün xeyli müddətdən bəri onun evində yaşayan qəribə bir yexunu misal gətirmişdir (o, məni nəzərdə tuturmuş). İclasdakıların çoxu, yəqin ki, o yexu barədə eşidib, bir çoxları isə hətta görüblər. Bunları söyləyərkən, ev sahibi məni necə tapdığını danışmışdır. Demişdir ki, mənim bütün bədənim başqa heyvanların dəri və yunundan ibarət süni bir qabıq ilə örtülüdür. Mən danışmaq qabiliyyətinə malikəm və quiqnqnmların dilini mükəmməl surətdə öyrənmişəm. Mənim buraya gəlib çıxmağıma səbəb olan bütün hadisələri ona danışmışam, o, məni çılpaq halda görüb və bu fikrə gəlib ki, mən eynən yexuyam. Yalnız mənim dərim daha ağ, tüküm az, dırnaqlarım isə qısadır.

Sonra o, iclasdakılara deyib ki, mən onu öz vətənimdə və bütün başqa ölkələrdə yexuların hakim, şüurlu heyvanlar olub quiqnqnmları qul halında saxladıqlarına inandırmağa çalışmışam. O, məndə yexuların bütün sifətlərinin olduğunu müşahidə etmişsə də, lakin, şübhəsiz ki, mən malik olduğum cüzi şüur sayəsində onlardan xeyli üstünəm.

Bununla bərabər, bu cəhətdən mən yerli yexulardan nə qədər üstünəmsə də, quiqnqnmlardan bir o qədər geridəyəm.

Ev sahibimin Böyük şurada baş verən mübahisələr barədə mənə danışmağa münasib bildiyi bütün şeylər bundan ibarətdir. O, şəxsən mənə aid olan bəzi təfsilatı gizlin saxlamağı lazım bilmişdi. Yəqin ki, o məni kədərləndirmək istəməmişdi. Hər halda, oxucu tezliklə başa düşəcəkdir ki, mən bu günü nədən ötrü həyatımın bütün gələcək fəlakətləri üçün bir başlanğıc günü hesab edirəm.

Quiqnqnmların yazısı yoxdur. Buna görə də onların bütün bilikləri ağızdan-ağıza keçmək yolu ilə mühafizə olunur. Ancaq təbiətlərinə görə dinc, xeyirxah, yalnız şüura tabe olan və bütün başqa xalqlarla heç bir əlaqəsi olmayan bu xalqın həyatında böyük hadisələr o qədər az baş verir ki, onun tarixi asanlıqla yadda qala bilər.

Mən artıq söyləmişdim ki, quiqnqnmlar əsla xəstələnmirlər, buna görə də, həkimlərə ehtiyacları yoxdur. Ancaq onların otlardan düzəldilmiş çox gözəl dərmanları var ki, bununla onlar təsadüfən əmələ gələn zədə və yaraları müalicə edirlər.

Onlar illəri, ayları Günəş və Ayın dövr etməsinə görə hesablayırlar. Bu iki planetin hərəkətini çox yaxşı bilir, günün və Ayın tutulmalarının səbəblərini anlayırlar. Bu, onların astronomiya elmində əldə etdikləri ən yüksək nailiyyətdir.

Ancaq etiraf etmək lazımdır ki, şeirdə onlar bütün başqa heyvanlardan üstündürlər. Heç kəs onlar kimi sərrast müqayisə, onlar kimi müfəssəl və dürüst təsvir etmək qabiliyyətinə malik deyildir. Onların şeirlərinin mövzusu adətən dostluğun təsvirindən, cıdır və ya yarışlarda qalib gələnlərin tərifindən ibarətdir.

Onların binaları qaba və sadə olsa da, rahatdır və onları həm istidən, həm də soyuqdan qorumaq üçün çox əlverişlidir. Orada elə bir ağac bitir ki, bu ağac qırx yaşa çatdıqdan sonra, kökündən çürüyür, ilk bərk tufan qopduqda yıxılır. Quiqnqnmlar bu ağacın dümdüz olan gövdəsini iti daşlarla yonub (dəmirin işlənilməsindən onlar bixəbərdirlər), bu ağacları bir-birindən on düym aralı yerə sancır və aralarını çovdar küləşi və ya xırda budaqlarla hörürlər. Evin damını küləşlə örtürlər.

Quiqnqnmlar qabaq ayaqlarının dırnaqları ilə oynaqları arasında olan çuxurdan, biz əlimizdən istifadə etdiyimiz kimi, istifadə edirlər. Bu zaman onlar elə bir məharət göstərirlər ki, əvvəlcə mən buna əsla inana bilmirdim. Mən bizim evdən olan ağ madyanın iynə sapladığını görmüşdüm (bu təcrübəni etmək üçün iynəni özüm ona vermişdim). Onlar inək sağır, çovdar biçir və bizim əl ilə gördüyümüz bütün işləri görürlər. Onlar möhkəm çaxmaqdaşı vasitəsilə başqa daşları yonur, paz, balta və çəkic düzəldirlər. Bu çaxmaqdaşından hazırlanan alətlərlə onlar ot və çovdar biçirlər. Bu bitki burada ot kimi çöllərdə bitir. Quiqnqnmlar dərzləri arabalarda çöllərdən daşıyıb gətirir, xidmətçilər isə çovdarı, xüsusi örtülü binalarda ayaqları ilə döyürlər. Hasil olan dəni anbarda saxlayırlar. Onlar kobud saxsı qablar düzəldərək, bunları gündə bişirib bərkidirlər.

Quiqnqnmlar adətən yetmiş-yetmiş beş yaşına qədər yaşayırlar. Ölümlərindən bir neçə həftə əvvəl onlar qüvvətlərinin tədricən azaldığını hiss edir, lakin heç bir əziyyət çəkmirlər. Bu zaman dostları onların yanlarına tez-tez gəlir; çünki onlar özləri evdən çıxmağa çətinlik çəkirlər. Ancaq ölümlərinə on gün qalmış bu müddəti təyin

etməkdə onlar ancaq tək-tək hallarda yanılırlar – quiqnqnmlar vidalaşmaq üçün görüşə gedirlər. Bu məqsəd üçün onlara yexu qoşulmuş rahat kirşə verilir.

Quiqnqnmlar bu surətdə dostları ilə vidalaşıb, evə qayıdır və ölüncəyə qədər evdən çıxmırlar. Quiqnqnmları ən uzaq və əl-ayaqdan kənar yerlərdə dəfn edirlər. Ölənin dostları ilə qohumları bu zaman nə padşahlıq edir, nə də yas tuturlar. Ölən özü də bu dünyadan gedərkən heç təəssüf etmir. Elə bil ki, qonaqlıqdan evə qayıdır. Yadıma gəlir ki, bir dəfə olduğum evin sahibi bir dostunu ailəsi ilə birlikdə mühüm bir iş üçün öz evinə çağırmışdı. Təyin edilən gün axşam vaxtı dostunun yalnız arvadı ilə iki uşağı gəldi. Arvad hər şeydən əvvəl ərinin əvəzinə üzr istədi. Onun sözlərinə görə əri bu gün səhər "*sxnuvnx*". Bu söz onların dilində çox mənalıdır və çətinliklə tərcümə oluna bilər. Bunun hərfi mənası: "*öz ulu nənəsinin yanına qayıtmaq*" deməkdir. Sonra o, öz əvəzindən də üzr istəyib söylədi ki, əri bu gün səhər ölmüşdür və onun cəsədini hara qoymaq barədə xidmətçilərlə xeyli məsləhətləşməli olmuşdur. Mən həmin madyanın, başqaları kimi, şən olduğunu gördüm. Üç aydan sonra o da öldü, sanki ömürlərinin qalan hissəsini keçirmək üçün uzaq bir ölkəyə getdilər.

Bilmirəm, quiqnqnmların dilində yexuların nöqsan və kifirliklərini göstərən sözlərdən başqa, çirkin və pis şeyləri ifadə edən sözlərin olmadığını qeyd etməyə dəyərmi? Buna görə də onlar danışıq zamanı xoşagəlməz bir şey ifadə etmək istədikdə, "yexu" sözünü başqa sözlərə bitişdirib işlədirlər. Məsələn, onlar xidmətçilərin huşsuzluğunu və ya tənbəlliyini, bir uşağın pis iş tutduğunu, ayağı yaralayan bir daşı, pis havanı və sair bu kimi şeyləri ifadə etmək istədikdə, həmin bu sözlərin yanına "yexu" sözünü sifət kimi əlavə edirlər. Məsələn, "*qxnm yexu*", "*qvnaqolm yexu*", "*inlxmndvixlma yexu*", pis tikilmiş evə isə onlar "*inqolmqnmroqliv yexu*" deyirlər.

Mən bu gözəl xalqın əxlaq və xeyirxah işlərini böyük bir məmnuniyyətlə ətraflı surətdə təsvir edərdim. Ancaq yaxın bir zamanda, məhz bu məsələyə aid ayrı bir kitab çap etmək niyyətindəyəm və xahiş edirəm ki, oxucu həmin kitaba müraciət etsin.

İndi isə başıma gələn qəmli bir fəlakətin təsvirinə keçirəm.

ONUNCU FƏSİL

Müəllifin ev təsərrüfatı və onun quiqnqnmların arasında xoşbəxt yaşaması. Xeyirxahlıqda təkamül etməsi. Ev sahibinin müəllifə ölkəni tərk etməli olması barədə məlumat verməsi. Bu xəbərdən müəllifin məyus olması. Xidmətçinin köməyilə müəllifin özünə qayıq düzəltməsi. Onun bəxtəbəxt dənizə çıxması.

Mən öz kiçik təsərrüfatımı zövqümə görə qurmuşdum. Ev sahibi oradakı kimi mənim üçün öz evimdən altı yard aralı bir bina qurmağı əmr etmişdi. Mən otağımın divarlarını və döşəməsini malalayıb, yerə qamışdan hördüyüm həsir döşəmişdim. Çöldə yabanı bitən kənafdan toplayıb, tellərindən qumaşa oxşar bir şey toxumuşdum. Bu qumaşdan özümə birtəhər döşək üzü tikmişdim. Döşəkçənin içini yexuların tüklərindən düzəltdiyim cələ ilə tutduğum quşların tüklərilə doldurmuşdum. Quşların ətlərindən isə özüm üçün yaxşıca qızartma bişirirdim. Səmənd yabının köməyilə özümə iki stul düzəltdim. Yabı ən ağır işləri görürdü. Paltarım köhnəldikdən sonra özümə dovşan və təxminən o boyda olub, *nnuxnox* adlanan kiçik və gözəl heyvanların dərisindən təzə paltar tikdim. Həmin bu cür dərilərdən özümə yararlı corablar da düzəltdim. Ayaqqabılarımın altına taxtadan alt vurmuşdum. Onların üzü cırıldıqdan sonra isə yenisini tikdim.

Çox zaman ağacların kötüklərindəki oyuqlardan bal tapırdım və bu balı suda əridib, çovdar çörəyi ilə yeyirdim. Aşağıdakı iki hikmətli sözün mənasını heç bir kəs mənim qədər yaxşı və düzgün bilməz: "təbiət aza qane olur" və "ehtiyac insana hər şeyi öyrədir".

Mən bədənimin sağlamlığından və tam mənəvi rahatlıqdan zövq alırdım. Dostumun xəyanət edəcəyindən və ya dönük çıxacağından, aşkar və ya gizli bir düşmənin mənə zərər verəcəyindən heç qorxum yox idi. Dünyadakı böyük adamların və onların nədimlərinin mərhəmətini qazanmaq üçün mən satılmaq, yaltaqlanmaq kimi şeylərdən uzaq idim. Özümü yalan və zorakılıqdan qorumağa ehtiyacım yox idi. Burada həkimlər yox idi ki, bədənimə zərər yetirəydilər, vəkillər yox idi ki, məni müflis edəydilər, çuğulçular yox idi ki, pul alıb məni yalandan təqsirləndirəydilər. Burada diş qıcıyanlar, böhtançılar, cibgirlər, ev yaranlar, məhkəmə məmurları, naqqallar, mübahisəçilər,

qatillər və fırıldaqçılar yox idi. Nə siyasi partiyalar, nə də onların başçıları və üzvləri, nə dərnəklər, nə həbsxanalar, nə baltalar, nə dar ağacları, nə ilməklər, nə də rüsvaylıq dirəkləri yox idi. Nə adam aldadan tacirlər, nə də fırıldaqçı peşəkarlar yox idi. Nə lovğalıq, nə də şöhrətpərəstlik yox idi. Nə özlərinə bəzək-düzək verənlər, nə azğınlar, nə əyyaşlar, nə də adamın zəhləsini tökən, yekə-yekə danışan, hay-küy qoparan, içləri boş olan dostlar yox idi. Burada nə öz fırıldaqları sayəsində çirkabın içindən çıxıb yüksələn yaramazlar, nə də öz xeyir işləri sayəsində çirkaba atılmış nəcib insanlar yox idi. Burada nə əyanlar, nə məhkəmə hakimləri, nə skripka çalanlar, nə də rəqs müəllimləri yox idi.

Mən quiqnqnmların arasında yaşamaq şərəfinə nail olmuşdum. Mənim ev sahibimin yanına qonaqlar gələndə, o cənab onların oturduğu otağa gəlib, söhbətlərinə qulaq asmağıma böyük mehribanlıqla icazə verirdi. Həm o, həm də qonaqları mənə çox vaxt suallar verir və cavablarımı mehribanlıqla dinləyirdilər. Ev sahibi qonaq getdikdə, çox vaxt məni özü ilə aparırdı. Mən heç bir zaman onların söhbətlərinə qarışmazdım. Yalnız məndən sorulan suallara cavab verməklə kifayətlənərdim. Lakin onların söhbətlərini sakitcə dinləmək mənə hədsiz ləzzət verərdi. Onların söhbətləri yalnız iş barədə olar, fikirlərini qısa və aydın sözlərlə ifadə edərdilər. Buradakı həmsöhbətlər bir-birinin sözünü kəsməzdilər, bir-birini darıxdırmazdılar, qızışmazdılar, qızğın mübahisələrə girişməzdilər. Quiqnqnmlar bu fikirdə idilər ki, məclisdə söhbətə qısa fasilələrlə ara vermək lazımdır. Məncə, onlar tamamilə haqlıdırlar; çünki bu sükut dəqiqələrində onların başlarında yeni fikirlər doğur və bu, söhbəti xeyli canlandırır. Onların söhbətlərinin əsas mövzusu dostluq, xeyirxahlıq, intizam və abadlıq barədə olardı. Bəzən təbiətin qəribə hadisələrindən və ya qədim rəvayətlərdən də danışırdılar. Onlar çox tez-tez xeyirxahlığın mahiyyətindən və ağılın qanunlarından söz açır və ya yaxın gələcəkdə, böyük məclisdə qəbul ediləcək qərarları müzakirə edirdilər. Çox zaman onlar şeir barədə danışardılar.

Mənim orada olmağım da onların söhbətlərinə xeyli mövzular artırırdı. Ev sahibim öz dostlarına mənim həyatımdan danışar və vətənimi təsvir edirdi. Onlar ev sahibinin sözlərini dinləyib insan təbiəti haqqında çox da xoşa gəlməyən mülahizələr söyləyirdilər. Buna görə də mən burada həmin mülahizələrdən misal gətirmirəm, yalnız bunu qeyd etməyi lazım bilirəm ki, mənim ev sahibim olan cənabın bütün

ölkələrdə yaşayan yexuların təbiətini məndən də yaxşı başa düşməsi məni heyrətə salırdı. O, bizim bütün kəsirlərimizi və şüursuzluqlarımızı sayıb elə nöqsanlar göstərirdi ki, mən bunlar barədə heç bir zaman ona danışmamışdım. Yerli yexular azacıq şüura sahib olsaydılar, onların nə işlər görə biləcəklərini düşünüb, bu nəticələri o, özü çıxartmışdı. Ancaq o, heç də əsassız olmayaraq, elə güman edirdi ki, bu cür heyvanlar həqir və miskin olmalıdırlar. Əsla mübaliğə etmədən deyə bilərəm ki, doğrudan da, bildiyim bütün faydalı şeylərin ev sahibinin və onun dostlarının ağıllı söhbətlərindən öyrənmişəm. Əgər mən iki işdən birini seçməli olsaydım, Avropanın ən böyük və ən ağıllı parlamentlərində mötəbər bir natiq olmaqdansa, həmişə bu ağıllı heyvanların söhbətlərinin təvazökar bir dinləyicisi kimi qalmağı üstün tutardım.

Mən bu ölkənin sakinlərindəki qüvvətə, gözəlliyə və sürətə heyran olmuşdum. Bu nəcib məxluqlarda gördüyüm cürbəcür yaxşılıqların heyrətverici ahəngdarlığı qəlbimi dərin bir hörmətlə doldurmuşdu. Doğrudur, əvvəllərdə mən buradakı yexu və bütün başqa heyvanlar kimi onlara qarşı qorxulu bir hörmət hissi duymurdum, amma tədricən bu hiss mənim də qəlbimə hakim oldu.

Mən daim quiqnqnmların arasında olub, onlara pərəstiş etdiyimdən, onların yerişlərini və bədən hərəkətlərini təqlid etməyə başlamışdım. Tədricən bu hal məndə vərdişə çevrildi. Hələ indi də dostlarım nəzakətsiz bir surətdə mənə söyləyirlər ki, *mən at kimi qaçıram.* Bu sözləri özüm üçün ən xoş bir tərif kimi qəbul edirəm. Bunu inkar etmirəm ki, mən danışdıqda quiqnqnmların ahəng və ədalarını hələ də təqlid edirəm və dostlarımın bu barədəki istehzalarını əsla incimədən qəbul edirəm.

Beləliklə, mənim həyatım çox xoşbəxt və sakit keçirdi. Bircə arzum var idi, o da ömrümün sonuna qədər bu gözəl ölkədə qalmaqdan ibarət idi. Bir gün səhər ev sahibi məni həmişəkindən bir az tez öz yanına çağırdı. Onun üzündən mən həmin saat duydum ki, bir qədər tutulmuşdur və söhbəti nədən başlamağı fikirləşir, bir qədər sükutdan sonra, nəhayət, qərara gəlib mənə söylədi ki, axırıncı şurada yexular məsələsi müzakirə olunanda şura üzvləri onun öz evində bir yexu saxlamasını və onunla bir quiqnqnm kimi rəftar etməsini öz cinsləri üçün həqarət sayırlar. Onlara məlumdur ki, o, tez-tez mənimlə söhbət edir və görünür ki, mənimlə bir yerdə olmaqdan zövq alır. Belə bir rəftar ağıla və təbiətə tamamilə ziddir.

Buna görə də yığıncaq onu xəbərdar edir ki, ya mənimlə adi bir yexu kimi rəftar etsin, ya da mənə əmr etsin ki, gəldiyim yerə qayıdım. Ancaq quiqnqnmlardan məni görüb mənimlə danışanlar, birinci təklifi qəti surətdə rədd etmişlər, onlar qorxmuşlar ki, mən bir dərəcəyə qədər şüura və heyvanlara xas olan fitri ziyanəvərliklərə malik olduğumdan yerli yexuları başıma yığıb ölkənin meşəlik və dağlıq hissəsinə çəkilərəm və gecələr onlar ilə birlikdə quiqnqnmların ev heyvanlarına hücum edərəm.

Ev sahibim əlavə etdi ki, ətrafda yaşayan quiqnqnmlar hər gün ona təkid edirlər ki, yığıncağın xəbərdarlığını yerinə yetirsin və o, bu işi daha ləngidə bilməz. Ancaq mənim üzə-üzə başqa bir ölkəyə gedib çıxmağa gücüm çatmayacağını bildiyindən arzu edir ki, özümə vaxtilə ona təsvir etdiyim kimi dənizdə üzmək üçün bir minik düzəldəm. Bu işdə həm onun öz xidmətçiləri, həm də qonşularının xidmətçiləri mənə kömək edərlər. Axırda ev sahibi söylədi ki, bütün ömrüm boyu məni öz yanında bir xidmətçi kimi saxlamağa hazırdır; çünki onun fikrincə, mən quiqnqnmları təqlid edə-edə bütün yexulara xas olan bir çox pis vərdiş və meyillərdən müalicə olunmuşam.

Bu cənabın nitqi məni tamamilə məyus etdi. Bu təsir o qədər şiddətli idi ki, mən huşumu itirib, ev sahibinin ayağı altına yıxıldım. Quiqnqnmlarda bu zəiflik olmadığından, ev sahibi elə güman etmişdi ki, mən ölmüşəm. Bunu mənə özümə gəldikdən sonra söylədi. Mən güclə eşidiləcək bir səslə ona söylədim ki, ölümü özüm üçün bir xoşbəxtlik bilərdim. Əlbəttə, mən yığıncağı bu xəbərdarlıq üçün əsla təqsirləndirmirəm. Ancaq, hər halda, mənə elə gəlir ki, bu qərar bir dərəcəyə qədər yumşaq da ola bilərdi. Ən yaxında olan qitə, ya ada, yəqin ki, buradan ən azı yüz liq uzaqdadır. Minib gedə biləcəyim kiçik bir gəmi düzəltmək üçün lazım gələn bir çox materiallar bu ölkədə əsla yoxdur. Buna görə də mən bu işi tamamilə ümidsiz hesab edirəm və özümü ölümə məhkum edilmiş bir insan sayıram. Ölüm mənim üçün ən yaxşı çıxış yoludur. Doğrudan da, tutaq ki, birtəhər öz həyatımı xilas etmiş də olsam, ömrümü yexular arasında keçirmək və yenidən öz köhnə nöqsan və eyiblərimin təsirinə düşmək fikrini necə qəbul edə bilərəm. Bununla bərabər, mən yığıncağın qərarına tabe oluram; çünki belə bir qərar çıxarmaq üçün onların tutarlı və ciddi əsasları olduğuna inanıram. Sonra qayıq düzəltmək işində mənə kömək vəd etdiyinə görə, ev sahibinə təşəkkür edib söylədim ki, əgər

İngiltərəyə qayıda bilsəm, ümid edirəm ki, möhtərəm quiqnqnmları tərif etmək və onların xeyirxahlıqlarını insan nəslinin təqlid etməsinə layiq bir nümunə kimi nümayiş etdirməklə, öz həmvətənlərimə böyük bir fayda verə bilərəm.

Cənab ev sahibi mənə çox mehribanlıqla cavab verib, qayıq düzəltmək üçün iki ay möhlət verdi. O, səmənd yabıya əmr etdi ki, mənə kömək etsin və bütün tapşırıqlarımı yerinə yetirsin. Mən bilirdim ki, səmənd at çox gözəl bir işçidir və mənimlə rəftarı yaxşıdır.

Mən, hər şeydən əvvəl, onunla birlikdə vaxtilə dənizçilərin məni çıxartdıqları sahilə getdim. Orada bir təpəyə çıxıb dənizi gözdən keçirməyə başladım. Mənə elə gəldi ki, şimal-şərq tərəfdə kiçik bir ada görünür. Müşahidə borusunu çıxarıb baxdım və adanı aydınca gördüm. Mənim fikrimcə, həmin ada beş liq qədər bir məsafədə idi. Ancaq səmənd at üçün bu ada göyümtül buluddan başqa bir şey deyildir. Onun başqa ölkələrin olması barədə heç bir təsəvvürü yox idi və dənizdə olan uzaq şeyləri, dənizə çoxdan öyrəşmiş olan biz insanlar kimi məharətlə seçə bilməzdi.

Mən adanı kəşf etdikdən sonra, bununla tamamilə kifayətlənib oranı öz yolumda birinci düşərgə seçməyi qərara aldım. Bundan sonra isə bütün ümidimi taleyin iradəsinə bağladım.

Evə qayıdıb səmənd yabı ilə məsləhətləşdikdən sonra onunla birlikdə yaxın olan meşəyə getdim. Orada mən bıçaqla, yabı isə çox məharətlə taxta bir dəstəyə bənd olmuş iti çaxmaqdaşı ilə adi əl ağacı qalınlığında bir çox palıd budağı və bir neçə iri ağac kəsdik. Gördüyüm işləri ətraflı surətdə təsvir etməklə oxucunu yormayacağam. Yalnız bunu söyləmək kifayət edər ki, altı həftə içində ən ağır işləri görən səmənd yabının köməyi ilə mən özüm üçün hindlilərin içi ovulmuş qayıqlarına bənzər, lakin xeyli böyük bir qayıq düzəltdim. Onun üzərinə dəri çəkdim və bunları özüm hazırladığım kəndirlərlə bir-birinə möhkəm tikdim. Həmin bu materiallardan yelkən də hazırladım. Ancaq yelkən üçün ən cavan heyvanların dərilərini seçdim; çünki qoca yexuların dəriləri çox qaba və qalın idi. Mən dörd kürək də düzəltdim, özüm üçün bişmiş dovşan və ev quşlarının ətindən xeyli tədarük görüb biri süd, digəri isə içməli su ilə dolu iki küp də götürdüm.

Mən öz qayığımı ev sahibinin mənzilinin yaxınlığında olan böyük bir göldə sınaqdan keçirdim və gözəçarpan bütün dəlik-deşiyi yağ

ilə tutdum. Sonra qayığımı bir arabaya yükləyib səmənd yabının və başqa bir xidmətçinin nəzarəti altında yexular onu böyük bir ehtiyatla dəniz sahilinə çəkib apardılar.

Hər şey hazır olub, yola düşmək günü yetişdikdə, ev sahibi ilə, onun arvadı və bütün ailəsilə vidalaşdım. Gözlərim yaşla dolmuş və dərddən ürəyim sızıldayırdı. Ancaq möhtərəm ev sahibi qismən maraqdan və bəlkə də, mənim halıma yandığından (bilmirəm; bunu söyləməyə haqqım varmı), qayıqda necə üzəcəyimi görməyi arzu edib, qonşulardan da bir neçəsinə təklif etdi ki, onunla bərabər gəlsinlər. Təxminən bir saat dənizin qabarmasını gözləməli oldum. Bir azdan sonra yumşaq səmt küləyi əsməyə başladı. Bunu görüb həmin saat yola düşməyi qərara aldım və ev sahibi ilə ikinci dəfə tələsik vidalaşdım. Mən diz çöküb onun dırnağını öpmək istəyirdim. Ancaq o, lütf edib, öz dırnağını ehtiyatla qaldıraraq dodaqlarıma yaxınlaşdırdı. Sonralar bu təfsilat üçün mənə edilən hücumları xatırlayıram. Mənə iftira edənlər bu fikirdədirlər ki, belə məşhur bir zatın mənim kimi miskin bir məxluqa belə lütf göstərməsi inanılmaz şeydir (bəzi səyyahların özlərinə göstərilən hədsiz hörmətlə lovğalanmaları da yadımdadır). Lakin əgər bu tənqidçilər quiqnqnmların nəcabət və hörmətkarlıqları ilə yaxından tanış olsaydılar, öz fikirlərini dəyişərdilər.

Məni yola salmağa gələn başqa quiqnqnmlara da öz hörmətimi izhar edib, qayığa oturdum və sahildən ayrıldım.

ON BİRİNCİ FƏSİL

Təhlükəli səyahət. Müəllifin Yeni Hollandiyaya gəlib orada yaşamaq fikrinə düşməsi. Yerlilərdən birinin onu oxla yaralaması. Onun tutulub zorla Portuqal gəmisinə aparılması. Kapitanın onunla mehriban rəftarı. Müəllifin İngiltərəyə qayıtması.

Mən bu qorxulu səyahətə 1714-cü il fevralın 15-də səhər saat 9-da başladım. Səmt küləyi əsirdi. Bununla bərabər qayığı avarla sürürdüm. Ancaq avar çəkməyin məni tezliklə yoracağını və küləyin dəyişə biləcəyini nəzərə alıb, kiçik yelkəni qaldırmağa cürət etdim.

Beləliklə, dənizin çəkilməsinin təsirilə mən öz təxminimə görə saatda bir yarım liq sürətlə gedirdim. Tamamilə gözdən itincəyə qədər ev sahibi ilə onun dostları sahildə durmuşdular. Səmənd yabının səsini tez-tez eşidirdim (o, həmişə məni sevərdi). O belə deyirdi: "*qnuy illanixameycax yexu*" (özünü yaxşı qoru, ey əziz yexu).

Mən hələ sahildən müşahidə borusu ilə gördüyüm adaya sarı gedirdim. Ümid edirdim ki, orada öz zəhmətimlə yaşamaq üçün vəsait tapa bilərəm. Yexular arasına qayıdıb onların hakimiyyəti altında yaşamağı düşündükdə, dəhşətə gəlirdim; çünki arzu etdiyim kimi tək qala bilsəydim, heç olmazsa, misilsiz quiqnqnmların xeyirxahlıqlarını düşünər və yenidən öz qəbiləmin nöqsanları ilə ləkələnmək təhlükəsindən qurtarmış olardım.

Oxucular, yəqin ki, dənizçilərin mənə qarşı hazırladıqları suiqəsd və məni kapitan kayutunda həbs etdikləri barədə söylədiklərimi xatırlayırlar. Mənim bu dustaqlığım, əvvəlcə söylədiyim kimi, bir neçə həftə davam etmişdi və gəminin hansı istiqamətdə getdiyini bilmirdim.

Məni sahilə çıxarmış olan dənizçilər səmimi və ya saxtakarlıqla and içib söyləmişdilər ki, onlar özləri də dünyanın hansı hissəsində olduğumu bilmirlər. Ancaq elə güman edirdim ki, biz Ümid burnundan 10° cənubda və ya 45° cənub en dairəsi yaxınlığındayıq. Ona görə bu nəticəyə gəlmişdim ki, dənizçilərin öz kapitanlarının Madaqaskara getmək istədiyi barədə və bizim həmin adadan cənub-qərb tərəfdə olduğumuz barədə danışıqlarını eşitmişdim. Hərçənd bütün bunlar təxmini idi, ancaq mən Yeni Hollandiyanın[1] cənub-qərb sahillərinə çatmaq ümidi ilə şərqə doğru getməyi qərara aldım. Ümid edirdim ki, bu sahillərin yaxınlığında özüm üçün əlverişli bir ada tapacağam.

Külək həmişə qərbdən əsirdi və axşam saat altıda öz hesabıma görə, şərqə doğru ən azı on səkkiz liq getdikdən sonra, yarım mil məsafədə kiçik bir ada gördüm.

Bu, çılpaq bir qaya idi: dəniz suları qayanı yuyub kiçik bir körfəz əmələ gətirmişdi. Qayığı həmin bu körfəzə çəkib, qayanın üstünə çıxdım və şərq tərəfdə cənubdan şimala doğru uzanan torpağı aydınca gördüm. Gecəni qayığın içində keçirdim, səhər tezdən isə yenə yola düşüb, saat yeddidə Yeni Hollandiyanın cənub-şərq sahilinə çatdım.

[1] *Yeni Hollandiya* – Avstraliya deməkdir.

Mənim çıxdığım sahil tamamilə boş və insan yaşamayan bir yer idi. Ancaq yanımda silah olmadığından, bu qitənin içərilərinə doğru getməyə cəsarət etmədim. Sahildə bir neçə ilbiz tapıb, onları çiy-çiy yedim. Yerlilərin diqqətini cəlb etməkdən qorxaraq, od qalamadım. Üç gün ilbiz və sair balıqqulağılar yeməklə dolandım ki, az olan azuqəmi bir qədər qoruyum. Xoşbəxtlikdən içməli suyu olan bulağa rast gəlib, doyunca içdim ki, bu məni xeyli möhkəmləndirdi.

Dördüncü gün qitənin içərisinə doğru bir qədər uzaqlara getməyə cürət etdim. Birdən-birə özümdən beş yüz yard uzaqda, kiçik bir təpənin üstündə, bir dəstə yerli adam gördüm. Onlar hamısı – kişilər, arvadlar və uşaqlar – tamamilə çılpaq idi, bir tonqalın dövrəsində oturmuşdular. Onlardan biri məni görüb o birilərinə də göstərdi. Beş kişi yerlərindən qalxıb, arvadları və uşaqları tonqalın yanında qoyaraq, mənə sarı gəldi. Mən var gücümlə sahilə doğru qaçıb, özümü qayığa atdım və sahildən ayrıldım. Vəhşilər qaçdığımı görüb dalımca yüyürdülər və mən kifayət qədər uzaqlaşmağa macal tapmamış, ardımca ox atmağa başladılar. Oxlardan biri sol dizimə dəyib xeyli içəri batdı. Mən bu oxun zəhərli olmasından qorxdum. Onların ox mənzilindən uzaqlaşar-uzaqlaşmaz (o gün hava çox sakit idi), tələsik yaramı sordum, sonra isə birtəhər sarıdım.

Nə edəcəyimi əsla bilmirdim. Yan aldığım əvvəlki sahilə qayıtmağa qorxurdum. Buna görə də şimal istiqamətində hərəkət etməyə başladım. Özüm də qayığı avarla sürməyə məcbur oldum. Yan almağa əlverişli bir yer axtara-axtara, ətrafa göz gəzdirdikdə, şimal-şərq tərəfdə getdikcə yaxınlaşmaqda və daha aydın görünməkdə olan bir yelkən gördüm. Həmin gəmini gözləyib-gözləməməyi qərara ala bilmədən, bir müddət dayandım. Nəhayət, yexu nəslinə olan nifrətim bütün başqa təsəvvürlərə üstün gəldi. Mən qayığı döndərib cənuba qayıtdım və səhər çıxdığım həmin körfəzə gəldim. Avropa yexuları arasında yaşamaqdansa, vəhşilərin əlinə düşməyi münasib görürdüm. Qayığımı sahilə çəkdim, özüm isə bulağın yaxınlığında, bir daşın arxasında gizləndim.

Gəmi həmin bu körfəzə yaxınlaşıb, yarım liq məsafədə durdu və içində çəlləklər olan kiçik bir qayığı içməli su üçün sahilə göndərdi. Görünür, gəmidəkilər bu yerə yaxşı bələd idilər. Mən daşların arasında uzandığıma görə, qayığı yalnız sahilə tamamilə yaxınlaşdığı zaman görə bildim və buradan çıxıb, başqa yerdə gizlənməyə daha

macal qalmadı. Dənizçilər sahilə çıxan kimi, mənim qayığımı gördülər. Onlar qayığı diqqətlə nəzərdən keçirib həmin saat başa düşdülər ki, onun sahibi haradasa, bu yaxınlarda olmalıdır. Onlardan dörd nəfəri künc-bucağı və hər bir kolun dibini axtarıb, nəhayət, məni gizləndiyim daşın arxasından tapdılar. Onlar bir müddət dovşan dərisindən tikilmiş qəribə və qaba geyimimə – paltarıma, taxta başmaqlarıma və dəri corablarıma heyrətlə baxdılar. Lakin paltarımdan başa düşdülər ki, mən yerlilərdən deyiləm, çünki bütün yerlilər çılpaq gəzirdilər. Dənizçilərdən biri portuqal dilində mənə əmr etdi ki, ayağa qalxım və kim olduğumu söyləyim. Mən onun sözlərini çox yaxşı başa düşdüm (çünki bu dili bilirəm) və ayağa qalxıb dedim ki, mən quiqnqnmların ölkəsindən qovulmuş bədbəxt bir yexuyam və onlardan xahiş edirəm ki, mənə çıxıb getməyə icazə versinlər. Dənizçilər mənim portuqal dilində danışdığımı eşidib təəccüb etdilər. Üzümün dərisinin rəngindən mənim avropalı olduğumu bildilər, ancaq onlar "yexu" və "quiqnqnm" sözlərilə nə demək istədiyimi başa düşə bilmədilər. Eyni zamanda danışığımın at kişnəməsinə bənzəməsi onları güldürdü. Mən qorxudan və qəzəbdən əsə-əsə, yenidən xahiş etdim ki, çıxıb getməyimə icazə versinlər və yavaşca öz qayığıma sarı geri çəkilməyə başladım. Ancaq məni saxladılar, hansı ölkədən gəldiyimi, haralı olduğumu öyrənmək istədilər. Cavab verdim ki, əslim ingilisdir. İngiltərədən beş il bundan əvvəl çıxmışam, o zaman isə mənim ölkəmlə onların ölkəsi bir-birilə sülh halında idi. Ona görə də ümid edirəm ki, mənimlə düşmən kimi rəftar etməyəcəklər; çünki mən də onlara heç bir pislik etmək niyyətində deyiləm. Sadəcə, yazıq bir yexuyam və özüm üçün ömrümün qalan günlərini keçirməyə boş bir yer axtarıram.

Onlar danışmağa başlayanda, mənə elə gəldi ki, ömrümdə bu qədər qeyri-təbii bir şey nə görmüşəm, nə də eşitmişəm. Bu, mənim üçün o qədər qəribə bir şeydir ki, məsələn, İngiltərədə köpəklərin və ya inəklərin danışması və yaxud quiqnqnmların ölkəsində yexuların danışması belə qəribə görünə bilər. Hörmətli portuqallar mənim qəribə paltarımdan və qeyri-adi danışıq tərzimdən xeyli heyrətə düşmüşdülərsə də, ancaq söylədiyim sözləri çox gözəl anlayırdılar. Mənimlə çox mehriban rəftar edib söylədilər ki, onların kapitanı, yəqin, məni Lissabona aparmağa razı olar, oradan da öz vətənimə qayıda bilərəm.

Dənizçilərdən ikisi gəmiyə qayıdıb, gördükləri şeyi kapitana deməyi və ondan lazımi əmrlər almağı qət etdi. Mənə isə dedilər ki, əgər and

içib qaçmayacağıma söz verməsəm, məni zorla tutub saxlayacaqlar. Onların təklifinə razı olmağı daha uyğun gördüm. Onlar başıma gələn macəraları öyrənməyi çox arzu edirdilər. Ancaq mən özümü möhkəm saxlayıb, heç bir şey danışmırdım. Onda bu qərara gəldilər ki, başıma gələn fəlakətlər şüurumu pozmuşdur.

İçməli su ilə dolu çəlləkləri aparan qayıq iki saatdan sonra qayıdıb gəldi və kapitanın məni gəmiyə aparmaq barəsində əmrini gətirdi. Diz çöküb yalvarmağa başladım ki, məni azad buraxsınlar. Ancaq bundan heç bir şey çıxmadı. Dənizçilər mənim əl-qolumu sarıyıb qayığa atdılar, oradan gəmiyə çıxarıb, kapitanın otağına apardılar.

Kapitanın adı Pedro de Mendes idi. Bu, çox hörmətcil və nəcib bir adam idi. O xahiş etdi ki, ona öz barəmdə bir qədər məlumat verim və söz verdi ki, gəmidə mənimlə, onun özü ilə rəftar edən kimi rəftar edəcəklər. Mənə xeyli mehribanlıq etdi; yexular arasında belə bir xoş rəftar gördüyümə təəccüb etdim. Lakin mən qaradinməz və qaraqabaq bir halda durmuşdum, amma kapitandan və onun dənizçilərindən gələn pis qoxunun təsirilə az qalmışdı ki, özümdən gedim. Nəhayət, xahiş etdim ki, mənə öz qayığımda olan yemək ehtiyatımdan yeməli bir şey gətirsinlər. Ancaq kapitan əmr etdi ki, mənə qızarmış cücə və əla şərab versinlər, tapşırdı ki, mənə ən təmiz bir otaqda yataq hazırlasınlar. Mən soyunmaq istəməyib, əynimdəki paltarlarla yatağa uzandım. Yarım saatdan sonra, təxminimə görə, gəminin işçiləri yemək yedikləri zaman, mən gizlicə öz otağımdan çıxıb, gəminin kənarına yanaşdım və dənizə atılıb üzə-üzə buradan xilas olmaq istədim. Nə olursa olsun, təki yexuların arasında qalmayım. Ancaq dənizçilərdən biri mənə mane olub, fikrimi kapitana xəbər verdi, o isə əmr etdi ki, məni öz otağıma salıb, qapını üzümə bağlasınlar.

Yeməkdən sonra Pedro yanıma gəlib, məni belə məyus bir hərəkətə məcbur edən səbəblərin nə olduğunu bilmək istədi. O məni inandırdı ki, yeganə arzusu mənə əlindən gəldiyi qədər yaxşılıq etməkdən ibarətdir. O qədər təsirli və inandırıcı danışırdı ki, yavaş-yavaş mən onunla azacıq şüur sahibi olan bir heyvan kimi rəftar etməyə razılaşdım. Bir neçə sözlə ona səyahətimdən, gəmidəki əmələlərin üsyan qaldırmalarından, onların məni sahilinə çıxardıqları ölkədən və həmin ölkədə üç il qaldığımdan danışdım. Kapitan bu sözlərimi sayıqlama və ya seyrəkləmə kimi başa düşdü ki, bu da məni son dərəcə təhqir etdi. Mən bütün yexulara xas olan yalançılıqdan tamamilə əl

çəkmiş və onların bir-birinin sözlərinə inanmazlıq kimi həmişəki rəftarımı tamamilə yaddan çıxarmışdım.

Ondan soruşdum ki, məgər ölkəsində olmayan şeyi söyləmək adətdirmi? Onu inandırdım ki, mən yalan sözünün mənasını demək olar ki, tamamilə unutmuşam və quiqnqnmlar arasında min il də yaşamış olsaydım, orada ən axırıncı xidmətçidən də əsla yalan eşitməzdim. Həm də ki, onun sözlərimə inanıb-inanmamasının mənim üçün əsla fərqi yoxdur. Yalnız mənə etdiyi yaxşılığın əvəzində mən onun təbii nöqsanlarını əfv etməyə, onun verəcəyi sualları və edəcəyi etirazları qəbul etməyə hazıram.

Çox ağıllı bir adam olan kapitan, mənim danışıqlarımda bir-birinə zidd olan cəhətlər axtarmağa xeyli çalışdıqdan sonra sözlərimin doğru olduğu barədə yaxşı bir nəticəyə gəldi. Ancaq dedi ki, madam, mən həqiqətə bu qədər bağlıyam, onda gərək sədaqətlə söz verəm ki, səyahət zamanı bir də öz canıma qəsd etməyəcəyəm, yoxsa o, məni Lissabona qədər otağa salıb, qapını üzümə bağlamağa məcbur olacaq. Mən onun tələb etdiyi vədi verdim, lakin bildirdim ki, bir də yexular arasına düşməmək üçün ən ağır fəlakətlərə qatlaşmağa razıyam.

Bizim səyahətimiz zamanı qeyd olunmalı heç bir hadisə baş vermədi. Kapitana təşəkkür əlaməti olaraq, bəzi onun təkidli xahişlərinə güzəştə gedib, onunla bir yerdə oturmağa razılaşır və bu zaman, insanlara olan nifrətimi gizlətməyə çalışırdım. Ancaq bu nifrət tez-tez özünü büruzə verirdisə də, kapitan bunları görməməzliyə vururdu. Günümün çox hissəsini öz otağımda keçirirdim ki, dənizçilərdən birinə rast gəlməyim. Kapitan dəfələrlə məni dilə tutmuşdu ki, bu vəhşi paltarını əynimdən çıxarım. O, özünün ən yaxşı paltarını mənə təklif edirdi. Ancaq mən yexuların bədəninə toxunmuş bir şeyi əynimə geyməkdən qəti boyun qaçırırdım. Mən ondan yalnız iki təmiz alt köynəyi istədim. Bunlar çox təmiz yuyulmuşdu və mənim bədənimi çox murdarlaya bilməzdi. Mən bu köynəkləri hər gün dəyişib, özüm yuyurdum.

Biz 1715-ci il noyabrın 15-də Lissabona çatdıq. Sahilə çıxmazdan əvvəl, kapitan öz plaşını çiynimə saldı ki, küçədə camaat başımıza yığışmasın. O, məni öz evinə apardı və təkidli xahişimə görə mənə evin ən üst mərtəbəsində, pəncərələri həyətə açılan bir otaq verdi. Kapitan məni dilə tutdu ki, özümə yeni paltar tikdirim. Ancaq heç cür razı ola bilmirdim ki, dərzi gəlib ölçümü götürsün. Don Pedro mənimlə bir boyda olduğundan, onun əyninə tikilmiş paltarlar mənə çox yaxşı

gəlirdi. O mənə lazım olan başqa şeylər də verdi. Bütün bu şeylər tamamilə təzə idi, ancaq bununla bərabər mən bunları əynimə geyməzdən əvvəl bir sutka havaya verdim.

Kapitan evdə deyildi. Onun üç qulluqçusu var idi. O, qulluqçulara yemək zamanı süfrədə bizə xidmət etməyi qadağan etmişdi. Ümumiyyətlə, onun mənimlə rəftarı o qədər hörmətli idi və mənə o dərəcədə həqiqi insanlıq və qayğı göstərirdi ki, tədricən onunla bir yerdə olmağa razılaşdım. Nəhayət, məni dilə tutub evin arxa tərəfindəki küçəyə açılan pəncərədən baxmağa razı etdi. Sonra mən o biri otağa keçməyə başladım. Hər dəfə mən pəncərədən küçəyə baxdım, ancaq həmin saat qorxub geri çəkildim. Bir həftədən sonra kapitan məni aşağı düşüb, qapının ağzında oturmağa razı sala bildi. Mənim qorxum yavaş-yavaş azalırdısa da, ancaq insanlara olan kin və nifrətim, sanki, daha da artırdı. Nəhayət, mən cürətlənib kapitanla bərabər küçəyə çıxmağa razı oldum.

Don Pedroya mən öz ailəm və ev işlərim barədə bəzi şeylər danışmışdım. Bizim gəldiyimizdən on gün sonra kapitan dedi ki, vətənimə qayıtmaq, evdə öz arvadım və uşaqlarımla yaşamaq mənim borcumdur. O söylədi ki, limanda getməyə hazır olan bir ingilis gəmisi durmuşdur. O, mənə yolda lazım ola biləcək hər bir şeyi verməyə hazır olduğunu bildirdi. Onun dəlillərini və mənim etirazlarımı təkrar etmək darıxdırıcı olardı. O söyləyirdi ki, mənim arzuladığım kimi bomboş bir ada tapmaq əsla mümkün deyildir. Öz evimdə isə mən öz istədiyim kimi edib, dünyadan tamamilə əl çəkmiş bir halda yaşaya bilərəm.

Nəhayət, bundan daha yaxşı bir iş etmək mümkün olmadığını bilib, onun fikrilə razılaşdım. Noyabrın 24-də bir ingilis ticarət gəmisində Lissabondan çıxdım. Ancaq gəmi sahibinin kim olduğunu əsla soruşmadım. Don Pedro məni gəmiyə qədər ötürüb, mənə iyirmi funt borc verdi. Vidalaşarkən məni mehribanlıqla qucaqladı, bu isə mənim əsla xoşuma gəlmədi. Yolda mən nə kapitanla, nə də dənizçilərlə bircə kəlmə danışmadım. Özümü xəstəliyə vurub, otağımda oturdum. 1715-ci il dekabrın 5-də, səhər saat doqquz radələrində biz Daunsenə lövbər saldıq və gündüz saat üçdə mən sağsalamat Redrifdəki evimə çatdım.

Arvadım və uşaqlarım məni böyük bir heyrət və sevinclə qarşıladılar. Onlar məni çoxdan ölmüş bilirdilər. Ancaq açıqca etiraf etməliyəm ki, onları görərkən, yalnız nifrət, ikrah və həqarət hiss etdim.

Mən evə girən kimi, arvadım üstümə atılıb məni qucaqladı və öpdü. Onun bu hərəkətindən mən özümdən getdim və bir saatdan artıq bu vəziyyətdə qaldım. Mən bu sətirləri yazdığım zaman İngiltərəyə qayıtdığımdan beş il keçmişdi. Birinci ilin ərzində mən öz arvadımı və uşaqlarımı əsla görmək istəmirdim. Ancaq hələ bu vaxta qədər də onlar mənim çörəyimə əl vurmağa və ya mənim fincanımdan içməyə cürət edə bilməzlər. Hələ bu vaxta qədər mən onlara əlimdən tutmağa icazə verə bilmirəm.

Mən, ilk əlimə düşən artıq pulumu verib, iki dayça aldım və indi bunları çox gözəl bir tövlədə saxlayıram. Onlardan sonra mənim ən çox sevdiyim adam mehtərdir; çünki ondan tövlə qoxusu gəlir. Atlar mənim dilimi çox yaxşı anlayırlar. Mən onlarla hər gün, azı dörd saat söhbət edirəm. Onlar yüyən və ya yəhərin nə olduğunu əsla bilmir, mənimlə çox mehribandırlar və özləri də bir-birilə gözəl rəftar edirlər.

ON İKİNCİ FƏSİL

Müəllifin doğruçuluğu. Bu əsəri çap etdirməkdə məqsədi. Doğruçuluqdan kənara çıxan səyyahları pisləməsi. Müəllifin bu kitabı yaradarkən pis niyyəti olmadığını sübut etməsi. Bir etiraza cavab. Müstəmləkələr qurmaq üsulu. Vətənin tərifi. Müəllifin təsvir etdiyi ölkələr üzərində ingilis tacının şəksiz ixtiyara malik olması. Bu ölkələri işğal etməyin çətinliyi. Müəllifin oxucudan tamamilə ayrılması. Onun gələcəkdə öz yaşayış tərzi haqqındakı planlarının izahı. Xoş məsləhətləri və kitabı bitirməsi.

Bəli, möhtərəm oxucu, beləliklə, mən sənə on altı il yeddi aydan artıq davam edən səyahətlərimin doğru təsvirini verdim. Bu təsvirlərdə mən bəzək-düzəkdən artıq, doğruluğa fikir verirdim. Bəlkə, mən də başqa səyyahlar kimi qəribə, inanılmaz hekayələrlə səni heyrətə sala bilərdim. Ancaq mən ən sadə bir dildə, yalnız olan hadisələri ifadə etməyə çalışdım. Məqsədim heç də səni əyləndirmək deyil, sənə bir çox yeni məlumat verməkdir.

İngilislər və başqa avropalıların az getdikləri uzaq ölkələrə gedən biz səyyahlar üçün qəribə dəniz və quru heyvanları təsvir etmək əsla

çətin deyildir. Ancaq səyyahın başlıca məqsədi camaata məlumat vermək, onlarda xeyirxahlıq tərbiyə etmək, yad ölkələrin həyatından yaxşı və pis misallar gətirmək vasitəsilə onların ağıllarını təkmilləşdirməkdən ibarət olmalıdır.

Mən ürəkdən arzu edirəm ki, qanun üzrə hər bir səyyah öz səyahətnaməsini çap etdirməmişdən əvvəl, baş kansler lordun hüzurunda and içəydi ki, onun çap etdirmək istədiyi əsər tamamilə həqiqətə uyğundur. O zaman heç bir kəs, bəzi yazıçıların etdiyi kimi, sadədil camaatı aldatmağa cürət etməzdi. Onlar öz əsərlərini daha artıq əyləncəli etmək üçün oxuculara *ən qaba uydurmalar təqdim edirlər**.

Gəncliyimdə mən böyük bir ləzzətlə bir çox səyahətnamələr oxumuşdum. Ancaq o vaxtdan bəri mən, demək olar ki, bütün Yer kürəsini gəzib öz müşahidələrim əsasında inanmışam ki, bu kitablarda nə qədər boş və mənasız cəfəngiyat varmış. Buna görə də mən bu cür kitabları oxumaqdan son dərəcə nifrət edirəm.

Mən çox gözəl bilirəm ki, yaxşı bir hafizə və ya müntəzəm bir surətdə gündəlik yazmaqdan başqa, heç bir istedad, heç bir bilik və ümumiyyətlə, heç bir qabiliyyət tələb etməyən əsərlər müəllifin şöhrətini çox da artıra bilməz. Tamamilə mümkündür ki, bu kitabda təsvir etdiyim ölkələrə məndən sonra gedən səyyahlar mənim səhvlərimi meydana çıxarıb, bir çox yeni kəşflər etməklə, məni ikinci plana ataraq, özləri mənim yerimi tuta bilər. Belə ki, bütün dünya, bir zaman mənim kimi bir yazıçının olduğunu yaddan çıxara bilər. Əgər mən əsərlərimi şöhrət üçün yazmış olsaydım, bu, məni çox kədərləndirə bilərdi. Ancaq mənim yeganə məqsədim cəmiyyətə xeyir vermək olduğundan kədərlənməyimə heç bir səbəb yoxdur.

Etiraf edirəm, bəziləri mənə pıçıldaşmışlar ki, bir ingilis təbəəsi olduğumdan vəzifəm vətənə qayıdan kimi, kəşf etdiyim ölkələr barədə nazirlərdən birinə yazılı məlumat verməkdən ibarət idi; çünki hər bir ölkənin təbəəsinin kəşf etdiyi torpaqlar həmin ölkənin kralına tabe olmalıdır.

Ancaq mən bəhs etdiyim ölkələrin müdafiəsiz Amerikanın *Ferdinand Kortes** tərəfindən işğal edilməsi kimi, asanlıqla işğal edilə biləcəyinə şübhə edirəm. Mənim fikrimcə, *liliputlar* ölkəsi elə bir ölkədir ki, oranı işğal etmək üçün ordu və donanma hazırlamağa dəyməz. Eyni zamanda mən bu fikirdəyəm ki, brobdinqnlərin ölkəsinə hücum etmək, ağlauyğun və ya təhlükəsiz deyildir; yaxud *Uçan ada* ingilis ordusunun başının üstünü alanda, güman etmirəm ki, o, özünü çox

da yaxşı hiss etsin. Doğrudur, quiqnqnmlar, deyəsən, mühasirəyə çox da yaxşı hazırlanmış deyillər. Ancaq mən nazir olsaydım, heç bir zaman onların üzərinə hücum etməyi məsləhət görməzdim. Onların zəkası, həmrəyliyi, qorxmazlığa və vətənə olan məhəbbətləri onların müharibə fənnindəki çatışmazlıqlarını artıqlaması ilə əvəz edə bilər. Təsəvvür edin ki, iyirmi min quiqnqnm bir Avropa ordusunun içərisinə soxulub onların cərgələrini pozmuş, arabalarını yıxıb dağıtmış, dırnaqlarının dəhşətli zərbələri ilə əsgərlərin sir-sifətini tapdalayıb əzmişdir.

Çox yaxşı olar ki, biz bu nəcib xalqın üzərinə hücum etməkdənsə, onlardan xahiş edərdik, bizə öz vətəndaşlarından kifayət qədər göndərsinlər və onlar Avropanın mədəniyyətini yüksəldib, bizə namus, ədalət, həqiqət, mülayimlik, həmrəylik, mərdlik, dostluq, xeyirxahlıq və sədaqət qaydalarını öyrətsinlər. Bu xeyirli sifətlərin adları hələ ki, Avropa dillərinin bir çoxunda qalmışdır. Bu sözlərə həm müasir, həm də qədim yazıçıların əsərlərində rast gəlmək olar. Mən hər nə qədər peşəkar alim olmasam da, bunu təsdiq edə bilərəm.

Ancaq əlahəzrət kralın mənim kəşf etdiyim ölkələrə yiyələnməsinə mane olan başqa bir səbəb də vardır. Doğrusu, belə hallarda padşahların ədalətli hərəkət etdiklərinə mən bir qədər şübhə edirəm. Məsələn, fırtına bir dəstə dəniz quldurunun onlara məlum olmayan istiqamətdə çəkib aparır. Nəhayət, gənc dənizçi dorun başından torpağı görür. Dəniz quldurları qarət və soyğunçuluq üçün sahilə çıxırlar. Onlar özlərini xoşsifətlə qəbul edən mülayim bir əhaliyə rast gəlirlər. Həmin ölkəyə təzə bir ad qoyub, kralın adından oraya yiyələnirlər. Xatirə əlaməti olaraq, ora çürük bir taxt və ya bir daş basdırırlar. Yerlilərdən iki və ya üç düjününü öldürüb, bir qədərini girov sifəti ilə gəmiyə aparır və öz vətənlərinə qayıdıb əfv edilirlər. Beləliklə, *allahın mərhəməti ilə* yeni bir müstəmləkə əmələ gəlmiş olur. İlk fürsət düşən kimi, ora gəmilər göndərirlər. Yerli əhali yurdundan ya qovulur, ya da tələf edilir. Onların başçılarına öz qızıllarını verməyə məcbur etmək üçün işgəncə edirlər. Hamıya insanlıqdan uzaq hər cür hərəkət etməyə tamam sərbəstlik verilir. Torpaq öz övladlarının qanına bulanır və belə xeyirxah işlərlə məşğul olan bir dəstə qəssab *müasir müstəmləkə* yaradır ki, beləliklə, bütpərəst vəhşilər arasında mədəniyyət yayır və onları xristianlaşdırırlar.

Lakin aydındır ki, bu təsvirin Britaniya millətinə heç bir dəxli yoxdur. Bu millət öz ağlı, qayğısı və müstəmləkələr təşkilindəki ədaləti

ilə bütün dünya üçün nümunə ola bilər. Bu millət dinin və maarifin yayılmasına daim kömək edir. Xristianlığı yaymaq üçün ən qabiliyyətli ruhanilər seçilir. Bu millət çox ehtiyatlı olub, öz müstəmləkələrinə əsil vətəndəki əhalidən ləyaqətli və dili qısa adamlar köçürür. Bu millət ədalətə hörmət etməyin ən yaxşı nümunəsini göstərir. Bütün müstəmləkələrində inzibati vəzifələrə böyük istedada malik, hər cür nöqsandan və pula satılmaqdan uzaq olan məmurlar təyin edir və bütün bunlardan əlavə bu millət həmin yerlərə sayıq və xeyirxah valilər göndərir ki, onlar idarələri altına verilmiş əhalinin qayğısına qalıb, onların xeyrinə çalışır və öz padşahlarının şərəfini ciddiyyətlə ucaldırlar.

Ancaq mənim təsvir etdiyim ölkələrin əhalisi, görünür, qəsb olunmaq, qul halına düşmək, tələf olmaq və ya müstəmləkəçilər tərəfindən öz yurdlarından qovulmağı əsla arzu etmədikləri üçün və bu ölkələrdə nə qızıl, nə gümüş, nə şəkər, nə də tütün olmadığı bol üçün, mənim acizanə fikrimcə, onlara öz şücaət və cidd-cəhdimizi göstərməyə dəyməz. Ancaq bu məsələ ilə daha yaxından əlaqədar olanlar başqa fikirdədirlərsə, and içib onlara söz verə bilərəm ki, məndən əvvəl bu ölkələrə bircə dəfə də avropalı getməmişdir. Yalnız rəvayətə görə quiqnqnmlar ölkəsində, bir çox əsrlər bundan əvvəl bir dağın təpəsində görünmüş iki yexuya şübhə ola bilər ki, həmin rəvayətə görə bu murdar heyvanların bütün nəsli bunlardan əmələ gəlmişdir. Bu iki yexu, yəqin ki, ingilis imiş; çünki onların nəsli nə qədər kifirləşmiş olsa da, üzlərindəki cizgilərə görə mən bu nəticəyə gəldim. Ancaq bu hadisənin nə dərəcəyə qədər təsdiq edilə biləcəyini mən müstəmləkə qanunlarına bələd olan adamların öhdəsinə buraxıram.

Kəşf etdiyim ölkələrə öz padşahım adından rəsmi surətdə yiyələnmək məsələsinə gəlincə, bu fikir heç bir zaman mənim başıma gəlməmişdir. Ancaq mən bu barədə fikirləşmiş olsaydım da, o zamankı vəziyyətimi nəzərə aldıqda, bu rəsmiyyəti daha müvafiq bir zamana təxirə salmaqla, yəqin ki, ağıllı bir iş görmüşəm.

Beləliklə, bir səyyah kimi mənə ediləcək yeganə töhmətə cavab verməklə, möhtərəm oxucularla axırıncı dəfə vidalaşır, öz Redrifdəki bağıma çəkilirəm. Orada mən gözəl quiqnqnmlar ölkəsi barədə xatirələrimdən ləzzət alacaq və yexuları mümkün olduğu qədər maarifləndirməyə çalışacağam. Tez-tez güzgüdə öz əksimə baxacaq

və beləliklə, özümü, mümkün olarsa, tədricən insanların üzünə baxa bilməyə öyrəşdirəcəyəm, vətənimdəki quiqnqnmların vəhşi halda qalmalarının dərdini çəkib, mənim nəcib ev sahibim, onun ailəsi, dostları və bütün quiqnqnmlar nəslinə hörmət olaraq, onlara həmişə rəğbət bəsləyəcəyəm; çünki bizim atlar bədənlərinin quruluşuna görə onlara bənzəmək şərəfinə nail olmuş, ancaq, təəssüf ki, zehni qabiliyyətləri cəhətdən onlardan xeyli geridə qalmışlar. Keçən həftədən arvadıma mənimlə bir yerdə, uzun masanın o biri başında süfrəyə oturmağa icazə verməyə və mənim suallarıma (mümkün qədər qısa) cavab verməsinə razı olmağa başlamışam. Hərçənd yaşlı bir adama öz köhnə vərdişlərindən əl çəkmək çətindir, ancaq mən ümid edirəm ki, bir müddətdən sonra qonşularım olan yexularla bir yerdə olmağa razılaşacağam və onların dişlərindən və dırnaqlarından çəkinməyəcəyəm.

Əgər yexular təbiətin onlara verdikləri nöqsan və ağılsızlıqlarla kifayətlənmiş olsaydılar, mənim üçün bütün yexu cinsi ilə barışmaq xeyli asan olardı. Məhkəmə məmuru, cibgir, təlxək, əyan, qumarbaz, siyasətçi, aradüzəldən, həkim, yalançı şahid, aldadıcı, xain və sair buna bənzər adamları görmək məni əsla əsəbiləşdirmir; çünki bunların varlığı tamamilə təbii bir şeydir. Ancaq mən başdan-başa nöqsan və xəstəliklər içində olan bir heyvanın bütün bunlara bir də qürur və lovğalıq əlavə etdiyini gördükdə, daha səbrim tükənir. Mən belə bir heyvanın qürur və lovğalıq iddiasına necə düşdüyünü heç bir zaman anlaya bilməyəcəyəm. Şüurlu bir məxluqu zinətləndirə bilən, bütün xeyirxahlıqlara malik olan ağıllı və xeyirxah quiqnqnmların dilində hətta bu nöqsanları ifadə edən sözlər də yoxdur. Amma mən öz təcrübəmin çoxluğu sayəsində vəhşi yexuların arasında qürur və lovğalığın bəzi əlamətlərini seçə bilmişdim.

Lakin mən iki əlim olduğu ilə nə qədər öyünürəmsə, ağlın hakimiyyəti altında yaşayan quiqnqnmlar da öz yaxşı sifətləri ilə o qədər öyünürlər. Heç bir ağıllı adam heç bir zaman bununla lovğalanmaz, doğrudur, bunlardan biri olmasa, o, çox bədbəxt ola bilər. Mən bu məsələ üzərində ona görə çox durdum ki, gücüm çatdığı qədər ingilis yexuları cəmiyyətini özüm üçün dözümlü bir hala gətirmək istəyirəm. Buna görə də qürur və lovğalıq nöqsanları ilə azacıq da olsa ləkələnmiş şəxslərdən xahiş edirəm ki, gözümə görünməyə cürət etməsinlər.

İZAHLAR

BİRİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Səh. 26. *Vandimen Torpağı...* – Tasmaniya adasının keçmiş adıdır. Avstraliyanın cənub-şərqindədir.

İKİNCİ FƏSİL

Səh. 35. "*...hərəkətləri zərif, boy-buxunu əzəmətli idi*" – Müəllifin fikrincə, Liliputstanın kralı 1714-cü ildən 1727-ci ilədək hakimiyyət başında olmuş İngiltərə kralı I Georqu xatırlatmalı idi. Svift ehtiyat edərək, liliput kralını kifir və alçaq boylu Georqa zahirən bənzətməyə cürət etməmiş, lakin Georqun xasiyyətinin bəzi cəhətlərini liliput kralında canlandırmışdır. I Georq kimi, liliput kralı da çox xəsis göstərilir və dövlətin qeydinə qalmaqla əlaqədar olan bütün işləri əslində öz nazirlərinə etibar edərək, ölkənin idarə edilməsi işlərinə, demək olar ki, heç qarışmır.

Səh. 35. "*...iyirmi səkkiz yaş doqquz ay olmasına baxmayaraq...*" – Svift bununla xüsusi olaraq göstərmək istəyir ki, liliputların ömrü adi insanın ömründən daha qısadır.

Səh. 36. "*...qızıl və gümüşlə işlənmiş...*" – Burada, Svift dövründə olan modalara işarə edilir. XVIII əsrin əvvəllərində aristokrat qadınların paltarları həddən artıq bəzək-düzəkli olardı: bu paltara qızıl və gümüş gülabətinlərdən naxış vurulur və bahalı daşqaş düzülürdü. Çox zaman belə paltar böyük bir sərvətə başa gəlirdi.

Səh. 39. "*...ətraflı bir siyahı tutdular*" – Burada gizli komitənin fəaliyyətinə istehza edilir; bu komitə yakobinlərə qarşı, yəni I Georqun yıxılmasına və taxt-tac "iddiasında olan" adamın, yəni II Yakovun oğlu, 1688-ci il inqilabı zamanı İngiltərədən qovulmuş kral Stüartın taxta çıxarılmasına tərəfdar olanlara qarşı mübarizə etmək

üçün I Georqun baş naziri Robert Uolpol tərəfindən yaradılmışdı. Svift şübhəli və nadan məmurlar tərəfindən Qulliverin axtarılmasını böyük məharətlə təsvir edir; bu məmurlar hətta tapdıqları şeylərin nə üçün lazım olduğunu anlaya bilmədikləri halda da, onları öz protokollarında ətraflı təsvir edirdilər.

ÜÇÜNCÜ FƏSİL

Səh. 44. "*...Flimnap yaxşı tullanmaqda xüsusi şöhrət qazanmışdı*". – Svift nifrət etdiyi baş nazir Robert Uolpolu Filimnap adı altında qələmə almışdır: Robert Uolpol 1721-ci ildən etibarən viqlər nazirliyinə başçılıq etmişdir (torilər və viqlər haqqında son sözdə izahat vardır). Svift Uolpolun siyasi fəaliyyətini kəndirbazın çevik və cəld tullanma hərəkətlərinə bənzədir.

Səh. 45. "*Qırmızı sap çeviklikdə ikinci yeri, yaşıl sap isə üçüncü yeri qazananlara verilir*". – Göy, qırmızı və yaşıl saplar ingilislərin Sarğı, Günbəz və müqəddəs Andrey ordenlərinin rəngləridir.

Səh. 47. "*...Koloss Rodoss vəziyyətində durub, ayaqlarımı mümkün qədər gen ayırım*". – Koloss Rodoss – Rodoss şəhərinin limanına girən yerdə qoyulmuş, 72 metr hündürlüyündə olan mis heykəldir. Rəvayətə görə, gəmilər bu heykəlin gen aralanmış qılçalarının arasından keçirdi.

Səh. 48. "*...bizə hücum etməyə hazırlaşan...*" – Liliputstanla Blefusku arasındakı münasibət İspaniya irsi üstündə gedən müharibə dövründə (1702-1713) İngiltərə ilə Fransa arasında olmuş münasibətə çox bənzəyir. Svift bu eyhamın o qədər də aydın dərk edilməməsi üçün Liliputstanı qitədə, Blefuskunu isə adada göstərir.

DÖRDÜNCÜ FƏSİL

Səh. 52. "*Birincilər hündürdaban, ikincilər isə alçaqdaban tərəfdarıdırlar*". – Svift Tremeksenlər partiyası və Slemeksenlər partiyası deyərkən, bir-birilə düşmən olan torilər və viqlər partiyalarını nəzərdə tutur. Müəllif bu partiyalar arasında gedən mübarizə-

nin mahiyyətcə hündür və ya alçaqdabanlar uğrunda gedən mübarizədən ibarət olduğunu qeyd etməklə, göstərir ki, bu partiyalar arasındakı münaqişələr və fikir ayrılığı o qədər də əhəmiyyətli olmayıb, dövlət həyatının əsas məsələlərinə aid deyildir. Liliputlar imperatorunun alçaqdabanlardan xoşu gəlməsi, I Georqun taxta çıxdıqdan sonra bütün toriləri hökumət idarələrindən qovmuş olan viqlər partiyasına mənsub olmasına işarədir.

Səh. 52. "*Buna görə də o, bir az axsayır*". – Burada Uels şahzadəsinə işarə edilir; sonralar kral II Georq (1727-1760) adı ilə məşhur olmuş bu adam hansı partiyanı üstün tutmağı uzun müddət qət edə bilməmiş və öz sarayına gah viqləri, gah da toriləri dəvət etmişdir.

Səh. 53. "*...yumurtanı iti ucundan sındırmağı əmr edibmiş*". – Yumurtanın küt ucu tərəfdarları və iti ucu tərəfdarları partiyaları xristian dininin katolik və protestant məzhəblərinə ayırmış olan dini təfriqənin satirik təsviridir. XVI əsrdə protestant və ya reformasiya hərəkatı birinci dəfə meydana gələn zaman din məsələləri ətrafında protestantlarla katoliklər arasındakı mübarizə, həqiqətən dövlət və təsərrüfat həyatının bütün sahələrinə Roma papasının və katolik kilsəsinin qarışmaq cəhdlərinə qarşı yönəldilən bir mübarizə idi. Sonralar protestantların fitvası ilə meydana gəlmiş olan dini müharibələr qurtardıqda və demək olar ki, bütün ölkələrdə iqtisadi və ictimai islahatlar yaradıldıqda, katoliklərlə protestantlar arasındakı mübahisələr dar çərçivəli dini münaqişələrə çevrildi; Sviftin fikrincə, bu mübahisələr dar çərçivəli dini münaqişələrə çevrildi; Sviftə görə, bu mübahisələr də yumurtanın küt ucu tərəfdarları və iti ucu tərəfdarları arasındakı fikir ayrılığı qədər əhəmiyyətsiz idi (Svift dini məsələyə öz münasibətini "Çəllək nağılı" adlı kitabda daha müfəssəl ifadə edir).

Səh. 53. "*...üsyan iştirakçılarını öz ölkələrində gizlətmişlər*". – Həyatdan məhrum olan monarx deyərkən, kral I Karl nəzərdə tutulur; o, vətənə xəyanət etməyə görə ingilis burjua inqilabı zamanı (1649-cu il) xüsusi tribunalın hökmü ilə edam edilmişdir. Tacını itirmiş monarx kral II Yakovdur; o, 1688-ci ilin "Şanlı inqilabı"

adlanan dövlət çevrilişi nəticəsində Fransaya qaçmışdı. Bir çox cəhətdən Blefusku padşahına bənzəyən Fransa kralı XIV Lüdovik (1643-1715) İngiltərəyə qarşı müharibəyə hazırlaşarkən həqiqətən İngiltərənin siyasi mühacirlərinə, xüsusən, yakobinlərə himayəçilik etmişdi; çünki o, II Yakovu İngiltərənin qanuni kralı hesab edirdi.

Səh. 53. "*...etiqad sahibinin öz şəxsi işidir*". – Bu sözlərlə Sviftin dini münaqişələrə öz münasibəti ifadə edilmişdir.

BEŞİNCİ FƏSİL

Səh. 57. "*...o, bütün kainatın yeganə hökmdarı olacaqdı*". – İspaniya irsi uğrunda müharibədə İngiltərənin baş komandanı hersoq Malboro (Çörçill) Fransada bir sıra qəti qələbələr qazanmışdı; tarixçilərin fikrincə, təzyiq davam etdirilsəydi, bu qələbələr Fransanın tamamilə itaət altına alınmasına səbəb olardı. Lakin uzun sürən müharibənin törətdiyi sıxıntılar o qədər dözülməz idi və xalq kütlələrinin hiddət və qəzəbi o dərəcəyə çatmışdı ki, müharibənin davam etdirilməsinə tərəfdar olan viqlər nazirliyi 1710-cu ildə istefa verməyə məcbur oldu. Lord Bolinbrokun başçılıq etdiyi torilərin yeni nazirliyi Malboronu Fransadan geri çağırdı və tez sülh müqaviləsi bağladı. Qulliver burada və sonra da bir çox cəhətdən Bolinbroka bənzəyir.

Səh. 58. "*İmperatorun hüzurunda mənim vicdanım tərtəmiz idi*". – Burada Bolinbrokun Fransa hökumətilə gizli danışıq aparmaqda Uolpol tərəfindən ittiham edilməsinə işarə edilir; o zaman İngiltərə hələ Fransa ilə müharibə vəziyyətində idi. Bolinbrok təqibdən canını qurtarmaq üçün Fransaya qaçmış və bir çox illər qürbətdə yaşamağa məcbur olmuşdu.

ALTINCI FƏSİL

Səh. 61. "*...o, cəzalandırmaqdan artıq mükafatlandırmağa hazırdır*". – İngiltərənin bir çox məhkəmə müəssisələrində yunanların ədalət ilahəsi olan Femidanın şəkilləri vardır. Adətən Femidanı

gözləri bağlı, bir əlində yalın qılınc, o biri əlində isə ədalət tərəzisi tutmuş şəkildə təsvir edirlər. Liliputların sayıq və gözüaçıq ədalət timsalı, istehza təriqilə, gözübağlı Femidaya qarşı qoyulur.

YEDDİNCİ FƏSİL

Səh. 68. "*...şuranın xüsusi komissiyalarının bir çox, tamamilə gizlin iclasları...*" – Burada 1715-ci il aprelin 15-də Uolpolun sədrliyilə yaradılan məxfi komitə nəzərdə tutulur; bu komitə "sülhün (Utrext sülhünün) bağlanmasına aid məsələləri və kraliçanın keçmiş nazirliyinin fəaliyyətini təhqiq etmək üçün" təşkil edilmişdi. Həmin komitə dövlətə xəyanət etməkdə nazir Bolinbroka və nazir Oksford qrafına qarşı irəli sürülən ittihamı təsdiq etmişdir.

Səh. 70. "*Orada əhəmiyyəti nisbətən az olan bir çox başqa şeylər də var idi*". – "İttihamnamə"də hüquq sənədlərinin tərtib edilməsi üslubuna, habelə Bolinbroku xəyanətdə təqsirləndirən ittihamın, Sviftin fikrincə, əsassız olmasına istehza edilir.

Səh. 73. "*...cəza da bir o qədər vəhşicəsinə, buna düçar olan qurban isə bir o qədər günahsız olur*". – Yıxılan Stüartlar sülaləsinin tərəfdarları 1715-ci ildə taxt-tac iddiasında olan III Yakovun xeyrinə üsyan qaldırmışdılar. Üsyan yatırıldıqdan və onun ardınca bir çox adamlar edam edildikdən sonra hökumət, kralın mərhəmətli olmasını xüsusi intibahnamədə elan etmişdi.

Səh. 74. "*...burada əhali məni çoxdan gözləyirdi*". – Burada yenə Bolinbroka və onun Fransaya qaçmasının (1715-ci ildə) qabaqcadan hazırlanmış olmasına işarə edilir; Qulliver kimi Bolinbrok da Fransaya qaçmasını sonralar eyni səbəblərlə doğrultmağa çalışmışdı, onun İngiltərədə qalması, edamı könüllü olaraq gözləməyə bərabər idi.

SƏKKİZİNCİ FƏSİL

Səh. 77. "*...belə dözülməz bir yükdən qurtarmış olacaqdır*". – Fransada siyasi intriqalar və Bolinbrokun fəaliyyəti yalnız İngiltərə

nazirliyini narahat etmirdi. XIV Lüdoviki və onun sarayını da çox narahat edirdi. Çünki hər iki hökumət arasındakı münasibətdə artıq gərginliyə bais olurdu.

Səh. 80. "*...son dərəcə zərif yunları ilə...*" – İngiltərənin yun sənayesini hər vasitə ilə himayə altına alan və İrlandiya yununun daşınmasına mane olan İngiltərə qanununa istehza ilə işarə olunur; bu qanun əslində İrlandiyada yun istehsalını ləğv etmiş ölkənin iqtisadiyyatı və əhalinin rifahını bərbad etmişdi. Svift özünün bir sıra əsərlərində bu siyasətə etiraz edir.

İKİNCİ HİSSƏ

BİRİNCİ FƏSİL

Səh. 84. "*...yelkənləri açıq saxlamağa çalışırdıq*". – Svift fırtınanı bu şəkildə təsvir etməklə, zəmanəsinin dəniz səyahəti kitablarında və macəra romanlarında xüsusi dəniz istilahlarından suiistifadə edilməsinə istehza edir.

Səh. 86. "*...hər addımı isə, mənim təxminimə görə, on yard olardı*". – Nəhənglər ölkəsilə tanış olmağa başlarkən nəhənglərin boyunun hündürlüyü və ətraflarındakı şeylərin böyüklüyü haqqında nəticə çıxarmaq olur; burada yerlilərin hər birinin bir addımı 10 yarda bərabərdir (doqquz metrdən artıqdır). Qulliver, liliputlardan nə qədər böyükdürsə, nəhənglər də Qulliverdən bir o qədər, yəni 12 dəfə böyükdür. Nəhənglərin və Qulliverin Brobdinqneqdə olduğu zaman təsadüf etdiyi bütün şeyləri təsvir edərkən, bu nisbət gözlənir.

ÜÇÜNCÜ FƏSİL

Səh. 101. "*...bəşəriyyət zəkasının böyük tərəqqisi bununla izah edilir*". – Svift bununla da öz zəmanəsinin alimlərinə istehza edir;

onlar təbiətin lazımınca tədqiq edilməmiş hadisələrini öyrənmək əvəzinə, çox zaman səmərəsiz, məzmunsuz, qaranlıq mühakimələrə uyurdular.

DÖRDÜNCÜ FƏSİL

Səh. 107. "*...Yaponiya ilə Kaliforniya arasında başdan-başa okean olduğunu güman edərkən, çox böyük səhv edirlər*". – Yaponiyanın Amerikaya qurudan bitişik olması və ya Amerika ilə Yaponiyanı bir-birindən su sahəsinin ayırması barəsində XVIII əsrin coğrafiyaşünasları arasında fikir ayrılığı var idi.

Səh. 110. "*...Solsberi kilsəsinin zəng qülləsindən xeyli alçaqdır*". – Solsberidəki kilsənin zəng qülləsi yüz iyirmi iki metr hündürlüyündədir. Nəhənglər ölkəsində qüllənin də yerli əhaliyə böyük təsir bağışlaya bilməsi üçün, qüllənin yüksəkliyi 1464 metrə (122x12) çatmalıdır.

Səh. 110. "*...Pavel kilsəsinin günbəzindən...*" – Londondakı müqəddəs Pavel kilsəsinin günbəzinin diametri otuz metrdən artıqdır.

ALTINCI FƏSİL

Səh. 120. *Demosfen* və ya *Siseron* – IV əsrdə yaşamış qədim yunan natiqidir. *Siseron* – qədim Romanın dövlət xadimi və natiqidir. I əsrdə yaşamışdır.

Səh. 120. "*Şərəfli perlər palatasına...*" – İngiltərə parlamenti iki palatadan, yəni yuxarı və aşağı palatalardan ibarət olan ali qanunverici müəssisədir. Yuxarı palata per və ya lord ləqəbi daşıyan yüksək əyan nümayəndələrindən irsi olaraq təşkil edilir və buna görə də bu palata perlər və ya lordlar palatası da adlanır. Aşağı palata (və ya nümayəndələr palatası seçilən nümayəndələrdən təşkil edilir.

Səh. 123. "*...namünasib və naqabil hesab edirəm*". – Nəhənglər kralının qeydlərində İngiltərənin ictimai quruluşunun nöqsanları nəzərə çatdırılır. Svift, bu nöqsanları özünün siyasi həcvlərində də amansızcasına tənqid etmişdir.

ÜÇÜNCÜ HİSSƏ

BİRİNCİ FƏSİL

Səh. 144. "*...dənizə atacaqdır*". – Şərqdə hollandiyalıların ingilislərə bəslədikləri ədavət dənizlərdə və müstəmləkələrdə İngiltərə ilə Hollandiya arasındakı rəqabətlə izah edilir; bunu həmin dövrün səyyahları da çox zaman nağıl edirlər.

İKİNCİ FƏSİL

Səh. 150. "*...düşüncəli oxucuların mühakiməsinə buraxıram*". – Svift bununla ayrı-ayrı sözlərin mənşəyi haqqında o dövrün məşhur alimlərinin uydurmalarına istehza edir.

Səh. 153. "*...Günəşdən işıq alan bütün planetlərin labüd məhvinə səbəb olacaqdır*". – Dünyanın sonunun (axirətin) yaxınlaşması haqqındakı nəzəriyyələr o dövrdə çox yayılmışdı.

ÜÇÜNCÜ FƏSİL

Səh. 156. "*...indiki geridə qalmış nəzəriyyənin mükəmməlləşməsinə kömək etmiş olardı*". – Kometaların (quyruqlu ulduzların) əmələ gəlməsinə, onların fəzada hərəkətinə, Yerə, Günəşə yaxınlaşmalarına və sair bu kimi məsələlərə dair müxtəlif nəzəriyyələr Sviftin zamanında alimlər arasında böyük mübahisələrə səbəb olurdu. London Kral Cəmiyyəti (Elmlər Akademiyası) bu məsələlərlə çox məşğul olurdu; Svift romanın üçüncü hissəsinin müxtəlif fəsillərində buna dəfələrlə işarə edir.

DÖRDÜNCÜ FƏSİL

Səh. 163. "*...cır-cındır içində gəzir*". – Bu fəsildə 1719, 1720 və 1721-ci illərdəki qızğın fırıldaqçılığa istehza edilir. O zaman

İngiltərədə bir çox auksioner şirkətləri və ticarət cəmiyyətləri meydana gəlirdi; onları təşkil edən mahir hiyləgər fırıldaqçılar tezliklə varlanmaq barədə ən uydurma planlarla sadədil camaatı tovlayırdılar. "Sabun köpüyü" adı ilə məşhur olan bu şirkətlər necə meydana gəlmişdilərsə, eləcə də gözlənilmədən dağılır və çox zaman bunun nəticəsində həmin şirkətlərin payçıları tamamilə varyoxdan çıxırdılar. Svift "İngilis sabun köpükləri haqqında təcrübə" satirasını da bu mövzuda yazmışdır.

BEŞİNCİ FƏSİL

Səh. 166. "*...daha qalın və möhkəm olsun*". – 1910-cu ildə Bon adlı bir zirək fransız nəşr etdirdiyi kitabçada hörümçək torundan corab və əlcək hazırlamaq üsulunu təklif edirdi. Heç bir nəticə verməyən belə təcrübələr sonralar da edilmişdi.

Səh. 167. "*...sulu hissələrini süzürdü*". – Sviftin vaxtında havanın tərkibi məlum deyildi.

ALTINCI FƏSİL

Səh. 170. "*Bu dəlilərin başlarında...*" – Asanlıqla başa düşmək olar ki, burada Sviftin özünün müsbət görüşləri istehza ilə pərdələnmişdir (Bu xüsusda söz ardına bax!)

Səh. 171. "*...xüsusən sağ qolun əzələlərinin şiddətli ağrılarla qıc olub əsməsi...*" – Burada rüşvətxorluğa işarə edilir.

Səh. 173. "*...Lanqden...*" – Tribnia və Lanqden – anoqrammalardır (hərflərin yerlərinin dəyişdirilməsi). Burada Tribnia – Britaniya və Enqland – İngiltərə) nəzərdə tutulur.

YEDDİNCİ FƏSİL

Səh. 175. *Nekromantiya* (yunan sözüdür) – gələcək haqqında xəbər tutmaq üçün ölülərin kölgəsinin çağırılması. Qədim dünyada və orta əsrlərdə bu mövhumat çox yayılmışdı.

Səh. 176. *Böyük İskəndər* – Makedoniya hökmdarı (e.ə. IV əsr), qədim dövrün görkəmli sərkərdəsi və dövlət xadimidir. O, Arbela yaxınlığında baş verən vuruşmalarda (eramızdan əvvəl 331-ci il) İran üzərində qəti qələbə çalmışdı.

Səh. 177. *Hannibal* – Karfagen sərkərdəsidir (e.ə. III-II əsr). Romalılarla müharibə etmişdir. Əfsanəyə görə Hannibal Alp dağlarından keçən zaman ordusunun yolunu böyük bir qaya kəsmişdi; Hannibal əmr etmişdi ki, qayanı yumşaltmaq üçün tonqallar qalayıb onu qızdırsınlar və sonra üstünə sirkə töksünlər. Yalnız bundan sonra qayanı oymaq mümkün olubmuş.

Səh. 177. *Qay Yuli Sezar* – (e.ə. I əsr) – təkbaşına diktatorluq hakimiyyəti qurmuş qədim Roma sərkərdəsi və siyasi xadimi. Qney *Pompey* – Sezarla rəqabət edən Roma sərkərdəsi idi.

Səh. 177. *Kay Yuni Brut* – Roma senatının üzvü, Sezarın qatili olmuşdur.

Səh. 177. *Mark Yuni Brut* – Kay Yuni Brutun atasıdır. *Sokrat* – böyük yunan filosofudur (e.ə. V əsr). *Epaminond* – yunan (fivan) sərkərdəsidir (e.ə. V-IV əsr). *Kiçik Katon* – Roma dövlət xadimidir. Sezarın ağalığına qarşı mübarizə etmiş olan aristokratiya respublikaçılar partiyasına başçılıq etmişdir. *Tomas Mor* (1480-1535) – məşhur ingilis filosofu və dövlət xadimidir. O, "Utopiya" adlı kitab yazmış, burada gələcəyin ideal dövləti haqqında öz fikirlərini ifadə etmişdir.

Səh. 177. "*...sekstumviratdır...*" – altılar ittifaqı.

SƏKKİZİNCİ FƏSİL

Səh. 178. *Homer* – əfsanəvi, qədim yunan şairidir; yunanların "İliada" və "Odisseya" adlı qəhrəmanlıq poemalarını (e.ə. IX-VIII əsr) ona isnad edirlər. *Aristotel* – böyük yunan filosofu və alimidir (e.ə. IV əsr).

Səh. 178. *Duns Skot* və *Pyotr Ramus* – orta əsr filosoflarıdır. Aristotelin əsərlərinə şərhlər yazmışlar.

Səh. 178. *Rene Dekart* və *Per Qassendi* – XVII əsrin məşhur fransız filosoflarıdır.

Səh. 178. *Epikür* – böyük yunan filosofudur (e.ə. IV-III əsr).

Səh. 179. *Qelioqabala* – Roma imperatorudur (e.ə. III əsr).

Səh. 181. "*...sarayda öyrədilə bilən bütün pis sifətləri qazanmışdılar*". – Sviftin vaxtında seçicilərin rəyini pul ilə satın almaq geniş yayılmışdı ki, bu da Sviftin satiraları üçün dəfələrlə mövzu olmuşdur.

DOQQUZUNCU FƏSİL

Səh. 182. "*...yalnız hollandiyalıları buraxırlar*". – 1637-ci ildə xristianların üsyanı yatırıldıqdan sonra hollandiyalılardan başqa avropalıların heç biri Yaponiyaya buraxılmırdı.

Səh. 183. "...öz *taxtının ayağı altındakı tozu yalamaq...*". – Svift bu epizodla kralın və onun istədiyi adamların qarşısında yaltaqlıq, işinə yaramaq və səcdə etmək hallarına istehza edir; belə hallar I Georqun və başqa Avropa hökmdarlarının saraylarında çox yayılmışdı.

ONUNCU FƏSİL

Səh. 188. *...perpetuum mobile* – əbədi hərəkət. Hərəkət üçün hər hansı bir kənar mənbədən qüvvə almadan, daim və dayanmadan iş görə bilən əbədi mühərrik – maşın düzəltmək üçün çox illər boyunca çalışmışlar, lakin bu işdən heç bir şey çıxmamışdı.

Bunun kimi də bütün xəstəlikləri müalicə edə bilən universal dərman və ya panatsei axtarmaq cəhdləri də boş bir xəyal olub, baş tutmamışdı.

ON BİRİNCİ FƏSİL

Səh. 193. "*...xaçı tapdalamaq mərasimindən azad etsin...*" – Səyyahlar nəql edirlər ki, XVII və XVIII əsrlərdə Yaponiyada xristian olduqlarına şübhə edilən adamları xaçı tapdalamağa məcbur edirdilər. Xristian olmadığını bu yol ilə sübut etməkdən boyun qaçıranlara işgəncə verir və onları edam edirdilər. Yaponiyada xristianların təqib edilməsi 1873-cü ilədək davam etmişdir.

DÖRDÜNCÜ HİSSƏ

BEŞİNCİ FƏSİL

Səh. 218. "*...milyonlarla insan həyatının tələfinə səbəb olmuşdur*". – Burada bəzi dini ayin və əsrarlı mərasimlərdən bəhs edilir; bunların ətrafında başlanan mübahisə, dini təfriqənin bünövrəsini qoymuş və katoliklərlə protestantlar arasında qanlı dini müharibələrin əmələ gəlməsinin zahiri səbəbi olmuşdur.

Səh. 219. "*...həmin mədaxil hesabına yaşayırlar*". – Gəlir əldə etməyin burada təsvir edilən üsulu XVIII əsrdə xırda dövlətlərə parçalanmış olan Almaniyada xüsusilə geniş yayılmışdı. İngilis kralı I Georq da Hannover mülklərini qorumaq üçün muzdlu alman qoşunlarının köməyindən istifadə etmişdi. Xarici ordulara əsgər satmaq XVIII əsrin başqa tərəqqipərvər yazıçılarının əsərlərində də, məsələn, F.Şillerin "Məkr və məhəbbət" dramasında eybəcər bir cinayət kimi damğalanmışdır.

Səh. 222. "*...qanunu ciddi surətdə rəhbər tuturlar*". – Svift, məhkəmə süründürməçiliyinin bu mahir təsvirində ingilis məhkəmə orqanlarının işindəki nöqsanları amansızcasına tənqid edir. Romanın ikinci hissəsində də bu nöqsanlara çox yer verilmişdir.

ALTINCI FƏSİL

Səh. 225. "*...öz nazirlərinin əlindən qurtarmaq istəyən padşah üçün çox faydalı olurlar*". – Sviftin həkimlərə istehza etməsinin səbəbi o vaxtın tibb elminin aşağı səviyyədə olması ilə izah edilir. Bir çox fırıldaqçı və dələduzların həkim donuna girmələri də bu elmi nüfuzdan salmışdı.

DOQQUZUNCU FƏSİL

Səh. 235. "*...bu vaxta qədər bu məlum deyildir*". – Yer üzündə həyatın öz-özündən törəməsi haqqında XVIII əsrdə geniş yayılan fərziyyələr nəzərdə tutulur.

ON İKİNCİ FƏSİL

Səh. 252. "*...ən qaba uydurmalar təqdim edirlər*". – XVIII əsrdə İngiltərədə, doğrudan da, bir çox səyahətnamələr çap edilirdi: onların müəllifləri camaatın diqqətini cəlb etmək üçün öz kitablarında uzaq və tanınan ölkələr haqqında doğru məlumat verməklə yanaşı, əsərlərini olmazın rəvayət və uydurmalarla doldururdular. Görünür, Svift, ilk növbədə, öz ədəbi düşməni olan Daniel Defonu nəzərdə tutur ki, onun da romanlarında, hətta geniş şöhrət qazanmış "Robinzon Kruzonun macəraları" əsərində də bir çox faktik səhvlərə və yanlışlıqlara rast gəlmək olur.

Səh. 252. *Ferdinand Kortes (1485-1547)* – Meksikanı İspaniya torpaqlarına bitişdirən ispaniyalı fateh (konkistador).

MÜNDƏRİCAT

Conatan Svift və onun "Qulliverin səyahəti" romanı (Kim Kimov) 5

QULLİVERİN SƏYAHƏTİ

Naşirdən oxucuya 24

Kapitan Qulliverin,
qohumu Riçard Simpsona məktubu 27

Birinci hissə

Liliputstana səyahət

I fəsil 33
II fəsil 42
III fəsil 51
IV fəsil 58
V fəsil 62
VI fəsil 67
VII fəsil 75
VIII fəsil 83

İkinci hissə

Brobdinqneqə səyahət

I fəsil 91
II fəsil 101
III fəsil 106
IV fəsil 115
V fəsil 119
VI fəsil 126
VII fəsil 133
VIII fəsil 139

Üçüncü hissə

Laputaya, Balnibarbiyə, Laqqneqqə, Qlabbdobdribə və Yaponiyaya səyahət

I fəsil 151
II fəsil 156
III fəsil 162
IV fəsil 167
V fəsil 173
VI fəsil 178
VII fəsil 182
VIII fəsil 186
IX fəsil 189
X fəsil 193
XI fəsil 200

Dördüncü hissə

Quiqnqnmlar ölkəsinə səyahət

I fəsil 205
II fəsil 211
III fəsil 216
IV fəsil 221
V fəsil 225
VI fəsil 230
VII fəsil 235
VIII fəsil 239
IX fəsil 242
X fəsil 247
XI fəsil 252
XII fəsil 259

İzahlar 265

DÜNYA ƏDƏBİYYATI
KLASSİKLƏRİ

Conatan
SVİFT

QULLİVERİN SƏYAHƏTİ

Çapa imzalanmışdır 31.08.2009. Format 60×90 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 17,5. Tiraj 1000.

"Şərq-Qərb" ASC-də çap olunmuşdur
Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+994 12) 474-75-62
Faks: (+994 12) 470-18-49
e-mail: sharq.qarb@gmail.com

Conatan Svift

Böyük ingilis yazıçısı Conatan Svift (1667-1745) ömrünün böyük hissəsini yaradıcılığa həsr etsə də, ədəbiyyatda bir əsərlə yaşamaq haqqı qazanan sənətkarlardandır.

Gənclik çağında poetik janrlarda gücünü sınamış Svift daha çox pamfletləri ilə şöhrət qazanmışdı.

C.Svift yaradıcılığının zirvəsi olan "Qulliverin səyahəti" (1726) romanı üç yüz ilə yaxındır ki, realist parodiyanın ən möhtəşəm əsərlərindən sayılır. Bu əsər dünyanın əksər dillərinə tərcümə olunub.

O, vətənpərvər yazıçı idi, ömrünün sonunadək irland xalqının pozulmuş hüquqlarının bərpası uğrunda mübarizə aparmışdı.

C.Svift insanları azad və xoşbəxt görmək istəyirdi. Utopik görüşlərinə görə onu "gələcəyə baxan yazıçı" adlandırırdılar.

DÜNYA ƏDƏBİYYATI KLASSİKLƏRİ